


**“Həm ənənələr, tariximiz, mədəniyyətimiz, dinimiz bizim üçün müqəddəsdir, eyni zamanda, biz dünyaya açığıq, müasirik, bütün ölkələrlə yaxşı münasibətlər qurmağa çalışırıq.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

*Elmi-praktiki jurnal*

*Aprel - İyun (2017-ci il)*

**REDAKSİYA HEYƏTİ**

**Baş redakor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbairamov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel. / Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövrilikdə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 1 iyun 2010-cuil tarixli, 10/53 nömrəli "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiqedilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan "Azərbaycan Prokurorluğu" jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 20.07.2017
60x84 1/8 formatda 150 səhifə həcmdə çap olunmuşdur.
Tiraj: 770 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2017

# MÜNDƏRİCAT

## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR


**4** Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**13** Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

**15** Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə aksiyasında iştirak edib

**18** Prezident İlham Əliyev ümummilli liderin anadan olmasının 94-cü ildönümünə və Heydər Əliyev Fondunun fəaliyyətinin 13 illiyinə həsr olunan təntənəli mərasimdə iştirak edib

**24** IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi Prezidentinin Sərəncamı

**25** Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunda IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimində iştirak edib

**36** Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunda IV İslam Həmrəyliyi Oyunlarının təntənəli bağlanış mərasimində iştirak edib

**43** Prezident İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarının qalib idmançıları, onların məşqçiləri və idman ictimaiyyətinin nümayəndələri ilə keçirilən görüşdə iştirak edib

**46** Prezident İlham Əliyev 9 May - Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib

**49** Prezident İlham Əliyev 28 May – Respublika Günü münasibətilə rəsmi qəbulda iştirak edib

**54** Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib

**59** Prezident İlham Əliyev Formula-1 Azərbaycan Qran-Prisinin açılış mərasiminə və final yarışına baxıb

**62** Prezident İlham Əliyev Bolqarıstanın Baş prokurorunu qəbul edib


## RƏSMİ TƏDBİRLƏR


**63** Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü Baş Prokurorluqda qeyd edilib

**66** Prokurorluq işçiləri növbəti ağacəkmə kampaniyası keçiriblər

**67** Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü Naxçıvan Muxtar Respublikası Prokurorluğunda qeyd edilib

**69** Bakıda ECO-ya üzv dövlətlərin prokurorluq, ixtisaslaşdirilmiş korrupsiyaya qarşı mübarizə qurumları rəhbərləri və ombudsmanlarının 3-cü iclası işə başlayıb

**73** Baş prokuror Zakir Qaralov Özbəkistan Respublikasının Ombudsmanı və Baş prokurorunun müavinini qəbul edib

**74** Baş prokuror Zakir Qaralov İran İslam Respublikasının Baş Təftiş Təşkilatının sədri ilə görüşüb

**75** Baş prokuror Zakir Qaralov İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Baş katibinin müavini ilə görüşüb

**76** Baş prokuror Zakir Qaralov Türkiyə Respublikası Baş prokurorunun müavini ilə görüşüb

**77** Baş prokuror Zakir Qaralov Pakistan İslam Respublikasının Milli Hesabatlılıq Bürosunun rəisi ilə görüşüb

**78** ECO-ya üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatları rəhbərlərinin 3-cü iclası başa çatıb

**79** Baş prokuror Zakir Qaralov Beynəlxalq Prokurorlar Assosiasiyasının Baş katibini qəbul edib

**83** Baş prokuror Zakir Qaralov Bolqarıstan Respublikası Baş prokurorunun müavinlərini qəbul edib

**85** Baş prokuror Zakir Qaralov Bolqarıstan Respublikasının Baş prokurorunu qəbul edib

**87** Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir


## TƏHLİLLƏR, TƏKLİFLƏR


**90** Cahangir Nəsirov – Milli cinayət-prosessual qanun norması xarici ölkənin dövlət orqanları üçün prosessual vəzifələr təsbit etmir


## BİZDƏN SORUŞURLAR


**92** Nazir Bayramov - Konstitusiya Məhkəməsi ilə Avropa Məhkəməsinin hüquqi mövqeləri arasında məntiqi ziddiyyət yoxdur


## İCTİMAİYYƏTƏ HESABAT


**97** Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsi elektron test üsulu ilə yoxlanılıb

**101** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluğun stajorları üçün hazırlıq kursları təşkil edilib

**102** Bolqarıstan prokurorluğunun nümayəndə heyəti Baş Prokurorluğun Elm-Tədris Mərkəzində olub

**103** Bolqarıstan prokurorluğunun nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olub

**103** Baş Prokurorluqda Avropa Komissiyası ilə birgə tədbir keçirilib

**104** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində internet şəbəkəsi üzərindən canlı mühazirə oxunub

**105** «Cinayət prosesində hüquqi şəxslərin iştirakının xüsusiyyətləri» mövzusunda seminar keçirilib

**105** Baş Prokurorluğun Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki konfransı keçirilib

**106** Tələbələr Naxçıvan Muxtar Respublikası prokurorluq orqanlarının fəaliyyəti ilə tanış olublar

**107** Culfa rayon prokurorluğunda "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti" mövzusunda seminar keçirilib


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**108** Baş Prokurorluğun nümayəndəsi Cənubi Koreya Respublikasında səfərdə olub

**109** Baş Prokurorluğun nümayəndə heyəti Bolqarıstan Respublikasında səfərdə olub

**110** Baş Prokurorluğun nümayəndə heyəti Fransada səfərdə olub

**111** Baş Prokurorluğun nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdə olub

**111** Baş Prokurorluğun nümayəndə heyəti Niderland Krallığında səfərdə olub

**112** Baş Prokurorluğun nümayəndə heyəti Gürcüstanda səfərdə olub

**112** Baş Prokurorluğun nümayəndə heyəti Vyanada səfərdə olub

**113** Azərbaycan Respublikasının nümayəndə heyəti Ukraynada səfərdə olub


## HÜQUQİ AKTLAR


**114** Qanunvericiliyə dəyişikliklər

**141** Prokurorluq üzrə hüquqi aktlar

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib**

Aprelin 11-də Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.

## Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi



– Bu gün biz birinci rübün yekunlarını müzakirə edəcək, növbəti aylarda görüləcək işlər haqqında danışacağıq.

Birinci rübdə ölkəmiz uğurla inkişaf edib, bizim bütün proqnozlarımız həyatda öz əksini tapır. Hələ keçən ilin sonlarında mən tam əminliklə qeyd etmişdim ki, 2017-ci ildə ölkəmizin sürətli inkişafı təmin ediləcəkdir. Birinci rübün nəticələri göstərir ki, Azərbaycan bütün sahələrdə çox sürətlə inkişaf edib, bizim beynəlxalq mövqelərimiz möhkəmlənib, ölkə daxilində proseslər müsbət istiqamətdə gedir, iqtisadi inkişaf təmin edilir, bütün sosial məsələlər öz həllini tapır. Çox ciddi sosial təşəbbüslər irəli sürülmüşdür, ordu quruculuğu uğurla gedir və əminəm ki, biz bu il istədiyimiz nəticələrə, bütün hədəflərə çatacağıq və 2017-ci il də ölkəmiz üçün uğurlu il olacaqdır.

Əfsuslar olsun ki, dünyada və regionda mövcud beynəlxalq vəziyyət hələ ki, çox gərgindir. Mövcud olan münaqişələr, qanlı toqquşmalar davam edir. Yeni risklər yaranır, yeni təhdidlər ortaya çıxır və bütövlükdə, əfsuslar olsun ki, 2017-ci ildə bölgədə sabitlik istiqamətində ciddi addımlar atılmamışdır. Əksinə,

bir daha qeyd etmək istəyirəm ki, risklər artır. Əlbəttə, biz bu bölgədə yaşayan bir ölkə kimi bundan narahatıq və öz tədbirlərimizi görürük ki, Azərbaycan dövləti və Azərbaycan xalqı inkişaf etsin, normal yaşasın, ölkəmizdə təhlükəsizlik təmin edilsin və özümüzü potensial risklərdən qoruya bilək.

İlin əvvəlindən beynəlxalq fəaliyyətimiz də çox uğurlu olmuşdur. Mən birinci rübdə 7 xarici səfər etmişəm. Bu səfərlərin çox böyük əhəmiyyəti var. İlk növbədə, beynəlxalq konfranslarda mənim iştirakım ölkəmizin maraqlarının təmin edilməsi üçün çox böyük əhəmiyyət daşıyır. Bilirsiniz ki, dünyanın iki mötəbər beynəlxalq tədbiri var – biri Davos Ümumdünya İqtisadi Forumu, hansı ki, siyasi və iqtisadi məsələləri diqqətdə saxlayır və dünyanın siyasi və iqtisadi elitası orada iştirak edir. İkincisi isə Münxen Təhlükəsizlik Konfransıdır, bu da daha çox təhlükəsizlik və siyasi məsələlərin müzakirəsinə həsr olunur. Hər iki mötəbər tədbirdə iştirak edərkən mən ölkəmizin mövqeyini, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın işğalçı siyasəti ilə bağlı mövqeyini dünya ictimaiyyətinə bir daha çatdırdım. Eyni zamanda, Davos İqtisadi Forumunda dövlət başçıları, aparıcı beynəlxalq şirkətlərin rəhbərləri ilə çoxsaylı görüşlərim, əlbəttə ki, bizim maraqlarımızı təmin edir. Mən 10 ildən çoxdur ki, Davos Ümumdünya İqtisadi Forumunda iştirak edirəm və o görüşlər əsnasında ölkəmiz üçün bir çox önəmli layihə həyata keçirilir. Əlbəttə, bizim bu tədbirlərdə iştirakımız, fəal rolumuz ölkəmizə rəğbəti, hörməti artırır və bu gün Azərbaycan beynəlxalq arenada çox etibarlı tərəfdaş kimi tanınır.

Birinci rübdə Avropa Komissiyasına mənim uğurlu səfərim olub. Biz buna da çox böyük əhəmiyyət veririk. Çünki Avropa ölkələri bizim əsas ticarət tərəfdaşlarımızdır, əsas investorlarımızdır və biz Avropa İttifaqı ilə uzun illərdir ki, səmərəli əməkdaşlıq aparırıq. Bu dəfə də Avropa qurumlarının rəhbərləri ilə bütün görüşlər çox səmimi, qarşılıqlı anlaşma şəraitində keçmişdir, bütün danışıqlar və söhbətlər qarşılıqlı hörmət əsasında aparılmışdır. Həm Avropa Komissiyasının rəhbərləri, həm mən bunu rəsmi çıxışlarda da qeyd etmişdik. Eyni zamanda, biz səfərdən dərhal sonra Avropa Komissiyası ilə yeni saziş üzərində danışıqlara başlamışıq və əminəm ki, bu danışıqlar tezliklə yaxşı nəticələrə gətirib çıxaracaqdır.

Mənim rəsmi səfərlərim də olub. Pakistan İslam Respublikasına çox uğurlu səfərim olubdur. Pakistan bizim üçün çox yaxın, dost, qardaş ölkədir. Bilirsiniz ki, Dağlıq Qarabağ münaqişəsinə görə Pakistan Ermənistanla heç bir əlaqə qurmayıb, diplomatik əlaqələri yoxdur. Biz bu mövqeyi çox yüksək qiymətləndiririk. İkitərəfli əlaqələrimizin gündəliyi genişlənir, həm iqtisadi, siyasi, eyni zamanda, hərbi-texniki əməkdaşlıq da müzakirə mövzusudur və yaxşı nəticələr də var. Biz son 5 il ərzində İqtisadi Əməkdaşlıq Təşkilatına uğurlu sədrlik etmişik və Pakistanda bu təşkilatın zirvə görüşündə də bizim sədrliyimiz dövründə gördüyümüz işlərə yüksək qiymət verilmişdir.

Qətər Dövlətinə mənim uğurlu səfərim olubdur. Biz Körfəz ölkələri ilə çox yaxın əlaqələr qurmuşuq. Qətər bizim üçün çox yaxın, dost ölkədir. Qətərin Əmiri Azərbaycana səfər etmişdir, mən də cavab səfərim çərçivəsində çox uğurlu danışıqlar aparmışam, siyasi və iqtisadi, sərmayə qoyuluşu, birgə iqtisadi fəaliyyət sahələrində gələcək əməkdaşlıq çox geniş müzakirə edilmişdir.

İran İslam Respublikasına uğurlu səfərim də artıq ənənəvi xarakter daşıyır. Mən son bir neçə il ərzində İrana 3 dəfə rəsmi səfər etmişəm. İran Prezidenti də Azərbaycana müntəzəm olaraq rəsmi səfərlər edir. Mən son 3 il ərzində İran Prezidenti ilə 8 dəfə görüşmüşəm. İran bizim üçün dost, qardaş ölkədir, yaxın qonşudur. İranla əlaqələrimizin möhkəmləndirilməsi həm ölkəmizin maraqlarına xidmət edir, eyni zamanda, bölgə üçün də çox önəmlidir. Bu, bölgədə sabitliyi möhkəmləndirir və ikitərəfli formatda çox önəmli məsələlər müzakirə edildi. Yenə də bir çox sazişlər imzalandı və əvvəlki illərdə imzalanan sazişlər artıq həyatda öz əksini tapır. Əldə olunmuş bütün razılaşmalar icra edilir və həm ticarət dövriyyəsinin artırılmasında, – İranla bizim ticarət dövriyyəmiz təqribən 70 faiz səviyyəsində artmışdır, – eyni zamanda, nəqliyyat, energetika, logistika və digər sahələrdə çox uğurlu əməkdaşlıq aparılır.

Yeddinci səfərim Fransaya rəsmi səfərim olmuşdur. Bu səfərin də çox böyük mənası var. Fransa dünyanın aparıcı ölkələrindən biridir, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür, Minsk qrupunun həmsədridir. Bu səfər də çox uğurlu keçdi, Fransa-Azərbaycan dostluq əlaqələri bir daha təsdiqləndi. Mənə Fransada çox böyük hörmət göstərildi. Siyasi, iqtisadi, humanitar məsələlərin müzakirəsi göstərdi ki, Fransa-Azərbaycan əlaqələrinin artıq çox möhkəm dayaqları var. Bu ölkədə Azərbaycana çox böyük maraq var, orada Fransanın aparıcı biznes qurumları ilə keçirdiyim görüş, – bu görüş təqribən iki saata yaxın çəkdi, –göstərdi ki, doğrudan da, həm çox böyük maraq var, həm də bizim gördüyümüz işlərə çox yüksək qiymət verilir və Fransa şirkətləri Azərbaycanda böyük həvəslə fəaliyyət göstərirlər.

Bax, sadaladığım ancaq bu yeddi səfər göstərir ki, bizim diplomatiyamız çox uğurludur, beynəlxalq mövqelərimiz möhkəmlənir və Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan ölkədir. Hətta bir-biri ilə o qədər də yaxşı münasibətlər qurmayan ölkələr Azərbaycanla əməkdaşlığa gəldikdə, tərəddüdsüz və birmənalı şəkildə bu əməkdaşlığın dərinləşməsinə maraq göstərirlər və maraqlıdırlar. Biz isə bütün ölkələrlə, xüsusilə bölgədə yerləşən ölkələrlə əlaqələrimizi daha da genişləndiririk. Bu, həm siyasi, həm iqtisadi maraqlarımızı təmin edir, həm də bölgədə əməkdaşlıq ruhunu gücləndirir və sabitliyi möhkəmləndirir.

Eyni zamanda, bu ilin birinci rübündə yeddi dövlət başçısı Azərbaycana səfər etmişdir. Bu da çox önəmlidir. Çünki bu səfərlər həm ölkəmizə olan hörmətin əlamətidir, eyni zamanda, səfərlər çərçivəsində çox ciddi müzakirələr aparılır və görün, bizim beynəlxalq təmaslarımız nə qədər çoxşaxəlidir.

Birinci rübdə Azərbaycanda V Qlobal Forum keçirilmişdir. Bu da artıq dünya miqyasında önəmli beynəlxalq tədbirlərin sırasına daxil edilib. Bu Forumda dünyanın 40-dan çox fəaliyyətdə olan və sabiq dövlət, hökumət başçıları iştirak etmişlər.

Bir hadisəni də qeyd etmək istəyirəm. Bu da çox əlamətdar hadisədir. Əslində, bu hadisə bizim dünyadakı rolumuzu əks etdirir. Bu da Amerika və Rusiya ordularının Baş Qərargah rəislərinin birinci görüşünün Bakıda keçirilməsi hadisəsidir. Hər iki ölkə Azərbaycanı birinci görüş üçün seçməklə həm bizə olan hörmətini növbəti dəfə ifadə edir, həm də bu, bizim rolumuzu əyani şəkildə sübut edir. Azərbaycan bu gün nəinki bölgə çərçivəsində, artıq dünya miqyasında etibarlı tərəfdaş, müstəqil, ləyaqətli ölkə kimi özünü təqdim edib. Əlbəttə ki, birinci rübdə beynəlxalq fəaliyyətimizdə bir çox digər önəmli hadisələr də baş vermişdir. Ancaq əsas məsələlər bundan ibarətdir.

Əlbəttə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli həmişəki kimi, diqqət mərkəzində olmuşdur. Baxmayaraq ki, Ermənistan danışıqlar prosesini hər vəchlə dayandırmağa, onu boykot etməyə çalışır, ancaq buna nail ola bilmir və nail ola bilməyəcək. Minsk qrupunun həmsədr ölkələri artıq bir neçə dəfə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Bu, əslində işğala son qoyulması deməkdir. Hesab edirəm, Ermənistana, onun işğalçı siyasətinə Minsk qrupu tərəfindən təzyiq daha da güclənməlidir ki, onlar beynəlxalq normalara riayət etsinlər və işğala son qoysunlar.

Bizim danışıqlar prosesindəki mövqeyimizdə heç bir dəyişiklik yoxdur, ola da bilməz. Ərazi bütövlüyü prinsipi danışıqlar mövzusu deyil və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir. Mən bütün beynəlxalq təmaslarda qeyd edirəm ki, bu məsələdə heç bir ölkə, yaxud təşkilat tərəfindən ikili standartlar özünü göstərməməlidir. Çünki bəzi hallarda biz bu ikili standartlarla üzləşirik. Postsovet məkanında mövcud olan digər münaqişələrə bəzən daha böyük diqqət göstərilir, yaxud da ki, o münaqişələrin həlli ilə bağlı daha dəqiq ifadələr işlənilir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Postsovet məkanında mövcud olan digər münaqişələrdən fərqli olaraq, BMT Təhlükəsizlik Şurası bu münaqişə ilə bağlı dörd qətnamə qəbul edib. O qətnamələr bəllidir, bütün dünya bunu bilir, erməni işğalçı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bax, budur əsas prinsip və bu prinsipdən kənarda heç bir başqa məsələ müzakirə oluna bilməz.

Onu da qeyd etməliyəm ki, Ermənistanın bütün cəhdlərinə baxmayaraq, onların qeyri-konstruktiv və qeyri-səmimi siyasəti artıq qınaq obyektinə çevrilib. Onlar nə qədər tez danışıqlar masasına qayıtsalar, onlar üçün bir o qədər yaxşı olacaq. Çünki Azərbaycan gündən-günə güclənir, möhkəmlənir, həm siyasi, həm hərbi, həm iqtisadi potensialımız artır və gec-tez biz bu məsələni istədiyimiz kimi ədalətli həll edəcəyik.

Birinci rübdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir neçə hadisəni qeyd etmək istəyirəm. Birincisi, Dağlıq Qarabağda keçirilən qondarma "referendum"u qeyd etmək istəyirəm. Bu "referendum"un keçirilməsi ilə Ermənistan özünü bir daha biabır və ifşa etdi. Mən bir dəfə demişəm və bir daha demək istəyirəm ki, onlar orada nə qədər çox qanunsuz "referendum" keçirsələr, bu, bir o qədər çox bizim xeyrimizə işləyir. Çünki bütün qonşu ölkələrimiz, Minsk qrupuna həmsədrlik edən ölkələr, Avropa İttifaqı və bir çox ölkələr dərhal bu "referendum"u pislədilər. Bəyan etdilər ki, bu "referendum"u tanımırlar və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

Əslində, bu "referendum"un keçirilməsi ilə onlar bütün ölkələri bu həqiqəti bir daha təkrar etməyə sövq etdilər. Əlbəttə ki, bütün beynəlxalq aləm bu "referendum"u qəbul etməməklə bizim ərazi bütövlüyümüzə və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məhz bu prinsip əsasında həll edilməsinə öz dəstəyini göstərmiş oldular.

Digər hadisə də əlamətdardır. Çünki ilk dəfə olaraq, bizim qanunlarımızı bir neçə dəfə kobudcasına pozmuş, Dağlıq Qarabağa qanunsuz səfərlər etmiş, Azərbaycan dövlətini, xalqını təhqir etmiş bir nəfər xaricdə saxlanılaraq bütün dünyanın gözü qarşısında Azərbaycana təhvil verildi və Azərbaycana gətirildi. Bu, ilk dəfə baş verən hadisədir. Bu, ədalətin bərpasıdır. Bu, beynəlxalq hüququn aliliyidir. Ekstradisiya ilə bağlı olan bütün məsələlər beynəlxalq qanun və konvensiyalar əsasında baş verib. Əminəm ki, bu, həm bizim qanunlarımızı kobudcasına pozan və bununla qürrələnən şəxsə də, onun kimilərinə də dərs olub və dərs olacaq.

Bir önəmli hadisə də baş verdi. Biz Cocuq Mərcanlı kəndinin bərpasına başladıq. Hesab edirəm ki, bu da tarixi hadisədir. İndi orada yeni qəsəbə salınır. Birinci növbədə 50 ev, məktəb, uşaq bağçası, məscid tikilir, yeni yol salınır. Sonra əlavə 150 ev və tibb məntəqəsi tikiləcək. Onu da qeyd etməliyəm ki, o məscid Şuşa məscidinin memarlığını təkrarlayır. Bu, mənim göstərişim idi. Erməni vəhşiləri tərəfindən dağıdılmış bütün abidələrimizin, məscidlərimizin bərpası günü də gələcək. Cocuq Mərcanlının bərpası tarixi hadisədir, bir daha onu göstərir ki, Azərbaycan xalqı heç vaxt bu işğalla barışmayacaq. Eyni zamanda, onu göstərir ki, Azərbaycan öz ərazilərini bərpa edəndən sonra bütün kəndləri, bütün şəhərləri yenidən quracaq. Bu, bir daha onu göstərir ki, 20 ildən artıq başqa yerdə

məskunlaşan Cocuq Mərcanlı kəndinin sakinləri öz doğma kəndinə tezliklə qayıtmaq arzusu ilə yaşayırlar. Baxmayaraq ki, orada bütün evlər dağıdılıb, ora təmas xəttinə yaxındır. Bax, budur torpaq sevgisi, Vətən sevgisi. Ona görə həm dövlət, həm bizim siyasətimiz, eyni zamanda, xalq bu məsələdə vəhdət təşkil edir. Bu vəhdət, bu birlik bizi daha da ruhlandırır və göstərir ki, biz haqq yolundayıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Onu da qeyd etməliyəm ki, bu il köçkünlər üçün digər yerlərdə yeni binalar tikilir, qəsəbələr salınır. Onlardan biri Tərtər rayonunda inşa edilən böyük qəsəbədir, yaxın aylarda istifadəyə veriləcək. Eyni zamanda, Bakı və Sumqayıt şəhərlərində qəzalı binalarda yaşayan köçkünlərin problemləri də əminəm ki, yaxın vaxtlarda öz həllini tapacaq. İlk növbədə, ən ağır vəziyyətdə yaşayan dörd min köçkün ailəsi yeni evlərə köçürüləcəkdir. Bu proses mərhələli yollarla həll ediləcək, həm yeni binalar tikilir, eyni zamanda, vaxtilə tikilmiş mövcud binalarda mənzillər alınacaq və məcburi köçkünlər orada yerləşdiriləcəkdir. Hesab edirəm ki, yaxın bir neçə aydan sonra birinci qrup köçkünlər yeni evlərə köçürüləcəkdir.

Əlbəttə, bütün bu məsələləri həll etmək üçün bizim güclü iqtisadi potensialımız olmalıdır. Biz bu potensialı yaratmışıq. 2017-ci ilin birinci rübünün yekunları onu göstərir ki, Azərbaycan iqtisadiyyatı çox dinamik şəkildə inkişaf edir. Mən bəzi rəqəmləri ictimaiyyətin diqqətinə çatdırmaq istəyirəm. Bu rəqəmlər mövcud iqtisadi vəziyyətimizi hər şeydən yaxşı əks etdirir.

İqtisadiyyatımızın əsas göstəriciləri qeyri-neft sektorunun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının inkişafıdır. Bütün bu istiqamətlər üzrə yaxşı nəticələr var. İqtisadiyyatın qeyri-neft sektoru 2,4 faiz artıbdır, qeyri-neft sənayemizin artımı 2 faiz səviyyəsində olubdur, kənd təsərrüfatı 3,5 faiz artıbdır. Xüsusilə qeyd etmək istəyirəm ki, bitkiçilik 20 faizdən çox artıbdır. Bu, onu göstərir ki, bizim gördüyümüz işlər, ciddi islahatlar, investisiyalar artıq öz nəticələrini verir.

Birinci rübdə bizim valyuta ehtiyatlarımız 1 milyard dollar səviyyəsində artıbdır. Bu gün valyuta ehtiyatlarımız 38,5 milyard dollardır. Bu, böyük rəqəmdir. Biz keçən il valyuta ehtiyatlarımızı qoruya bilmişik. Baxmayaraq ki, neftin qiyməti kəskin səviyyədə aşağı düşüb, bu il nəinki qoruya bilmişik, birinci üç ayda biz əlavə 1 milyard dollar qazanmışıq. Əminəm ki, bir il ərzində valyuta ehtiyatlarımızı artıracağıq. Bax, bu, çox önəmli məsələdir. Çünki hamıya aydındır ki, 2015-2016-cı illər böhran illəri idi. Neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi, inşaat sektorunda keçən il yaşanan durğunluq istər-istəməz təbii ki, bizim iqtisadi inkişafımıza mənfi təsir göstərə bilərdi. Bəlkə də hər hansı bir başqa hökumət bunun çıxış yolunu ancaq valyuta ehtiyatlarının istifadəsində görə bilərdi. Ən asan yol da bu idi. Ancaq bax, məsuliyyətli yanaşma və uzunmüddətli inkişaf planlarımız əlbəttə ki, bizim üçün başqa seçimi diktə edir. Bu, məsuliyyətli seçim idi, bu, xalqın maraqlarını hər şeydən üstün tutan seçim idi. Biz tezliklə ciddi islahatları dəyərləndirdik, çox operativ tədbirlər gördük. İqtisadiyyatımızın restrukturizasiyası ilə bağlı çox ciddi addımlar atıldı. Biznesi, investisiyaları, ixracı stimullaşdırmaq istiqamətində müvafiq qərar və qanunlar qəbul edildi. Beləliklə, biz iqtisadi dayanıqlılığımızı qoruya və valyuta ehtiyatlarımızı artıra bildik. Neftlə zəngin olan ölkələrin demək olar ki, əksəriyyəti keçən il və bu il öz valyuta ehtiyatlarını itirirlər. Biz isə artırırıq.

Bu ilin üç ayında ticarət dövriyyəsi 15 faiz artmışdır. Bu da çox yaxşı göstəricidir. İxrac təxminən 50 faiz artmışdır. Sevindirici hal ondan ibarətdir ki, qeyri-neft ixracımız təqribən 10 faiz ətrafında artmışdır, idxal isə 17 faiz azalmışdır. Bu da bizim siyasətimizin təzahürüdür. Çünki biz idxaldan asılılığımızı azaltmaq üçün yerli istehsalı stimullaşdırdıq, biznes qurumlarına çox gözəl şərait yaratdıq, xüsusilə kənd təsərrüfatı sahəsinə texnikanın alınmasına və digər tədbirlərə dövlət investisiyaları qoyuldu. Bu barədə artıq çox danışmışıq, təkrar etmək istəmirəm. İdxalın azalması, ixracın kəskin artması bizim iqtisadi sabitliyimizi təmin edir. Ancaq birinci rübdə ticarət dövriyyəmizin müsbət saldosu 1 milyard dollar səviyyəsindədir.

Bax, bu göstəricilər bizim iqtisadi vəziyyətimizi real əks etdirir. Əgər əlavə etsəm ki, bu il Davos Ümumdünya İqtisadi Forumu iqtisadiyyatların rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 37-ci yerə layiq görüb, artıq mənzərə tamamlanır. Biz böhranlı illərdə öz reytinqimizi üç pillə artıra bilmişik. İnkişafda olan ölkələr arasında reytinqə görə isə Azərbaycan 1-ci, 2-ci yerləri bölüşür. Budur bizim işimizə verilən real və etibarlı qiymət. Biz bu yolla gedəcəyik, iqtisadi potensialımızı gücləndirəcəyik.

Birinci rübdə 85 min yeni iş yeri yaradılmışdır. Onlardan 70 mini daimi iş yeridir. Doqquz min iş yeri bağlanıb. Biz artıq yenə də gözəl mənzərəni görürük. Sevindirici hal ondan ibarətdir ki, iş yerlərinin yaradılması təkcə dövlət sektorunda yox, özəl sektorda da davam edir. Mən əvvəlki toplantıda qeyd etmişdim ki, biz bu il dövlət sektorunda 40 mindən çox yeni iş yeri yaradacağıq. Onlar artıq yaradılıb. Amma 40 mindən çox iş yeri özəl sektorda yaradılıbdır. Bu da iqtisadi inkişafın təzahürüdür.

Bu il Cənub Qaz Dəhlizinin icrası ilə bağlı da önəmli hadisə baş verib. Cənub Qaz Dəhlizinin Məşvərət Şurası üçüncü dəfə Bakıda görüş keçirib. Bu layihədə iştirak edən bütün ölkələrin, Avropa Komissiyasının, Amerikanın, Böyük Britaniyanın yüksək vəzifəli nümayəndələri öz iştirakları ilə bir daha bu layihəyə dəstəklərini göstərmiş oldular. Məşvərət Şurasının yekunu olaraq qətnamə qəbul edildi. Bu qətnamədə yenə də ölkəmizin liderlik rolu qeyd edilir. Cənub Qaz

Dəhlizinin icrası artıq reallıqdır. Düzdür, bizə əngəl törətmək istəyənlər də var. Bu da təbiidir. Biz bunu hələ 10 il bundan əvvəl görmüşük. Yadımdadır, o vaxt Bakı-Tbilisi-Ceyhan neft kəməri tikiləndə bizim siyasətimizə zərbə vurmaq istəyən qüvvələr, eyni zamanda, erməni lobbisi və bu layihəyə müsbət yanaşmayan bəzi dairələr müxtəlif yollarla daha çox ekoloji bəhanələri gətirərək çalışırdılar ki, bizim işimizə zərbə vursunlar. Buna müəyyən dərəcədə nail oldular. Yadımdadır, o vaxt hətta bəzi beynəlxalq maliyyə qurumları da kreditləşməni bir qədər yubatdılar. Ancaq buna baxmayaraq, Bakı-Tbilisi-Ceyhan 2006-cı ildə açıldı. Bu gün də bəzi dairələr, bəzi kənar qüvvələr çalışırlar ki, yenə də ekoloji bəhanələr gətirərək Cənub Qaz Dəhlizinin bəzi seqmentlərində işləri yubatsınlar. Ancaq bunun heç bir əsası yoxdur. Bu, sadəcə olaraq bir bəhanədir. Bütün ekoloji normalar gözlənilir, bütün məsələlər razılaşdırılıb. Tezliklə Cənub Qaz Dəhlizinin istifadəyə verilməsi həm bizim, həm də bu layihədə iştirak edən və bu layihədən gələcəkdə xeyir götürəcək bütün tərəflər üçün önəmlidir. Mən əminəm ki, 2017-ci il bu baxımdan həlledici il olacaq və biz gələn il TANAP layihəsinin açılışını qeyd etməliyik.

Bu ilin əvvəlindən nəqliyyat sektorunda da yaxşı nəticələr var. Xüsusilə qeyd etməliyəm ki, Astaraçay çayı üzərində tikdiyimiz körpü vasitəsilə bu ilin mart ayında Azərbaycandan İrana artıq birinci qatar keçibdir. Biz Şimal-Cənub dəhlizi ilə bağlı ərazimizdə olan bütün işləri yekunlaşdırdıq. Əminəm ki, bu il Şimal-Cənub layihəsinin icrasında birgə səylərlə müsbət irəliləyiş olacaq. O ki qaldı, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsinə, Türkiyə tərəfi artıq bir neçə dəfə rəsmi qaydada bəyan edib ki, bu il bu layihə də istifadəyə veriləcək. Bilirsiniz ki, Azərbaycan bu layihə ilə bağlı öz üzərinə düşən bütün vəzifələri artıq icra edib.

Bir rəqəmi də diqqətə çatdırmaq istəyirəm. Bu da turizmlə bağlıdır. Keçən il turistlərin, xarici vətəndaşların ölkəmizə səfərləri 11 faiz artmışdır. Bu ilin birinci rübündə artıq 25 faiz artım var. Bu da çox gözəl göstəricidir. Bunun əlbəttə ki, bir çox səbəbləri var. Birincisi, Azərbaycanda mövcud olan və son illər ərzində yaradılmış müasir infrastruktur. Bizim 6 beynəlxalq aeroportumuz var. Bizim ən son modellərlə təchiz edilmiş hava nəqliyyatımız var. Bütün bölgələrə gözəl yollar çəkilibdir. Bakıda və bölgələrdə gözəl otellər tikilibdir. Bakıda dünyanın demək olar ki, bütün aparıcı otel şəbəkələri öz otellərini idarə edirlər. Bütün bölgələrdə müasir otel infrastrukturu, müalicəvi turizm inkişaf edir. Biz ənənəvi turizm bölgələrini bərpa etdik. Vaxtilə – Sovet dönəmində Naftalana 70 min turist gəlirdi. Verilən son məlumata görə, hər il təxminən 30-35 min insan buraya müalicə almağa gəlir. Biz Qalaaltı kurortunu bərpa etmişik, özü də yüksək səviyyədə. Sovet vaxtında orada olan vətəndaş indi görür ki, burada yerlə göy qədər fərq var. Biz digər müalicəvi turizm zonalarını yaratdıq, yeni turizm obyektləri istifadəyə verildi. Qusarda Şahdağ, Qəbələdə Tufandağ xizək kompleksləri ən müasir turizm infrastrukturudur. Bunlar olmasaydı, ölkəmizə kim gələrdi? İkincisi, ölkəmizdə mövcud olan sabitlik. İndi turistlər də baxırlar ki, hara getsinlər, riskli yerlərə getmək istəmirlər. Bilirlər ki, Azərbaycanda onların təhlükəsizliyi qorunacaq. Bilirlər ki, Azərbaycan sabit ölkədir. Bu da önəmli amildir.

Növbəti amil mənim göstərişimlə “ASAN viza” sisteminin yaradılmasıdır. Mənə bu yaxınlarda məruzə edildi ki, üç ay ərzində “ASAN viza” xətti ilə 40 min viza verilib. Bu sistem Azərbaycana viza ilə gələnlərə şamil olunur. Səksəndən çox ölkənin vətəndaşı elektron viza alır. Bunlar olmasaydı, turizm inkişaf edə bilərdimi? Əlbəttə, bizim tariximiz, tarixi abidələrimiz, gözəl iqlimimiz, xalqımızın qonaqpərvərliyi, zəngin mətbəxi də bu işdə rol oynayır. Ancaq bunlar hamısı var idi. Bəs, niyə turizm inkişaf etmirdi? Biz bu sahədə inkişafı niyə görmürdük? Ancaq bu məsələni mən şəxsən öz nəzarətimə götürəndən sonra burada dönüş yarandı. Mənim yadımdadır, dəfələrlə müxtəlif dövlət qurumlarına göstəriş vermişdim ki, bu viza məsələlərini həll edin. Çünki vizalarla bağlı pozuntular bizim imicimizə zərbə vururdu. Xarici vətəndaş o vizanı səfirlikdən almaq üçün min əziyyətə qatlaşmalı olurdu, onu get-gələ salırdılar, qanunsuz tələblər irəli sürürdülər. Bu məsələ birdəfəlik həll olundu. İndi bu olmasaydı, Azərbaycana kim gələrdi? Bəzi xarici ölkələrdə olarkən görüşlər əsnasında mənə deyirdilər ki, biz Azərbaycana gəlmək istəyirik, bizim vətəndaşlar gəlmək istəyirlər, amma çox çətindir. Gərək bir həftə, iki həftə əvvəl planlaşdırasan, bilinmir hələ sənə viza verəcəklər, ya verməyəcəklər, bizim konsulumuz olan başqa şəhərə getməlisən. Xarici vətəndaş min bir əziyyətdən çıxırdı ki, Azərbaycana gəlsin. Mən bu məsələni tam diqqətə götürdüm və dərhal inqilabi dönüşlər yarandı. Ona görə turistlərin axınının əsas səbəbləri, bax, budur – bizim siyasətimiz, verdiyim göstərişlər, onların icrası, viza və təhlükəsizlik məsələləri, müasir infrastruktur, otellər, istirahət zonaları və əlbəttə ki, Bakının gözəlliyi.

Bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Ancaq Bakı necə idi? Bu, artıq yaddan çıxır. Qaranlıq küçələr, bulvar nə gündə idi. Adam qorxurdu bulvara getməyə. Heç kim bulvara çıxıb orada ailəsi ilə gəzmirdi. Dağılmış binalar, daxmalar, dar yollar – bu idi əvvəlki Bakı. İndi Bakının tarixi binaları tarixi irsimiz qorunmaqla təmir edildi. İçərişəhər artıq dünyanın ən cəlbedici tarixi yerlərinin birinə çevrildi. Bakı Bulvarının uzunluğu 3 kilometrdən 16 kilometrə çatdırıldı, söküntü işləri aparıldı, yeni yollar açıldı, yeni parklar salındı. Bu gün Bakı parklar, göllər şəhəridir. Biz gölləri təmizlədik. Biz ekoloji fəlakət mənbəyi olan Bibiheybət buxtasını təmizlədik. Biz ekoloji təhlükə mənbəyi olan Böyükşor gölünü təmizlədik və hələ ki, burada işlər davam edir. Bunlar olmasaydı, hansı turist

Azərbaycana gələrdi? Biz beynəlxalq yarışlar keçirdik, dünyanın diqqətini cəlb etdik. Biz "Eurovision", Avropa Oyunları, 500 milyon auditoriyası olan "Formula-1" keçirdik. Biz İslam Həmrəyliyi Oyunlarını keçirəcəyik. Bunlar olmasaydı, kimsə gələrdimi? Əsas amillər bunlardır, bunu hamı bilsin və düzgün qiymətləndirsin.

Biz gələn ay İslam Həmrəyliyi Oyunlarını keçirəcəyik. Bütün hazırlıq işləri yekunlaşır. Bu da böyük bir idman bayramı olacaq. Mən artıq təntənəli mərasimdə qeyd etdim ki, bu, təkcə idman Oyunları deyil, həm də birlik Oyunlarıdır. Biz bu istiqamətdə də səylərimizlə müsəlman ölkələri arasındakı birliyi möhkəmləndirəcəyik.

İndi də keçək müzakirələrə.

***

Müdafiə sənayesi naziri Yavər Camalov, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev çıxış etdilər.

***

Dövlətimizin başçısı iclasda yekun nitq söylədi.

## Prezident İlham Əliyevin yekun nitqi

– Beləliklə, 2017-ci il yaxşı başlayır, yaxşı nəticələr var. Çalışmalıyıq ki, il ərzində bu dinamikanı saxlayaq və 2017-ci ili də uğurla başa vuraq.

Önəmli məsələlərdən biri təbii ki, makroiqtisadi sabitlikdir. Bu makroiqtisadi sabitliyi möhkəmləndirməliyik. Süni qiymət artımına yol verilməməlidir. İstehlak qiymətlərinə daim diqqət göstərilməlidir, bu, nəzarət altında olmalıdır. Hesab edirəm ki, bütövlükdə makroiqtisadi sabitlik baxımından 2017-ci il əvvəlki illərlə müqayisədə daha uğurlu olacaqdır. Bunu deməyə kifayət qədər əsaslar var. Bu istiqamətdə düşünülmüş və çox çevik siyasət aparılmalıdır.

Dövlət büdcəsinin icrası da uğurla gedir. Həm gömrük, həm vergi orqanları rüblük planı artıqlaması ilə yerinə yetiriblər. Bu, yaxşı haldır. Eyni zamanda, büdcə xərcləri də 100 faiz icra edilməlidir. Çünki əvvəlki illərdə bəzi hallarda investisiya xərclərində nəzərdə tutulan vəsaitdən tam istifadə edilmirdi. Bu il isə həm qəbul edilmiş pul proqramı, eyni zamanda, xərclərlə gəlirlər arasındakı tarazlıq tam təmin edilməlidir. Builki investisiya proqramı kifayət qədər təsirli olmalıdır. Bu gün ölkə üçün ən lazımlı layihələrə kifayət qədər vəsait ayrılır və birinci rübdə işlər yaxşı gedir. Gərək investisiya proqramı tam şəkildə icra edilsin.

Mən qeyd etmişəm ki, bizim maliyyə vəziyyətimiz yaxşıdır. Biz bu il valyuta ehtiyatlarımızı üç ay ərzində 1 milyard dollar səviyyəsində artırmışıq. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan beş dəfədən çox artıqdır. Hesab edirəm ki, bu, dünya miqyasında çox nadir hallarda rast gəlinən bir mənzərədir. Bu baxımdan Azərbaycan əlbəttə ki, fərqlənir. Bir çox inkişaf etmiş ölkələrdə xarici borc ümumi daxili məhsuldan çoxdur. Valyuta ehtiyatları xarici borcun heç 20 faizini ödəyə bilmir. Ancaq bizdə xarici borc ümumi daxili məhsulun 20 faizini təşkil edir, çox aşağı göstəricidir. Valyuta ehtiyatlarımız isə xarici borcdan beş dəfədən çox artıqdır. Hesab edirəm ki, müxtəlif reytinq agentlikləri, bax, bu amilləri nəzərə almalıdır. Eyni zamanda, giriş sözümdə qeyd etdiyim kimi, ilin birinci rübünün iqtisadi göstəriciləri də ən gözəl nəticələrdən biridir.

Bu il inşaat sektorunda canlanma müşahidə olunur. Bu da təbiidir. Çünki keçən il görülmüş işlər, qəbul edilmiş qərarlar artıq özünü büruzə verir. Mənə verilən məlumata görə, hazırda Bakı şəhərində 300-dən çox yeni hündürmərtəbəli bina tikilir. Bu da özlüyündə gözəl bir göstəricidir. Burada minlərlə yeni iş yeri yaradılır. Keçən il biz daha çox inşaat sektorunda iş yerlərini itirdik. Bu il bu, bərpa edilir. Həm qəbul edilmiş qərarlar, dövlət investisiyaları və əlbəttə, özəl sektorun fəallaşması yeni bir vəziyyətə gətirib çıxarır. Keçən il Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə böyük şəhərciyin təməl daşı qoyuldu, inşaat işləri gedir. İndi ikinci layihənin icrası gözlənilir. "Ağ Şəhər" layihəsinin birinci mərhələsi başa çatıb. Hələ növbəti beş il ərzində onlarla bina tikiləcəkdir. Bakının müxtəlif yerlərində artıq müddəti keçmiş və yararsız vəziyyətdə olan binalar sahibkarlar tərəfindən sökülür. Orada yaşayan vətəndaşlara ya kompensasiya verilir, ya da vəsait ayrılır ki, onlar kirayədə yaşasınlar. Köhnəlmiş, qəzalı vəziyyətdə olan o binaların yerində artıq hündürmərtəbəli, gözəl memarlığı ilə seçilən binalar tikilir.

Birinci belə pilot layihə Sabunçu rayonunda icra edilmişdir. Yeni tikilmiş o binanın açılışında mən şəxsən iştirak etmişdim. Gördüm ki, vətəndaşlar da buna çox sevinirlər. Çünki onlar həm yeni mənzillərə köçürülür, onların qəzalı binalardan canı qurtarır. Eyni zamanda, mən xüsusi tapşırıq vermişdim ki, yeni binalarda mənzillərin sahəsi daha da böyük olsun. Vətəndaşlara əvvəlkindən təxminən 10, bəzi hallarda 20, yaxud 30 faiz daha böyük ölçüdə təmirli mənzillər verilir. Əlbəttə ki, vətəndaşlar buna çox sevinirlər. Bu, sahibkarlar üçün də əlverişlidir. Çünki onlar üç-dörd mərtəbəli binanın yerinə hündürmərtəbəli bina tikirlər. Onlar da gəlir götürürlər, inşaat sektoru da inkişaf edir, inşaat materiallarının istehsalı artır, iş yerləri yaradılır. Yəni, bu proses artıq geniş vüsət almışdır. Mənə verilən son məlumata görə, Bakı şəhərində bu yolla həyata keçirilən layihələrin sayı artıq 75-ə çatıb. Bu proses davam edir. Mən yerli icra orqanlarına, sahibkarlara bir daha müraciət edirəm ki, onlar bu işi

düzgün təşkil etsinlər. Sahibkarlar təşəbbüs göstərsinlər, yerli icra orqanları isə öz növbəsində onlara şərait yaratsınlar, kömək etsinlər. Beləliklə, biz burada bir neçə məqsədi təmin edəcəyik. Qeyd etdim ki, iş yerləri açılacaq, inşaat sektoru inkişaf edəcək, insanların təhlükəsizliyi, rifahı və şəhərimizin abadlaşması təmin olunacaq.

Növbəti önəmli layihə mikrorayonlarla bağlıdır. Artıq birinci mikrorayonla bağlı layihə hazırlanıb, əminəm ki, tezliklə icra ediləcək. Orada köhnəlmiş binaların yerində yeni, müasir, gözəl memarlıq üslubunda binalar tikiləcəkdir. Mən xüsusi tapşırıq vermişəm ki, yeni tikilən, xüsusilə sökülən o binaların yerində tikilən binaların birinci mərtəbəsində mütləq ictimai yerlər, uşaq bağçası nəzərdə tutulsun. Beləliklə, bu yolla tikilən 75 binanın hər birinin birinci mərtəbəsində uşaq bağçası olacaqdır. Bu da Bakının uşaq bağçası ilə bağlı mövcud olan probleminin həllinə müsbət təsir göstərəcək. Bu yolla biz gələn üç-dörd il ərzində uşaq bağçası problemini həll edəcəyik. Çünki indi buna daha böyük tələbat var, həm əhalinin, həm də uşaqların sayı artır. Eyni zamanda, iş yerləri yaradılır. İndi bir çox hallarda ailədə hər iki valideyn işlə təmin edilir. Ona görə, bizdə uşaq bağçalarına çox böyük ehtiyac olacaqdır. Uşaq bağçasının tikintisi üçün xüsusi yer də ayrılmalıdır. Amma ən yaxşı variant odur ki, yeni tikilmiş binalarda mütləq uşaq bağçası olsun. Tikintiyə icazə verənlər də, yerli icra orqanları da sahibkarlara mütləq bax, bu tövsiyəni versinlər.

Sənaye istehsalı və kənd təsərrüfatı əsas prioritet istiqamətlərdir. Hər iki istiqamət üzrə yaxşı nəticələr var. Qeyd etdiyim kimi, qeyri-neft sənayesi 2 faiz, kənd təsərrüfatı 3,5 faiz artıb. İndi rayonlarda sənaye zonaları yaradılır. Mingəçevir Sənaye Parkında ilk zavodlar bu ilin sonunda istifadəyə veriləcək. Sumqayıt Texnologiyalar Parkında, Kimya Sənaye Parkında, Pirallahı və Balaxanı Sənaye parklarında, Neftçala Sənaye Məhəlləsində işlər yaxşı gedir. Yəni, bu proses artıq gedir. Bir neçə il bundan əvvəl mən qeyd etdim və tapşırıq verdim ki, hər bir rayonda sənaye zonası tikilsin. Biz artıq bunu görürük. Bütün rayonlar bu işlərə fəal qoşulmalıdır.

Mən sahibkarların diqqətini böyük bir layihəyə cəlb etmək istəyirəm. Bu, Sumqayıt Kimya Sənaye Parkında yaradılmaqda olan “SOCAR Polymer” zavodudur. Bu, çox nəhəng sənaye müəssisəsidir, yüz milyonlarla dollar sərmayə qoyulur və çox gözəl məhsul istehsal edəcək. Bu məhsul əlbəttə, həm daxildə istifadə olunacaq, həm də ixracyönümlüdür. Ancaq mən qeyd etməliyəm ki, bu xammalın əsasında çox ciddi bir sənaye sahəsi yaradıla bilər. Biz demək olar ki, indi bütün hazır plastik məhsulları xaricdən idxal edirik. Ancaq “SOCAR Polymer”in işə düşməsindən sonra Azərbaycanda hazır məhsul istehsal etmək üçün yaxşı imkanlar yaranır və bu, biznes üçün də çox gəlirli bir sahə olacaq. Ona görə, bizim dövlət qurumlarına müraciət edirəm, onlar sahibkarlara bunu daha da yaxşı başa salsınlar ki, “SOCAR Polymer”in bir çox hazır məhsulu əsasında zavodlar, fabriklər yaradıla bilər. Bu, həm yeni iş yerlərinin yaradılması deməkdir, həm də sahibkarlara əlavə gəlir gətirəcək və bizim ixrac məhsulumuz da daha böyük qiymətə xarici bazarlara çıxarılacaq. Əgər belə olmasa, “SOCAR Polymer”in məhsulu ancaq xammal kimi xaricə satılacaq. Əlbəttə, bu da yaxşı haldır, amma əminəm ki, mənim məsləhətim nəzərə alınacaqdır.

Kənd təsərrüfatı sahəsində görüləcək işlər haqqında bu ilin yanvar ayında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci ilinin yekunlarının müzakirəsi zamanı mən kifayət qədər geniş danışdım. Bütün tapşırıqlar, göstərişlər verildi. Onları təkrar etmək istəmirəm. Sadəcə, bir neçə məqamı qeyd etmək istəyirəm. Kənd təsərrüfatının inkişafı üçün bu il 150 min hektar yeni torpaq sahəsinin suvarılması nəzərdə tutulur, vəsait ayrılıb və bu layihələr nəzarət altında olmalıdır ki, biz il ərzində bu rəqəmə çata bilək. Hesab edirəm ki, bu, inqilabi bir dəyişiklik olacaq və kənd təsərrüfatı istehsalını əlbəttə ki, artıran amillərdən biridir, bəlkə də birincisidir. Kənd təsərrüfatı məhsullarının həcmi artmalıdır, daxili tələbatı tam təmin etməliyik. İxracyönümlü məhsulların həcmini artırmalıyıq, məhsuldarlıq yüksəldilməlidir, ən müasir texnologiyalar tətbiq olunmalıdır. Torpaqların dəqiq uçotu aparılmalıdır. Bu istiqamətlərdə işlər gedir, göstərişlər verilibdir. Torpaqların müasir üsullarla dəqiq təhlili aparılmalıdır. Torpaqların keyfiyyəti haqqında bizdə müfəssəl məlumat olmalıdır. Biz bu sahədə böyük təcrübə toplamış ölkələrin təcrübəsini gətirməliyik, ondan istifadə etməliyik ki, hansı sahədə, hansı bölgədə hansı məhsul yetişdirilməlidir. Yəni, bundan sonra da biz buna kortəbii yox, ancaq fərdi qaydada yanaşmalıyıq və subsidiya məsələləri də buna görə hesablanmalıdır. Mən artıq müvafiq göstərişlər vermişəm, biz buna baxmalıyıq. İndi subsidiyaların verilmə prosedurları təkmilləşdirilir. Ancaq hesab edirəm ki, biz gələcəkdə rayonlaşma siyasətinə daha da ciddi baxmalıyıq. Biz bilməliyik, hansı bölgələrdə hansı məhsulun yetişdirilməsinə nə qədər subsidiya verilməlidir ki, təbii imkanlarımızdan daha da səmərə ilə istifadə edək.

Bu il kənd təsərrüfatının inkişafında mühüm rol oynayan iki zavodun – pivot suvarma sistemləri və pestisid zavodlarının istifadəyə verilməsi nəzərdə tutulur. Bu il artıq bu, təmin edilməlidir. Gələn il isə azot gübrəsi zavodu istifadəyə verilməlidir. Biz bunu təxminən bir ildən sonra gözləyirik. Beləliklə, biz azot gübrələri ilə özümüzü nəinki təmin edəcəyik və ixrac imkanlarımız da yaranacaqdır.

Bütövlükdə özümüzü ərzaq məhsulları ilə təminetmə istiqamətində işlər yaxşı gedir. Hər il regionların sosial-iqtisadi inkişafına dair konfransda mən bu rəqəmləri səsləndirirəm. Deyə bilərəm ki, bizim yeganə zəif yerimiz taxılçılıqdır. Bunu nəzərə alaraq mən göstəriş verdim ki, Prezident Administrasiyasında geniş müşavirə keçirilsin və keçirildi. Bütün tapşırıqlar verildi. Ondan sonra mən taxılçılığın inkişafı və ilk növbədə təhlilin aparılması ilə bağlı müvafiq Sərəncam imzaladım. Burada çox geniş informasiya yığılmalıdır, statistika düzgün təhlil edilməlidir və bir çox suallara cavab verilməlidir. Necə olur ki, biz taxılçılığa bir milyon hektar torpaq ayırmışıq, amma özümüzü ərzaq buğdası ilə təmin edə bilmirik. Bu sual sadə səslənsə də onun arxasında bir çox məqamlar var. Ona görə, dəqiq təhlil aparılmalıdır, bizə nə qədər ərzaq buğdası, bütövlükdə taxılçılıq üçün torpaq sahəsi lazımdır ki, özümüzü keyfiyyətli buğda ilə, taxılla təmin edək və əlbəttə, idxaldan asılılığı azaldaq. Çünki mənə verilən məlumata görə, biz hər il idxala təxminən 300 milyon manat pul ayırırıq. Burada əlbəttə ki, uçot, təhlil, elektron nəzarət, peyk nəzarəti olmalıdır. Bizim peykimiz var və qısa müddət ərzində torpaqların münbitliyinin, məhsuldarlığının dəqiq analizi aparılmalıdır.

Digər önəmli məsələlərdən biri qeyri-neft sektorunun istehsal etdiyi malların ixracı ilə bağlıdır. Bu da indi uğurla inkişaf edən bir istiqamətdir. Həm islahatlar aparıldı, həm institusional tədbirlər görüldü, “Azexport” portalı yaradıldı. Azərbaycan brendi indi dünyada təbliğ edilir. Biz bir çox sərgilərdə iştirak etmişik və yenə də iştirak etməliyik. Müxtəlif ölkələrdə ticarət evləri yaradılır, ticarət-ixrac missiyaları həyata keçirilir. Müvafiq sərəncamlar verildi, vəsait ayrıldı. Xarici media vasitələrində reklam kampaniyaları aparılmalıdır ki, biz “Made in Azerbaijan” brendini tanıtdıraq.

Mən giriş sözümdə qeyd etdim ki, qeyri-neft sektorunun ixracı təxminən 10 faiz artmışdır, amma potensial daha da böyükdür. Ona görə, biz yeni ixrac bazarlarına çıxışı təmin etməliyik. Ənənəvi olan ixrac bazarlarına daha geniş çeşiddə məhsulla çıxmalıyıq. Eyni zamanda, yeni ixrac bazarlarını axtarmalıyıq. Logistika mərkəzləri yaradılmalıdır. İndi Qazaxıstanın Aktau vilayətində Azərbaycan Logistika Mərkəzi yaradılıb. Görürük ki, bunun böyük faydası var. Bir sözlə, bu, həm daxili istehsalı, eyni zamanda, valyuta gəlirlərimizi artırmaq üçün böyük əhəmiyyət daşıyan sahədir.

Təbii ki, həmişə olduğu kimi, il ərzində infrastruktur layihələrinə, onların icrasına diqqət yetiriləcəkdir. Elektrik enerjisi ilə təminat diqqət mərkəzindədir, yeni yarımstansiyalar tikilir, xüsusilə buna ehtiyac olan bölgələrdə. Bu layihələr kənd təsərrüfatının inkişafı ilə paralel şəkildə aparılmalıdır ki, həm əhaliyə, eyni zamanda, kənd təsərrüfatının inkişafına da xidmət göstərsin.

Azərbaycanda qazlaşdırmanın səviyyəsi 92 faizdir. Bu il daha da artacaq. İçməli su layihələri nəzərdə tutulan investisiya həcmində tam icra edilməlidir. Eyni zamanda, bu il biz kəndlərdə yaşayan əhalinin təmiz içməli su ilə təmin edilməsi üçün 270 kiçik layihə icra edəcəyik. Bu təmizləyici qurğuların 170 kənddə quraşdırılması “Azərsu” ASC-nin, 100 kənddə isə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə təmin ediləcək. Müvafiq Sərəncam imzalanmışdır. Bütün kəndlərin adları bu Sərəncamda göstərilmişdir. Mən xüsusilə belə tapşırıq verdim ki, həm o kəndlərin sakinləri, həm bu işi icra edənlər bilsinlər, bu məsələ nəzarət altındadır. Əgər sadəcə o Sərəncamda yazılsaydı ki, 100 və ya 200 kəndin su problemi həll edilsin, buna filan qədər vəsait ayrılsın, sonra ona nəzarət etmək çox çətin olacaqdı: 100 kəndəmi, yoxsa 50 kəndə su verildi? Sərəncamda bütün o rayonların, kəndlərin adı göstərilib və mən o kəndlərin sakinlərindən xahiş edirəm ki, onlar da nəzarət etsinlər. Götürsünlər o Sərəncamı baxsınlar. Əgər onların kəndi o siyahıda varsa və o iş görülmürsə dərhal yerli icra orqanlarına, Prezident Administrasiyasına məlumat versinlər. Əlbəttə ki, əgər o işdə hansısa bir qüsur olarsa, buna yol verən şəxslər müvafiq qaydada cəzalandırılacaqlar. Mən bunu ona görə deyirəm ki, ictimai nəzarət güclənsin. Mən dəfələrlə bu barədə demişəm ki, ictimai nəzarəti gücləndirmək üçün gərək ictimaiyyətdə məlumat olsun. Bax, bu məlumatı biz veririk, 270 kəndin modul tipli təmizləyici qurğularla təmin edilməsi bu il başa çatmalıdır, vəsait ayrılıb və nəzarət də olmalıdır.

Kənd yolları layihələri icra edilir. Bu il yüzlərlə kəndi birləşdirən layihələr icra ediləcək. Bakı şəhərində yeni yollar salınır, “Sovetski” adlanan ərazidə böyük yol infrastrukturu yaradılır, yaxın gələcəkdə istifadəyə veriləcək və ümumiyyətlə, şəhərimizin bu hissəsi gözəl bir məkana çevriləcəkdir. İndi işlər gedir, ilk növbədə, yollar çəkilir. Bu yollar əvvəlki yollardan öz gözəlliyi ilə fərqlənəcək. Əgər əvvəlki yolların eni 3-5 metr idisə, indi salınan yolların eni 15-20 metrdir. Yəni, bu, gələcəyə hesablanan və Bakıda nəqliyyatın hərəkətini böyük dərəcədə yüngülləşdirən bir layihədir. Bu yolun qurulması ilə paralel olaraq, bütün o zonada yaşıllıqlar, parklar salınacaq və şəhər sakinləri üçün yeni gözəl istirahət məkanı yaradılacaq. Onilliklər ərzində o zonada layihəni icra etmək mümkün olmamışdır və biz artıq buna nail olduq. Əminəm ki, sakinlər də razı olmalıdırlar. Göstəriş vermişdim ki, kompensasiya tam ödənilsin. Əlbəttə ki, parklarda istirahət edəcək, o yollardan istifadə edəcək vətəndaşlar da razı qalacaqlar.

Bakı şəhərində digər yollar salınır. Göstəriş vermişəm ki, harada mümkündür, necə deyərlər, yeni, damarlar

açmalıyıq. Onlardan biri Yusif Səfərov küçəsinə paralel olaraq indi tikilən küçədir. O küçə də şəhər nəqliyyatının bir hissəsini özünə cəlb edəcək. Onun böyük mənası var. Bilgəh-Sumqayıt yolunun tikintisi, genişləndirilməsi işləri gedir. Bu da Sumqayıtı alternativ yolla Bakı ilə, xüsusilə Bakıətrafı qəsəbələri ilə, Beynəlxalq Aeroportla birləşdirəcək. Ən yüksək standartlara səviyyəsində salınan yol bu il istifadəyə verilməlidir.

Sosial infrastruktur layihələri icra edilir. Mənə verilən məlumata görə, qəzalı məktəblərin yerində artıq modul tipli 3 məktəb tikilibdir və əlavə modul tipli 12 məktəbin tikintisi nəzərdə tutulur. Bu il və gələn il Azərbaycanda bir dənə də olsun qəzalı məktəb qalmamalıdır. Bakı şəhərində məktəblərin böyük əksəriyyəti artıq təmirlidir, yeni məktəblər tikilib, hələ ki, harada təmirə ehtiyac var, bu məsələlər də öz həllini tapır.

Birinci rübdə 13 tibb müəssisəsi tikilib və ya əsaslı təmir edilib. Bu il iki Olimpiya kompleksi – Abşeron və Ağcabədi Olimpiya kompleksləri istifadəyə verilməlidir. Sosial proqramlardan biri də əhalinin tibbi müayinədənkeçmə layihəsidir. Builki layihə gələn ay başa çatacaq. Beş milyon insan tibbi müayinədən pulsuz keçəcək. Əgər əvvəlki illərdə daha çox təbliğat işi aparılırdı ki, insanlar getsinlər, bu müayinədən keçsinlər, indi biz görürük, buna ehtiyac yoxdur. İndi vətəndaşlar da görürlər, bilirlər ki, bu, onlar üçün, onların sağlamlığı üçün lazımdır. Biz son illər ərzində bütün rayonlarda müasir tibb müəssisələri yaratdıq, ən müasir laboratoriyalar var. Burada ən müasir avadanlıq quraşdırılıb və indi istənilən analizi, müayinəni hətta kiçik rayonlarda da aparmaq mümkündür.

Bölgələrdə məşğulluğun artırılması daim diqqət mərkəzindədir. Mən bunu dəfələrlə demişəm ki, biz bu məsələni daim diqqətdə saxlamalıyıq. Çünki bizdə əhali artır, bu il də, gələn illərdə də artacaq və artan əhali üçün gələcəkdə yeni iş yerləri lazım olacaq. Azərbaycanda demoqrafik vəziyyət çox yaxşıdır, əhali artır. Ancaq bu, bizi daha da fəal işləməyə sövq etməlidir. Ona görə, məşğulluğun artırılması həmişə gündəlikdə duran məsələ olacaqdır. Biz bunu həll edirik. Mən qeyd etdim ki, həm dövlət, həm özəl sektorda 70 min daimi iş yeri yaradılıbdır, mövsümi işlərlə bərabər 85 min. Bu, üç ay üçün böyük rəqəmdir və bu işləri davam etdirməliyik. Eyni zamanda, özünüməşğulluq proqramı geniş vüsət almalıdır. Artıq birinci addımlar atılıb və bu, həm dövlət orqanları, yerli icra orqanları, həm də özəl qurumlar tərəfindən həyata keçirilən layihələr olmalıdır. Çünki hər bir ailənin, yəni, hələ yoxsulluq şəraitində yaşayan ailənin imkanı olmalıdır ki, öz ehtiyacını özü ödəsin və biz bu imkanı yaratmalıyıq. Əlbəttə, dövlət çətin vəziyyətdə yaşayan vətəndaşlara həmişə qayğı, diqqət göstərir, ünvanlı sosial yardım proqramı icra edilir. Ancaq biz tədricən özünüməşğulluq sisteminə keçməliyik. Bu, vətəndaşlar üçün də daha əlverişlidir, daha yaxşıdır. Onların öz ailə büdcələri olacaq. Sadəcə biz onlara kömək etməliyik. Kənd yerində onlara şərait yaradılmalıdır, mal-qara, ev quşları verilməlidir. Arıçılıq, heyvandarlıq burada çox böyük rol oynaya bilər ki, onlar öz büdcələrini özləri təmin etsinlər. Amma dövlət əlbəttə ki, ilk mərhələdə onlara kömək göstərəcək. Ona görə, Nazirlər Kabineti özünüməşğulluq proqramına xüsusi diqqət yetirməlidir. Yenə də deyirəm, burada bütün müvafiq qurumlar, strukturlar vahid siyasət aparmalıdırlar. Əlbəttə ki, bu işlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə aparılır, ancaq hesab edirəm ki, digər nazirliklər – İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra orqanları və sahibkarlar buna qoşulmalıdır. Mənə mütəmadi qaydada məruzə edilməlidir ki, bu istiqamətdə hansı işlər görülübdür.

Bu il sahibkarlığın inkişafı ilə bağlı güzəştli kreditlərin verilməsi prosesi davam edir və 150 milyon manat məbləğində güzəştli kreditlər veriləcəkdir. Eyni zamanda, qeyd etməliyəm, son illər ərzində yenə də bizim siyasətimizə uyğun olan bir proses ondan ibarətdir ki, Azərbaycanda 32 iri fermer təsərrüfatı yaradılıb. Bu fermer təsərrüfatlarının əkin sahəsi 44 min hektardır. Hazırda 24 rayonda 142 min hektarda 33 aqropark yaradılır. Bu aqroparkların yaradılmasına xərclənən vəsait 1 milyard manat dəyərindədir. Bu 33 aqropark və bundan əvvəl yaradılmış 32 iri fermer təsərrüfatı məhsuldarlığın artmasına, daxili tələbatın ödənilməsinə və ixrac potensialının güclənməsinə çox böyük təsir edəcək. Xüsusilə nəzərə alsaq ki, bu aqroparklar və təsərrüfatlar müasir texnologiyalar əsasında qurulur.

Biz xarici sərmayənin cəlb edilməsi ilə bağlı daha da fəal iş aparmalıyıq – həm dövlət orqanları, həm də yerli icra orqanları. Yerli icra hakimiyyətləri də sərmayə cəlb etməlidirlər. Onlar həm yerli, həm xarici iş adamlarını maraqlandırmalıdırlar ki, gəlib investisiya qoysunlar. Yerlərdən təşəbbüs daha da geniş vüsət almalıdır.

Bir məsələni də qeyd etmək istəyirəm ki, bizim büdcə təşkilatlarımız istifadə etdikləri elektrik enerjisinin dəyərini yüz faiz ödəməlidirlər.

Bu il iki “ASAN xidmət” mərkəzi açılmalıdır – Quba və Mingəçevir şəhərlərində. İlin sonuna qədər bu, təmin edilməlidir. Vəsait nəzərdə tutulub və iki mərkəzin tikintisi aparılır – İmişli və Şəki şəhərlərində. Beləliklə, bu iki mərkəz də gələn il istifadəyə verilməlidir.

Qarşımızda duran əsas məsələlər bundan ibarətdir. Yenə də deyirəm, ilin birinci rübü ümidvericidir, bir daha onu göstərir ki, həm proqnozlarımız yerinə yetirilir, həm siyasətimiz uğurludur. Elə etməliyik ki, cari ilin sonuna qədər bu müsbət dinamikanı saxlayaq, ölkəmizi daha da gücləndirək. Sağ olun.

# Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

## Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü qeyd edilib



Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü günüdür. Artıq 14-cü ildir ki, qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü Azərbaycanın hər yerində olduğu kimi, dünya ölkələrində də geniş qeyd edilir. Ölkəmizin bütün bölgələrində bu əlamətdar gün – Azərbaycan xalqının xilaskarı, müasir müstəqil dövlətimizin banisi, respublikamızı sarsılmaz, dönməz yüksəliş yoluna çıxarmış əbədi inkişaf strategiyasının müəllifi ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə silsilə tədbirlər keçirilir, dahi şəxsiyyətin Vətən və dövlət qarşısındakı xidmətləri minnətdarlıqla xatırlanır. Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, eləcə də diasporumuzun təmsilçiləri ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə tədbirlər keçirərək görkəmli siyasi xadimin zəngin və çoxşaxəli fəaliyyətini, Vətən və xalq qarşısındakı xidmətlərini geniş təbliğ edirlər.

Xalqımızın xilaskar oğlunun hər doğum günündə olduğu kimi, bu il mayın 10-da da səhər tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana üz tuturlar. Ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, təzə-tər güllər qoyulur, əziz xatirəsi dərin ehtiramla yad edilir, ruhuna dualar oxunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, Ulu öndərin doğmaları və yaxınları xalqımızın xilaskar oğlunun doğum günündə onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, ulu öndərin xatirəsini ehtiramla andı.





Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.

# Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə aksiyasında iştirak edib

## Ağacəkmə aksiyası keçirilib



Mayın 10-da Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Qala-Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə kampaniyasında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Azərbaycanda ekoloji vəziyyətin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərlə bağlı məlumatları əks etdirən stendlərlə tanış oldular.

Ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırov Prezident İlham Əliyevə 2008-2017-ci illərdə salınan yaşıllıqlar barədə məlumat verdi. Bildirildi ki, dövlətimizin başçısının tapşırıqlarına və tövsiyələrinə uyğun olaraq, bu illərdə ölkədə ümumilikdə 5 milyon 200 minə yaxın ağac əkilib. Həmin ağacların əkildiyi sahələr damcılı suvarma sistemi ilə təchiz edilib. Əsasən zeytun, badam, nar, innab, püstə, qoz və fındıq ağaclarının əkilməsinə daha çox üstünlük verilib. Təkcə bu ilin ötən dövründə ölkədə aqrobağların yaradılması məqsədilə 1 milyondan çox aqrar əhəmiyyətli ağaclar əkilib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkdilər.

Mayın 10-da Qala-Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq massivində 9 minə yaxın aqrar əhəmiyyətli və digər növ ağaclar əkildi.

Dövlətimizin başçısı və birinci xanım ağacəkmə kampaniyasının iştirakçıları ilə xatirə şəkilləri çəkdirdilər.

Bütün bunlar bir daha təsdiqləyir ki, ümummilli lider Heydər Əliyevin ölkəmizdə ekologiyanın qorunması ilə bağlı əsasını qoyduğu ənənə bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təsadüfi deyil ki, ölkəmizdə reallaşdırılan milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri ətraf mühitin mühafizəsini və insanların sağlam təbii mühitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Bunun bariz nümunəsi Prezident İlham Əliyevin 2010-cu ili ölkədə "Ekologiya İli" elan etməsi olub. Dövlətimizin başçısı neftlə və digər istehsalat tullantıları ilə çirklənmiş torpaqların, lay suları altında qalan ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşıb. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı əməli işlər görülüb, ölkədə milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıb. Bir vaxtlar neft tullantıları ilə çirklənən indiki "Ağ şəhər" və digər ərazilərdə görülən işlərin nəticəsində neft çöküntüləri təmizlənib. Bu ərazilər paytaxtın müasir yaşayış və mədəniyyət komplekslərinə, Prezident İlham Əliyevin dediyi kimi, müasir ekoloji layihələrə çevrilib. Bütün bunlar ətraf mühitin qorunmasına, xüsusilə də vətəndaşların sağlam mühitdə yaşamasına xidmət edir. Ekoloji vəziyyətin yaxşılaşdırılması üçün tədbirlərin







görülməsi, həmçinin qanunsuz ağac kəsilməsinə qarşı dövlətimizin başçısının nümayiş etdirdiyi qətiyyətli mövqenin təməlində isə yalnız bir amal dayanıb: insanların sağlamlığının qorunması.





Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yaşıllıqların artırılmasına, mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var.

Qeyd edək ki, müxtəlif vaxtlarda həyata keçirilən ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə edib. Bu gün vətəndaşların ağacəkmə aksiyalarında, yaşıllıqlar salınmasında, şəhər və rayonlarımızda təmizlik işlərində fəal iştirakı bunun əyani göstəricisidir. Ekspertlərin fikrincə, bu gün Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunə ola bilər.

# Prezident İlham Əliyev ümummilli liderin anadan olmasının 94-cü ildönümünə və Heydər Əliyev Fondunun fəaliyyətinin 13 illiyinə həsr olunan təntənəli mərasimdə iştirak edib

**Ümummilli liderin anadan olmasının 94-cü ildönümünə və Heydər Əliyev Fondunun fəaliyyətinin 13 illiyinə həsr olunan təntənəli mərasim keçirilib**



Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə və Heydər Əliyev Fondunun fəaliyyətinin 13 illiyinə həsr olunan təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi

– Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümüdür. Bu gün Azərbaycan xalqı Ulu Öndərin əziz xatirəsinə bir daha dərin ehtiramını ifadə edir. Heydər Əliyev dahi şəxsiyyətdir, böyük liderdir, uzaqgörən, cəsarətli siyasi xadimdir. O, bütün dövrlərdə Azərbaycan xalqına sədaqətlə xidmət edirdi, xalq üçün yaşayırdı, yaradırdı. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna qoymuşdur. Bu, onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev həmişə ən düzgün siyasət aparmış, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin etmişdir. 1969-cu ildə ilk dəfə sovet Azərbaycanına rəhbərliyə başlayanda ovaxtkı Azərbaycan Respublikasının sosial-iqtisadi göstəriciləri demək olar ki, sovet məkanında ən aşağı səviyyədə idi. Heydər Əliyevin rəhbərliyi ilə 13 il ərzində Azərbaycan Respublikası ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə qədər yol keçmişdir və əgər Sovet İttifaqında Rusiya Federasiyasından başqa iki özünü təmin edən və donor respublika var idisə, onlardan biri Azərbaycan idi.




Məhz onun rəhbərliyi və təşəbbüsü ilə bir çox önəmli layihələr icra olunmuşdur, kənd təsərrüfatı sürətlə inkişaf etmişdir. Kənddə yaşayanlar öz həyat səviyyələrini yaxşılaşdıra bilmişlər. O vaxt Azərbaycanda sənayenin inkişafı çox sürətlə gedirdi. Neft sənayesi inkişaf edirdi. Bir çox önəmli infrastruktur layihələri icra edilmişdir ki, bu gün də müstəqil Azərbaycan üçün onların böyük əhəmiyyəti vardır. Heydər Əliyevin rəhbərliyi ilə o vaxt Azərbaycanda rüşvətxorluğa, korrupsiyaya qarşı çox ciddi mübarizə aparılırdı və bu göstəriciyə görə də Azərbaycan sovet məkanında fərqlənirdi.

Bir sözlə, 1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə respublika çox böyük uğurlu yol keçmişdir. Heydər Əliyevin fəaliyyəti sovet rəhbərliyi tərəfindən də yüksək qiymətləndirilirdi. Təsadüfi deyil ki, 1982-ci ildə hakimiyyətə gəlmiş Yuri Andropov ilk təyinatını Heydər Əliyevi Moskvaya dəvət etməklə etdi. Yuri Andropov hakimiyyətə geniş islahatlar gündəliyi ilə gəlmişdi. Nizam-intizamın möhkəmləndirilməsi, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizənin aparılması, iqtisadi islahatlar o proqramın tərkib hissələri idi. Əlbəttə ki, Heydər Əliyev kimi böyük şəxsiyyət, lider bütün bu yeni meyarlara tam cavab verirdi.

Bakıdan Moskvaya gedəndən sonra Heydər Əliyev üçün yeni dövr başladı. Heydər Əliyev Sovet İttifaqının rəhbərliyində ən yüksək vəzifələrdən birini tuturdu, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büronun üzvü idi. Onun kurasiyasında bir çox sahələr var idi ki, o sahələr Heydər Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf etməyə başlamışdı. Əlbəttə ki, Azərbaycanda mövcud vəziyyət, Azərbaycanın problemləri onu daim maraqlandırırdı və o, çalışırdı ki, yeni imkanlardan istifadə edərək Azərbaycan Respublikasına kömək etsin. O vaxt Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı önəmli qərarlar qəbul edilmişdir.

Ancaq əfsuslar olsun ki, Heydər Əliyev Moskvaya gedəndən sonra Azərbaycanda işlər yavaş-yavaş tənəzzülə uğramağa başladı. Bu tənəzzül özünü müxtəlif sahələrdə büruzə verirdi. Artıq o dinamika hiss olunmurdu. Ancaq Heydər Əliyevin müəyyənləşdirdiyi yol bu dövrdə də Azərbaycanın inkişafına xidmət edirdi və yeganə təkanverici qüvvə idi.

Bildiyiniz kimi, 1987-ci ildə Heydər Əliyev tamamilə əsassız ittihamlarla bütün vəzifələrdən kənarlaşdırıldı. Bunun səbəbləri haqqında geniş ictimaiyyətdə kifayət qədər məlumat var. Sovet rəhbərliyində ən fəal, işgüzar və nəticə verən şəxs heç bir əsas olmadan bütün vəzifələrdən kənarlaşdırıldı. Burada əlbəttə ki, şəxsiqərəzlik məsələləri öz rolunu oynamışdır. Heydər Əliyev böyük şəxsiyyət idi, həmişə bütün məsələlərlə bağlı öz mövqeyini müdafiə edirdi, o vaxt yenidənqurma adı altında aparılan bir çox işlərə tənqidi yanaşırdı, onları qəbul etmirdi. Bilirdi ki, onların heç bir səmərəsi olmayacaq, əksinə, bunlar çox böyük zərər gətirə bilər. Əlbəttə ki, belə bir müstəqil şəxsiyyətin, özü də

sovet məkanında böyük nüfuza malik olan şəxsiyyətin mövcudluğu o vaxt öz imkanlarına inanmayan, təsadüf nəticəsində hakimiyyətin zirvəsinə qalxan şəxsin xoşuna gələ bilməzdi. Bir də əlbəttə ki, Heydər Əliyevin istefasını ona qarşı olan paxıllıq, qısqanclıq və digər mənfi xüsusiyyətlər şərtləndirdi. Onu da qeyd etməliyəm ki, Heydər Əliyevə qarşı o vaxt sovet məkanında formalaşan erməni qruplaşmaları da rol oynamışdır. Əfsuslar olsun ki, burada, Azərbaycanda donos, anonim məktub yazanlar, vaxtilə rüşvətxorluğa, digər pozuntulara görə onun tərəfindən cəzalandırılan ünsürlər də öz məkrli məktubları ilə Heydər Əliyevə zərbə vurmaq, ondan qisas almaq üçün çirkin əməllər törədirdilər.

Heydər Əliyevin istefasından sonra Azərbaycanın problemləri başladı. İki həftə keçmədən erməni separatçıları məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməlidir. Beləliklə, Dağlıq Qarabağ probleminin əsası qoyuldu, birinci addım atıldı. Əfsuslar olsun ki, ovaxtkı sovet rəhbərliyi həmin separatçıların fəaliyyətinə heç bir məhdudiyyət qoymadı, heç bir reaksiya vermədi və nəticə etibarilə bu meyillər Sovet İttifaqının dağılmasına gətirib çıxardı. Əlbəttə, Sovet İttifaqının dağılmasının səbəbləri kifayət qədər çoxdur. Ancaq onun əsas səbəbləri əlbəttə ki, yanlış milli siyasət olmuşdur. Sovet İttifaqını böyük dövlət kimi saxlayan məhz düzgün milli siyasət olub. Ancaq 1985-ci ildən sonra bu siyasətə cavabdehlik daşıyan şəxslər ya öz məsuliyyətini dərk edə bilmirdilər, ya da ki, qəsdən çox ziyanlı addımlar atmışlar. Onların arasında Dağlıq Qarabağdakı erməni millətçilərinin, separatçılarının vaxtında cəzalandırılmaması məsələsi xüsusi yer tutur. Dağlıq Qarabağ münaqişəsindən sonra digər yerlərdə də toqquşmalar baş verdi və nəticə etibarilə Sovet İttifaqı dağıldı.

Heydər Əliyev 1990-cı ilə qədər pensiyaçı həyatını yaşayırdı. 1990-cı ildə xalqımıza qarşı qanlı 20 Yanvar cinayəti törədildi. Bu cinayətin də başında dayanan məhz ovaxtkı sovet rəhbəri olmuşdur. Əfsuslar olsun ki, bu günə qədər o, bu və digər cinayətlərə görə məsuliyyət daşımır və bu məsuliyyətdən yayına bilmişdir.

Heydər Əliyev xalqımız üçün ağır anda yenə də göstərdi ki, o, xalqla bir yerdədir. Yaxşı yadımdadır, 1990-cı il yanvarın 21-də o, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə getmişdi, – mən fəxr edirəm ki, onun yanında idim, – və orada böyük bir izdiham yaranmışdı. Oraya yığışan azərbaycanlılar öz etirazlarını hansısa formada ifadə etməyə çalışırdılar. Biz oraya yaxınlaşanda sakitlik idi. Yəni, insanlar sadəcə olaraq nümayəndəliyin önündə dayanmışdılar, sanki nəyisə gözləyirdilər və Heydər Əliyev gəldi, onlar onun simasında yenə də lideri gördülər. Baxmayaraq ki, o, heç bir vəzifə daşımırdı, 3 il idi pensiyaçı həyatı yaşayırdı. Eyni zamanda, ona qarşı həm sovet, həm də Azərbaycan mətbuatında təşkil edilmiş çirkin, böhtan xarakterli yazılar da gedirdi. Ona qarşı çox ədalətsiz və çirkin kampaniya aparılırdı. Ancaq insanların qəlbində Heydər Əliyev milli lider və güclü şəxsiyyət kimi yaşayırdı. İnsanlar onu görəndə kənara çəkildilər və biz açılan o canlı dəhlizlə binaya daxil olduq. Mətbuat konfransı təşkil edildi və Heydər Əliyev sovet rəhbərliyini, onun siyasətini qətiyyətlə pislədi, Azərbaycan xalqına başsağlığı verdi və sovet hakimiyyətinin hərəkətlərinə öz kəskin münasibətini bildirdi.

Deyə bilərəm, Sovet İttifaqında bəlkə də ilk hadisə idi ki, sovet rəhbərliyi, onun başında dayanan şəxs açıq mətbuat konfransında belə pislənildi. Onu da qeyd etməliyəm ki, Sovet İttifaqının dağılmasına hələ 2 il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı dağılacaq.

Yəni, bu addımı atmaqla Heydər Əliyev, ilk növbədə, xalqla bir yerdə olduğunu, cəsarətini, milli ruhunu göstərdi. Göstərdi ki, onun üçün Azərbaycan xalqının maraqları hər şeydən üstündür. Göstərdi ki, ən ağır faciəvi günlərdə o, xalqla bir yerdədir. Təbii ki, ondan sonra ona qarşı aparılan kampaniya daha da eybəcər formalar almışdır. Ona qarşı yenə də mətbuat kampaniyaları aparılırdı, təzyiq göstərilirdi. Bizdə olan məlumata görə, sovet rəhbərliyi onun həbsi ilə bağlı qərar da qəbul etmişdi.

Ondan sonrakı tarixi Azərbaycan ictimaiyyəti yaxşı bilir. Heydər Əliyev Kommunist Partiyasının sıralarından çıxıb Azərbaycana gəldi. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi də sovet rəhbərliyinin göstərişi ilə oturub-dururdu və Heydər Əliyevə qarşı Bakıda da ədalətsizlik göstərilmişdir. Təşkil edilmiş insanlar aeroportda mitinq keçirirdilər, onun gəlişinə maneçilik törətməyə çalışırdılar və digər xoşagəlməz, insana yaraşmayan addımlar da atılmışdır.

Heydər Əliyev Naxçıvana üz tutdu və bu da hesab edirəm ki, tarixi zərurət idi. Çünki o vaxt Naxçıvan da təhlükə altında idi. Erməni qəsbkarları Naxçıvana da öz çirkin əllərini uzatmışdılar. Tam əminliklə deyə bilərəm ki, əgər o vaxt Heydər Əliyev Naxçıvanda olmasaydı, bəlkə Naxçıvan da işğal oluna bilərdi. O, Naxçıvanı qorudu, naxçıvanlılar da onu qorudular. O vaxt Naxçıvanda da qanlı döyüşlər gedirdi və özünümüdafiə qüvvələri erməni qəsbkarlarını yerinə oturtdular.

Heydər Əliyev Naxçıvanda yaşayırdı, işləyirdi. Xalq onu dəstəkləyirdi və o da xalq üçün yaşayırdı. O vaxt Naxçıvanda önəmli qərarlar qəbul edilmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı rəsmi bayraq kimi qəbul edildi. Sovet İttifaqının saxlanmasına dair referendum Naxçıvanda keçirilmədi. Naxçıvan Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı. Yəni, bu, müstəqilliyə aparan ilk addımlar idi. Naxçıvanda Yeni

Azərbaycan Partiyası öz birinci təsis konfransını keçirdi və beləliklə, Azərbaycanda siyasi sistem formalaşdı. Əlbəttə ki, xalq da bunu bilirdi, görürdü, həm Naxçıvanda, həm Bakıda. Xalq Heydər Əliyevin Bakıya gəlməsini səbirsizliklə gözləyirdi.

Sonra AXC-Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti nəticəsində ölkəmiz çox ağır problemlərlə üzləşdi. Şuşa, Laçın, Kəlbəcər rayonları işğal altına düşdü. Beləliklə, Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yarandı. AXC-Müsavat cütlüyü ölkənin ərazi bütövlüyünü müdafiə etmək əvəzinə, Azərbaycanda vətəndaş müharibəsinə start verdi. Gəncəni bombalayırdılar. Orada torpaqlar əldən gedirdi, bunlar da burada öz laxlayan hakimiyyətini saxlamaq üçün Gəncə şəhərini bombalayırdılar. Əlbəttə ki, Azərbaycan xalqı o antimilli hakimiyyətə dözə bilməzdi, cəmi bir il dözə bildi və 1993-cü ildə Heydər Əliyevi hakimiyyətə dəvət etdi.

O da bir dönüş nöqtəsi idi. Çünki Azərbaycan çox ağır vəziyyətlə üzləşmişdi. Həm siyasi böhran, hərbi böhran, iqtisadi tənəzzül yaşanırdı və əlbəttə ki, ölkəmizin gələcək taleyi çox qaranlıq idi. Xalq o ağır günlərdə yeganə nicat yolunu Heydər Əliyevdə görürdü və o da xalqın etimadını həmişə olduğu kimi doğrultdu. Onun rəhbərliyi ilə aparılan siyasət qısa müddət ərzində Azərbaycanda sabitliyə, inkişafa gətirib çıxarmışdır. Baxmayaraq ki, hələ 1994-cü və 1995-ci illərdə iki dəfə dövlət çevrilişinə cəhd göstərilmişdir və o cəhdin də qarşısını Azərbaycan xalqı aldı. Heydər Əliyev o vaxt da liderlik keyfiyyətlərini nümayiş etdirib, xalqa televiziya vasitəsilə müraciət edib, onu dövləti müdafiə etməyə dəvət edib və onun müraciətinə cavab olaraq on minlərlə insan meydanlara, küçələrə, Prezident Administrasiyasının önünə toplaşdı və beləliklə, həm 1994-cü ildə, həm 1995-ci ildə dövlət çevrilişinə cəhd alınmadı.

1996-cı ildən isə artıq sabitlik, inkişaf dövrü başlayır. Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev bir çox önəmli təşəbbüslər irəli sürdü. O vaxt dövlətçiliyin əsasları qoyuldu. O vaxt azərbaycançılıq ideologiyasının təqdimatı oldu və xalq da buna çox müsbət yanaşdı və bu gün də azərbaycançılıq fəlsəfəsi bizim mühüm ideoloji əsasımızdır. O vaxt ciddi iqtisadi islahatlar aparılmışdır. Azərbaycan beynəlxalq təcriddən çıxa bilmişdir. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. 1994-cü ildə "Əsrin kontraktı" imzalanmışdır. Bu gün də "Əsrin kontraktı"nın əhəmiyyətini hər bir Azərbaycan vətəndaşı gündəlik həyatda görür. Abadlaşan şəhərlər, gözəlləşən ölkəmiz, yaradılan infrastruktur və inkişafda olan Vətənimiz, bunun əsas səbəbi o vaxt Azərbaycana böyük həcmdə xarici sərmayənin gətirilməsi idi.

1993-2003-cü illər sabitlik, inkişaf illəri olmuşdur. Heydər Əliyev bir daha göstərdi ki, ən ağır, böhranlı vəziyyətdən çıxış yolu var. O da düşünülmüş siyasətdir, cəsarətdir, müstəqil siyasət və addımlardır.

Heydər Əliyev 2003-cü ildə Azərbaycan xalqına son müraciətində gördüyü işlər haqqında danışmışdır və eyni zamanda, demişdir ki, hələ onun bir çox planları var. O, öz ümidini ifadə etmişdir ki, onun görə bilmədiyi işləri onun davamçıları görəcək və belə də oldu.

2003-cü ildən bu günə qədər Heydər Əliyev siyasəti yaşayır, yeni formalarla zənginləşir, Azərbaycan inkişaf edir. Heydər Əliyev Azərbaycana sabitlik gətirdi. Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir və bizdə olan sabitlik xalqın iradəsinə əsaslanır. Sabitliyin mənbəyi də Azərbaycan xalqının iradəsidir. 2003-cü, 2008-ci, 2013-cü illərdə keçirilmiş prezident seçkiləri bir daha Azərbaycan xalqının iradəsini ifadə etdi. Keçən il keçirilmiş referendum da Azərbaycan xalqının mütləq əksəriyyəti tərəfindən dəstəkləndi. Bu gün xalq-iqtidar birliyi ən yüksək səviyyədədir və sabitliyin əsasını qoyan, bax, bu amillərdir.

Heydər Əliyev 1993-cü ildə Azərbaycanda dərin siyasi islahatlara start verdi. O, başqa yol da seçə bilərdi. Ancaq o, həmişə deyirdi ki, bizim yolumuz demokratik inkişaf yoludur. Siyasi islahatların aparılması ilə Azərbaycanda demokratiyanın inkişafına çox böyük təkan verilmişdir. Bu gün Azərbaycanda bütün azadlıqlar var. Azərbaycan cəmiyyəti azadlıq şəraitində yaşayır, siyasi islahatlar davam etdirilir. Biz demokratik yolumuza dəfələrlə öz sadiqliyimizi göstərmişik.

Heydər Əliyev 1993-cü ildə uğurlu xarici siyasət aparmağa başlamışdır. Bu siyasət nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxa bilmişdir. O vaxta qədər Azərbaycan haqqında dünyada, ümumiyyətlə, məlumat yox idi, ya da ki, erməni lobbiçiləri dünya ictimaiyyətinə ölkəmiz haqqında yanlış, təhrif edilmiş məlumat çatdırırdılar. Heydər Əliyev o informasiya blokadasını dağıda bildi. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan bir ölkədir. Azərbaycanda bir çox önəmli beynəlxalq tədbirlər, forumlar keçirilir. Azərbaycan 155 ölkənin dəstəyi ilə dünyanın ən ali orqanı olan BMT Təhlükəsizlik Şurasına üzv olmuşdur. Biz bu istiqamətdə də Heydər Əliyevin siyasətinə sadiqliyimizi göstərdik, onun siyasətini davam etdirdik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda da biz Heydər Əliyev kimi prinsipial mövqeyimizi müdafiə edirik və bu mövqe gündən-günə güclənir. 2003-cü ildən bu günə qədər aparıcı beynəlxalq təşkilatların qərarları, qətnamələri də bunu təsdiqləyir. Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı. Bütün bu təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi əks etdirən ədalətli qərarlar, qətnamələr qəbul etmişlər və Ermənistanın

işğalçı siyasətini pisləmişlər. Artıq bu illər ərzində Xocalı soyqırımını dünyanın bir çox ölkələri rəsmən soyqırımı kimi tanıyıb və bu yaxınlarda Dağlıq Qarabağda keçirilən qondarma "referendum"u heç kim tanımayıb. Minsk qrupuna həmsədrlik edən ölkələr bunu bəyan etdilər ki, bu "referendum"u tanımırlar. Qonşu ölkələr eyni bəyanatlar verdilər, beynəlxalq təşkilatlar bu bəyanatlarla bir daha göstərdilər ki, onlar ölkəmizin ərazi bütövlüyünə hörmətlə yanaşırlar və Dağlıq Qarabağı, bu qondarma qurumu tanımırlar və əminəm ki, tanımayacaqlar.

Ordu quruculuğu Heydər Əliyev üçün prioritet məsələ idi. Çünki o, hakimiyyətə gələndə bizdə nizami ordu yox idi. Bizim əsas problemimiz də bundan qaynaqlanırdı. Ordu quruculuğu prosesi Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün ordu quruculuğu prosesi uğurla gedir. Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bunu bütün beynəlxalq reytinqlər də təsdiqləyir. Həm maddi-texniki təminat, təchizat, döyüş qabiliyyəti, vətənpərvərlik ruhu baxımından bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bunu keçən ilin aprel ayında baş vermiş toqquşma da göstərdi. Qəhrəman Azərbaycan əsgər və zabitləri işğal edilmiş torpaqların bir hissəsini – Ağdərə – keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin bir hissəsi, – Füzuli, Cəbrayıl rayonlarının torpaqlarını işğalçılardan azad etdilər, orada Azərbaycan bayrağı qaldırıldı. Budur, bugünkü Azərbaycan Ordusu. Biz Ordumuzla fəxr edirik və heç kimə imkan verə bilmərik ki, Ordumuzun uğurlarına kölgə salsın.

Əfsuslar olsun ki, ölkəmizdə fəaliyyət göstərən beşinci kolon və xüsusilə bu gün özünü müxalifət kimi göstərmək istəyən antimilli satqın ünsürlər dövlətimizin ən müqəddəs dəyərlərinə də zərbə vurmağa çalışırlar. Çalışırlar, amma heç nə alınmır. Ancaq özlərini ifşa edirlər. Bir daha göstərirlər ki, onlar Azərbaycan dövlətinin düşmənləridir, bir daha göstərirlər ki, dövlətə nə qədər pis olsa, onlar üçün bir o qədər yaxşıdır. Azərbaycan xalqı o antimilli ünsürləri 1993-cü ildə hakimiyyətdən qovub və bu günə qədər onların əlindən bir şey gəlmir. Xaricdən təlimat alanda fəallaşırlar, təlimat almayanda oturub o təlimatı gözləyirlər. Onların mitinqlərinə, əgər belə demək mümkündürsə, öz qohumlarından başqa heç kim gəlmir. Heç qohumları da gəlmir. Yəni, tamamilə marginallaşıb və bir dəstə zəhər buraxan, özünü müxalifət adlandıran ünsür, əlbəttə ki, bizim işimizə təsir göstərə bilməz. Ancaq çalışırlar ki, bizim inkişafımızı, dövlətimizin uğurlarını, Ordumuzu ləkələsinlər. Bizim Ordumuz keçən il göstərdi ki, nəyə qadirdir və Azərbaycan Ordusu işğal edilmiş torpaqları hər an azad etməyə qadirdir. Ordu quruculuğunun təməlini Heydər Əliyev qoymuşdur. Biz isə onun davamçılarıyıq, bu yolla gedirik və Ordumuz üçün nə lazımdırsa onu da edəcəyik.

Heydər Əliyev dərin iqtisadi islahatların başlanmasına təkan verdi. Bu gün Azərbaycan iqtisadiyyatı bütün parametrlərə görə bütün ölkələr üçün nümunə ola bilər. Son illər ərzində – 2004-cü ildən bu yana ümumi daxili məhsul 3 dəfə artıb, 1 milyon 700 min yeni iş yeri yaradılıb, bütün infrastruktur demək olar ki, yeniləşib. Xarici borc ümumi daxili məhsulun 20 faizini təşkil edir. Valyuta ehtiyatlarımız xarici borcdan beş dəfə çoxdur. Valyuta ehtiyatlarımız təxminən ümumi daxili məhsula bərabərdir. Davos Dünya İqtisadi Forumu rəqabətqabiliyyətliliyinə görə iqtisadiyyatımızı 37-ci yerə layiq görüb. İnkişafda olan ölkələrin reytinqinə gəldikdə isə Davos Forumu bizi 1-ci, 2-ci yerə layiq görür. Budur, bu gün Azərbaycan iqtisadiyyatı və bizim uğurlu iqtisadi siyasətimiz.

Bunu sosial siyasətə də aid etmək olar. Məktəblər, xəstəxanalar. Hər il beş milyondan çox insan pulsuz tibbi müayinədən keçir. Məncə, heç bir başqa ölkədə belə bir praktika yoxdur. Bizim dövlətimizin sosial siyasəti çox uğurludur. Həmişə demişəm ki, biz bütün işləri xalq üçün edirik və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

Heydər Əliyevin rəhbərliyi ilə uğurlu neft siyasəti aparılır. Heydər Əliyevin neft strategiyası bu gün də davam etdirilir. Onun öz əlləri ilə təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verildi. Ondan sonra Bakı-Tbilisi-Ərzurum, daha sonra demək olar ki, həmin xətlə gedən Bakı-Tbilisi-Qars dəmir yolu, bu gün Cənub Qaz Dəhlizi. Azərbaycanın qaz yataqları dünya ilə birləşir. Biz dənizləri birləşdirdik. Xəzər dənizini Aralıq dənizi ilə, Qara dənizlə, Adriatik dənizi ilə birləşdirdik. Heydər Əliyevin neft strategiyası bu gün davam etdirilir.

Bakı şəhəri bu gün dünya miqyasında ən gözəl şəhərlərdən biridir. Bakının müasir rəmzləri yaradıldı. Onlardan biri də ulu öndərin adını daşıyan bu möhtəşəm Heydər Əliyev Mərkəzidir. Bu gün Heydər Əliyev Mərkəzinin açılışının beşinci ildönümüdür. Beş il bundan əvvəl biz Heydər Əliyev Mərkəzində ilk görüşü keçirmişdik. Bu, bir müstəqillik, inkişaf rəmzidir. Mənim fikrimcə, müasir memarlıq əsərləri arasında Heydər Əliyev Mərkəzi birinci yerdədir.

Yəni, dediyim sözlər bir daha onu göstərir ki, Ulu öndər həmişə olduğu kimi, xalqa son müraciətində də düzgün proqnoz verdi. O, inanırdı və bildirdi ki, onun davamçıları onun görə bilmədiyi işləri görəcəklər, belə də oldu. Biz – onun davamçıları bununla fəxr edirik. Fəxr edirik ki, onun ideyalarını yaşadırıq. Fəxr edirik ki, müstəqilliyimizi möhkəmləndiririk və Heydər Əliyev yolu ilə gedirik və gedəcəyik. Sağ olun.

***

Ulu öndər Heydər Əliyevin fəaliyyətinə həsr olunan videoçarx nümayiş etdirildi.

Sonra Heydər Əliyev Mükafatının təqdimetmə mərasimi oldu.

Əvvəlcə Azərbaycanın Xalq Şairi Nəriman Həsənzadənin Heydər Əliyev Mükafatı ilə təltif olunması haqqında dövlətimizin başçısının Sərəncamı oxundu.

Prezident İlham Əliyev mükafatı Nəriman Həsənzadəyə təqdim etdi.

Heydər Əliyev Mükafatına görə minnətdarlığını bildirən Xalq Şairi Nəriman Həsənzadə dedi:

– Cənab Prezident, biz Sizin ədəbiyyatımıza, yaradıcı ziyalılarımıza göstərdiyiniz qayğını, diqqəti həmişə görmüşük, hiss etmişik. Cənab Prezident, biz Sizinlə fəxr edirik. Biz Sizin daxili, xarici siyasətinizi müdafiə edirik. Ulu Öndərimiz çıxışlarının birində deyib ki, Azərbaycan dünyaya günəş kimi doğacaq. Cənab Prezident, Siz bizim günəşimizsiniz. Ulu öndərimizi görüşlərin birində qarşılayanda mən bir şeir söyləmişəm. Həmin şeiri ulu öndər özü alqışlayıb. İcazə verin, o şeiri burada oxuyum:

Ey eşqim, vüqarım, sənətim, canım,
Ana çağırdığım, Azərbaycanım.
Açıb qollarımı mehri-ülfətlə,
Bağrıma basıram səni hörmətlə.
Sən de, ey adı ilə fərəhləndiyim,
Şanlı sədasıyla ürəkləndiyim.
Xalqımın istəkli, əziz övladı,
Şeirimin, sözümün qolu, qanadı.
Sənin hər istəyin, sənin hər arzun
Həyatda qoy şöhrət çələngi olsun.
Qaldırdın adını bu məmləkətin,
Andın müqəddəsdir, südün təmizdir.
Mənim taleyimdir sənin şöhrətin,
Tarixdə tarixi mərhələmizdir.
Gəlin, addımlayaq sülh cərgələrlə,
Gəlin, qabaqlayaq dövrü zamanı.
Daim alqışlayaq yalnız zəfərlə,
Ana dediyimiz Azərbaycanı!

Sizə, cansağlığı arzu edirəm, cənab Prezident. Sizə minnətdarlığımı bildirirəm.

***

Sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilmiş "Qızıl çinar" beynəlxalq mükafatının 2017-ci il üzrə qalibi elan olundu.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Fondun yeni nəslin kamil insan kimi formalaşmasında əhəmiyyət kəsb edən layihələrinə verdiyi dəstəyə, kütləvi informasiya vasitələrində bəşəri dəyərlərin təbliğində fəal iştirakına görə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar Elm Xadimi, "Şöhrət" ordenli şərqşünas alim Vasim Məmmədəliyevə "Qızıl çinar" beynəlxalq mükafatını təqdim etdi.

Mükafata görə təşəkkürünü bildirən akademik Vasim Məmmədəliyev dedi:

– Hörmətli cənab Prezident.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım.

Sözün doğrusu, bu qəfil məlumatdan özümü bir qədər itirdim. Çünki heç ağlıma gəlməzdi ki, mənim o kiçik əməyim, özüm üçün normal bir fəaliyyət dairəsi hesab etdiyim o kiçik əmək bu gün bizim dövlətimiz, bizim möhtərəm Prezidentimiz, bizim Birinci vitse-prezidentimiz tərəfindən belə yüksək mükafatla qiymətləndiriləcək. Mən buna görə Sizlərə çox minnətdaram.

Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım, bu yüksək mükafatı mənə verdiyiniz üçün Sizə dərin hörmət və ehtiramımı bildirirəm.

Bir şeyi də qeyd etmək istəyirəm ki, Azərbaycanda bu gün çox gözəl siyasi, mənəvi iqlim var. Azərbaycanda insanlar arasında çox gözəl ünsiyyət var. Xalqla iqtidar arasında böyük birlik var. Bunların hamısının səbəbkarı bizim hörmətli Prezidentimiz və hörmətli birinci xanımımızdır. Mən həmişə bir şeyə fikir vermişəm ki, Mehriban xanım çox səmimidir, – təbii ki, bu məziyyət doğulduğu, tərbiyə aldığı ailədən gəlir, – mədəniyyətin, elmin hamilərindən biridir. Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyatı, yaradıcılığı, fəaliyyəti bu gün Mehriban xanımın təşəbbüsü ilə araşdırılır və cəmiyyətə təqdim olunur. Cəmiyyət bilir ki, hər hansı bir şəxs müəyyən bir iş görürsə o, Mehriban xanımın nəzərindən qaçmayacaq. Necə ki, mənim kiçik fəaliyyətim də bu gün onun nəzərindən qaçmayıb və mən belə bir mükafata layiq görülmüşəm.

Onu da deyim ki, xalq bizim möhtərəm Prezidentimiz İlham Əliyevi və Mehriban xanım, Sizi çox sevir. Xalqın gözü tərəzidir. Xalq Sizin böyük xidmətlərinizi, fəaliyyətinizi çox yüksək qiymətləndirir. Bu da təbiidir. Mehriban xanım Azərbaycan mədəniyyətinin, ədəbiyyatımızın, dilimizin, musiqimizin, rəngkarlığımızın, bütün incəsənətimizin nümayəndələrinin xidmətlərini sözün həqiqi mənasında görür, bilir və onları nə cür lazımdırsa mükafatlandırır.

Mən hesab edirəm ki, Siz xalqımızın maarifpərvər xanımlarının ənənələrini bu gün uğurla davam etdirirsiniz. Bu, müasir dövrdə incəsənətimizə, elmimizə, ədəbiyyatımıza, musiqimizə Sizin tərəfinizdən verilən böyük qiymətdir. Xalqımız Sizi həmişə çox sevəcək, çünki Siz buna layiqsiniz. Mən inanıram ki, Siz bizim hörmətli Prezidentimizlə qoşa qanad olaraq Azərbaycanı bundan sonra da yeni-yeni yüksəkliklərə qaldıracaqsınız.

Diqqətinizə görə təşəkkür edirəm.

***

Təntənəli mərasim bədii hissə ilə davam etdi.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## Bakı şəhərində keçirilən IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının idmançılarını və onların məşqçilərini Bakı şəhərində keçirilən IV İslam Həmrəyliyi Oyunlarında ən yüksək nəticələr göstərməyə həvəsləndirmək məqsədi ilə **qərara alıram:**

**1.** Bakı şəhərində keçirilən IV İslam Həmrəyliyi Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

**1.1.** birinci yeri tutan hər bir idmançıya 100 min manat, onun şəxsi məşqçisinə 50 min manat;

**1.2.** ikinci yeri tutan hər bir idmançıya 50 min manat, onun şəxsi məşqçisinə 25 min manat;

**1.3.** üçüncü yeri tutan hər bir idmançıya 30 min manat, onun şəxsi məşqçisinə 15 min manat.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 may 2017-ci il.

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ OLİMPİYA KOMİTƏSİ PREZİDENTİNİN SƏRƏNCAMI

## Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərini Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən IV İslam Həmrəyliyi Oyunlarında ən yüksək nəticələr göstərməyə həvəsləndirmək məqsədi ilə **qərara alıram:**

IV İslam Həmrəyliyi Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

– birinci yeri tutan hər bir idmançıya 50 min manat, onun məşqçisinə 25 min manat;

– ikinci yeri tutan hər bir idmançıya 30 min manat, onun məşqçisinə 15 min manat;

– üçüncü yeri tutan hər bir idmançıya 20 min manat, onun məşqçisinə 10 min manat.

**İlham Əliyev**
**Azərbaycan Respublikası**
**Milli Olimpiya Komitəsinin Prezidenti**
Bakı şəhəri, 11 may 2017-ci il

# Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunda IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimində iştirak edib

## "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılışı oldu



Mayın 12-də Azərbaycan və onun paytaxtı Bakı səbirsizliklə gözlənilən anın – IV İslam Həmrəyliyi Oyunlarının açılışının həyəcan və sevincini yaşadı.

Tamaşaçılar açılış mərasiminin keçirildiyi Bakı Olimpiya Stadionuna daxil olaraq yerlərini tutdular.

Stadionun VİP tribunasında Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım, "Bakı-2017" İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymin və digər rəsmi şəxslər əyləşmişdilər.

Xatırladaq ki, IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi barədə qərar 2013-cü ilin iyulunda İslam Həmrəyliyi İdman Federasiyasının VIII Baş Assambleyasında qəbul olunub. 2015-ci il sentyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması barədə Sərəncam imzalayıb. Ötən müddətdə Təşkilat Komitəsinin sədri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Oyunlara geniş hazırlıq işləri görülüb. Bakının 16 idman arenasının hər biri yarışlara yüksək səviyyədə hazırlanıb və digər zəruri təşkilati tədbirlər həyata keçirilib. Tam əminliklə demək olar ki, "Bakı-2017" İslamiadanın tarixinə ən möhtəşəm idman bayramı kimi yazılacaq.



Son illər Azərbaycan ilk Avropa Oyunları, Dünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə Dünya Kuboku, "Formula 1" kimi beynəlxalq yarışlara uğurla ev sahibliyi edib. Odlar Yurdu dünyada artıq idman ölkəsi kimi tanınır. "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının uğurunu şərtləndirən digər amil məhz bu sahədə qazanılan zəngin təcrübədir.

Azərbaycanın ev sahibi olduğu İslam Həmrəyliyi Oyunlarında 54 ölkədən 3 mindən çox idmançı, 1000-dən çox komanda rəsmiləri və bir o qədər də texniki nümayəndə iştirak edir. Bu rəqəmlər özlüyündə bir rekorddur. Çünki bu vaxtadək İslam Həmrəyliyi Oyunlarına bu qədər ölkənin qatılması heç vaxt müşahidə olunmayıb.

İdmanın 24 növü üzrə keçirilən yarışlarda atletlər 269 dəst medal uğrunda mübarizə aparacaqlar. Azərbaycanı bu Oyunlarda 425 atlet təmsil edir. Qaliblərə ümumilikdə 1600 medal təqdim ediləcək.

IV İslam Həmrəyliyi Oyunlarını 50-dən çox ölkədə 1 milyarddan çox tamaşaçının izləyəcəyi gözlənilir. Yarışları işıqlandırmaq üçün 1000-dən çox media nümayəndəsi akkreditasiyadan keçib. AZƏRTAC Oyunların rəsmi media tərəfdaşıdır. "Bakı-2017"nin işıqlandırılmasına agentliyin 70-dən çox əməkdaşı cəlb olunub.

Oyunların proqramına daxil edilmiş 165 idman yarışı üçün 500 mindən çox bilet satışa çıxarılıb. Oyunların su səyahətinin, təntənəli açılış və bağlanış mərasimlərinin təşkilinə 31 ölkədən 5 mindən çox mütəxəssis cəlb olunub. Mərasimlərdə 8 ölkədə istehsal olunmuş səhnə avadanlığından istifadə ediləcək. "Bakı-2017"nin 24 beynəlxalq və 17 yerli səfiri, 8 yerli və 5 beynəlxalq sponsoru var. Rəsmi talismanlar – "İncə" və "Cəsur" Azərbaycanın milli sərvəti olan Qarabağ atlarının rəmzləridir.

IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil olan su səyahətinə aprelin 5-də Prezident İlham Əliyevin iştirakı ilə start verilib. Xəzərdən başlayan su səyahəti Azərbaycanın 15 regionunu əhatə etdi.

Prezident İlham Əliyev İƏT-in rəsmi mətbu orqanı olan "OIC Journal" jurnalında dərc olunmuş "İslam həmrəyliyinin gücləndirilməsi zamanın çağırışıdır" sərlövhəli məqaləsində Oyunların əhəmiyyətini belə

xarakterizə edib: “Bu gün müsəlman dünyasının əvvəlki dövrlərdə heç zaman olmadığı qədər daha çox birliyə və həmrəyliyə ehtiyacı var. Buna görə də 2017-ci ilin ölkəmizdə “İslam Həmrəyliyi İli” elan olunması bütün müsəlman aləminə və dünyaya xoşməramlı mesajdır. “İslam Həmrəyliyi İli”nin əsas məqsədləri müsəlman aləmində birliyi möhkəmləndirmək, İslamın sülh və mədəniyyət dini olduğunu bütün dünyaya göstərməkdir. Hesab edirəm ki, bu ilin mayında Bakıda keçiriləcək İslam Həmrəyliyi Oyunları təkcə idman yarışı olmayacaq, eyni zamanda, bütün İslam dünyasının birlik, həmrəylik günləri olacaqdır”.

IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin yekun iclasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva deyib: “Oyunların ölkəmizdə uğurla keçməsinə tam şəkildə hazırıq. Məqsədimiz IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda ən layiqli səviyyədə keçirilməsidir. Bunun üçün bütün şərait var. Dövlət tərəfindən dəstək var. Təşkilat Komitəsi çox uğurla çalışıb, komanda var, könüllülər hazırdır. Əminəm ki, ölkəmizin zəngin, şanlı tarixində növbəti mühüm nailiyyəti əldə edə biləcəyik”.

Dörd əsas dəyər – “Birlik”, “Sülh”, “Hörmət”, “Mükəmməllik” dəyərləri üzərində qurulan Oyunlar “Gücümüz həmrəylikdədir” devizi altında keçirilir.

İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti Şahzadə Abdullah Bin Mosaad Bin Əbdüləziz Oyunların təşkilini yüksək qiymətləndirərək deyib: “Mən ev sahibliyi edən gözəl ölkənin xalqına və “Bakı-2017”nin Təşkilat Komitəsinin sədri, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan idmana çox vurğundur və tədbirə ən yüksək standartlar səviyyəsində ev sahibliyi etməkdə qətiyyətini nümayiş etdirdi. Şübhə etmirəm ki, bu Oyunlar “Bakı-2017”nin təşkilatçılarının və könüllülərinin yorulmaz fəaliyyətinin və sadiqliyinin göstəricisidir və idmançılara öz ustalıqlarını nümayiş etdirmək üçün ən yaxşı şərait yaradılıb”.

Azərbaycanın gənclər və idman naziri, İslam Həmrəyliyi Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimovun sözlərinə görə, bu axşam keçirilən mərasim unudulmaz birlik və həmrəylik bayramıdır. “Bakı-2017” İslam Həmrəyliyi Oyunları 20 aydan artıq müddət ərzində təfərrüatlı planlaşdırma və hazırlığın zirvə nöqtəsidir. Bakının 16 müasir idman məkanı artıq minlərlə atletin ixtiyarındadır”.

Mərasimlər direktoru və icraçı prodüseri Katrin Uqvu açılış mərasiminin diqqəti dövlətlər və xalqları bir araya gətirən meyarlara yönəltməyə xidmət etdiyini bildirərək deyib: “Bu axşam bəşəriyyətə söyləyəcəyimiz sülh hekayətinin Azərbaycanın mədəniyyətində və adət-ənənələrində dərin kökləri var. İslam sivilizasiyasının vaxtilə bəşəriyyətə verdiyi böyük töhfələr bu gün hər bir istiqamətdə hiss olunur. Bu, ümumi sabahımız üçün nikbinliklə dolu həmrəylik və ümid müjdəsidir. Dünyanın müxtəlif yerlərindən gələn minlərlə insan bu mərasimi reallaşdırmaq üçün uzun aylar çalışıb. Mən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident, “Bakı-2017” İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevaya ən səmimi minnətdarlığımı ifadə edirəm. Onların etimadı və dəstəyi olmadan bu işlərin heç biri mümkün olmazdı. Nəhayət, Azərbaycan xalqına ən dərin minnətdarlığımı bildirirəm. Bu ölkə həqiqətən insan ruhunu ən yaxşı təcəssüm etdirən parlaq ulduzlar ölkəsidir”.

Mərasimin proqramına bədii rəhbər Neytan M.Rayt aydınlıq gətirərək deyib: “Mərasimimizin mərkəzində bakılı qızcığaz – Mina dayanır. Biz Mina və onun dostu çərpələngin köməyi ilə dünyanı kəşf etmək üçün səyahətə çıxırıq. O, yolboyu insanların özünəməxsusluğu və irsi, inancları və arzuları ilə tanış olur. Sonda onun gələcəyə ümidi bütövləşir və artır. Minanın hekayəti insanların qüdrətinin, birliyinin mücəssəməsidir. Onun arzusu sülh və harmoniyanın hökm sürdüyü daha yaxşı dünyadır. Artıq bir ildən çoxdur ki, mən Azərbaycan xalqının xeyirxahlığını və səmimiyyətini hiss edirəm, məni onun bu keyfiyyətləri ilhamlandırır”.

İki il əvvəl keçirilən ilk Avropa Oyunları ərəfəsində istifadəyə verilən möhtəşəm Bakı Olimpiya Stadionu bu axşam ən müasir proyeksiya sistemi ilə təchiz olunmuş böyük səhnəyə çevrilib. Nəhəng səhnənin quraşdırılması altı həftəyə başa gəlib. Açılış mərasiminin hazırlanmasında 31 ölkədən 5 minədək insan, o cümlədən səhnə mütəxəssisləri, texniki heyət və aktyorlar qrupu iştirak edib.

Stadionda hündürlüyü 28 metr olan iki minarə diqqəti ilk baxışda cəlb edirdi. Minarələrin üzərində İslam incəsənətinə xas həndəsi elementlərdən istifadə edilməklə, mərkəzdəki altıbucaqlını bir-biri ilə bağlayan dairələr əks olunub.

Eni 85 metr, hündürlüyü 35 metr olan böyük ekranda real animasiyalardan tutmuş böyük maraq doğuran kinokadrlara qədər bir neçə ay ərzində tərtib edilmiş məzmunca zəngin videoçarxlar nümayiş etdirilirdi.

Nəhəng monitorda İçərişəhərdən havaya qalxan çərpələng görünürdü. Balaca qız Mina və dostları bütün şəhər boyu çərpələngin arxasınca qaçaraq stadiona tərəf gəldilər. Ekranda Alov Qüllələri, Qız Qalası, Filarmoniya Bağı, Heydər Əliyev Mərkəzi, nəhayət Olimpiya Stadionu canlandı.





Stadionda əllərində çarpələng tutan uşaqlar 10-dan 1-ə geriyə saymağa başladılar. Geriyə sayımın bitməsi ilə açılış mərasiminə start verildi.

Tamaşaçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, birinci xanım və "Bakı-2017"nin Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı, İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymini və digər qonaqları sürəkli alqışlarla salamladılar.

Stadionda bəstəkar Eldar Mansurovun "Yallı"sı səsləndi. Musiqi sədaları altında səhnəyə 700 könüllü çıxdı. Onlar əllərində parıldayan altıbucaqlı tutmuşdular. Azərbaycan Dövlət Rəqs Ansamblının 10 rəqqasəsi onlara qoşuldu.

Səhnədə aypara və ulduzlar formalaşdırıldı, "Bakı-2017"nin loqosu nümayiş etdirildi. Altıbucaqlar Azərbaycan bayrağına çevrildi.

Aypara İslam təqvimində hər yeni ayın başlanmasını bildirir. Bu, həm də İslam həmrəyliyinin və əməkdaşlığının tarixində yeni fəslin başlanmasına işarədir.

Azərbaycan bayrağı dövlət himninin sədaları altında stadiona gətirildi, Xüsusi Dövlət Mühafizə Xidməti Milli Qvardiyasının hərbçiləri tərəfindən dirəyə qaldırıldı.

Bununla eyni vaxtda stadion üzərində Azərbaycan bayrağının rənglərini təcəssüm etdirən atəşfəşanlıq başladı.

Monitorlarda İslam Həmrəyliyi Oyunları münasibətilə Xəzərdən başlayan su səyahətini və Azərbaycanın gözəl təbiətə malik müxtəlif yerlərindən suyun toplanması mərasimlərini əks etdirən kadrlar göstərildi.

Suları toplayan 16 uşaq səhnəyə çıxdı.

Onlar mis səhənglərdəki suları səhnənin mərkəzindəki böyük siniyə boşaltdılar. Bu zaman uşaqların arxasında pirotexniki şəlalə çağlamağa başladı.

Beləliklə, 2017-ci il aprelin 5-də Bakıda Xəzərdən başlayan su səyahəti Olimpiya Stadionunda başa çatdı.

Xatırladaq ki, 40 gün əvvəl Xəzərdən götürülmüş su Oyunların ruhunu hamıya yaxın etmək üçün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən rəmzi olaraq ölkənin bütün guşələrinə göndərilmişdi. Bu müddətdə səyahətçilər 3000 kilometrdən artıq məsafə qət edib, 16 məkandakı 5 göldən, 1 su anbarından, 3 çaydan, 1 bulaqdan, 3 şəlalədən və Xəzər dənizinin ayrı-ayrı sahillərindən su götürərək Bakıya qayıdıblar. Həmin sular bu axşam Bakı Olimpiya Stadionunda qovuşdu.

Nəhayət, atletlərin paradı başladı. Hər bir komanda stadiona öz ölkəsinin bayrağı altında əlifba sırası ilə daxil oldu. İdmançıları əlində lövhə tutan oğlan və mis qabda su daşıyan qız müşayiət edirdi.

Tribunaların önündən ilk olaraq Əfqanıstan, Albaniya, Əlcəzair, Bəhreyn, Banqladeş, Benin, Bruney, Burkina-Faso, Kamerun, Çad, Komor Adalarının komandaları keçdilər.

Komandaların paradını Kot d'İvuar, Cibuti, Misir, Qabon, Qambiya, Qvineya, Qvineya-Bisau, Qayana, İndoneziya, İran idmançıları davam etdirdilər.





Stadiona İraq, İordaniya, Qazaxıstan, Qırğızıstan, Livan, Malayziya, Maldiv, Mali, Mavritaniya, Mərakeş komandaları daxil oldular.

Mozambik, Niger, Nigeriya, Oman, Pakistan, Fələstin, Qətər, Səudiyyə Ərəbistanı, Seneqal, Sierra-Leone idmançıları tribunaların önündən keçdilər.

Növbə Somali, Surinam, Suriya, Tacikistan, Toqo, Tunis, Türkiyə, Türkmənistan, Uqanda, Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan, Yəmən komandalarına çatdı.

Tamaşaçılar qardaş Türkiyə idmançılarını xüsusi coşqu ilə salamladılar.

Nəhayət, stadiona Müslüm Ma-qomayevin məşhur "Azərbaycan" mahnısının sədaları altında ev sahibi – Azərbaycan komandası daxil oldu. Ölkəmizi Oyunlarda 425 idmançı təmsil edir. Azərbaycan bayrağını beşqat dünya çempionu Rəfael Ağayev aparırdı.

İdmançılarımızın tribunaların önündən keçidi Natiq Şirinov və digər 19 nağaraçının ifası ilə müşayiət olunurdu.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva idmançılarımızı hərarətlə salamladılar.

Bununla da, idmançıların paradı başa çatdı.

Stadiona İslam Həmrəyliyi İdman Federasiyasının bayrağının gətirilməsi mərasimi başladı. Bayrağı stadiona Azərbaycanın Olimpiya, dünya çempionları və mükafatçıları gətirdilər. Onların arasında Sidney, Barselona, Pekin, Afina Olimpiya oyunlarının çempionları Namiq Abdullayev, Nazim Hüseynov, Elnur Məmmədli, Fərid Mansurov, Zemfira Meftahətdinova və başqaları var idi.

Hərbçilər İslam Həmrəyliyi İdman Federasiyasının bayrağını Azərbaycan bayrağının yanında qaldırdılar.

İdmançılar və hakimlər adından taekvandoçu, "Rio-2016" Olimpiya Oyunlarının qızıl mükafatçısı Radik İsayev və boks hakimi, "Afina-2004" Olimpiya Oyunlarının bürünc mükafatçısı Fuad Aslanov and içdilər.

Azərbaycanın Birinci vitse-prezidenti, "Bakı-2017" İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymin çıxış üçün səhnəyə dəvət olundular.

## Xanım Mehriban Əliyevanın çıxışı



– Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev.

İslam Əməkdaşlıq Təşkilatının baş katibi, Zati-aliləri doktor Yusif Əl-Osaymin.

İslam Həmrəyliyi İdman Federasiyasının hörmətli üzvləri.

Zati-aliləri.

İslam aləminin idmançıları.

Xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Azərbaycana xoş gəlmisiniz!

"Bakı-2017" İslam Həmrəyliyi Oyunlarına xoş gəlmisiniz!

Əziz həmvətənlər, biz birliyin və idmanın təntənəsi olan IV İslam Həmrəyliyi Oyunlarını bu axşam fərəh hissi ilə qəbul edirik. Oyunlara ev sahibliyi etmək bizim üçün böyük şərəfdir. Bu gün Azərbaycan bütün İslam aləmini qəbul edir. Dörd qitədən gəlmiş minlərlə idmançını və paytaxtımızın qonaqlarını səmimi qəlbdən salamlayır, onlara "Xoş gəlmisiniz" deyirəm! Bütün bu uğurlar münasibətilə gözəl Vətənimizin hər bir vətəndaşını təbrik edirəm və minnətdarlığımı bildirirəm. Qoy, Ulu Tanrı Azərbaycanı qorusun!

Əziz dostlar, 50-dən artıq ölkənin nümayəndəsi bu axşam Bakıda IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimini qeyd edir. Sizin burada olmağınız bizim üçün şərəfdir. Qardaşlarımız və bacılarımız, Azərbaycan Sizi səmimiyyətlə salamlayır. Mən IV Oyunların keçirilməsini Bakıya həvalə etdiyinə görə İslam Həmrəyliyi İdman Federasiyasına minnətdarlığımı bildirmək istəyirəm.

"Bakı-2017" İslam Həmrəyliyi Oyunları Azərbaycanın dinamik inkişafında yeni parlaq səhifədir və beynəlxalq idman ictimaiyyəti üçün növbəti tarixi hadisədir. İdmana yatırdığımız böyük sərmayə dünya səviyyəsində bacarıqları mənimsəməklə, qurğuları və infrastrukturları yaratmaqla gələcək üçün böyük irsi təmin etdi.

Bu axşam biz İslam aləmini bir araya gətiririk. Azərbaycan bu ali missiyanı öz üzərinə götürməkdən fərəh hissi duyur. Biz minillikləri əhatə edən mədəniyyətə və güclü İslam ənənələrinə malik qədim diyarıq. Eyni

zamanda, biz gənc, müasir və sürətlə inkişaf edən ölkəyik. Ötən il Azərbaycan müstəqilliyinin bərpa olunmasının 25-ci ildönümünü qeyd etdi. Ölkəmizin multikultural tarixi açıq, tolerant cəmiyyətimizin ən ülvi hissəsidir. Biz İslam tarixi və irsinin bir hissəsi olmaqdan, İslam dəyərlərini bölüşməkdən fərəhlənirik.

Bu Oyunların qələbə qazanacaq atletlərinin təltif olunacağı medallardan tutmuş möhtəşəm açılış və bağlanış mərasimləri kimi yaradıcı elementləri zəngin mədəniyyətimizi ilhamlandıracaq. Odlar Diyarı Azərbaycan həm də büllur sular ölkəsidir. Bənzərsiz göllərimiz və çaylarımız, şəlalələrimiz və bulaqlarımız, Xəzər dənizimiz əsrlər boyu həyatımızın mənbəyi olub. Ortaq İslam irsimizdə əsas yer tutan və həyat mənbəyi olan bu element Qafqaz dağlarından Xəzər dənizinə qədər ölkəmizin təbii gözəlliyinin və özünəməxsusluğunun mühüm hissəsini formalaşdırır. “Bakı-2017” İslam Həmrəyliyi Oyunlarının rəmzi – su son beş həftə ərzində Xəzərdən başlayan böyük səyahətdə oldu. O, Azərbaycanın bənzərsiz təbiətini dünyaya nümayiş etdirdi, hər kəsə sülh və dostluq müjdəsi gətirərək, insanları ilhamlandırdı.

Əziz dostlar, mən gözəl gənc könüllülərimizin hamısını salamlayıram. Biz sizinlə fəxr edirik. Sizin fədakarlığınız və vurğunluğunuz, xeyirxahlığınız və qətiyyətiniz bu Oyunları mümkün etdi. Sizə səmimi qəlbdən təşəkkürümü bildirirəm.

İslam aləminin idmançıları, sizi burada qonağımız kimi görmək olduqca sevindiricidir. Bütün Azərbaycan sizinlədir və sizə böyük uğurlar arzulayır. Bu, sizin Oyunlarınızdır. Gələn on gün ərzində ölkəmiz sizin eviniz olacaq.

Bu axşam mən ölkəmizin bütün nailiyyətlərinə görə qarşınızda fərəh hissi ilə çıxış edirəm. Xalqımızın tərəqqiyə bağlılığı məni ilhamlandırır. Hamımız birgə əldə etdiyimiz nailiyyətlərlə fərəhlənə bilərik. Azərbaycan iki il öncə birinci Avropa Oyunları çərçivəsində bütün Avropa qitəsini bir araya gətirərək tarix yazdı. İndi isə biz dörd qitənin İslam dünyasının insanlarını Bakıda – IV İslam Həmrəyliyi Oyunlarında birləşdiririk.

2017-ci il Azərbaycanda “İslam Həmrəyliyi İli” elan edilib. “Bakı-2017” İslam Həmrəyliyi Oyunları və idmanın qüdrəti xalqlarımızı İslamın dostluq, sülh, tolerantlıq və mərhəmət ruhu altında bir araya gətirib. Gücümüz həmrəylikdədir! Bu ruhlandırıcı mesajı Oyunlarımız Azərbaycanın hüdudlarından çox uzaqlara göndərəcək.

İslam aləminin atletləri, xanımlar və cənablar, əziz dostlar.

“Bakı-2017” İslam Həmrəyliyi Oyunlarına xoş gəlmisiniz!

Azərbaycana xoş gəlmisiniz!

***

Sonra mikrofonun önünə İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymin keçdi.

## Yusif Əl-Osayminin çıxışı



– Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyev.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri, Zati-aliləri xanım Mehriban Əliyeva.

Zati-aliləri, nümayəndə heyətlərinin rəhbərləri.

Hörmətli iştirakçılar, hörmətli qonaqlar, xanımlar və cənablar.

Burada – Azərbaycan Respublikasının paytaxtı Bakıda IV İslam Həmrəyliyi Oyunlarının açılışında çıxış etməkdən böyük şərəf hissi duyuram.

Mən bu möhtəşəm tədbirin təşkilində göstərdikləri səylərinə görə Azərbaycan xalqına, Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə və onun hökumətinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Biz əminik ki, bu tədbir İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrdə idmanın təşviq olunmasına töhfə verəcək, İslam aləmində gənclərə dəstək olacaq.

Gənclərin inkişafı və idmanın təşviqi sahəsində yorulmaz fəaliyyətinə və səylərinə görə Azərbaycan

Respublikasının Birinci vitse-prezidenti, IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Zati-aliləri xanım Mehriban Əliyevaya dərin təşəkkürümü və ehtiramımı ifadə edirəm.

Mən, həmçinin IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsində xüsusi işləri ilə fərqlənmiş İslam Həmrəyliyi İdman Federasiyasına təşəkkürümü bildirmək istəyirəm və onlara çoxlu uğurlar arzulayıram.

Bakıda IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunması ilə üst-üstə düşür və bu, Azərbaycanın nəinki üzv dövlətlərdə gənclər və idmanın inkişaf işinə sadiqliyini göstərir, o cümlədən bu ölkənin multikulturalizmin gücləndirilməsində, eləcə də mədəniyyətlərarası dialoqun və sivilizasiyalararası ünsiyyətin möhkəmləndirilməsində, idman vasitəsilə İslam dəyərləri barədə biliklərin qlobal səviyyədə yayılmasında fəal iştirakını nümayiş etdirir.

Zati-aliləri, hörmətli qonaqlar, İslam Həmrəyliyi Oyunları dünyada ən iri idman tədbirlərindən biridir. Çünki bu oyunlar müxtəlif mədəniyyətlərə malik fərqli ölkələrdən gəlmiş təxminən 4000 atleti bir araya gətirir. Bu, İslam həmrəyliyini əyani şəkildə nümayiş etdirir. Bu, İslamın əsl mahiyyətini, onun sülh və tolerantlıq dini olduğunu əks etdirir. Bu, mədəniyyətlərindən və fərqlərindən asılı olmayaraq, xalqlar arasında birlik, harmoniya, dostluq tellərini və dinc şəraitdə yanaşı yaşamaq tərzini gücləndirir.

Zati-aliləri, hörmətli qonaqlar, İslam aləmi zorakı ekstremizmin, radikallaşmanın, islamofobiyanın artması və cəmiyyətlərimizin bəzi hissələrinin təcrid olunması kimi çətin çağırışlarla üzləşir. Güclü və sağlam cəmiyyətlər gənclərin bacarıqlarının, potensialının gücləndirilməsi əsasında qurulur. Faktiki olaraq, biz məhz idman vasitəsilə daha yaxşı çalışırıq. İslam idmana, fiziki və mənəvi tərbiyəyə böyük əhəmiyyət verir.

İslam Əməkdaşlıq Təşkilatı gənclərə və idmana böyük əhəmiyyət verir və verməkdə davam edəcək. 2016-cı ildə İstanbulda keçirilmiş 13-cü İslam Sammitində İslam aləmində gənclər və idman məsələlərinə xüsusi diqqət yetirən İƏT-in Onillik Tədbirlər Planı (İƏT-2025) qəbul olundu.

Bu Oyunlar 2016-cı il oktyabrın 5-7-də gənclər və idman nazirlərinin İstanbulda keçirilmiş İslam Konfransının 3-cü sessiyasında İƏT-in üzvü olan dövlətlərdə idmanın inkişafı sahəsində İƏT-in Strategiyasının (2017-2025-ci illər üçün) qəbul olunmasından sonra ilk tədbirdir.

Əminəm ki, İƏT-in üzvü olan dövlətlərin Milli Olimpiya Komitələri vasitəsilə İslam Həmrəyliyi İdman Federasiyası və İƏT-in Baş Katibliyi arasında əməkdaşlıq daha da güclənəcək və İslam aləmində gənclərə aid ülvi məqsədlər təmin ediləcək. Sağ olun.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarını açıq elan etdi

Sonra atəşfəşanlıq başladı və gecə səmasında fişənglərin yazdığı "Bakı-2017" sözləri bərq vurdu.

Əlində mis səhəng tutan qadın səhnəyə daxil oldu. Sonra su daşıyan 56 qadın da ona qoşuldu. Onlar bir yerdə İslam Həmrəyliyi İdman Federasiyasının 57 üzvünü təmsil edirlər.

Qadınlar suyu siniyə tökdülər və nəticədə gözəl fəvvarə alındı. İslam aləmi bununla rəmzi olaraq birləşdi.

Bu səhnə mərasimi Oyunların proqramında "Birlik" adı ilə təqdim olundu.

Stadionda "Harmoniya" adlanan növbəti süjet nümayiş etdirildi. Mina adlı bakılı qız babası ilə səhnəyə çıxdı. Bakının Filarmoniya bağından görüntülər ekrana gəldi. Babası çərpələngin quyruğuna dördüncü zolağı bərkidərək, onu tamamladı. O, gözəl parkı dolanaraq ətrafdakı insanlara təbəssüm və nur bəxş etdi. Sevinc hissi yaşayan bu qız bütün dünyada sülhün və harmoniyanın bərqərar olması barədə düşünürdü.

Baba nəvəsinə deyir: gələcəyimizə aparan yolu dəyişmək üçün əvvəlcə keçmişimizi qavramalıyıq. Beləliklə, o, çərpələngi bələdçi dostu kimi təqdim edərək, Minanı maraqlı bilik və tanışlıq səyahətinə dəvət edir.

Filarmoniya bağında 120 səhnə iştirakçısı, o cümlədən Azərbaycan Dövlət Uşaq Filarmoniyasının 20 üzvü Minaya qoşuldu.

Minanın babası rolunu Xalq Artisti Nurəddin Mehdixanlı canlandırırdı.

Eni 85, hündürlüyü 35 metr olan ekran 130 proyektor mütəxəssisi tərəfindən işıqlandırılırdı. Əsl reallığa yaxın animasiyalardan tutmuş, maraqlı kinokadrlara qədər proyeksiyaların işıqlandırılması 12 aya başa gəlib.

Bu səhnələri Fərhad Bədəlbəylinin "Dəniz" əsərinin sədaları müşayiət edirdi.

Minanın hekayəti "Özünəməxsusluq" adlı hissə ilə davam etdi. Qızcığaz öz çərpələngində Bakıdan uzaqlara uçdu. Qobustanın qayaüstü rəsmlərini, Atəşgah məbədini və Yanardağda alovlanan əbədi odu seyr edən Mina əfsanəvi Simurq quşunu görmək üçün əfsanələr dünyasına qədəm qoydu və Simurq cücəsinin yumurtadan çıxmasına kömək etdi.

Simurq lələyinin birini Minaya verdi ki, dara düşəndə bu lələyi yandırsın və bir göz qırpımında yeni sehrli dostu köməyinə yetişsin.

Əllərində od olan 20 səhnə iştirakçısı iki su hovuzunda buta fiquru formasında alov cərgəsi yaratdı.

Niyazinin “Rast” simfonik muğamı bu səhnəyə əlavə rəng qatdı.

Xəzər üzərində Ay göründü, əfsanəvi muğam ustası Alim Qasımovun ecazkar səsi minarənin zirvəsindən ətrafa yayıldı. Bu, azan səsi idi. Mina həmin sədanın təsiri ilə dini dəyərlərin və tolerantlığın möhtəşəm məkanı olan Heydər Məscidinə yollandı. Əllərində fənər tutan yüzlərlə dindar İslamın qüdrəti ilə buraya gəldi. Onların inanc odları kainatdakı ulduzlar kimi Minanın gözləri qarşısında parlayır və dövr edirdi.

Bu süjet “İnanc” adı daşıyırdı.

Stadiondakı ekranda gündəlik həyatın bir hissəsi olan ənənələrə sadiq, İslam dünyasının müxtəlif yaşlarda insanlarını əks etdirən film nümayiş olundu. Filmdə suyun böyük paklıq qüvvəsindən bəhs edilir. İslamda su ibadətin vacib amilidir, cismi və ruhu paklaşdıran vasitədir. Biz hamımız fərqliyik, lakin adət-ənənələrimiz və biliklərimiz bizi bir-birimizə bağlayır, dərimizin rəngindən, inanclarımızdan asılı olmayaraq, su bizi birləşdirən universal vasitədir.

Açılış mərasimi üçün hazırlanmış filmin çəkilişləri Azərbaycan, Avstraliya və Filippində aparılıb.

“Paklıq” adlı bu süjet boyu Ceyn Antoniya Kornişin və Daniel Hesin ifasında “Written in the Stars” mahnısı səsləndi.

Minanın yeni macərası başladı. O, keçmişə yollandı və dünyanı gəzib dolaşaraq cəsur səyyahlarla görüşdü, yaraşıqlı günbəzlərə baxdı, dahi şairləri gördü, planetimizdən kənar kainatı seyr etdi və ilk mexaniki cihazlarla tanış oldu. Bütün bunlar coğrafiya, memarlıq, ədəbiyyat, astronomiya və ixtira kimi sahələrdə bəşəriyyətin əldə etdiyi möhtəşəm uğurları ilə yadda qalan İslamın Qızıl Dövrünün xəzinələri sırasındadır.

“Bilik” adlanan bölümdə 570 iştirakçı çıxış edirdi. Mərasimin bu hissəsinin canlandırılmasında 40-dan artıq heyvandan – at, dəvə və ulaqlardan istifadə olundu.

İslamın Qızıl Dövründən bəhs edən səhnələr zamanı Fikrət Əmirovun “Min bir gecə” baletindən musiqi səsləndirilirdi.

İslam dünyasının səyyahları Asiya, Şimali Afrika, Avropa və Orta Şərqin geniş coğrafiyasını əhatə edən ticarət yolları şəbəkəsi ilə yayılan mədəniyyət və bilik axını məskəni olmuş izdihamlı karvansaralarda görüşürdülər. Minanın növbəti səyahəti məhz buradan başladı. “Karvansara” adlı bu səhnədə 70-dən çox iştirakçı, böyük tacir arabası, canlı at və dəvələr, habelə qartal və şahin fiqurları diqqət çəkdi.

Oyunlarda təmsil olunan hər bir xalqın mədəni irsindən götürülmüş elementlər – personajlar, tematik əşyalar, rekvizitlər və geyimlər səhnəyə çıxarılır və ekranda göstərilirdi. Eyni zamanda, Azərbaycanın üç ənənəvi musiqi aləti – balaban, kamança və nağara nümayiş etdirildi. Üç yüzdən çox səhnə rekviziti zaman və məkan haqqında təsəvvür yaradırdı. Onların arasında xalçalar, parçalar, musiqi alətləri, miniatürlər, kitablar, çay, qəhvə, fənərlər, meyvələr, zinət əşyaları və s. var idi.

Mina ağ atın belində səhnəyə daxil oldu. On altı at eyni ritmlə addımlayaraq dövr edən çarx yaratdı. Sonra atlar paralel olaraq yan-yana keçdilər. Mina karvansaralarda tacir və səyyahlarla söhbət etdi. O, Azərbaycan xalçalarının və musiqi alətlərinin qarşısında ayaq saxlayıb onlara baxdı.

Çərpələngin üstündə oturaraq səmada uçan Minanın öyrənəcəyi hələ çox şey var. Növbəti ünvan kəşflər dünyasıdır.

İslamın Qızıl Dövründə insanlar səyahətə çıxmağı, bilik əldə etməyi sevərdilər. Dəniz səyyahları xəritələr tərtib etmiş, istiqaməti müəyyənləşdirən alətlər yaratmış və dünyanı daha yaxşı tanımaq, eləcə də güclü ticarət yolları qurmaq üçün vacib olan naviqasiya ustalarına çevrilmişdilər.

İslamın astronomiya elminə verdiyi ən böyük töhfələrindən biri armillyar sferanın təkmilləşdirilməsi olub. Ondan vaxtı müəyyənləşdirmək, Günəşin çıxmasını və batmasını əvvəlcədən bilmək, torpaqları tədqiq etmək və binaların hündürlüyünü hesablamaq üçün istifadə edilirdi.

İslam memarlığının günbəz və minarələrinin səmada həkk olunan cizgiləri olduqca fərqlidir. Bu axşam tamaşaçılar Bakı Olimpiya Stadionunun səhnəsində iki minarənin əhatəsində hündürlüyü 9 metr olan böyük göy günbəz gördülər. Kiçikölçülü digər günbəzlər və tağlar incə kəsim naxışlardan ibarət idi və İslam memarlığında tez-tez rast gəlinən bir-biri ilə bağlı həndəsi elementləri nümayiş etdirirdi.

Mərasimin "Ədəbiyyat" bölümündə səhnəyə üç böyük kitab fiquru çıxarıldı. IX–XIII əsrlərdə biliyin yayılması və inkişafında mühüm rol oynamış düşüncə və fikir mərkəzi olan Bağdaddakı "Hikmətlər Evi" barədə məlumatlar silsilə kitablarda qeyd olunur.

Səhnədə nümayiş etdirilən həmin kitablar İslam sivilizasiyasının dahi ədiblərinə hörmət əlamətinin ifadəsi idi.



Sonra səhnədə Günəş, Yer kürəsi, Ay və digər beş planetdən ibarət Günəş sisteminin böyük modeli yaradıldı. Azərbaycan Dövlət Rəqs Ansamblının 24 rəqqası üzərində ulduz xəritələri təsvir edilmiş geyimlərdə səhnəyə çıxdı. Səhnə üzərində hündürlüyü 8,5 metr olan Günəş doğdu.

Səhnəyə çıxarılan velosiped kvadrantdan xəbər verirdi. Kvadrant alimlər və elm adamları tərəfindən İslam mədəniyyətində ən çox istifadə olunan astronomik və naviqasiya alətlərindən biri idi. İri çarxlar Ayın fazalarını nümayiş etdirirdi. İslam təqvimi Ayın dövr etməsinə əsaslanır.

Stadionun səhnəsində 90 çarx, o cümlədən velosiped çarxları göründü, hündürlüyü 9 metr olan fil saatı nümayiş etdirildi. Bu çarxlar Qızıl Dövrün mexaniki ixtiralarına və turbin texnologiyasına işarə idi. XI əsrə qədər bütün İslam dünyasında su dəyirmanları işləyirdi. Su turbinlərinin ixtirası bir çox sənaye əməliyyatlarının mexanikləşdirilməsinə imkan yaratdı.

Fil saatı səhnədə görünəndə bütün hərəkət bir anlıq dayandı. Uçan çərpələngində oturmuş Mina Ay mənasını daşıyan topu ilanın ağzına atdı və fil saatı işə düşdü. Bununla da "Bilik" mərasimi yekunlaşdı.

Azərbaycan Dövlət Rəqs Ansamblının 24 rəqqası Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletinin musiqisi altında xüsusi geyimlərdə çıxış etdi. Qəfildən qopan qum fırtınası səhnədəki hər şeyi süpürüb apardı.

Mina yolu azdı və səyahəti zamanı ilk dəfə qorxmağa başladı. Lakin Simurqun lələyi Minanın köməyinə gəldi və onun sehrli dostu ildırım sürəti ilə şığıyaraq qızcığazın imdadına yetişdi. Mina fırtınadan, buludlardan yuxarıya, təhlükəsiz səmaya qalxaraq ulduzlara çatdı.

"Arzu" adlı bu süjetin mənası belədir: Biz bir-birimizə yardım etdikdə mümkün qədər kamilləşirik və bu yolla ulduzlu səmaya qalxa bilirik.

Simurqun qanadlarının uzunluğu 15 metr, çəkisi 750 kiloqramdır. Onun üzərində ulduz kimi parlayan 785 kiçik lampa yanırdı.



Mədəniyyət və inanc, irs və biliklər Minanın qəlbini sevinc hissləri ilə doldurur – bütün bunlar bu macəra zamanı onun daimi yol-yoldaşı gözəl çərpələng sayəsində mümkün olur. Bu cütlük mehribancasına rəqs etdikcə, Mina babası haqqında düşünür və onun üçün darıxmağa başlayırdı, çünki evə qayıtmaq vaxtı artıq yetişmişdi.

"Sevinc" adlı bu səhnə Üzeyir Hacıbəylinin "Aşıqsayağı" simfoniyasının sədaları ilə müşayiət olundu.

Mina çərpələngində Bakı üzərindən uçaraq, doğma şəhərinin yeni simasını seyr etdi. Oynadığı gözəl şəhər parklarından başqa, Mina bir çox digər tarixi və yeni möhtəşəm binalara baxdı. Şəhərin mərkəzindəki möhtəşəm tarixi saraylar və qüllələr, eləcə də müasir mədəniyyət, idman və əyləncə məkanları göz önündən gəlib keçdi. Onun gələcəyi buradır. Bura Minanın evi – ümid yeridir.

"Ümid" adlı bu səhnənin nümayişi zamanı Qara Qarayevin "Yeddi Gözəl" valsı səsləndi.

Mina əllərində çərpələng tutan 700 səhnə iştirakçısının üzərindən uçdu. Azərbaycan bayrağının rənglərində – yaşıl, qırmızı və göy çalarlarda olan kiçik altıbucaq çərpələnglər auditoriyanın başı üzərində dalğalandı. İyirmi nəfər odla hərəkətlər edirdi. "Yanar çarx"da 10 səhnə iştirakçısı fırlanırdı.

Səhnədə quraşdırılmış iki nəhəng hovuzdan hündürlüyü 10 metr olan su fəvvarəsi yüksəldi. Yerdə və havada "yanar çarx" fırlandı, stadion üzərində atəşfəşanlıq başladı.

Tanış olduğu insanların bəxş etdiyi nurdan ilhamlanan Mina çərpələngin gözəl nümunəsini bütün dünyaya göstərdi. Beləliklə, hər kəs üçün kifayət qədər böyük ilhamlandırma nümunəsi yarandı.

Minlərlə kiçik altıbucaq çərpələng Vasif Adıgözəlovun "4-cü piano konserti" musiqisinin sədaları altında tamaşaçıların üzərinə səpələndi.

Möhtəşəm və bənzərsiz, dərin mənalı açılış mərasimi "Sülh" səhnəsi ilə başa çatdı. Mina bu hekayətin başladığı məkana – sakit Filarmoniya bağına qayıtdı.

Mina ürəkdolusu sevinclə babası ilə görüşdü. Yeni əldə etdiyi biliklərinə görə babasına təşəkkür edən Mina öz bələdçi dostunu – çərpələngini növbəti səyahətə yolladı ki, bütün dünyaya sülh və harmoniya yaysın. Çərpələng yerdən qalxaraq yenidən səmaya pərvazlandı.

Tamaşaçılar Fərhad Bədəlbəylinin "Dəniz" əsərinin sədaları altında Mina və onun babası ilə vidalaşdılar.

IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi Bakı Olimpiya Stadionu və Dənizkənarı Bulvar üzərində möhtəşəm atəşfəşanlıqla bitdi. Bakının bahar səması əlvan rənglərə boyandı.

Beləliklə, Azərbaycan orijinallığı ilə diqqəti cəlb edən, tamaşaçıları vəcdə gətirən bu mərasimlə IV İslam Həmrəyliyi Oyunlarının tarixə çevriləcək ilk parlaq səhifəsini yazdı.

# Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunda IV İslam Həmrəyliyi Oyunlarının təntənəli bağlanış mərasimində iştirak edib

## "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının təntənəli bağlanışı oldu



Azərbaycan daha bir mötəbər beynəlxalq idman tədbirinə – "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarına yüksək səviyyədə ev sahibliyi edərək tarix yazdı. On gün ərzində İslam dünyasının idman nəbzi Bakıda döyündü. İslamiadanın yarışları, sözün həqiqi mənasında, əsl idman və həmrəylik bayramına çevrildi, maraqlı və parlaq qələbələrlə yadda qaldı. "Bakı-2017"də iştirak edən ölkələr arasında Azərbaycan 75 qızıl medalla birinci oldu. İdman arenalarında Azərbaycanın dövlət himni 75 dəfə səsləndi, dövlət bayrağı 162 dəfə qaldırıldı.

Mayın 22-də Bakı Olimpiya Stadionunda idman həvəskarlarına bir çox unudulmaz, sevinc dolu anlar bəxş edən Oyunların təntənəli bağlanış mərasimi keçirildi.

Tamaşaçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, birinci xanım, "Bakı-2017" Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı, İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasseri hərarətlə salamladılar.

Bu gün "Bakı-2017"nin uğurunu şərtləndirən iki amili xatırlatmaq yerinə düşər. Yarışların gedişi bir daha təsdiqlədi ki, Təşkilat Komitəsinin sədri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Oyunlara yüksək səviyyədə hazırlıq görülüb, ən incə detallar belə nəzərə alınıb. Bakının 16 idman arenası



ötən on gün ərzində tam qüsursuz fəaliyyət göstərdi və yaradılan şərait həm idmançıların, həm də tamaşaçıların ürəyincə oldu. Əminliklə demək olar ki, Bakıda keçirilən Oyunlar İslamiadanın tarixinə möhtəşəm idman bayramı kimi yazıldı.

İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti Şahzadə Abdullah Bin Mosaad Bin Əbdüləziz Oyunların təşkilini yüksək qiymətlən-dirərək deyib: "Azərbaycan paytaxtında möhtəşəm idman və dostluq bayramı başa çatır. Bakı İslam ölkələrinin atletlərinə bacarıqlarını nümayiş etdirmək, dörd qitədən gəlmiş insanlara birlik və anlaşma ruhunda qarşılıqlı əlaqələri qeyd etmək məqsədilə gözəl şəraiti təmin etdi. Bu əlamətdar İslam Həmrəyliyi Oyunları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, Birinci vitse-prezident və "Bakı-2017"nin Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın və onun Azərbaycan İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsində çalışan heyətinin fəaliyyəti sayəsində qonaqpərvər ev sahibinin səyləri ilə mümkün oldu. İslam Həmrəyliyi İdman Federasiyası adından Bakı sakinlərinə və Azərbaycan xalqına göstərdikləri fədakarlığa və çox böyük qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Biz sizi 2021-ci ildə İstanbulda keçiriləcək Oyunlarda yenidən görməyi səmimiyyətlə arzulayırıq".

Azərbaycanın gənclər və idman naziri, İslam Həmrəyliyi Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimovun sözlərinə görə, Oyunlar İslam ölkələrinin dostluğunu təcəssüm etdirdi: "IV İslam Həmrəyliyi Oyunlarının həyəcan dolu 10 günü idman, bayram və dostluğun təntənəsindən xəbər verir. "Bakı-2017" Əməliyyat Komitəsinin işinin başa çatmasına baxmayaraq, paytaxt şəhərimizin dünyada beynəlxalq idman və mədəniyyət mərkəzi kimi fəaliyyəti davam edir. Biz Bakıda bu yay keçiriləcək Formula-1 Azərbaycan Qran-Pri turnirində, 2017-ci ildə qadınlar arasında Avropa voleybol çempionatında və 2020-ci ildə UEFA-nın Avropa çempionatının dörddəbir final oyunlarında və üç qrup qarşılaşmasında bütün dünyanı yenidən salamlamağı səmimiyyətlə arzulayırıq".

Oyunların uğurunu təmin edən digər mühüm amil son illər Azərbaycanın beynəlxalq idman tədbirlərinin keçirilməsində qazandığı zəngin təcrübədir. Azərbaycan ilk Avropa Oyunları, 42-ci Ümumdünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə Dünya Kuboku, Formula-1 kimi mötəbər yarışlara uğurla ev sahibliyi edib, özünü dünyada idman ölkəsi olaraq tanıda bilib. IV İslam Həmrəyliyi Oyunlarının uğuru, idmançılarımızın inanılmaz qələbələri bunun daha bir parlaq nümayişi oldu.

Statistikaya diqqət yetirək: Bakıya rekord sayda – 54 ölkəni təmsil edən 3 mindən çox idmançı, 2000-dək komanda rəsmisi və texniki nümayəndə gəlib. İndiyədək İslam Həmrəyliyi Oyunlarına bu qədər ölkənin və idmançının qatılması heç vaxt müşahidə olunmayıb.

"Bakı-2017"ni 50-dən artıq ölkədə 1 milyarddan çox tamaşaçı izləyib. Yarışları 1000-dən çox media nümayəndəsi, o cümlədən Oyunların rəsmi media tərəfdaşı olan AZƏRTAC-ın 70-dək əməkdaşı işıqlandırıb.

İdmanın 24 növü üzrə keçirilən yarışlarda atletlər 269 dəst medal uğrunda mübarizə aparıblar. Azərbaycan idmançıları xalqımızı parlaq qələbələri ilə sevindirərək, yarışları birinci pillədə başa vurublar. Hamıdan çox qızıl medal qazanan atletlərimiz 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) birinci olublar. Millimizin aktivinə ən çox medal cüdoçularımız tərəfindən yazılıb. Onlar, ümumilikdə, 26 medal – 11 qızıl, 12 gümüş və 3 bürünc əldə ediblər. Qazanılan uğurda güləşçilərimizin (23 medal) və gimnastlarımızın (20 medal) da böyük payı var.

Türkiyə ikinci (195 medal), İran üçüncü (98 medal), Özbəkistan dördüncü (63 medal), Bəhreyn beşinci (21 medal) yerdə qərarlaşıb. Ümumilikdə yarışlarda 40 ölkənin idmançıları 1600 medal qazanıblar.





Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bir sıra yarışları arenalarda izləmələri və qaliblərə medalları şəxsən təqdim etmələri Oyunlara marağı daha da artıraraq, onu yeni məzmunla zənginləşdirib.

Tamaşaçılar gözəl və mükəmməl idman qurğusu olan Bakı Olimpiya Stadionunun tribunalarında öz yerlərini tutdular: 68 min yerlik stadion tamaşaçılarla doldu. Meydança müasir səs sistemi ilə təchiz olunmuş 360 dərəcəli nəhəng səhnəyə çevrildi.

Səhnə tərtibatı İslam incəsənətinin bənzərsiz həndəsi naxışlarına və ənənəvi Azərbaycan xalçalarının elementlərinə əsaslanır. Səhnənin mərkəzində döymə üsulu ilə hazırlanmış və hamarlanmış diametri 8 metr olan böyük su sinisi və hündürlüyü 25 metrə çatan "Həyat ağacı" yerləşdirilib.

Mayın 20-də atletika yarışları başa çatdıqdan sonra səhnə cəmi 36 saat ərzində qurulub. "Bakı-2017"nin açılış və bağlanış mərasimlərinin hazırlanmasına 31 ölkədən 5000-dən çox səhnə mütəxəssisi, texniki heyət və aktyorlar qrupu cəlb olunub. Bağlanış mərasimi 1500 könüllü tərəfindən canlandırıldı.

Bağlanış mərasiminin möhtəşəmliyini bu faktlardan aydın görmək olar: Oyunların açılış şousunda istifadə olunmuş 270 dönmə dərəcəli işıq dirəyini 360 dönmə dərəcəsinə çevirmək üçün 12 nəfər 36 saat çalışıb. Mərasim üçün 75 kilometr elektrik kabelləri və 7 meqavatlıq generator gətirilib. Stadionda 300-dən çox səsgücləndirici qoyulub və 12 kilometr uzunluğunda kabel çəkilib. Mindən çox işıq avadanlığı 60 kilometrlik kabellərlə birləşdirilib. "Bakı-2017"nin açılış və bağlanış mərasimlərinin kostyumlarının tikilməsi üçün 15 min metr parçadan istifadə olunub.

Stadiondakı nəhəng monitorda İçərişəhər canlandı. Gənc qadın burada havaya qızılı toz üfürdü. Gilavar qonaqpərvərliyi və xeyirxahlığı ilə məşhur olan ölkəmizdə hər qapını açaraq onu bütün Azərbaycana yaydı.

Xəzərdən əsən, özü ilə hərarət gətirən külək – gilavar qışı yumşaldır, havanı mülayimləşdirir və nəhayət, baharın müjdəsini çatdırır, insanları dənizkənarı bulvara, əylənib şənlənməyə səsləyir. Hamını qoynuna alan gilavar küləklər şəhəri Bakıya qonaq gələn hər kəsi salamlayır. Məhz onun müsbət, güclü enerjisi bağlanış mərasiminin əsas qayəsini təşkil edirdi.

Böyük monitorda Azərbaycanın bir çox təbii və memarlıq abidələrini – Şəki Xan Sarayı, Qobustan Milli Qoruğu, Şirvanşahlar Sarayı, Qız Qalası və Heydər Əliyev Mərkəzini seyr edən tamaşaçının diqqəti yenidən Bakı Olimpiya Stadionuna yönəldi.

Sonra 10-dan 1-ə geriyə sayım başladı və bununla da IV İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasiminə start verildi.

Bu axşamkı mərasimdə 1500 könüllü çıxış edirdi.

Stadionda Yaşar Baxışın "Əbədi birlik" əsəri səsləndi.

Azərbaycan bayrağı Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbçiləri tərəfindən stadiona gətirilərək, dövlət himninin sədaları altında dirəyə qaldırıldı. Stadion üzərində Azərbaycan bayrağının rənglərini təcəssüm etdirən atəşfəşanlıq oldu.

İdmançıların paradı başladı. İslam Həmrəyliyi Oyunlarında iştirak edən atletlər öz ölkələrinin milli bayraqları ilə stadiona daxil oldular. Paradı ev sahibi olan Azərbaycan atletləri tamamladı. Bu mərasim "Amarok" qrupunun ifasında "Naxçıvan halayı" ilə müşayiət olundu.

Xatırladaq ki, yarışlarda Əfqanıstan, Albaniya, Əlcəzair, Bəhreyn, Banqladeş, Benin, Bruney, Burkina-Faso, Kamerun, Çad, Komor Adaları, Kot d'İvuar, Cibuti, Misir, Qabon, Qambiya, Qvineya, Qvineya-Bisau, Qayana, İndoneziya, İran, İraq, İordaniya, Qazaxıstan, Qırğızıstan, Livan, Malayziya, Maldiv, Mali, Mavritaniya, Mərakeş, Mozambik, Niger, Nigeriya, Oman, Pakistan, Fələstin, Qətər, Səudiyyə Ərəbistanı, Seneqal, Sierra-Leone, Somali, Surinam, Suriya, Tacikistan, Toqo, Tunis, Türkiyə, Türkmənistan, Uqanda, Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan, Yəmən və Azərbaycan idmançıları iştirak ediblər.

İdmançıların paradı zamanı Tünzalə Ağayeva, Samirə Allahverdi, Samirə Əfəndi, Hafex & Sahil Umud, Nigar Camal, Aygün Kazımova, Rilaya, Diana Miro populyar Azərbaycan mahnılarını səsləndirdilər.

Səhnədə quraşdırılmış "Həyat ağacı"na su verildi və o, rişə atmağa başladı. Ağacın ümumi uzunluğu 80 metr olan kökləri səhnənin kənarından çıxdı.

Aktyorlar qrupu üç rəngdə – yaşıl, qəhvəyi və göy rəngdə 60 ipək zolaqla səhnəyə çıxdılar. Süni quşlar onların başları üzərində uçur və bu zaman ipək zolaqlar birləşərək gözəl mənzərə yaradır. Yaşıl rəng – meşələri, qəhvəyi – dağları, göy isə çayları təcəssüm etdirirdi.

İpək zolaqlar sonda Azərbaycan bayrağının formasını aldı.

Mindən çox ağ hava şarı buludlara çevrildi və aktyorlar onları ip vasitəsilə hərəkətə gətirdilər. İpək zolaqlar Azərbaycanın yerdən çıxan əbədi odlarını əks etdirdi.

Səhnə üzərində qanadlarının uzunluğu 3,4 metr olan 50 süni quş uçdu.

"Şərəfli ölkə" adlanan bu səhnənin nümayişi zamanı Azərbaycan musiqi qrupu "Amarok" "İncilər" mahnısını səsləndirdi.

Stadiondakı ekranlarda 10 günün idman yarışlarından epizodlar nümayiş etdirildi. Tamaşaçılar inanılmaz bacarıq, mübarizlik və sevinc anlarını bir daha seyr etdilər. Yarışların sevincli və kədərli anları da oldu. Bununla belə, son nəticədə dostluq qalib gəldi.

Yarış epizodlarının nümayişi zamanı Azərbaycanın "Eurovision-2015" beynəlxalq mahnı müsabiqəsinə təqdim etdiyi "Hour of the Wolf" mahnısı səsləndirilirdi.

Günəş qalxdı və səhnə üzərində hərəkət etdi. Onun fırlanan 60 paneli qızılı şüanı göstərmək üçün hava hərəkəti ustaları tərəfindən idarə olunurdu. Diametri 6 metr olan günəşin şüası səhnədə növbəti kompozisiyaya start verdi. "Xəzərin üzərində nur" adlanan bu səhnəciyi 454 aktyor canlandırdı. Stadionda "Qarabağ şikəstəsi"nin əzəmətli sədaları səsləndi.

Kitab formasında bir-biri ilə birləşdirilmiş 1000-dən çox əlvan üçbucaq iki böyük altıbucaq formalaşdırdı. Kitabın səhifələri "şəbəkə" sənətindən ilhamlanaraq, maraqlı naxışları yaratmaq üçün 110 səhnə iştirakçısı tərəfindən vərəqlənirdi. Günəş öz yerini tutduğu zaman həmin kitablar açılaraq göy işıq saçdı və havaya qaldırılaraq Xəzərin gözəl 3D görüntüsünü yaratdı.

Stadionda "Gilavar" kompozisiyasının nümayişi başladı. Bakı bulvarının gündəlik əyləncəli həyatından səhnələr nümayiş etdirildi. Kimi çərpələng və hava şarları ilə oynayır, kimi şahmat taxtası arxasında əyləşib, kimi də küləyin əllərdən qopardığı qəzetlərin arxasınca qaçırdı. Bütün rekvizit və kostyumlar gilavarı əks etdirən dalğavari naxışlarla bəzədilmişdi.

Səhnə iştirakçıları "Yallı" getdiyi zaman buludlar qalxdı.

Mindən artıq hava şarı və gilavar "Həyat ağacı"nın yarpaqlarını gecə səmasına qaldırdı.

Stadionda Gülarə Əliyevanın "Şur fantaziyası" səsləndirildi.

Səmada işıq saçan aypara göründü və səhnə üzərində hərəkət etdi. Aktyorlar qlobus saxlayan əlləri və sülh rəmzi olan göyərçini formalaşdırdı.

"Həmrəylik ruhu" adlı bu kompozisiyada aktyorlar Azərbaycanın dekorativ incəsənətində və memarlığında işlədilən və alov mənasını daşıyan buta fiqurlarını yaratdılar.

Aypara səhnənin mərkəzinə doğru hərəkət etdi. Səhnə iştirakçıları aypara formalaşdırmaq üçün 750-dən artıq alov yandırdı. Onlar fəvvarəyə çevrilən su sinisini dövrəyə aldılar. Əllidən çox İslam ölkəsinin qovuşan

suları gözəl fəvvarəyə çevrildi və ayparaya doğru yüksəldi.

Su yüksəldikcə Aydan parıltılı konfetti səpələndi.

Beləliklə, Bakı İslamiadanın birlik və həmrəylik ruhunu dünya ilə bölüşdü.

"Natiq" ritm qrupunun ifasında "Qarabağ" mahnısının sədaları stadiona yayıldı.

Diqqət yenidən monitorlara yönəldi. Ekranlarda təxminən 8000 könüllünün Oyunların uğurla keçirilməsinə verdiyi böyük töhfəni təsvir edən videoçarx nümayiş olundu.

Stadionda Azad Vəliyevin "Yeni gün" mahnısı səsləndi.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, "Bakı-2017" Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva çıxış üçün səhnəyə dəvət olundu.

### Xanım Mehriban Əliyevanın çıxışı




– Azərbaycan Respublikasının Prezidenti
Zati-aliləri İlham Əliyev,
İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi
Zati-aliləri Faisal Abdulaziz Al-Nasser,
İslam Həmrəyliyi İdman Federasiyasının hörmətli üzvləri,
Zati-aliləri,
İslam aləminin idmançıları,
Xanımlar və cənablar,
Hörmətli qonaqlar.

"Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasiminə xoş gəlmisiniz!

Əziz həmvətənlər!

Azərbaycan növbəti tarixi qələbəyə imza atdı. Dördüncü İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi bütün İslam dünyasının Azərbaycana və Azərbaycan xalqına olan hörmət və dəstəyinin təzahürüdür. Əminəm ki, 50-dən çox ölkəni təmsil edən idmançılar və paytaxtımızın qonaqları Azərbaycanla bağlı xoş xatirələri öz qəlblərində qoruyub saxlayacaqlar.

Bu günlər ərzində Azərbaycan xalqı qonaqpərvərliyini və mehribanlığını bir daha nümayiş etdirdi. Azərbaycan göstərdi ki, o, böyük idman dövlətidir. Milli komandamız ümumi hesabda birinci yeri qazandı. Bu tarixi qələbə ilə fəxr edir və Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bundan da böyük qələbə bu günlər ərzində nail olduğumuz İslam aləminin həmrəyliyi və birliyinin təntənəsidir. Gəlin, hamımız bu birliyi qoruyaq, İslam həmrəyliyini gücləndirək. Qoy, Allah bütün müsəlmanları qorusun!

Əziz dostlar, son 10 gün ərzində İslam aləminin idmançıları idman, dostluq və birliyin möhtəşəm təntənəsi çərçivəsində bir araya gəldilər. Onların mübarizliyi və fədakarlığı həqiqətən valehedici oldu. Onların çıxışlarını seyr etmək böyük hisslər yaratdı.

İdmançılar, mən sizi nailiyyətləriniz münasibətilə təbrik edirəm və İslam aləminin tamaşaçılarına verdiyiniz sevincə görə sizə təşəkkürümü bildirirəm. Bu, sizin Oyunlar idi və sizin idman yarışlarında çıxışınız onları möhtəşəm etdi. Ümidvaram ki, Bakıdan ayrıldıqda ən xoş xatirələrinizi bütün həyatınız boyu əziz tutacaqsınız.

Azərbaycanın milli komandası 162 medal, o cümlədən 75 qızıl medal qazanaraq, medallar cədvəlində birinci yer tutaraq, bizi bir daha fərəhləndirdi. Azərbaycan idmançıları, sizin fədakarlığınız və ustalığınız həmvətənlərimizi ilhamlandırmaqda davam edir və gələcək nəslə ən parlaq nümunə kimi xidmət edəcək.

Son 10 gün ərzində burada, Bakıda bizim üçün və hamı üçün bu Oyunlarda gördüyümüz İslam aləminin həmrəyliyi növbəti böyük qələbə oldu. Olduqca fərəhləndiricidir ki, Azərbaycan xalqlar arasında dostluq ruhuna dəstək verdi. Biz hamımız gələcəkdə bu ülvi missiyanın davam etdirilməsi üçün yorulmadan çalışmalıyıq.

Mən xalqlar arasında həmrəylik əlaqələrini gücləndirən İslam aləminin idmançılarını Bakıda salamlamaq üçün yaratdığı fürsətə görə İslam Həmrəyliyi İdman Federasiyasına təşəkkürümü bildirmək istəyirəm.

Bu Oyunlar və bir çox digər mühüm beynəlxalq idman, humanitar və siyasi tədbirlər Bakının açıqlıq və tolerantlıq mərkəzi kimi nüfuzunu daha da möhkəmləndirdi. Paytaxtımız İslam idman ictimaiyyətini açıq

qəlblə qəbul etdi və bu Oyunların uğurlu olması bütün Azərbaycanın fədakarlığına və qəhrəmanlığına işarədir.

Bütün dünyadan gəlmiş qonaqlarımız özünün qədim irsinə və ənənələrinə sadiq olan, gələcəyinə qətiyyətlə baxan ölkənin – Azərbaycanın zəngin mədəniyyəti və məşhur qonaqpərvərliyi ilə tanış oldular. Dünyanın ən gözəl şəhərlərindən birində, Bakıda sizi görməkdən məmnun olduq. Biz açıq qəlblə sizi yenidən Azərbaycanda görməyimizi səmimiyyətlə arzulayırıq.

Əziz könüllülər, çox sağ olun: qonaqlarımız özlərini evlərindəki kimi hiss etdilər. Siz bu Oyunların uğurlu olmasında böyük rol oynadınız. Əgər atletlər “Bakı-2017”nin döyünən ürəyidirsə, siz bu Oyunların geniş qəlbi idiniz. Siz dünyaya səmimiyyətinizi və iradənizi göstərdiniz. Mən gördüyünüz işlərə görə hər birinizə olduqca minnətdaram.

Biz dünyanı Bakıda salamlamaqda davam edəcəyik: bu yay Formula-1 Azərbaycan Qran-Pri turniri, sentyabrda qadınlar arasında voleybol üzrə Avropa çempionatı keçiriləcək və 2020-ci ildə burada, Bakı Olimpiya Stadionunda futbol üzrə Avropa çempionatının oyunları baş tutacaq.

“Bakı-2017” Oyunlarının başa çatdığı bir anda, mən bu möhtəşəm tədbirdə iştirak etmiş hər bir şəxsə, idmançılara və tamaşaçılara, təşkilatçılara və könüllülərə təşəkkürümü bildirmək istəyirəm.

Mən məmnuniyyətlə elan edirəm ki, növbəti İslam Həmrəyliyi Oyunları 2021-ci ildə İstanbulda keçiriləcək. Biz türk qardaş və bacılarımıza böyük müvəffəqiyyətlər arzulayırıq.

Beləliklə, mən qürur hissi ilə IV Bakı İslam Həmrəyliyi Oyunlarını bağlı elan edirəm.

Sağ ol, Bakı!

Sağ ol, Azərbaycan!

(Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, “Bakı-2017” İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın çıxışı dəfələrlə sürəkli alqışlarla qarşılandı).

Sonra İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasser çıxış etdi.

## Faisal Abdulaziz Al-Nasserin çıxışı



– Azərbaycan Respublikasının Prezidenti.

Zati-aliləri İlham Əliyev,

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, “Bakı-2017” İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri

Zati-aliləri Mehriban Əliyeva,

İslam Həmrəyliyi İdman Federasiyasının hörmətli üzvləri,

Zati-aliləri,

İslam aləminin idmançıları,

Xanımlar və cənablar.

Bu axşam keçirilən bağlanış mərasimi burada, Azərbaycanın paytaxtında möhtəşəm idman və dostluq bayramının başa çatmasından xəbər verir. Bakı dövlətlərimizin atletlərinə bacarıqlarını nümayiş etdirmək, dörd qitədən gəlmiş insanlara birlik və anlaşma ruhunda qarşılıqlı əlaqələrimizi qeyd etmək məqsədilə yaradılmış gözəl şəraitləri təmin etdi.

Bu əlamətdar İslam Həmrəyliyi Oyunları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, “Bakı-2017”nin Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın və onun Azərbaycan İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsində çalışan heyətinin fəaliyyəti sayəsində qonaqpərvər ev sahibinin səyləri ilə mümkün oldu.

Mən İslam Həmrəyliyi İdman Federasiyası adından idmançılara Oyunlarda iştirak etdiklərinə, könüllülərə “Bakı-2017”yə verdikləri töhfəyə və Azərbaycan xalqına göstərdiyi fədakarlığa, çox böyük qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm.

Dörd ildən sonra “İstanbul-2021” Oyunlarını qeyd etmək üçün bir daha bizə qoşulmağınızı səmimiyyətlə arzulayıram.

Sağ ol, Bakı! Sağ ol, Azərbaycan!



Monitorlarda 2021-ci ildə V İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcək İstanbul şəhərindən görüntülərin, idman qurğularının əks olunduğu videoçarx nümayiş etdirildi.

Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbçiləri İslam Həmrəyliyi İdman Federasiyasının bayrağını endirdilər.

İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasser bayrağı Türkiyə Respublikasının gənclər və idman nazirinin müavini, “İstanbul-2021” İslam Həmrəyliyi Oyunlarının nümayəndəsi Kamuran Özdənə təqdim etdi.

Bu səhnələr Benjamin Brittenin “The Young Person’s Guide to the Orchestra” musiqisi, Rövşən Əsgərzadənin “Qəhrəmanlıq uvertürası” ilə müşayiət olundu.

Türkiyənin dövlət himni – “İstiqlal marşı” səsləndirildi və Azərbaycan bayrağının yanında qardaş ölkənin bayrağı qaldırıldı.

Bağlanış mərasimi “Birlik” adlı konsertlə davam etdi.

Səmra Rəhimli, Nigar Camal, Miri Yusif, Səbinə Babayeva və Eldar maraqlı ifaları ilə tamaşaçılarda xoş ovqat yaratdılar. Rəngli döşəmədəki proyeksiyalar səhnəyə canlılıq gətirdi.

Tünzalə Ağayevanın ifasında “Sürət – 2017 Azərbaycan Qran-Prisi” mahnısı səsləndi. İfa zamanı 30 səhnə iştirakçısı Bakı şəhər halqasını təsvir edən əsas səhnədə işıqsaçan çubuqlarla rəqs etdi.

Müğənni “Birlik” konsertini “Bakı-2017”nin könüllülərinə həsr olunmuş “Salam Bakı” himni və “Mən azərbaycanlıyam” mahnısı ilə yekunlaşdırdı.

Yaddaşlarda dərin iz qoyan, artıq tarixə çevrilən IV İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasimi Bakı Olimpiya Stadionunun üzərində möhtəşəm atəşfəşanlıqla başa çatdı.



# Prezident İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarının qalib idmançıları, onların məşqçiləri və idman ictimaiyyətinin nümayəndələri ilə keçirilən görüşdə iştirak edib

## IV İslam Həmrəyliyi Oyunlarının qalib idmançıları, onların məşqçiləri və idman ictimaiyyətinin nümayəndələri ilə görüş keçirilib

"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri və Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri ilə görüş keçirilib.

Prezident İlham Əliyev, birinci xanım, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri görüşdə iştirak ediblər.

Dövlət başçısı görüşdə nitq söylədi.

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

– Əziz dostlar.

"Bakı-2017" İslam Həmrəyliyi Oyunları başa çatdı. Azərbaycan bu Oyunlarda növbəti qələbə qazandı. Bu parlaq qələbə münasibətilə bütün idmançıları, məşqçiləri, idman mütəxəssislərini ürəkdən təbrik edirəm və sizə yeni qələbələr, yeni uğurlar arzulayıram.

Bizim idmançılar bu Oyunlarda 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanaraq komanda hesabında birinci oldular. Bu, böyük tarixi qələbədir. Nəzərə alsaq ki, bu Oyunlarda 50-dən çox ölkə iştirak edirdi və ölkələr ən peşəkar idmançılarını bu Oyunlara göndərmişdilər, əlbəttə, bu qələbənin əhəmiyyəti artır. Əlbəttə, biz hamımız yaxşı bilirik ki, bu qələbə təsadüfi qələbə deyil. Çünki idmançılarımız müxtəlif beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında artıq öz güclərini göstərmişlər və Azərbaycan dünya miqyasında güclü idman dövləti kimi tanınır.

Bizim son nailiyyətlərimiz də deməyə əsas verir ki, bu qələbə təsadüfi qələbə deyil. Azərbaycan idmançıları 2015-ci ildə Avropa Oyunlarında 56 medal qazanmışlar və komanda hesabında ikinci yerə çıxa bilmişlər. Keçən il Yay Olimpiya Oyunlarında medalların sayı 18-ə çatdı. Bu, bizim Olimpiya Oyunlarında iştirakımızın tarixində ən böyük rəqəmdir və medalların sayına görə Azərbaycan 14-cü, Avropa ölkələri arasında 7-ci, müsəlman ölkələri arasında isə 1-ci yerdə idi. Yəni, bugünkü qələbənin çox möhkəm təməli var və bu, onu göstərir ki, Azərbaycan idmanı inkişaf edir, Azərbaycan dövləti inkişaf edir. Çünki ancaq inkişaf etmiş ölkələrdə idman həm dövlətə, həm xalqa böyük qələbə gətirir. Biz idmançılarımızla fəxr edirik. Mən bütün idmançılarımızı bu böyük qələbə münasibətilə bir daha ürəkdən təbrik edirəm, onlara yeni uğurlar arzulayıram.

Bu Oyunlar, eyni zamanda, onu göstərir ki, Azərbaycanda aparılan düşünülmüş siyasət, o cümlədən idman sahəsində öz bəhrəsini verməkdədir. İdmanın inkişafı Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir. Son illər ərzində bu istiqamətdə atılmış addımlar, apardığımız siyasət bu gözəl nəticəni bizə verdi.

Bu gün Azərbaycanda idman ictimai proseslərin inkişafında xüsusi yer tutur. İdmançılara cəmiyyətdə çox xoş münasibət var. İdmançılara olan hörmət göz qabağındadır və hər bir vətənpərvər Azərbaycan vətəndaşı idmançılarımızın uğurlarını alqışlayır, bu uğurlarla fəxr edir. Hər dəfə bizim bayrağımız qaldırılanda, dövlət himnimiz səslənəndə hər bir vətənpərvər insan qürur hissi keçirir. Bu 10 gün ərzində idmançılarımız xalqımıza qələbə sevinci bəxş etdilər. Bu 10 gün ərzində Azərbaycan cəmiyyəti bir daha birlik, həmrəylik, vətənpərvərlik göstərdi, tribunalarda yarışları izləyən tamaşaçılar böyük coşqu, böyük sevgi ilə sizin qələbələrinizi alqışlayırdılar, sizinlə bərabər buna sevinirdilər, bu qələbə sevincini sizinlə bölüşürdülər.

İdman hər bir ölkənin ictimai həyatında xüsusi yer tutur və bu gün idmanın inkişafı, bax, bu gözəl nəticələrə gətirib çıxarır. Biz haqlı olaraq öz qələbələrimizlə fəxr edirik, eyni zamanda, sizin nümunəniz, bu Oyunlarda idmançılarımızın qələbələri, əminəm ki, yaxın gələcəkdə idman bölmələrinə uşaqların axınını daha da sürətləndirəcək. Çünki biz hər dəfə növbəti böyük idman qələbəsindən sonra görürük ki, idmanla məşğul olmaq istəyənlərin sayı artır, uşaqlar, yeniyetmələr idman bölmələrinə üz tuturlar, sizin kimi olmaq istəyirlər, sizə oxşamaq istəyirlər. Gənc nəsil, uşaqlar görəndə ki, dövlət idmançıları qiymətləndirir, onları mükafatlandırır, onlara bütün şəraiti yaradır, əlbəttə, idmana daha da böyük maraq olacaq. Bu da nəticə etibarilə Azərbaycan gəncliyinin, xalqının sağlamlığına xidmət göstərəcək. Əlbəttə ki, biz idmançılarımızın uğurları ilə fəxr edirik və bu, bizim ölkəmizin şöhrətini artırır. Ancaq, eyni zamanda, bundan az əhəmiyyət daşımayan məsələ idmanın kütləviliyidir. İdman sağlam həyat tərzidir və biz hamımız çox istəyirik ki, Azərbaycanda sağlam həyat tərzi yanaşması üstünlük təşkil etsin. Bu gün bu, belədir, dövlət siyasəti də məhz bu istiqamətdə aparılır və eyni zamanda, sizin qələbələriniz bizim siyasətimizi dəstəkləyir.

Bu Oyunların keçirilməsi əlbəttə ki, ölkəmiz üçün tarixi hadisə idi. Şadam ki, bu qələbəni şərtləndirən, qələ-

bəyə aparan bütün qurumlar çox yaxşı işlədilər. Həm əvvəlki illərdə, həm Oyunlar ərəfəsində Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri, klublar, məşqçi korpusu, idman mütəxəssisləri, əlbəttə, idmançılar bir komanda, bir ailə kimi bir amala xidmət edərək, bu qələbəni mümkün etdilər. Bəzi ölkələrdən fərqli olaraq Azərbaycanda bütün idman qurumları çox sıx əlaqədə işləyirlər və hesab edirəm ki, uğurlarımızın təməlində bu amil dayanır. İdmançılar üçün isə biz bütün şəraiti yaratmışıq. Bölgələrdə 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi, Bakı şəhərində isə istənilən beynəlxalq yarışı keçirmək üçün ən müasir və gözəl idman obyektləri fəaliyyət göstərir.

Oyunların keçirilməsində Təşkilat Komitəsinin rolunu xüsusi qeyd etmək istəyirəm. Təşkilat Komitəsi Mehriban Əliyevanın rəhbərliyi ilə çox böyük iş görüb, bütün hazırlıq prosesi diqqət mərkəzində idi. Təşkilat Komitəsi ən xırda məsələyə qədər bütün lazımi tədbirləri görüb ki, həm idmançılar, həm də qonaqlar üçün yaxşı şərait yaradılsın. Ölkəmizə minlərlə xarici qonaq gəlmişdi. Mən Təşkilat Komitəsinin işini çox yüksək qiymətləndirirəm və bu, artıq təbii bir haldır. Çünki Mehribanın rəhbərliyi ilə üçüncü beynəlxalq mötəbər yarışma keçirilir – 2012-ci ildə “Eurovision” mahnı yarışması, 2015-ci ildə Avropa Oyunları, – o, birinci Oyunlar idi, Oyunların standartları yox idi və hazırlıq üçün bizim cəmi iki ilimiz var idi, – və bu dəfə İslam Həmrəyliyi Oyunları ən yüksək səviyyədə keçirilmişdir. Əlbəttə, bu, onu göstərir ki, Təşkilat Komitəsi öz vəzifə borcunu ləyaqətlə, şərəflə icra edib. Mən Təşkilat Komitəsinin bütün üzvlərinə minnətdarlığımı bildirmək istəyirəm.

Eyni zamanda, Əməliyyat Komitəsi çox fəal işləyib. Bu Əməliyyat Komitəsi Avropa Oyunlarının da təşkilini təmin edibdir və xarici mütəxəssislər də bizə kömək göstəriblər. Oyunların açılış və bağlanış mərasimləri də çox möhtəşəm idi. Mən yaxşı bilirəm ki, Təşkilat Komitəsi bu iki möhtəşəm təqdimatla çox ciddi məşğul olub. Həm açılış, həm bağlanış mərasimi ölkəmizin imkanlarını, xalqımızın istedadını göstərir. Eyni zamanda, onu göstərir ki, Azərbaycan və Azərbaycan xalqı öz milli, dini dəyərlərinə sadiqdir, onları qoruyur.

Biz açılış mərasimində İslam dininin mütərəqqiliyini göstərdik. Göstərdik ki, İslam dini elm dinidir, mədəniyyət dinidir, sülh dinidir, mərhəmət dinidir. Biz Azərbaycan xalqının istedadlı nümayəndələrini açılış mərasimində göstərdik. Azərbaycanın zəngin, qədim tarixini, mədəniyyətini bütün İslam aləminə, bütün dünyaya nümayiş etdirdik. Eyni zamanda, bağlanış mərasimi də Azərbaycanı mütərəqqi, müasir ölkə kimi təqdim etdi. Yəni, bu nadir vəhdət bu gün Azərbaycanı dünya miqyasında əvəzolunmaz ölkəyə çevirir. Biz öz milli, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq və qoruyacağıq. Eyni zamanda, biz dünyaya açığıq, biz müasirik, biz inkişaf edirik və bu önəmli amillər bu gün əslində müasir Azərbaycan dövlətini təcəssüm etdirir. Biz dərin milli-mənəvi köklər üzərində müasir dövlət qururuq, o dövlət ki, indi hər bir vətənpərvər insan öz ölkəsi ilə fəxr edir.

Bizim uğurlarımızın təməlində Vətən sevgisidir və idmançılarımızı da qələbələrə aparan əsas amil budur. Biz görürdük ki, idmançılar necə sevinirlər, xalqımız necə sevinir. Bu on gün ərzində biz bir daha gördük ki, xalqımız, cəmiyyətimiz birdir. Bizi birləşdirən bizim əqidəmizdir, tariximizdir və gələcəyə baxışlarımızdır. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə layiq olan bir ölkədir. Azərbaycan müsəlman aləmində çox böyük rəğbətə layiq olan bir ölkədir.

Bakıda keçirilmiş Oyunlar sayca üçüncü İslam Həmrəyliyi Oyunlarıdır. Birinci Oyunlar Səudiyyə Ərəbistanında, ikinci İndoneziyada, üçüncü isə Azərbaycanda keçirilib. Səudiyyə Ərəbistanı müsəlman aləminin mərkəzidir, İndoneziya müsəlman aləmində əhali baxımından ən böyük ölkədir. Müsəlman aləminin bu iki aparıcı ölkəsindən sonra üçüncü Oyunların, – halbuki bu Oyunların adı dördüncüdür, amma biz bilirik ki, cəmi üçüncü dəfə keçirilibdir, – Azərbaycanda keçirilməsi, əlbəttə, bizə olan böyük hörmətin və inamın təzahürüdür.

Bu günlər ərzində xarici qonaqlarla təmaslar əsnasında çox sevinirdim ki, elə bil hamı mənə bir fikri çatdırmaq istəyirdi – hamı böyük minnətdarlıq hissi ilə təşkilati məsələlərin yüksək səviyyədə və peşəkarlıqla həll olunduğunu deyirdi. Əlbəttə ki, bu, bizi çox sevindirir. Oyunların bu səviyyədə keçirilməsi ölkəmizin gücünü, qüdrətini göstərir. Göstərir ki, biz istənilən beynəlxalq tədbiri ən yüksək səviyyədə təşkil edə və eyni zamanda, öz standartlarımızı da tətbiq edə bilərik və bunu edirik. Avropa Oyunları bundan sonra ancaq Azərbaycan standartları əsasında keçiriləcəkdir. Bilirəm ki, bu standartlara çatmaq çətin olacaq.

Biz İslam Həmrəyliyi Oyunlarında da yeni yanaşmanı ortaya qoyduq, yeni standartlar tətbiq etdik. Əlbəttə ki, bu, bizim qonaqlara olan hörmətimizin əlamətidir, məsuliyyətin təzahürüdür. Eyni zamanda, bu, ümumiyyətlə, bizim siyasətimizi göstərir. Çünki biz istəyirik ki, Azərbaycanda hər bir tədbir ən yüksək səviyyədə keçirilsin. Ona görə də ölkəmiz inkişaf edir, ona görə də Bakıya gələn bütün xarici qonaqlar şəhərimizə heyran qalırlar.

Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Azərbaycana gələn turistlərin sayı milyonlarla ölçülür. Bu Oyunlardan sonra ölkəmizə daha çox turist axını olacaq. Azərbaycanı bu gün nəinki İslam aləmində, dünyada inkişafda olan müasir, mütərəqqi, güclü dövlət kimi tanıyırlar və idmançılarımızın qələbələri bizim gücümüzü daha da artırır. Yəni, bu, daha əyani şəkildə göstərir ki, Azərbaycan güclü dövlətlər sırasındadır.

İdman yarışları, Olimpiya Oyunları, İslam Oyunları, Avropa Oyunları elə bir tədbirdir ki, bu tədbirlərdə həm idmançılar, həm ölkələr rəqabət aparırlar. İqtisadi, siyasi sahələrdə, beynəlxalq münasibətlər sahəsində bəzən birinciliyi müəyyən etmək üçün bəzi qurumlar, təşkilatlar çətinlik çəkirlər. Çünki müəyyən meyarlar olmalıdır. İdmanda isə hər şey açıq-aydındır. Azərbaycan birinci yerdədir, Azərbaycan qalibdir.

Əlbəttə, bu Oyunlar, eyni zamanda, İslam həmrəyliyini gücləndirəcək. Mən Oyunlar ərəfəsində demişdim, bizim



əsas məqsədimiz ondan ibarətdir ki, müsəlman ölkələrini təmsil edən idmançılar, qonaqlar Bakıda bir yerdə olsunlar, bir-biri ilə tanış olsunlar, bir-birinin əlini sıxsınlar və dostluq, əməkdaşlıq güclənsin. Belə də oldu. Biz bunu yarışlarda gördük ki, bəzi hallarda siyasi cəhətdən bir-biri ilə o qədər də yaxın münasibətləri olmayan ölkələrin nümayəndələri bir-birini təbrik edir, bir-birinin uğuruna sevinir, bir-birinin əlini sıxırlar.

Bax, bu Oyunların tarixi əhəmiyyəti məhz bundadır. Azərbaycan apardığı siyasətə idman vasitəsilə əlavə töhfə verdi. Çünki bizim müsəlman aləmində siyasətimiz ondan ibarətdir ki, birlik, həmrəylik güclənsin, müsəlman ölkələri arasındakı bəzi ixtilaflara, müharibələrə son qoyulsun. Müsəlman aləmi birlik nümayiş etdirməlidir. Ancaq bu təqdirdə xalqlarımız gələcəkdə rahat və firavan yaşaya bilərlər. Ona görə, bizim apardığımız siyasət və bu Oyunlarda verdiyimiz töhfə əminəm ki, müsəlman aləminin birləşməsinə gətirib çıxaracaq.

Eyni zamanda, Azərbaycan müsəlman aləmini Qərb aləmi ilə birləşdirən ölkədir. Təsəvvür edin, iki il ərzində bir ölkədə, bir şəhərdə Avropa və İslam Oyunları keçirilir. Bu Oyunlarda 100-dən çox ölkə iştirak edir. Heç bir başqa ölkə bax, bu nailiyyətlə öyünə bilməz. Haqlı olaraq fəxr edirik ki, biz bunu edə bilmişik. Ölkəmiz həm Qərb dünyasında, həm müsəlman aləmində etibarlı tərəfdaş, dost və qüdrətli dövlət kimi tanınır.

Bir məsələni də qeyd etmək istəyirəm. Bizim uğurlarımızı əldə edən idmançılar müstəqillik dövründə yetişiblər. Bir çoxları müstəqillik dövründə doğulublar, müstəqillik illərində bu nailiyyətlərə gəlib çıxıblar. Bu, bir daha onu göstərir ki, müstəqillik bizim ən böyük sərvətimizdir. Bizim xalqımızın çox böyük tarixi var. Ancaq müstəqillik tariximiz müasir dövrdə o qədər də böyük deyil. Biz cəmi 25 ildir ki, müstəqil ölkə kimi yaşayırıq və idman sahəsində, iqtisadi, sosial və digər sahələrdə görün, nə qədər böyük uğurlar əldə etmişik. İdman isə ölkələrin gücünü, siyasətini göstərir, xalqların gücünü göstərir. Sovet dövründə heç vaxt bizim ağlımıza gələ bilməzdi ki, Azərbaycan idmançıları bu qədər medal qazanacaqlar, Olimpiya Oyunlarında bu qədər qələbələr qazanacaqlar, müsəlman aləmində birinci, Avropa ölkələri arasında ikinci olacaqlar. Bütün bunlar ancaq müstəqillik dövründə mümkün olub. Ona görə, bu qələbə bir daha onu deyir və göstərir ki, ancaq müstəqillik dövründə xalqımız uğurla inkişaf edə bilər. Ancaq taleyimiz öz əlimizdə olduğu təqdirdə Azərbaycan xalqı sürətlə inkişaf edə bilər.

Biz müstəqillik gününün ərəfəsindəyik. Bir neçə gündən sonra Respublika Gününü qeyd edəcəyik. Bu qələbə əlbəttə ki, müstəqilliyimizə, müstəqilliyimizin möhkəmlənməsinə verilən növbəti töhfədir.

Eyni zamanda, biz mübarək Ramazan ayının başlaması ərəfəsindəyik. İslam Həmrəyliyi Oyunlarının Ramazan bayramının başlaması ərəfəsində başa çatması, Azərbaycan üçün böyük qələbə ilə sonuclanması hesab edirəm ki, təbiidir. Bu, təsadüfi deyil, bu, təbiidir.

Bir daha qayıdıram çıxışımın əvvəlinə. Bütün bu qələbələri bizə idmançılar bəxş ediblər. Ona görə, mən onları bir daha təbrik edirəm, onları qucaqlayıram, bağrıma basıram və onlara yeni qələbələr, uğurlar arzulayıram.

***

Sonra IV İslam Həmrəyliyi Oyunlarında ən yaddaqalan məqamları, o cümlədən Azərbaycan idmançılarının çıxışlarını əks etdirən videoçarx nümayiş olundu.

Sonda xatirə şəkilləri çəkdirildi.

# Prezident İlham Əliyev 9 May – Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib

## Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin ildönümü qeyd edilib



Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 72-ci ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İkinci Dünya müharibəsinin veteranları ilə görüşdülər, onları Böyük Qələbə münasibətilə təbrik etdilər.

Müharibə veteranları Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Qələbə Günü münasibətilə təbrik etdilər, onlara göstərdikləri yüksək diqqətə və qayğıya görə minnətdarlıqlarını bildirdilər. Vurğuladılar ki, təməli ulu öndərimiz Heydər Əliyev



tərəfindən qoyulan inkişaf strategiyasını Prezident İlham Əliyev uğurla davam etdirir. Azərbaycan və onun paytaxtı Bakı şəhəri gündən-günə inkişaf edir, gözəlləşir, abadlaşır.

Xanım Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması münasibətilə təbrik edən Böyük Vətən müharibəsi veteranları bildirdilər ki, dövlətimiz onlara yüksək qayğı göstərir. Onlar bu qayğıya cavab olaraq gənclərimizin vətənpərvərlik ruhunda böyümələri, Vətəninə və xalqına layiqli övlad kimi yetişmələri üçün öz bilik və bacarıqlarını əsirgəməyəcəklərini dedilər.

Dövlət başçısı və birinci xanım müharibə veteranlarını bir daha təbrik etdilər, onlara uzun ömür və möhkəm cansağlığı arzuladılar.

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. İkinci Dünya müharibəsində SSRİ-nin qazandığı şanlı Qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 700 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan



nefti həlledici rol oynayıb. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddə üç hissəsi, aviasiya benzini və yüksəkkeyfiyyətli yağların 85-90 faizi Azərbaycanın payına düşürdü.

Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarus, Pribaltika cəbhələrində cəsarətlə vuruşublar. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci milli







diviziyalar Simferepolun, Odessanın, Polşanın, Çexoslovakiyanın və Yuqoslaviyanın azadlığı uğrunda döyüşlərdə fəal iştirak ediblər.

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir, bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsidir.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi. Ümummilli Lider onları "Xalqımızın qızıl fondu" adlandırırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həlli istiqamətində daim mühüm addımlar atır, 9 May - Qələbə bayramı ərəfəsində onlara birdəfəlik maddi yardımlar göstərilir. Bu isə həmin kateqoriyadan olan insanların sosial vəziyyətinin daim diqqət mərkəzində olduğunu nümayiş etdirir.

Böyük Vətən müharibəsi veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdikləri qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 72 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

***

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə Günü münasibətilə onları təbrik etdilər, xatirə şəkli çəkdirdilər.

Dövlət başçısı və birinci xanım iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun qəbirüstü abidəsi önünə əklil qoydular, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdilər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin qarşısından keçdi.

***

Mərasimdə Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

# Prezident İlham Əliyev 28 May – Respublika Günü münasibətilə rəsmi qəbulda iştirak edib

## Azərbaycanın milli bayramı – Respublika Günü qeyd edilib

Mayın 26-da "Buta" sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.

Azərbaycanın dövlət himni səsləndirildi.

Dövlət başçısı rəsmi qəbulda nitq söylədi.



## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

– Hörmətli xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqına yeni uğurlar, qələbələr arzulayıram.



Doxsan doqquz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, bizim xalqımız bu respublikanı yaradıb. Bu, tarixi hadisədir, xalqımız üçün və dünya miqyasında tarixi hadisədir. Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Dünya miqyasında birinci müsəlman demokratik respublikası Azərbaycanda yaradılmışdır. Bu, özlüyündə xalqımızın nə qədər mütərəqqi və istedadlı olduğunu bir daha göstərirdi.

Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, onun qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini qeyd etmək üçün bu yaxınlarda mənim tərəfimdən Sərəncam imzalanmışdır.

Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki ildən sonra müstəqilliyimiz əlimizdən alınmışdır. Əgər Azərbaycan dövlət müstəqilliyini qoruya bilsəydi, əminəm ki, bu gün Azərbaycan dünya miqyasında ən inkişaf etmiş, ən zəngin ölkələrdən biri olacaqdı. Ancaq xarici müdaxilə nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi.

Ondan sonra 70 il Azərbaycan xalqı Sovet İttifaqının tərkibində yaşayırdı. Baxmayaraq ki, müstəqil deyildik, Azərbaycan xalqı inkişaf edirdi. Xüsusilə 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf etmişdir, həm iqtisadi, həm sosial sahədə böyük uğurlar qazanmışdır.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmuşdur. Ancaq tarix sanki təkrarlanırdı və iki ildən sonra yenə də müstəqilliyimiz üçün böyük təhlükələr yaranmışdı. Əslində, müstəqilliyimizin ilk iki ili formal xarakter daşıyırdı. Çünki Azərbaycan öz müstəqil siyasətini tam miqyasda apara bilmirdi. Bundan əlavə, ölkəmizdə yaşanan siyasi, iqtisadi, hərbi böhran, torpaqlarımızın işğal altına düşməsi, ovaxtkı hakimiyyət tərəfindən vətəndaş müharibəsinin başlanması, əlbəttə, gənc dövlətimizi uçurum kənarına qoymuşdu. 1993-cü ildə Azərbaycan yenə də böyük təhlükə ilə üz-üzə qalmışdı. Azərbaycan xalqının müdrikliyi ölkəmizi, dövlətimizi bu bəladan xilas etdi.

Azərbaycan xalqı müdriklik göstərərək böyük lideri – Heydər Əliyevi hakimiyyətə dəvət etdi. 1993-cü ildən sonra Azərbaycanda inkişaf dövrü başlamışdır və bu gün bu dövr davam edir. Bütün xoşagəlməz hallara, vətəndaş müharibəsinə son qoyuldu, qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi, ölkəyə böyük həcmdə xarici sərmayə gəlməyə başladı. Azərbaycan beynəlxalq təcriddən, informasiya blokadasından çıxa bildi. Bir sözlə, 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan inkişaf yolu ilə gedir. Bugünkü Azərbaycan bir daha mənim sözlərimi təsdiqləyir ki, əgər 1920-ci ildə müstəqillik əlimizdən alınmasaydı, indi Azərbaycan ən öndə gedən ölkələrdən biri ola bilərdi.

Bunu deməyə əsas verən bizim müstəqillik tariximizdir. Cəmi 23 il ərzində – 1993-cü ildən başlayaraq, görün, Azərbaycan nə qədər inkişaf edib, Azərbaycan nə qədər güclənib, görün, Azərbaycan dünyada hansı möhkəm mövqelərə sahib olub. İqtisadi sahədə, sosial sahədə, bütün başqa sahələrdə Azərbaycan böyük uğurlara imza atıb və bu gün bütün dünya bunu bilir və qəbul edir. Bu gün Azərbaycan bir çox ölkələr üçün nümunədir.

Bu gün qarşıda duran vəzifələr haqqında danışmaq istərdim. Biz gələcək illərdə də müsbət dinamikanı saxlamalıyıq və əminəm ki, saxlayacağıq. Daxili siyasətə gəldikdə, ilk növbədə, Azərbaycanda bundan sonra da təhlükəsizlik təmin edilməlidir. Deyə bilərəm ki, Azərbaycanda daxili risk mənbələri mövcud deyil. Mümkün olan risklər xaricdə formalaşır. Belə olan halda biz ölkəmizi bundan sonra da xarici risklərdən qorumalıyıq, həm fiziki nöqteyi-nəzərdən, eyni zamanda, düzgün siyasət aparmaqla. Biz sərhəd mühafizəsini kifayət qədər gücləndirmişik və bu istiqamətdə əlavə addımlar atılacaqdır. Eyni zamanda, Azərbaycan bizə sərf etməyən, şübhə doğuran heç bir beynəlxalq hərəkatlərə, avantüralara qoşulmur. Baxmayaraq ki, müxtəlif tərəflər bizi müntəzəm olaraq bu hərəkatlərə cəlb etməyə çalışırdılar. Bu gün də belə səylər var. Ancaq Azərbaycan bizə sərf

etməyən heç bir hərəkətə, təşəbbüsə qoşulmur və qoşulmayacaq.

Biz, ilk növbədə, öz maraqlarımız, öz təhlükəsizliyimiz, inkişafımız, rifahımız haqqında düşünürük. Əgər hansısa beynəlxalq təklif və təşəbbüs bizim maraqlarımızla üst-üstə düşürsə, əlbəttə ki, biz buna müsbət yanaşa bilərik. Ancaq, ilk növbədə, milli maraqlar, Azərbaycanın maraqları, xalqımızın rahatlığı, firavanlığı və ölkəmizin təhlükəsizliyi məsələləri ön plandadır, xüsusilə indiki şəraitdə. Biz bu siyasəti uzun illərdir ki, aparırıq. Bəzən buna görə də müxtəlif yerlərdən Azərbaycana təzyiqlər göstərilir və bizə qarşı kampaniyalar aparılır. Ancaq indiki şərait, bugünkü beynəlxalq vəziyyət bir daha göstərir ki, bu, yeganə düzgün siyasətdir. Çünki bu gün bölgədə, dünyada risklər, təhlükələr artır, təhlükə mənbələri genişlənir, əfsuslar olsun ki, bizim coğrafiyamızda sabitlik təmin edilmir, əksinə, ildən-ilə vəziyyət daha da gərginləşir. Ona görə təhlükəsizlik məsələləri ön planda olmalıdır.

Bununla bərabər, Azərbaycanda bütün azadlıqlar bundan sonra da təmin ediləcək və bu iki yanaşma arasında heç bir ziddiyyət olmamalıdır. Azərbaycan azad dövlətdir, demokratik dövlətdir, demokratik inkişaf istiqamətində bir çox nailiyyətlərimiz var və bu proses davam etdirilməlidir. Bütün fundamental azadlıqlar Azərbaycanda bundan sonra da təmin ediləcək və xalqımız azadlıq şəraitində yaşayacaqdır.

Azərbaycanda bundan sonra da millətlərarası, dinlərarası münasibətlər ən yüksək səviyyədə öz həllini tapacaq. Biz indi bir çox ölkələr üçün nümunəyik. Bunu artıq heç kim gizlətmir. Nəinki ölkəmizdə keçirilmiş beynəlxalq tədbirlər, eyni zamanda, Azərbaycanda mövcud olan vəziyyət bir çox ölkələr üçün nümunədir. Həmkarlarım və təmasda olduğum xarici qonaqlar bunun sirrini öyrənmək üçün mənə dəfələrlə suallar verirdilər. Bunun sirri çox sadədir. Sadəcə olaraq, düzgün siyasət aparılmalıdır, inkişaf olmalıdır, savadlılıq artmalıdır, milli və dini siyasət düzgün aparılmalıdır. Azərbaycanda yaşayan bütün xalqların, bütün dinlərin nümayəndələri özlərini rahat hiss etməlidirlər. Bu gün bu vəziyyət reallıqdır. Azərbaycanda bütün xalqların nümayəndələri bir ailə kimi, mehribanlıq, sülh, qarşılıqlı anlaşma şəraitində yaşayırlar. Bu da bizim böyük sərvətimizdir, gücümüzdür və biz bunu qoruyuruq, qorumalıyıq. Şadam ki, bizim siyasət, bu istiqamətdə atılan addımlar xalq tərəfindən tam dəstəklənir. Ona görə, bu gün Azərbaycan dünyada multikulturalizmin mərkəzi sayılır.

Bununla bərabər, biz öz milli-mənəvi dəyərlərimizə sadiqik. Təsadüfi deyil ki, keçən il Azərbaycanda "Multikulturalizm İli", bu il "İslam Həmrəyliyi İli" elan edilmişdir. Bu, bir daha göstərir ki, öz köklərinə bağlı olan xalq və dövlət həmişə düzgün siyasət aparacaq. Milli dəyərləri möhkəm olan xalq həmişə uğur qazanacaq, inkişaf edəcək. Hesab edirəm ki, Azərbaycan modeli, o cümlədən bu istiqamətdə əldə etdiyimiz uğurlar bir çox ölkələr üçün çox cəlbedicidir. Həm ənənələr, tariximiz, mədəniyyətimiz, dinimiz bizim üçün müqəddəsdir, eyni zamanda, biz dünyaya açığıq, müasirik, bütün ölkələrlə yaxşı münasibətlər qurmağa çalışırıq.

Əlbəttə, bütün bu amilləri nəzərə alaraq, bundan sonra da Azərbaycanda sabitlik davam etdiriləcək. Bu gün artıq reallıqdır ki, sabitlik olmadan heç bir inkişafdan söhbət gedə bilməz, sabit olmayan ölkələrə heç kim sərmayə qoymaz, heç kim turist kimi gəlməz, belə ölkələrlə heç kim gözəl münasibətlər qurmağa çalışmaz. Ona görə, sabitlik hər bir ölkənin əsas amilidir, inkişafın əsas amilidir. Ancaq sabitliyi inzibati yollarla əldə etmək mümkün deyil. Bu, müvəqqəti olacaq. İndi bir neçə ölkədə xüsusi təhlükəsizlik tədbirləri görülür, xüsusi rejim tətbiq olunur. Bu, inzibati yollardır. Amma sabitliyin əsl mahiyyəti ondadır ki, xalq dövlət siyasətini dəstəkləsin, xalq vəziyyətlə razı olsun, xalq inkişafla qürur duysun. Biz bax, bu sabitliyi yaratmışıq və Azərbaycanda hökm sürən sabitliyin təməlində bu amillər dayanır – xalq-iqtidar birliyi, bizim siyasətimiz və əldə edilmiş uğurlar. Ən yaxşı təbliğat vasitəsi real həyatdır. Bu gün Azərbaycan çoxşaxəli şəkildə inkişaf edir və bütün istiqamətlərdə böyük uğurlar qazanıb.

Daxili siyasət məsələlərinə gəldikdə, əlbəttə ki, biz sosial sahəyə bundan sonra da xüsusi diqqət ayıracağıq. Bu sahə bizim üçün prioritetdir. Mən dəfələrlə demişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz bütün işləri ona görə görürük ki, xalqımız daha da yaxşı yaşasın. Azərbaycanda bir çox sosial təşəbbüslər irəli sürülmüşdür, sosial infrastruktur layihələri geniş vüsət alıb. Eyni zamanda, Azərbaycan elə təşəbbüslər irəli sürür ki, bu, dünya üçün bir yenilikdir. Mən bunların arasında kütləvi müayinədənkeçmə proqramını xüsusi qeyd etmək istərdim. Bir neçə ildir ki, bu proqram icra edilir. Bu proqramı icra etmək üçün, ilk növbədə, səhiyyə sahəsində islahatlar aparılmalı və müasir infrastruktur yaradılmalı idi. Artıq 600-dən çox xəstəxananın tikintisi, təmiri bizə belə imkanları yaradır. Kütləvi müayinədənkeçmə proqramını əhatə edən bütün qurumlar bu nəticəni əldə ediblər – bu il 5 milyondan çox Azərbaycan vətəndaşı pulsuz müayinədən keçibdir. Bax, bizim siyasətimiz bundan ibarətdir. Bizim siyasətimiz 3 mindən artıq məktəbin tikilməsində, maaşların, pensiyaların artırılmasında özünü göstərir. Azərbaycan büdcəsində sosial xərclər əlbəttə ki, prioritet olaraq qalacaq və bundan sonra da bu istiqamətdə əlavə addımlar atılmalıdır.

Azərbaycan xarici siyasət sahəsində böyük uğurlar əldə edib. Bunu artıq Azərbaycan ictimaiyyəti bilir. Biz beynəlxalq arenada öz milli maraqlarımızı bundan sonra da müdafiə edəcəyik. Biz bu gün dünyada çox böyük hörmətə malik olan ölkə kimi tanınırıq. Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. Ermənistandan başqa heç bir ölkə ilə ikitərəfli formatda bizim problemimiz yoxdur. Biz bir çox üçtərəfli əməkdaşlıq formatları irəli sürdük.

Bu gün bizim beynəlxalq təşkilatlarla da çox yaxşı münasibətlərimiz var və biz bu təşkilatlarda fəal rol oynayırıq. Mən onların içərisində, ilk növbədə, İslam Əməkdaşlıq Təşkilatını qeyd etmək istərdim. Azərbaycan bu təşkilatın fəal üzvüdür. Bu təşkilat erməni təcavüzü ilə bağlı keçən il Kontakt Qrupu yaratmışdır. Erməni təcavüzü, ötən ilin aprel ayında onların törətdikləri təxribat hadisələri İslam Əməkdaşıq Təşkilatı tərəfindən pislənildi. Azərbaycan dövlətinə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyinə daim dəstək göstərilir.

Eyni zamanda, Azərbaycan bu təşkilat çərçivəsində ikitərəfli əlaqələri də genişləndirir. Mən bu yaxınlarda Səudiyyə Ərəbistanında Ərəb-İslam-Amerika Zirvə görüşünü xüsusi qeyd etmək istəyirəm. Azərbaycan bu Zirvədə yüksək səviyyədə iştirak etmişdir. Hesab edirəm ki, bu Zirvənin çox böyük mənası var. İlk növbədə, müsəlman aləmi həmrəylik nümayiş etdirmişdir və təqdirəlayiq haldır ki, Amerika Prezidenti cənab Tramp öz ilk xarici rəsmi səfərini müsəlman ölkəsinə edibdir. Biz bunu Azərbaycanda yüksək qiymətləndiririk. Hesab edirəm ki, bu, bütün müsəlman aləminə Amerika Prezidenti tərəfindən göstərilən böyük hörmətin əlamətidir. Yəni, bu səfərin və Zirvə görüşünün təşkilinin özü artıq böyük hadisədir və orada Amerika Prezidenti tərəfindən səslənən fikirlər əlbəttə ki, çox yüksək qiymətləndirilməlidir. Xüsusilə o demişdir ki, Amerika Birləşmiş Ştatları bundan sonra müsəlman ölkələrinin daxili işlərinə qarışmayacaq, onlara öyüdnəsihət verməyəcək, onlara mühazirə oxumayacaq. Bu, çox ciddi bəyanatdır və deyə bilərəm ki, Zirvə görüşünün demək olar bütün iştirakçıları bu bəyanatları yüksək qiymətləndiriblər, o cümlədən Azərbaycan. Çünki biz hamımız yaxşı bilirik ki, Azərbaycan xarici müdaxilə nəticəsində ən çox atəş altında olan ölkələrdən biridir.

Ümid edirəm ki, bu ciddi siqnal bütün aidiyyəti qurumlara, o cümlədən Avropa təsisatlarına da çatacaq və bizim işimizə qarışma cəhdləri aradan götürüləcək. Onsuz da bu ildən başlayaraq Amerika rəhbərliyində dəyişikliklər oldu və görürük ki, artıq bu müdaxilələrin təzahürləri yavaş-yavaş aradan götürülür. Biz bunu alqışlayırıq və ümid edirik ki, bu, davam etdiriləcək. Çünki yeganə düzgün siyasət də məhz budur. Mən əvvəllər də demişəm, bu gün də demək istəyirəm ki, əgər ölkələr bir-birinin işinə qarışmasalar onda nə müharibə, nə münaqişə olacaq, ancaq sülh olacaq, əməkdaşlıq olacaq.

Azərbaycan heç bir ölkənin işinə heç vaxt qarışmayıb və heç vaxt qoymayıb və qoymayacaq ki, kimsə gəlib bizim işimizə qarışsın, bizə dərs desin və bizə yuxarıdan aşağı baxsın. Azərbaycan ləyaqətli dövlətdir. Öz qürurumuzu qorumuşuq və qoruyacağıq.

Xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Bu istiqamətdə bizim prinsipial mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bu gün də belədir, sabah da belə olacaqdır. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ölkələrin ərazi bütövlüyü çərçivəsində, Helsinki Yekun Aktının qərarlarına uyğun şəkildə öz həllini tapmalıdır. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim tarixi torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın. Elə mövcud olan erməni dövləti bizim torpağımızda yaradılıbdır. Biz yaxşı bilirik ki, 1918-ci ildə İrəvan Ermənistana hədiyyə kimi verilmişdir. Ona görə, torpağımızda ikinci qondarma erməni dövlətinin yaradılması mümkün deyil. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan qeyd–şərtsiz çıxarılmalıdır.

Beynəlxalq təşkilatların qərar və qətnamələri bizi qane edir. Bu, münaqişənin həlli üçün hüquqi əsasdır. Eyni zamanda, son müddət ərzində səslənən bəyanatlar və atılan addımlar da yüksək qiymətləndirilməlidir. Xüsusilə həm Minsk qrupuna həmsədrlik edən ölkələr, həm Avropa İttifaqı, digər qurumlar artıq birmənalı şəkildə deyirlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Düzdür, hələ ki, bu bəyanatlardan sonra heç bir addım atılmır. Gözləyirik ki, bu addım da atılacaq və işğalçıya təzyiq göstəriləcək. Onlara qarşı sanksiya tətbiq olunacaq və mütləq olmalıdır. Əgər Ermənistana bu işğalçı siyasətinə görə sanksiyalar tətbiq edilməsə, bu, ikili standartların növbəti əlaməti olacaqdır. Buna baxmayaraq, belə bəyanatların özü də hesab edirəm ki, müsbət addımdır.

Eyni zamanda, Dağlıq Qarabağda keçirilmiş qondarma "referendum"a çox sərt reaksiya verildi, həm qonşu ölkələr tərəfindən, həm Minsk qrupundan, həm Avropa İttifaqından və digər ölkələrdən. Heç kim bu qondarma yığıncağı, bu biabırçılığı qəbul etmədi, əksinə bunu pislədi. Bir daha sübut etdilər və göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz torpağıdır, ölkəmizin ayrılmaz hissəsidir. Biz isə öz siyasətimizi davam etdirəcəyik. Danışıqlarda bizim prinsipial mövqeyimiz tam əsaslıdır və biz bu siyasətdən bir millimetr də geri çəkilən deyilik.

Məcburi köçkünlərlə bağlı bizim siyasətimiz göz qabağındadır. Son illər ərzində 100-ə yaxın qəsəbə salınıb. Hazırda yeni qəsəbələr salınır. Eyni zamanda, biz Bakı, Sumqayıt şəhərlərində qəzalı binalarda yaşayan köçkünlər üçün də yeni binaların tikintisinə başlayırıq. Bu da çox geniş bir proqram olacaqdır. Bir neçə min ailə, məcburi köçkün yaxın gələcəkdə yeni, gözəl evlərə, mənzillərə köçürüləcək.

Ordu quruculuğu istiqamətində siyasətimiz özünü tam doğruldub. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Beynəlxalq reytinqlər də bunu göstərir. Ordumuzun maddi-texniki təchizatı, döyüş qabiliyyəti, orduda vətənpərvərlik ruhu yüksək səviyyədədir. Bu gün biz ən qabaqcıl texnologiyalara malik olan texnika alırıq, silahlar alırıq və alacağıq. Ordumuz üçün nə qədər vəsait ayırmaq lazımdırsa, biz o qədər də ayıracağıq. Dilənçi Ermənistandan fərqli olaraq, biz Ordumuzu öz hesabımıza təmin edirik, müstəqil ölkə kimi yaşayırıq. Onlar isə başqa yolu seçiblər, bu, müstəmləkə yoludur, bu, onların seçimidir.

Bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Keçən ilin aprel döyüşləri bunu göstərdi. Aprel döyüşləri xalqımızın, Ordumuzun gücünü göstərdi. Bir daha göstərdi ki, Azərbaycan Ermənistanın silahlı təxribatlarına heç vaxt dözməyəcək və göstərdi ki, Azərbaycan indiki vəziyyətlə heç vaxt barışmayacaq.

Əlbəttə, bütün planlarımızı həyata keçirmək üçün biz güclü iqtisadiyyata malik olmalıyıq. Bu istiqamətdə də çox böyük addımlar atılır. Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünyada 37-ci yerdədir. Baxmayaraq ki, beynəlxalq maliyyə böhranı bizə də təsir etdi. Baxmayaraq ki, neftin qiymətinin aşağı düşməsi təbii ki, gəlirlərimizə mənfi təsir etdi. Artıq Azərbaycan iqtisadiyyatı mövcud vəziyyətə adaptasiya olundu, milli valyutamız sabitləşdi, qeyri-neft ixracımız artır. Dörd ayın iqtisadi göstəriciləri çox müsbətdir. Bizim valyuta ehtiyatlarımız, ticarət dövriyyəsi artıb. Ticarət dövriyyəsində müsbət saldo 1,2 milyard dollara çatıbdır. Ticarət dövriyyəsi 11 faiz, ixrac 41 faiz, qeyri-neft ixracı 22 faiz, kənd təsərrüfatı ixracı 44 faiz artmışdır.

Azərbaycanda bugünkü maliyyə və iqtisadi vəziyyət sabitdir, dayanıqlıdır. Bütün büdcə proqnozları yerinə yetirilir. Mən nə bu il, nə gələn il ölkə iqtisadiyyatı üçün heç bir problem görmürəm. Xüsusilə nəzərə alsaq ki, bizim valyuta ehtiyatlarımız da artır, bu il də artıbdır. Valyuta ehtiyatlarımız xarici borcdan 4-5 dəfə çoxdur. Ona görə, istənilən ölkə, bax, bu vəziyyəti özü üçün arzulaya bilər.

Əlbəttə, bu gün qarşımızda duran vacib məsələlərdən biri Cənub Qaz Dəhlizinin başa çatdırılmasıdır. Azərbaycan bu istiqamətdə də öz tərəfdaşları ilə uğurlara imza atıbdır. "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Mən sözlərimi əsaslandırmaq üçün bəzi rəqəmləri də səsləndirə bilərəm. Bildiyiniz kimi, Cənub Qaz Dəhlizi dörd layihədən ibarətdir. "Şahdəniz-2" layihəsinin icrası 93 faizə çatıbdır. İkinci layihə Cənubi Qafqaz kəməridir. Orada icra səviyyəsi 85 faizdir. Üçüncü layihə Trans-Anadolu qaz kəməri – TANAP-dır. Burada işlərin 72 faizinin görülməsi təmin edilibdir. Dördüncü layihə Trans-Adriatik kəməri – TAP-dır. Orada isə icra səviyyəsi 42 faizdir. Onu da qeyd etmək istəyirəm ki, plana görə TAP-ın icra səviyyəsi bu günə 45 faiz olmalı idi. Yəni ki, o səviyyəyə yaxındır. Mən bunu xüsusilə vurğulamaq istəyirəm. Çünki Azərbaycan ictimaiyyəti bilir ki, TAP layihəsini əngəlləmək üçün indi böyük səylər göstərilir, qruplar təşkil olunur, ekoloji məsələlər bəhanə kimi ortalığa atılır. Bizdə olan məlumata görə, bunun arxasında böyük pullar dayanır. Yəni, o qruplar süni şəkildə, heç bir əsası olmadan təşkil edilir. Amma aydındır nə üçün, bu layihəni dayandırmaq, yaxud da ki, ləngitmək üçün. Bütün bunlara baxmayaraq, TAP layihəsinin icrası plandan cəmi 3 faiz geridədir. Ona görə, əminəm ki, bu layihənin icrasında da heç bir problem olmayacaq.

Bilirsiniz ki, bu gün biz böyük nəqliyyat layihələri üzərində işləyirik. Bakı-Tbilisi-Qars və Şimal-Cənub layihələri ilə bağlı Azərbaycanın üzərinə düşən vəzifələr tam icra edilib. İndi əlbəttə ki, tərəfdaş ölkələrdə bu işlərin sürətləndirilməsi prosesi gedir. Biz də gələcəkdə bu işlərdə iştirak edə bilərik. Belə olan halda indi əsas böyük nəqliyyat layihələri arasında prioritet Ələt Beynəlxalq Dəniz Limanının tikintisinin başa çatdırılmasıdır və bunun üçün lazımi vəsait ayrılıb. Əminəm ki, bundan sonra bir il ərzində, yəni, hesab edirəm, gələn ilin yayına qədər Bakı Ələt Beynəlxalq Dəniz Limanı istifadəyə veriləcək. Bu, Xəzər dənizində ən böyük liman olacaq və bizim nəqliyyat imkanlarımızı böyük dərəcədə artıracaq.

Əlbəttə ki, qarşıda duran vəzifələr qeyd etdiyim vəzifələrdən daha da çoxşaxəlidir və çoxdur. Sadəcə olaraq, mən əsas istiqamətlər üzrə gələcək fəaliyyətimizi xalqa təqdim etdim. Əminəm ki, biz bütün istiqamətlər üzrə bundan sonra da sürətlə inkişaf edəcəyik. Bizim uğurlarımızın təməlində, əlbəttə, düşünülmüş siyasət dayanır və o amil dayanır ki, bu gün Azərbaycan xalqı müstəqillik şəraitində yaşayır. Müstəqilliyin dəyərləri, o cümlədən real həyatda özünü göstərir. Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir. Biz müstəqilliyi qoruyuruq və qoruyacağıq. Sağ olun.

***

Rəsmi qəbul konsert proqramı ilə davam etdi.

# Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib

## Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimi təşkil olunub



Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başladı.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə mərasim iştirakçılarını salamlayaraq dedi:

– Bismillahir-rəhmanir-rəhim.

Zati-aliləri, möhtərəm cənab Prezident.

Hörmətli qonaqlar.

Əziz qonaqlarımıza, xüsusən dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına məclisimizdə iştirak etdiyinə görə Azərbaycan dindarları adından və şəxsən öz adımdan salam-dualarımı və dərin minnətdarlığımı bildirirəm. Məclisimizdə iştirak edən dəyərli dövlət və din xadimlərinə, dini konfessiya rəhbərlərinə, deputatlara, xarici ölkələrin təmsilçilərinə "Xoş gəlmisiniz!" deyirəm.

Zati-aliləri, "Qurani-Kərim"in nazil edildiyi, bütün duaların qəbul olunduğu mübarək Ramazan ayında iftar məclislərini bizimlə birgə keçirməyiniz Azərbaycan dindarlarına və şəxsimə olan yüksək ehtiram və etimaddır. Mən bunu yüksək dəyərləndirirəm. Bu məqam müqəddəs ənənə halını almışdır. Bu ənənənin bünövrəsini – ali mənəviyyat yolunun başlanğıcını Azərbaycan xalqının ümummilli lideri, böyük dövlət xadimi, xatiri mənim üçün bir qardaş qədər daim əziz olan Heydər Əliyev qoymuşdur. Bu mübarək ayda mən Heydər Əliyevə və ömür-gün yoldaşı Zərifə xanıma Allahdan rəhmət diləyirəm.

Möhtərəm Prezident, Sizin rəhbərliyinizlə Azərbaycan gündən-günə inkişaf edir, yeni zəfərlər qazanır. Mən Sizin simanızda görkəmli dövlət xadimini, siyasi lideri, ölkə başçısını görməklə bərabər, Allah-Təalanın Azərbaycan xalqına lütfünü, inayətini və mərhəmətini görürəm. Uca Allahın lütfündəndir ki, Azərbaycan dindarları öz dövlətinin başçısını – Zati-alinizi Məkkədə, mübarək Qurban bayramı ərəfəsində seçmək imkanına malik oldular. İslam tarixində ilk və istisna hal olan bu özəl məqamı dindarlar heç vaxt unutmayacaqlar.

Zati-aliləri, müqəddəs Kəbə Evinin daxilində etdiyiniz niyyətin hasili olan Heydər məscidi dualarımızın müstəcab olmasının təsdiqidir. Sizin dövlət-xalq birliyinə əsaslanan müdrik siyasətiniz, qətiyyətli iradəniz sayəsində Azərbaycan yeni zəfərlər qazanır və qlobal təşəbbüslərin mərkəzinə çevrilir. Sizin təşəbbüsünüzlə keçirilən Mədəniyyətlərarası Dialoq, Qlobal, Humanitar forumlar, Dünya Dini Liderlərinin Sammiti, müəllifi olduğunuz "Bakı prosesi" buna bariz nümunədir. Bakı dünyanın humanitar mərkəzinə çevrilməkdədir.

Sizin multikultural dəyərləri təşviq edən, islami həmrəyliyə dəvət edən qlobal ideyalarınız zamanın çağırışlarına cavab verir, nəinki ölkəmizin, bölgəmizin, habelə bütün bəşərin mənafeyinə xidmət edir. Siz yüksək xitabət kürsülərindən İslam dininin sülhsevər mahiyyətini, mütərəqqi dəyərlərini təşviq edir, islamofobiya hallarına qarşı öz qətiyyətli mövqeyinizi bildirirsiniz. Sizin səyləriniz sayəsində Azərbaycan ekstremizm, radikalizm, terrorizmə qarşı mübarizənin önündə gedən dövlətlərdən biridir və İslam dünyasının inkişafına öz töhfəsini verir.

Zati-aliləri, ötən ili "Multikulturalizm İli", bu ili isə "İslam Həmrəyliyi İli" elan etmək kimi müdrik, beynəlxalq əhəmiyyətli qərarlarınız islami və bəşəri dəyərlərə ali xidmətinizdir. Bu, qlobal əhəmiyyətli addımdır. Hər dövlət başçısı bu addımı atmaq imkanında deyil. Bunun davamı olaraq, "İslam Həmrəyliyi İli" çərçivəsində mötəbər idman bayramı – İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi, 54 müsəlman ölkəsini, hətta münaqişə vəziyyətində olan dövlətləri belə bir araya gətirən həmrəylik bayramı, Azərbaycan idmançılarının zəfəri Sizin misilsiz səylərinizin bəhrəsidir. Bütün bu nailiyyətlərə görə İslam dünyası adından Sizə dərin təşəkkürlərimizi qəbul edin. Mən Azərbaycan idmançılarını təbrik edirəm. Hər dəfə ucalan bayrağımız, səslənən himnimiz bizə qürur gətirdi. Azərbaycan xalqı bir daha sübut etdi ki, onun lideri həm siyasi, həm mənəvi, həm də fiziki cəhətdən güclüdür. Siz bu qüruru bizə yaşatdınız.

Zati-aliləri, bugünkü müqəddəs iftar süfrəsində ilin mühüm hadisəsi – möhtərəm Mehriban xanım Əliyevanın ölkəmizin Birinci vitse-prezidenti təyin olunması ilə bağlı müdrik qərarınıza görə ölkə dindarları adından Sizə dərin minnətdarlığımızı bildirmək istərdim. Mehriban Əliyevanın azərbaycançılıq naminə, milli, mənəvi irsimizin qorunması istiqamətində uzun illər ərzində misilsiz səylərinin, ölkə daxilində və xaricində uğurlu fəaliyyətinin şahidiyik. Mehriban xanıma Allah-Təaladan Azərbaycan naminə gələcək fəaliyyətinə xeyir-dua və uğurlar diləyirəm.

Hörmətli cənab Prezident, Siz din xadimlərinin mənəvi dayağısınız. Dini icmalar, axund və imamlarımızın maddi-mənəvi ehtiyacları hər zaman Sizin diqqət mərkəzinizdədir. "Dini etiqad azadlığı haqqında" Qanuna son əlavələr, İslam dini təhsilinin inkişafı ilə bağlı tarixi qərarınız dini maarifləndirmə işinə böyük töhfələrdir və bunlara görə dindarların təşəkkürlərini Sizə çatdırıram. Yasamal rayonundakı Hacı Cavad məscidinin münasib yerə köçürülərək şəxsi vəsaitiniz hesabına yenidən inşası barədə qərarınız dindarlar tərəfindən rəğbətlə qarşılandı. Buna görə Sizə və ailənizə dualar edirlər.

Zati-aliləri, Siz təkcə Azərbaycanın deyil, bütün Qafqaz müsəlmanlarının mənəvi dayağısınız. Qafqaz xalqları Ali Dini Şurası üzvlərinin arzusunu nəzərə alaraq, azərbaycanlı xeyriyyəçi Murtuza Muxtarovun XX əsrin əvvəllərində Vladiqafqazda Azərbaycan milli memarlığı üslubunda inşa etdirdiyi Cümə məscidinin təmiri üçün Sizin ayırdığınız maddi yardım hesabına tarixi dini məkan əsaslı şəkildə bərpa edilib. İslam Həmrəyliyi Oyunlarının açılışına şəxsi qonağınız kimi dəvət etdiyiniz Qafqaz müftiləri Zati-alilərinizə xas olan bu diqqət və qayğı nümunəsinə görə təşəkkürlərini Sizə çatdırmağı Qafqaz Xalqları Ali Dini Şurasının sədri olaraq məndən xahiş ediblər.

Möhtərəm Prezident, Qafqaz Müsəlmanları İdarəsi həm "Multikulturalizm İli", həm də "İslam Həmrəyliyi İli" çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, dini konfessiyaların rəhbərləri, ictimai təşkilatlar ilə birgə həm ölkə daxilində, həm də xarici ölkələrdə dövlət qurumları, elmi, dini mərkəzlərdə, nüfuzlu universitetlərdə milli, dini tolerantlığımızı, mənəvi dəyərlərimizi, multikultural həyat tərzimizi böyük qürurla təqdim və təbliğ etmişik. Təşkil etdiyimiz çoxsaylı beynəlxalq konfrans və görüşlərdə ölkəmizdəki dini konfessiya rəhbərləri ilə bərabər, Azərbaycandakı nümunəvi dinlərarası dialoq və məzhəblərarası münasibətlərin yüksək səviyyəsini dünya ictimaiyyətinin diqqətinə çatdırmışıq. Zati-alinizin tövsiyəsi ilə "İslam Həmrəyliyi İli" çərçivəsində ölkəmizdə və xaricdə tədbirlərimiz davam edəcək, inşallah!

Bu gün dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq, multikulturalizm modelini, dinlərarası dialoq mədəniyyətini qəbul və təqdir edir. Roma Papası Fransisk Azərbaycana səfəri zamanı ilk dəfə müsəlman ibadət məkanında – Heydər məscidində dünyaya yayımlanan çıxışında Azərbaycanın multikultural həyat nümunəsini yüksək qiymətləndirdi. Həmçinin Qafqaz Müsəlmanları İdarəsi olaraq, bu il ərzində Rusiya Patriarxı Kiril həzrətləri, Ümumgürcüstan Katolikos-Patriarxı II İliya həzrətləri ilə səmərəli görüşlərimiz Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq prosesinə töhfələrimizdir.

Zati-aliləri, Siz dərin məzmunlu çıxışlarınızdan birində buyurdunuz ki, Azərbaycan öz tarixi boyunca heç vaxt indiki qədər güclü olmayıb. Bu, həqiqətən, belədir. Dünyanın böyük dövlətlərinin miqrant böhranı qarşısında aciz qaldığı bir dövrdə Azərbaycan öz əzəli torpaqlarından didərgin salınmış bir milyondan artıq vətəndaşının problemlərini öz daxili imkanları hesabına həll etmək iqtidarı nümayiş etdirir.

Şanlı aprel qələbəmiz, Lələtəpə üzərində dalğalanan bayrağımız, məcburi köçkün soydaşlarımızın erməni işğalından azad etdiyiniz əzəli Azərbaycan torpaqlarına qayıdışı, Cocuq Mərcanlıda Şuşa memarlığı üslubunda inşa olunan nəfis, əzəmətli məscid və onun minarələrindən ucalacaq azan çağırışı bizim böyük qayıdışımızın başlanğıcı olacaq, inşallah! Bütün bunlar Sizin – qüdrətli ordumuzun Ali Baş Komandanı olaraq düzgün siyasətinizin, yenilməz

iradənizin, atdığınız cəsarətli addımların bəhrəsidir.

Mən yenə də Ulu öndəri yada salmaq istəyirəm. Ulu öndər Heydər Əliyev həzrətləri Bibiheybətdə çıxışında demişdi ki, Azərbaycanın bütün ərazilərində məbədləri bərpa edəcəyik, yenilərini tikəcəyik. Mənim edə bilmədiyimi mənim davamçılarım yerinə yetirəcəklər. Bu gün Heydər Əliyev siyasətinin davamçısı kimi Zati-alinizin Cocuq Mərcanlıda tikdirdiyi məscid buna sübutdur ki, həmin dua Allah tərəfindən qəbul olundu. Hazırda işğal altında olan ərazilərimizdə də, inşallah, biz məbədlərimizi bərpa edəcəyik.

Allah-Təala Vətən şəhidlərimizə rəhmət eləsin!

Qoy Ulu Yaradan ədalətli haqq mücadiləmizdə şanlı qələbəmizə rəvac versin!

Zati-aliləri, Ramazan ayı duaların qəbul olunduğu aydır. Bu ay ərzində biz dualar edirik ki, Uca Allah Vətənimizin inkişafı, millətimizin xoşbəxtliyi naminə fəaliyyətinizdə Sizi müzəffər, dəyərli ailənizi bəxtiyar qərar versin, Azərbaycanımızın qoşa qanadları olan Zati-alinizə və möhtərəm Mehriban xanıma himayəsini əsirgəməsin! Allah-Təala Sizi, övladlarınızı, nəvələrinizi qorusun. Allah-Təala Azərbaycan xalqını hifz etsin!

Bugünkü iftar məclisində iştirak edən möhtərəm qonaqlarımızı bir daha salamlayır, mübarək Ramazan ayında sizlərə, ailə üzvlərinizə ən xoş arzularımı yetirir, hamınıza Allah-Təaladan xeyir-dualar diləyirəm.

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu!

***

Mərasimdə Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının rəhbəri Aleksandr, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Roma Katolik Kilsəsinin ordinarisi Vladimir Fekete çıxış etdilər.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi



– Hörmətli şeyx həzrətləri.

Hörmətli din xadimləri.

Xanımlar və cənablar.

İlk növbədə, sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bütün Azərbaycan xalqına sülh, firavanlıq, yeni-yeni uğurlar arzulayıram.

Biz mübarək Ramazan ayında ənənəvi olaraq şeyx həzrətlərinin iftar süfrəsinə toplaşmışıq. Bu ənənə yaşayır və yaşamalıdır. Bu ənənənin əsasını ulu öndər Heydər Əliyev və şeyx həzrətləri qoymuşlar.

Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətinin qurucusudur, onun banisidir. Onun hakimiyyətə gəlişi Azərbaycanı inkişaf yoluna çıxardı. Biz hamımız təəssüf

hissi ilə qeyd edirik ki, ulu öndər müstəqilliyimizin ilk illərindən Azərbaycanda rəhbərlikdə olmamışdır. Əgər olsaydı, o, xalqımızı, dövlətimizi böyük bəlalardan qoruya bilərdi. Heydər Əliyev ölkəmizin bütün istiqamətlər üzrə əsas inkişaf strategiyasını müəyyən etmişdir, onu həyata keçirmişdir. O cümlədən dövlət-din münasibətlərinin tənzimlənməsi işində ulu öndərin xüsusi rolu olmuşdur. Onu da qeyd etməliyəm ki, 1993-cü ilə qədər bütün sahələrdə olduğu kimi, dini məsələlər sahəsində də vahid siyasət yox idi. Bu boşluq əlbəttə ki, özündə çox böyük risklər saxlayırdı. 1993-cü ildən etibarən bütün istiqamətlər üzrə – xarici siyasət, daxili siyasət, iqtisadi, təhlükəsizlik məsələlərinin həlli, o cümlədən dövlət-din münasibətləri istiqamətlərində ardıcıl siyasət formalaşmağa başlamışdır. Bu siyasətin əsas prinsipləri bu gün də bizim üçün aktualdır. Bugünkü Azərbaycan bu möhkəm təməl üzərində inkişaf edir və inkişaf edəcəkdir.

Ənənəvi iftar süfrəsinin təşkilində də ulu öndər və şeyx həzrətləri nümunə göstərmişlər. Əslində, bu ənənəvi iftar məclisləri din-dövlət münasibətlərinin tərkib hissəsidir. Bu gün mən şeyx həzrətlərinin bu işlərdə xüsusi rolunu qeyd etmək istəyirəm. Şeyx həzrətləri həm Azərbaycanda, Qafqazda, postsovet məkanında, həm də dünya miqyasında çox böyük nüfuza malik olan xadimdir. Mən bilirəm ki, şeyx həzrətlərinə dünya dini liderlərinin böyük hörməti var. Şeyx həzrətləri öz fəaliyyəti ilə ölkəmizin nüfuzunu beynəlxalq aləmdə gücləndirir, ölkəmizi təbliğ edir, Azərbaycanı müasir, öz dini, milli köklərinə bağlı olan, ancaq, eyni zamanda, tolerant, dünyaya açıq ölkə kimi təqdim edir. "İslam Həmrəyliyi İli" çərçivəsində həm ölkə daxilində, həm xaricdə şeyx həzrətlərinin rəhbərliyi ilə bir çox tədbirlər keçirilmişdir və keçiriləcəkdir. Bu, bir daha Azərbaycanı dünyaya inkişaf edən, müasir və dinamik ölkə kimi təqdim edəcək.

Bizim şeyx həzrətləri ilə şəxsi dostluq münasibətlərimiz var. Bu münasibətlər həm bizim üçün, həm də ölkə üçün önəmlidir. Biz nümunə və yol göstəririk ki, dövlət-din münasibətləri necə qurulmalıdır. Bu sahədə əldə edilmiş nailiyyətlərə görə Azərbaycan bir çox ölkələr üçün nümunə ola bilər. Azərbaycanda dövlət dini məsələlərə qarışmır, əksinə, çalışır ki, kömək göstərsin. Dövlət xətti ilə təmir edilmiş və tikilmiş tarixi məscidlərimiz, dini abidələrimiz, eyni zamanda, kilsələr, sinaqoqlar artıq bunun bariz sübutudur. Din də dövlət işinə, siyasi işlərə qarışmır. Hesab edirəm ki, bu da nümunəvi bir yanaşmadır. Bununla bərabər dövlət və din bir yerdədir. Çünki bizim amalımız birdir. Biz istəyirik ki, ölkəmiz daha da möhkəmlənsin, daha da güclənsin, Azərbaycan xalqı daha da yaxşı yaşasın və dinamik inkişafımız uzunmüddətli və dayanıqlı olsun. Ona görə din-dövlət münasibətlərinin sağlam zəmində formalaşması bizim böyük sərvətimizdir. Yenə də deyirəm, bizim bu nümunəmiz hesab edirəm ki, bir sıra ölkələr üçün çox cəlbedicidir. Təsadüfi deyil ki, Azərbaycana gələn xarici qonaqlar, o cümlədən dini liderlər bizim təcrübəmizi öyrənirlər, maraqlanırlar və Azərbaycan reallıqları ilə tanış olarkən, əlbəttə, daim öz hörmətlərini ifadə edirlər.

Keçən Ramazan ayından ötən dövr ərzində Azərbaycanda dinamik inkişaf davam etdirilmişdir, bir çox önəmli hadisələr baş vermişdir. Onların arasında Roma Papasının Azərbaycana səfərini xüsusi qeyd etmək istərdim. Roma Papasının səfəri Müqəddəs Taxt-Tacın Azərbaycana olan münasibətinin təzahürüdür. Onu da qeyd etməliyəm ki, Azərbaycan ilk müsəlman ölkələrindən biridir ki, Roma Papası bu ölkəyə səfər edibdir. Səfər zamanı onun bəyanatları Azərbaycanda dinlərarası münasibətlərə verilən yüksək qiymətdir. Əlbəttə, biz – Azərbaycanda yaşayan və bu siyasəti aparan insanlar bilirik ki, bu, bizim böyük sərvətimizdir, ancaq, eyni zamanda, bunu artıq dünya da bilir və dünyanın nüfuzlu şəxsiyyətləri bunu qeyd edirlər.

Onu da qeyd etməliyəm ki, Roma Papası Heydər məscidində Azərbaycanda bütün ənənəvi dini icmaların rəhbərləri ilə də görüşmüşdür. Bu görüşün də çox böyük rəmzi mənası var. Çünki Roma Papası ilə həmin görüşdə bax, bu gün masa arxasında əyləşən və digər dini icmaların rəhbərləri də iştirak etmişlər. Bu, yenə də dünyaya göndərilən növbəti bir mesaj idi ki, dinlərarası münasibətlər necə həll olunmalıdır. Azərbaycan ictimaiyyəti onu da yaxşı bilir ki, dini bayramlarda, mərasimlərdə bütün dini icmalar fəal iştirak edirlər. Yeni tikilmiş məscidlərdə və əsaslı təmir olunan tarixi məscidlərimizdə bütün konfessiyaların nümayəndələri nəinki iştirak edir, hətta çıxış edirlər. Hesab edirəm ki, bu da dünya miqyasında nadir bir təcrübədir və bu təcrübənin müəllifi Azərbaycandır.

Bir çox sahələrdə Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər yenilik, yeni dinamika, yeni yanaşma gətirir. Biz bəzi stereotipləri qıraraq bir çox sahələr üzrə, o cümlədən dini məsələlərin həlli işində yeni davranış formatını təqdim edirik. Təsadüfi deyil ki, Azərbaycanda bu sahədə görülən işlər, əldə edilmiş nailiyyətlər, demək olar, bütün aparıcı beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Onu da qeyd etməliyəm ki, bizim təşəbbüsümüzlə başlanan və inkişaf edən müxtəlif tədbirlər, forumlar sonrakı mərhələdə beynəlxalq təşkilatlar tərəfindən də dəstəklənir. Mən buna misal olaraq bu il keçirilmiş IV Mədəniyyətlərarası Dialoq Forumunu qeyd edə bilərəm. Biz bu Forumu bir təşəbbüs kimi irəli sürdük. Amma bu gün dünyanın aparıcı beynəlxalq təşkilatları – UNESCO, ISESCO, Avropa Şurası, Ümumdünya Turizm Təşkilatı və digər qurumlar bu Forumun təşkilatçılarıdır. Belə mötəbər tədbirlərin Azərbaycanda keçirilməsi həm bizim siyasətimizi, niyyətimizi göstərir və eyni zamanda, bütün dünyaya göstərir ki, bu gün dünyada multikulturalizmin mərkəzi olan ölkə var, bu ölkənin adı Azərbaycandır.

Bizim təşəbbüsümüzlə 2008-ci ildə "Bakı prosesi" başlamışdır. Bu gün "Bakı prosesi" ən yüksək kürsülərdən hörmətlə qeyd edilir. Deyə bilərəm ki, "Bakı prosesi" dünya miqyasında aparıcı istiqamətdir. Dinlərarası münasibətlər bu proses çərçivəsində öz həllini tapır. Biz bu işlərə təqribən 10 il bundan əvvəl çox fəal başlamışıq.

O vaxt hələ bu gün mövcud olan təhlükələr, risklər yox idi. Bu risklər son 5-6 il ərzində yarandı. Həm müsəlman aləmində, digər yerlərdə, Avropada narahatedici məqamlar əfsuslar olsun ki, kifayət qədər çoxdur. Amma biz bu məsələyə diqqət yetirəndə, bu təşəbbüsləri irəli sürəndə bu təhlükələrin böyük əksəriyyəti mövcud deyildi. Yəni, vaxtında atılmış addımlar hesab edirəm ki, dinlərarası münasibətlərdə, sivilizasiyalararası məsələlərdə öz müsbət rolunu oynayır. Bu gün Azərbaycan bu sahədə də nümunəvi ölkə kimi qeyd edilir və tanınır.

Onu da qeyd etməliyəm ki, Azərbaycan dövləti çox möhkəm milli dəyərlər üzərində qurulubdur. İslam dəyərləri isə milli dəyərlərimizin ayrılmaz tərkib hissəsidir. Yəni, bizim çox möhkəm təməlimiz var. Bu, bizim milli dəyərlərimizdir və bu dəyərlər bizim üçün hər şeydən üstündür. Biz çalışırıq və nail oluruq ki, gənc nəsil də milli ruhda böyüyür, yetişir. Milli dəyərlər bizim üçün həmişə ən prioritet məsələ olmalıdır.

Bununla bərabər, Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlətdir. Azərbaycanda radikalizm, fundamentalizm yoxdur, daxildə hər hansı təhlükə mənbəyi yoxdur. Bunun səbəbi təkcə bizim hansısa inzibati addımlarımız deyil. Bunun səbəbi cəmiyyətdə mövcud olan ab-havadır. Radikalizm, terrorizm harada canlanır, harada baş qaldırır?! O ölkələrdə ki, savadlılıq yoxdur. O ölkələrdə ki, sosial ədalət pozulur. O ölkələrdə ki, ədalətsizlik mövcuddur və səfalət yaşanır. Ona görə radikalizmə qarşı ən gözəl sığorta sosial ədalətdir, maddi rifahdır, savadlılıqdır, düzgün siyasətdir. Bu amillər olan yerdə radikalizm üçün heç bir əsas yoxdur. Düzdür, kənardan ölkəmizə müdaxilə oluna bilər. Ancaq Azərbaycan bu müdaxiləyə qarşı öz tədbirlərini görən, Azərbaycan xalqının rahat həyatını təmin edən kifayət qədər güclü dövlətdir.

Bax, budur, bugünkü Azərbaycan. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, bizim bütün uğurlarımızın təməlində düşünülmüş siyasət dayanır. Biz bütün istiqamətlər üzrə böyük uğurlara imza atmışıq. Bu gün də qeyd olundu ki, Azərbaycan İslam Həmrəyliyi Oyunlarında böyük uğurlar qazanıb, komanda hesabında birinci yerə layiq görülüb. Bu, böyük qələbədir. Ondan iki il əvvəl keçirilmiş Avropa Oyunlarında Azərbaycan komanda hesabında bütün Avropa ölkələri arasında ikinci yerə layiq görülmüşdür. İqtisadi sahədə bu ilin beş ayının göstəriciləri də çox ümidvericidir və müsbətdir. Qeyri-neft iqtisadiyyatımız 2 faizdən çox artıb. Qeyri-neft sənayemiz təxminən 4 faiz artıb. Kənd təsərrüfatı 2 faiz artıb. İxrac 44 faiz artıb, idxal təxminən 17 faiz azalıb. Bütün bunlar iqtisadi islahatlar, düşünülmüş siyasət hesabına mümkün olmuşdur.

Xarici siyasət məsələlərinin həllinə gəldikdə, bu gün Azərbaycanın dünya miqyasında o qədər böyük nüfuzu var ki, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. Biz bütün ölkələrlə bərabərhüquqlu və qarşılıqlı hörmət əsasında münasibətlər qura bilmişik. Avropa ölkələri ilə, müsəlman ölkələri ilə və digər ölkələrlə biz çox gözəl münasibətlər qura bilmişik. Azərbaycan sivilizasiyalararası dialoqun inkişafında, – bu gün mən tam qətiyyətlə bunu deyirəm, – əvəzolunmaz rol oynayır və bundan sonra da biz bu rolu oynayacağıq. Bu, bir növ bizim məsuliyyətimizdir, eyni zamanda, bu, bizə lazımdır. Biz istəyirik ki, Azərbaycanda dinlərarası münasibətlər həmişə indiki kimi olsun. Azərbaycanda bütün dinlərin, millətlərin nümayəndələri həmişə bir ailə kimi yaşasın, necə ki, bu gün yaşayırlar. Bax, bizim siyasətimiz bundan ibarətdir. Mən demişəm, bir daha demək istəyirəm ki, öz xalqına, dininə hörmət başqa dinə, xalqa olan hörmətdən başlayır. Budur, bizim siyasətimiz və bu siyasət Azərbaycan ictimaiyyəti tərəfindən tam bəyənilir və dəstəklənir. Məhz bunun sayəsində biz bugünkü gözəl nəticələri görürük və bunu qeyd edirik.

Bu yaxınlarda xalqımızın, dövlətimizin tarixində çox əlamətdar hadisə baş vermişdir. İşğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində yeni qəsəbənin açılışı olmuşdur. Bu iki ay ərzində tikilmiş 50 ev, məktəb, yol və bütün infrastruktur həm bizim gücümüzü, həm də siyasətimizi göstərir. Onu göstərir ki, biz işğaldan azad ediləcək bütün əraziləri qısa müddət ərzində bərpa edəcəyik. O ərazilərə də həyat qayıdacaq, o ərazilərdə də Azərbaycan bayrağı qaldırılacaq. Necə ki, bu gün Füzuli, Cəbrayıl, Ağdərə rayonlarında işğaldan azad edilmiş torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, quruculuq işləri aparılır.

Cocuq Mərcanlı erməni faşizminin canlı şahididir. Bu kənd cəmi 3-4 ay ərzində işğal altında olmuşdur. O kənddə bir dənə də salamat bina qalmamışdır. Erməni vəhşiləri bütün binaları dağıdıblar. Ancaq biz bu kəndi iki ay ərzində bərpa etdik və əlavə yüz evin tikintisi də yaxın zamanlarda öz həllini tapacaq. Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri olan məscid tikilib. Bu da böyük tarixi məna daşıyır. Cocuq Mərcanlı və digər torpaqlar bizim əzəli torpaqlarımızdır. Biz bu torpaqlarda yeni həyat yaradırıq.

Bu, onu göstərir ki, Azərbaycan xalqının iradəsini heç kim sındıra bilməz. Biz Bakıda erməni kilsəsini bərpa etdik və onu qoruyuruq. Ermənilər isə işğal edilmiş torpaqlarda bizim məscidlərimizi dağıdıblar. Bənzəri Cocuq Mərcanlıda tikilən həmin o Gövhərağa məscidi dağılmış vəziyyətdədir. O binanı dağıtmaq olar, amma düşmən bilməlidir ki, dağılmış məscidlər bizim qəlbimizdə yaşayır. Biz bu məscidləri qəlbimizdə ucaltmışıq və torpaqlar işğaldan azad olunandan dərhal sonra iki ay ərzində gözəl məscid tikilib istifadəyə verilib. Bunun çox böyük tarixi mənası var. Mən əminəm ki, biz işğal edilmiş bütün torpaqlara qayıdacağıq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və o torpaqlarda da belə gözəl iftar süfrələri açılacaq, İnşallah.

Əziz dostlar, mən sizi bir daha salamlayıram və qarşıdan gələn müqəddəs bayram münasibətilə təbrik edirəm. Sağ olun.

***

Sonra iftar süfrəsi açıldı.

# Prezident İlham Əliyev Formula-1 Azərbaycan Qran-Prisinin açılış mərasiminə və final yarışına baxıb

## Bakıda Formula-1 Azərbaycan Qran-Pri yarışı keçirilib



Bakıda dünyanın ən nüfuzlu idman yarışlarından biri – Formula-1 Azərbaycan Qran-Prisi iyunun 25-də uğurla başa çatdı. Odlar yurdunun paytaxtı Bakı öz tarixində növbəti dəfə mötəbər beynəlxalq idman yarışına ev sahibliyi etdi. Növbəti dəfə bütün dünyanın idman nəbzi Bakıda – Şərq ilə Qərbin koloritinin cəmləşdiyi bu nadir şəhərdə döyündü.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Formula-1 üzrə dünya çempionatının səkkizinci mərhələsinin – Azərbaycan Qran-Prisinin açılış mərasiminə və final yarışına baxıblar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yarışın paytaxtın Azadlıq meydanındakı idarəetmə mərkəzində yaradılan şəraitlə tanış oldular.








rəmzlərin vəhdətini yaratmaqla yüzlərlə könüllü, azərbaycanlı sənətçilər, milli qruplar və beynəlxalq ifaçılardan ibarət heyət tərəfindən təqdim edildi. Bu anlar bir daha təsdiqlədi ki, dünyada yarım milyard tamaşaçı auditoriyası olan Formula-1-in Bakıda keçirilməsi ölkəmizin beynəlxalq idman aləmində qazandığı uğurları bir daha əks etdirdi. Birinci Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarından sonra Formula-1 kimi mühüm yarışın Bakıda keçirilməsi Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir. Bütün bunlar Azərbaycanın dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetirincə olmasından qaynaqlanır.

Teatrlaşdırılmış səhnələrlə müşayiət olunan açılış mərasimində Azərbaycan mədəniyyətinin incə koloriti, milli rəqslərimiz və ən əsası da xalqımızın əsrlərdən bəri qoruyub saxladığı simvollar dünya tamaşaçılarına canlı yayımda nümayiş etdirildi. Beynəlxalq idman aləmi müstəqillik yolunda uğurla addımlayan Azərbaycanı bir daha tanıdı. Qədim tarixə, zəngin mədəniyyətə, milli-mənəvi dəyərlərə, ən əsası da parlaq idman ənənələrinə malik ölkəmizin güclü potensialı dünyaya bir daha nümayiş etdirildi. Dünya qarşıya qoyulan hər bir məqsədin, hər bir niyyətin sürətli inkişafı ilə örnək olan Azərbaycanda necə uğurla reallaşmasına şahidlik etdi.

Bildirildi ki, böyük ərazini əhatə edən kompleksdə yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, Formula-1 rəhbərliyinin ofisləri, eləcə də iştirakçıların hər biri üçün dayanacaqlar tikilib. Burada Paddok klubun üzvləri üçün də yerlər nəzərdə tutulub. Paddok klubun üzvləri burada pit-stop əməliyyatlarını rahatlıqla izləyirlər. Məhz bu ərazidə yarışın startı və finişi yerləşir.

Formula-1 Azərbaycan Qran-Prisinin paytaxtın Azadlıq meydanında keçirilən möhtəşəm açılış mərasimi maraqlı anları ilə yadda qaldı. Milli mədəniyyətimizi Formula-1 dəyərləri ilə birləşdirən açılış mərasimi bir çox milli







Sonra Azərbaycan Respublikasının dövlət himni ifa olundu.

Daha sonra Formula-1 Azərbaycan Qran-Prisinin final mərhələsinə start verildi.

Hər birində iki pilot olmaqla komandaların bir gün əvvəl keçirilən sıralama yürüşünün nəticəsinə əsasən start xəttinə ən yaxın məsafədə "Mercedes"in pilotları Luis Hamilton və Valtteri Bottas dayandılar. Onlar müvafiq olaraq, ilk iki pillədə qərarlaşdılar. İlk üçlüyü "Ferrari"nin pilotu Kimi Raykonnen tamamladı. Beləliklə, pilotlar qalib adı uğrunda mübarizəyə başladılar.

Bakı trekinin uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometrdir. Pilotlar 20 çətin döngəsi olan trekdə 51 dövrə vurdular. Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trek Bakının tarixi məkanlarından, dəniz sahilindən keç-məklə azarkeşlərdə xoş ovqat yaratdı. Yarışları 30 mindən çox tamaşaçının izləməsi üçün tras boyunca hər cür şərait yaradılmışdı. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edirdi.

Bakıda Formula-1 Azərbaycan Qran-Prisinə iyunun 23-də start verilib. Yarışın birinci günündə pilotlar Bakı şəhər halqasında iki sərbəst yürüşdə güclərini sınadılar. İlk sərbəst yürüşdə "Red Bull Racing" komandasının pilotu Maks Ferstappen birinci oldu. Pilot 1 dəqiqə 44,410 saniyəlik nəticə ilə bütün rəqiblərini qabaqladı. Formula-1 Azərbaycan Qran-Prisi çərçivəsində Bakıda Formula-2 yarışları da keçirildi.

İyunun 24-də Formula-1 azarkeşləri Azərbaycan Qran-Prisinin ikinci günündə də maraqlı idman mübarizəsinin şahidi oldular. Bu turdan sonra Formula-1 Azərbaycan Qran-Prisinin start düzülüşü müəyyənləşdi.

Formula-1 Azərbaycan Qran-Prisinin qalibi "Red Bull Racing" komandasının üzvü Daniel Rikkiardo oldu. Pilot məsafəni 2 saat 3 dəqiqə 55 saniyəyə qət etdi. İkinci yerə "Mercedes" komandasının üzvü Valtteri Bottas çıxdı. Üçüncü yerdə isə "Williams" komandasının pilotu kanadalı Lans Strol qərarlaşdı. Konstruktorlar kubokunun sahibi isə "Red Bull Racing" komandası oldu.

Qalibin şərəfinə Avstriyanın və Avstraliyanın dövlət himnləri səsləndirildi.

Sonra qaliblərə mükafatlar təqdim olundu.

Formula-1 Azərbaycan Qran-Prisinin çempionu Daniel Rikkiardoya kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi.

Konstruktorlar kubokunu "Red Bull Racing" komandasının nümayəndəsinə birinci xanım Mehriban Əliyeva təqdim etdi.

İkinci yerin sahibi "Mercedes"in pilotu Valtteri Bottasa kuboku Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, üçüncü yeri tutan "Williams"ın sürücüsü Lans Strola isə mükafatı Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim etdilər.

Bununla da Formula-1 üzrə dünya çempionatının səkkizinci mərhələsi – Azərbaycan Qran-Prisi başa çatdı.

# Prezident İlham Əliyev Bolqarıstanın Baş prokurorunu qəbul edib

**Bolqarıstan Respublikasının Baş prokuroru Azərbaycan Respublikası Prezidentinin qəbulunda olub**





Prezident İlham Əliyev iyunun 13-də Bolqarıstan Respublikasının Baş prokuroru Sotir Tsatsarovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Sotir Tsatsarov Bolqarıstan Prezidenti Rumen Radevin salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı tərəfindən həyata keçirilən işlərə öz rəğbətini ifadə edən Bolqarıstanın baş prokuroru respublikamızda gedən inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını bildirdi. Qonaq hər iki ölkənin prokurorluq orqanları arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini, bu əməkdaşlığın yüksək peşəkar səviyyədə və dostluq şəraitində aparıldığını vurğuladı və Bakıya səfərini mövcud əlaqələrin davamı kimi dəyərləndirdi.

Azərbaycan ilə Bolqarıstan arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev əlaqələrimizin siyasi, iqtisadi, enerji, mədəniyyət və digər sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Özünün Bolqarıstana, Bolqarıstan Baş nazirinin Azərbaycana səfərini xatırlayan dövlətimizin başçısı bu səfərlərin ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi. Azərbaycan ilə Bolqarıstanın bütün sahələrdə əlaqələrinin hər iki ölkənin rəhbərlikləri arasında mövcud olan əməkdaşlıq və qarşılıqlı dəstək səviyyəsinə qaldırılmasının əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev prokurorluq orqanlarının yaxşı əməkdaşlığının ikitərəfli əlaqələrimizin genişləndirilməsi işinə xidmət etdiyini dedi və bu səfərin münasibətlərimizin perspektivləri ilə bağlı məsələlərin müzakirə edilməsi üçün yaxşı fürsət yaratdığını bildirdi.

Dövlət başçısı Bolqarıstan Prezidenti Rumen Radevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Bolqarıstan Prezidentinə çatdırmağı xahiş etdi.

# Baş Prokurorluqda Azərbaycan dövlətinin qurucusu və memarı, xalqın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunan tədbir keçirilib

## Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü Baş Prokurorluqda qeyd edilib



Mayın 5-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda Azərbaycan dövlətinin qurucusu və memarı, xalqın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunan tədbir keçirildi.

Tədbir iştirakçıları əvvəlcə Baş Prokurorluğun inzibati binasının foyesində müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri düzərək onun unudulmaz xatirəsini dərin ehtiramla yad etdilər. Sonra dahi rəhbərin həyat və fəaliyyətini özündə əks etdirən fotoguşə nümayiş etdirildi.

Mərasimdə çıxış edən Baş prokuror Zakir Qaralov ümummilli liderin şərəfli və mənalı ömür yolundan, zəngin dövlətçilik təcrübəsindən və misilsiz xidmətlərindən söz açdı, dahi öndərin müəyyən etdiyi dövlət inkişafı kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilən yüksək nailiyyətləri diqqətə çatdırdı.

Bildirildi ki, müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə respublikaya rəhbərlik etmiş Heydər Əliyev dövlətçilik salnaməsində elə bir irs yaratmışdır ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaqdır və bu irs heç zaman tükənməyəcəkdir. Ulu öndərin müdrik dövlətçilik fəaliyyətinə xalqımız tərəfindən verilən yüksək qiymətin nəticəsidir ki, 1969-cu ildən başlayaraq 2003-cü ilə qədər davam edən zaman kəsiyi "Azərbaycan tarixinin Heydər Əliyev dövrü" kimi səciyyələndirilir, ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə xilasedici qayıdışı – 1993-cü ilin 15 iyun günü "Azərbaycan xalqının Milli Qurtuluş günü" kimi hər il təntənə ilə qeyd edilir.

Bütün dünyada nüfuzlu siyasi xadim kimi tanınan Heydər Əliyev Sovetlər Birliyi kimi nəhəng dövlətin rəhbərliyində təmsil olunmaqla öz fitri istedadı və şəxsi nüfuzu ilə fərqlənib. Heydər Əliyev görkəmli dövlət xadimi və müdrik siyasətçi kimi ən yüksək vəzifəyə

çəkilməyə layiq bilinirdi. O, ilk azərbaycanlı idi ki, belə zirvəyə gəlib çıxmış, xalqına möhtəşəm xidmətləri ilə Azərbaycanın güvənc yerinə və bütün türk dünyasının fəxrinə çevrilmişdi. Hər zaman Azərbaycan xalqının mənafeyini düşünən Heydər Əliyev azərbaycanlı olması ilə fəxr edirdi. Dahi rəhbərin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" müdrik kəlamı hər bir azərbaycanlının iftixarla səsləndirdiyi şüara çevrilib.

Qeyd edildi ki, müstəqilliyin ilk illərində ölkənin məruz qaldığı hərbi təcavüz, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələri, habelə ölkə daxilində vətəndaş müharibəsinin reallığa çevrildiyi bir şəraitdə xalqımızın yeganə ümidi dəmir iradəyə, yüksək idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə malik xarizmatik lider olan Heydər Əliyevlə bağlı olub.

Xalqımız 20 Yanvar faciəsini yaşayarkən ümummilli liderimiz çoxlarının cürət etmədiyi qətiyyət göstərib Moskvada Sovetlər Birliyi rəhbərliyini ifşa etmiş, imperiya siyasəti əleyhinə çıxaraq, doğma xalqı ilə bir yerdə olduğunu bir daha nümayiş etdirdi.

Məhz belə bir mürəkkəb vəziyyətdə, 1993-cü ilin yayında ulu öndər xalqın çağırışı ilə respublika rəhbərliyinə qayıtdı. Xalqımızı və dövlətimizi böyük təhlükələrdən xilas etmək, müstəqil Azərbaycan dövlətini qurmaq missiyasına "ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" söyləməklə başlayan Heydər Əliyev nadir və iti dövlətçilik zəkası, cəsarəti və sarsılmaz iradəsi ilə Azərbaycanda keçmiş Sovetlər Birliyindən miras qalmış rejim əvəzinə demokratik-hüquqi dövlət yaratmağa müvəffəq oldu.

Bildirildi ki, müstəqilliyin qorunmasının onun əldə edilməsindən qat-qat çətin olduğunu deyən dahi rəhbər Heydər Əliyev bu ağır vəzifənin öhdəsindən layiqincə gəldi. Heydər Əliyev dövlət müstəqilliyimizi əbədi və dönməz etdi, ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi. Atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanı tənəzzül etmiş dövlətdən inkişaf edən ölkəyə çevirdi. Respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək gələcək inkişafa hesablanmış neçə-neçə layihələrin, xüsusilə uğurlu neft strategiyasının təməlini qoydu. Düşünülmüş xarici siyasət kursu ölkəmiz üçün təkcə siyasi dəstək deyil, həm də iqtisadi əməkdaşlıq və investisiya imkanları yaratdı. Azərbaycanın günbəgün beynəlxalq nüfuzu artmağa, iqtisadiyyatın müxtəlif sahələrinə külli miqdarda xarici sərmayələr yatırılmağa başlanıldı.

Demokratik-hüquqi dövlət quruculuğu prosesi də tam ictimai-siyasi sabitlik bərqərar olunduqdan sonra həyata keçirildi. Ölkədə hüquqi dövləti qurmaq üçün ilk növbədə hakimiyyətlər bölgüsünə əsaslanan mükəmməl hüquq sistemi yaradıldı.

Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev isə hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi.

Baş prokuror xüsusi vurğuladı ki, respublikada həyata keçirilən quruculuq fəaliyyəti sahəsində bütün məsələlərə önəm verən Heydər Əliyev Azərbaycan Prokurorluğunun inkişafında da müstəsna rolu olmaqla prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılması məsələlərinə xüsusi qayğı ilə yanaşıb. Ulu öndər Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamına əsasən hər il oktyabr ayının 1-nin prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi prokurorluq işçilərinin fəaliyyətinin yüksək dəyərləndirilməsinin təzahürüdür.

Heydər Əliyevin 26 aprel 2000-ci il tarixdə prokurorluq orqanlarının rəhbər vəzifəli şəxsləri ilə keçirdiyi müşavirədə prokurorluğun fəaliyyətində əvvəllər mövcud olmuş nöqsanların aradan qaldırılmasına yönəlmiş göstərişlərin yerinə yetirilməsi ilə əlaqədar aparılmış hərtərəfli islahatlar nəticəsində bu gün Azərbaycan Prokurorluğu struktur və mahiyyət baxımından tam yenidən qurularaq beynəlxalq standartlara cavab verən, müasir tələblər səviyyəsində fəaliyyət göstərən mühüm dövlət təsisatına çevrilib.

Azərbaycan Prokurorluğu dövlət səviyyəsində qayğı ilə əhatə olunmaqla, bu gün fəaliyyətinin hərtərəfli müasirləşməsi və təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, yeni informasiya texnologiyalarının tətbiqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. İxtisaslaşdırılmış qurum kimi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin strukturunun təkmilləşdirilməsi və işçilərinin sayı artırılmaqla onların maddi təminatının yaxşılaşdırılması, bu quruma ilk dəfə olaraq əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətlərinin verilməsi və digər əhəmiyyətli təşkilati tədbirlər prokurorluq orqanlarının fəaliyyətinin daha çevik qurulmasına zəmin yaradıb.

Azərbaycan Respublikası Prokurorluğunun müasir tələblər səviyyəsində təkmilləşdirilməsi istiqamətində görülən işlər sırasında Dövlət başçısı cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın əhəmiyyəti xüsusi qeyd edilməlidir. Bu mühüm sənədin icrası üzrə prokurorluq orqanlarının fəaliyyətinin bütün sahələrini əhatə edən çoxsaylı və vacib əhəmiyyətli tədbirlər görülməklə müasirləşməyə nail olunub. Xüsusi olaraq qeyd edildi ki, prokurorluğun strukturunun təkmilləşdirilməsi, normativ-hüquqi bazasının yeniləşdirilməsi və yeni informasiya texnologiyalarının hərtərəfli tətbiqi ilə yanaşı, ölkəmizdə uğurla davam etdirilən dövlət gənclər siyasətinin prokurorluq orqanlarında tətbiqinin real nəticəsi olaraq 2002-ci ildən etibarən işə qəbulla əlaqədar keçirilən müsabiqələr nəticəsində prokurorluğun kadr korpusunun 63 faizinin gənclər hesabına komplektləşdirilməsi kimi böyük uğur əldə edib.

Qeyd edildi ki, möhkəm bünövrə üzərində formalaşmış Azərbaycan dövləti bu gün sürətli inkişaf dövrünü

yaşayır. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş iqtisadi siyasət nəticəsində Azərbaycan bölgənin aparıcı dövlətinə çevrilib. Azərbaycanın gələcək milli inkişaf siyasətinin əsas və uzunmüddətli perspektivlərini müəyyən edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası dahi rəhbərimizin milli inkişaf təliminin məntiqi davamı olaraq Azərbaycandakı bütün proseslərin uğurla həyata keçirilməsinə, makroiqtisadi sabitliyə, dinamik iqtisadi artıma, əhalinin sosial rifahının daha da yüksəldilməsinə hesablanıb.

Xüsusi vurğulandı ki, ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi sahəsindəki misilsiz xidmətlərindən biri də özündən sonra dövlətçilik irsinin daimiliyini təmin edəcək, qüdrətli varis və lider yetişdirməsidir. Heydər Əliyev idarəçiliyi məktəbinin bütün incəliklərini dərindən bilən cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi ötən 14 ildə möhtəşəm fəaliyyəti, onun rəhbərliyi ilə Azərbaycan xalqının nail olduğu mühüm qələbələr, sürətli sosial-iqtisadi inkişaf, böyük quruculuq işləri, vətəndaşların sosial rifahının ilbəil daha da yaxşılaşması, insan hüquq və azadlıqlarının yüksək təminatla qorunması, beynəlxalq standartlara uyğun vətəndaş cəmiyyətinin qurulması, qanunun aliliyini təmin edən hüquqi dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi – bütün bunlar Azərbaycan dövlətinin bugünkü reallığı olmaqla ümumilli liderin xatirəsinə ən böyük hədiyyədir.

Əksər dünya ölkələrinin maliyyə böhranı vəziyyətinə düşməsi Azərbaycanın ümumi iqtisadi inkişafına təsir etməmiş, ölkənin dinamik inkişafı yüksək templərlə davam edib ki, bu da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində qeyd olunduğu kimi, cari ilin birinci rübü də ölkəmiz üçün uğurlu olub, Azərbaycan bütün sahələrdə çox surətlə inkişaf edib, ölkənin beynəlxalq mövqeləri möhkəmlənib, çox ciddi sosial təşəbbüslər irəli sürülməklə bütün məsələlər həllini tapıb.

Azərbaycan bu gün dünya birliyinin etibarlı və dəyərli üzvü olmaqla ölkənin beynəlxalq mövqeyi güclənib, qlobal layihələrin həyata keçirilməsində əsas tərəfdaşlardan biri kimi çıxış edən respublikamız beynəlxalq iqtisadi-siyasi arenada aparıcı qüvvələrdən birinə, dünya miqyasında yüksək imicə malik olan dövlətə çevrilib.

Bildirildi ki, dahi sərkərdə Heydər Əliyevin zamanında səsləndirdiyi bir çağırışı ilə yaranmış qüdrətli Azərbaycan ordusu o dövrdə erməni silahlı qüvvələrinin bədnam niyyətlərinin qarşısını almaqla ilk qələbələrini qazanaraq düşməni atəşkəsə məcbur edib. Erməni hərbi təxribatına cavab olaraq ordumuzun ötən ilin aprelində böyük rəşadət göstərərək, erməni təcavüzkarlarının nəzarəti altında olan yüksəklikləri işğaldan azad etməsi dinc əhalinin öz doğma yurdlarına qayıtmasına, həmin ərazilərdə əsaslı yenidənqurma işlərinin başlanmasına şərait yaradıb. Ali Baş Komandan cənab İlham Əliyevin gələcəyə istiqamətlənmiş praqmatik dövlətçilik fəaliyyəti nəticəsində Azərbaycan Ordusunun ən şərəfli missiyanın, torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı müqəddəs vəzifəsinin öhdəsindən layiqincə gələcəyinə əminlik ifadə olundu.

Xüsusi vurğulandı ki, müasir Azərbaycan dövlətinin istənilən çətinliklərə baxmayaraq inamlı inkişafı və ildən ilə daha da güclənməsi Heydər Əliyev dövlətçilik konsepsiyasının, onun müəyyən etdiyi inkişaf strategiyasının və siyasi kursun illərin sınağından keçmiş təntənəsidir. Prezident cənab İlham Əliyev "IV İslam Həmrəyliyi Oyunları"nın Xəzərdən başlayan su səyahətinə həsr olunan mərasimdəki tarixi nitqində əsaslı olaraq qeyd etmişdir ki, "Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır." Ölkədə yaxın günlərdə keçiriləcək bu möhtəşəm idman tədbiri, həmçinin bir milyarda yaxın auditoriyası olan "Formula 1 Azərbaycan Qran Pri"si yarışları respublikamızın bütün dünyada güclü iqtisadi potensiala, zəngin mədəniyyətə, özünəməxsus dəyərlərə malik olduğunu, fərqli sivilizasiyaların dialoqu üçün münbit multikultural məkana çevrildiyini bir daha nümayiş etdirir. Hərtərəfli düşünülmüş və uzaqgörən dövlət siyasətinin həyata keçirilməsi nəticəsində qazanılmış bu böyük etimad ölkənin davamlı və ardıcıl inkişafına, beynəlxalq standartlara cavab verən infrastruktura malik olmasına və stabilliyin mövcudluğu şəraitində hərtərəfli təhlükəsizliyin təmin olunmasına əsaslanır.

Bütün bu nailiyyətlərin əldə olunmasında, bəşəriyyət üçün müstəsna əhəmiyyət kəsb edən təşəbbüslərin uğurla reallaşmasında Prezident cənab İlham Əliyevlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri var. Azərbaycanın birinci xanımı dövlət başçısının daxili və xarici siyasətdə əldə etdiyi uğurların sırasına ölkənin sosial sferasında və beynəlxalq mədəni-humanitar əməkdaşlıq istiqamətində qazanılan nailiyyətləri də əlavə edərək, müstəqil dövlətimizin dünyada nüfuz sahibi olmasına öz töhfələrini verməkdədir.

Çıxışının sonunda Baş prokuror Azərbaycan Prokurorluğunun kollektivi adından Prezident cənab İlham Əliyevi əmin etdi ki, xalqımızın ümummilli liderinin etimad və qayğısı sayəsində demokratik məzmunda yenidən formalaşmış milli prokurorluq orqanları bundan sonra da dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitlik və əmin-amanlığın hər cür cinayətkar qəsdlərdən qorunması işində ön sıralarda olacaqdır.

Sonda ulu öndərin xatirəsinə həsr olunan Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış "Liderlik missiyası" sənədli filmi nümayiş etdirildi.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Prokurorluq işçiləri növbəti ağacəkmə kampaniyası keçiriblər

**Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə ağacəkmə kampaniyası keçirilib**





Mayın 6-da Baş Prokurorluğun, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə ağacəkmə kampaniyası keçirib.

Son illər respublikamızda yaşıllıqların artırılması, yeni park və xiyabanların salınmasına diqqət artırılmışdır. Yaradılan parklar və yaşıllıqlar sakinlərdə xoş əhval-ruhiyyə yaradır. Əkilən agaclar insanların sağlamlığına müsbət təsir göstərməklə yanaşı, paytaxtın ümumi mənzərəsinə yeni çalarlar əlavə edir. Əsas məqsəd paytaxtın ekoloji cəhətdən sağlamlaşdırılmasına töhfə verməkdir.

Müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə ictimai həyatın bütün sahələri ilə yanaşı, ekoloji mühitin mühafizəsinə, yeni yaşıllıq sahələrinin salınmasına xüsusi diqqət yetirib. Azərbaycan Respublikası Prokurorlugu orqanlarının əməkdaşları da bu xeyirxah və nəcib tədbirdə həmişə yüksək əhval-ruhiyyə ilə iştirak ediblər. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş ekoloji siyasət bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ölkə başçısının ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələrinə, həmçinin Baş Prokurorluqda yaranmış ənənəyə uyğun olaraq prokurorluq orqanlarının əməkdaşları ulu öndər Heydər Əliyevin anadan olmasının 94 illilyi münasibətilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti ağacəkmə kampaniyası keçirib. Tədbir çərçivəsində Suraxanı rayonu ərazisində Hövsan qəsəbəsinin yaxınlığında 2 hektar ərazidə 2 mindən artıq zeytun, Eldar şamı ağacları əkilib. Abşeron yarımadasının iqliminə uyğun olaraq seçilən agacların küləkdən qorunması üçün dirəklər basdırılıb və onların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunub. Həmçinin, əkilən ağacların mühafizəsi və mütəmadi olaraq onlara qulluq göstərilməsi məqsədilə bütün zəruri tədbirlər görülüb.

Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulub.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 94 illik yubileyinə həsr olunan tədbir keçirilib

**Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda qeyd edilib**

Mayın 8-də Muxtar Respublika Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 94 illik yubileyi münasibətilə tədbir keçirildi. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdilər, Heydər Əliyev Muzeyində oldular.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev məruzə ilə çıxış edərək qeyd etdi ki, ulu öndər Heydər Əliyev Azərbaycanın müdrik rəhbəri kimi çoxşaxəli fəaliyyəti, vətən və xalq qarşısındakı ölçüyəgəlməz misilsiz xidmətləri dahi şəxsiyyətlərin tarixin gedişində həlledici rol oynadıqlarını əyani şəkildə təsdiqləyən ən dəyərli nümunələrdəndir. Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək yaşamaq məcburiyyətində qalan azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi işində Heydər Əliyevin müstəsna xidmətləri var. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən – müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzmlə səy göstərib, bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul edib. Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilib. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi var. Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev eyni zamanda taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. O, Azərbaycanın tarixi inkişaf prosesinə təkan verib. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaradıb.

Qeyd olundu ki, bütün mənalı həyatını öz xalqına bəxş edən Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq. Hər bir siyasi lider həm də müəyyən ideoloji-siyasi irsin daşıyıcısıdır. Bu mənada əminliklə demək olar ki, Heydər Əliyevin yüksək dövlətçilik təfəkkürü sayəsində həyata vəsiqə alan milli azərbaycançılıq ideologiyası hər bir vətəndaşın maraqlarını özündə ehtiva etməklə, xalqın daimi birliyi və həmrəyliyində vacib amildir. Hər bir fərd bu ideologiya və baxışlar sistemində özünün ictimai dəyərlər dərəcəsinə yüksəlmiş istək və arzularının dolğun ifadəsini tapır, özünü inkişaf prosesinin müşahidəçisi deyil, fəal iştirakçısı qismində görür. Yəni Azərbaycanın davamlı inkişafının Heydər Əliyev konsepsiyası praktik fəaliyyətə transformasiya edərək insanların fərdi davranışını stimullaşdırmaq qüdrətinə malik olan dəyərlərin məcmusunu özündə ifadə edir. Həmin dəyərlər sistemi ümummilli ideyanın təmin edilməsi ilə yanaşı, hər bir fərdin şəxsi idealının həyata keçirilməsini nəzərdə tutan prinsip və vəzifələri üzvi şəkildə əks etdirir. Əslində, Heydər Əliyev ideyalarını müstəsna edən və onun uğurunu şərtləndirən başlıca cəhətlərdən biri də məhz budur.

Demokratik, hüquqi və dünyəvi dövlət kimi formalaşmış müasir Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkül tapması, milli–mənəvi dəyərlərə qayıdış, elm, təhsil və mədəniyyətin misilsiz tərəqqisi Heydər Əliyevin adı ilə bağlıdır. Onun həyata keçirdiyi genişmiqyaslı milli dövlət quruculuğu proqramı ölkəmizin bütün sahələrdə qazandığı uğur və nailiyyətlərin konseptual əsası olub. Müstəqil Azərbaycan Respublikası Konstitusiyanın müəllifi kimi ulu öndər Heydər Əliyev dövlət hakimiyyətinin demokratik prinsiplər əsasında bölünməsinə, beynəlxalq stan-

dartlara uyğun hüquq normalarının və qanunvericilik bazasının yaradılmasına, müasir idarəetmə üsullarının tətbiqinə nail olub. "Biz demokratik, dünyəvi, sivilizasiyalı dövlət quraraq, bütün bəşəri dəyərlərdən istifadə edərək, ümumbəşəri dəyərlərin xalqımız üçün və milli mentalitetimiz üçün, mənəviyyatımız üçün uyğun cəhətləri götürüb tətbiq edərək heç vaxt dinimizdən, adət-ənənələrimizdən ayrıla bilmərik və imtina edə bilmərik" – deyən ümummilli lider Heydər Əliyev Azərbaycanın demokratiya yolu ilə inkişafını gələcək üçün təminat hesab edərək fəaliyyətinin bütün dövrlərində əsas dayaq kimi xalqa arxalanırdı. Ulu öndərin mövqeyi belə idi: Azərbaycandakı bütün prosesləri xalqın istəyinə uyğun istiqamətləndirmək.

Qeyd olundu ki, qanunçuluğun qorunmasını özünün başlıca fəaliyyət prinsiplərindən biri elan edən Heydər Əliyev hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü çıxışlarında hər zaman vurğulayıb, vətəndaşlara göstərilən hüquqi yardım səviyyəsinin yaxşılaşdırılması təşəbbüsü ilə çıxış edib. Onun qətiyyətli rəhbərliyi altında dövlət–vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi sivil cəmiyyət formalaşdırılıb, dövlət idarəçiliyi demokratikləşdirilibdir. Özünəməxsus şərəfli tarixi keçmişi, qanunların icrasına ümumi nəzarət, cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində zəngin ənənələri olan Azərbaycan prokurorluğunun fəaliyyəti də siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə ulu öndərimizin diqqət və qayğısı ilə əhatə olunub. Məhz onun məqsədyönlü fəaliyyəti və həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycanda milli prokurorluq orqanları qanunçuluğun aliliyini təmin edən mükəmməl bir dövlət təsisatı kimi demokratik məzmunda yenidən formalaşıb və inkişaf edib.

Ulu öndər Heydər Əliyevin zəngin irsinə əsaslanan ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən inkişaf strategiyasının təhlili onun üç fundamental prinsipə söykəndiyini söyləməyə əsas verir. Bunlar güclü dövlət, səmərəli iqtisadiyyat və azad insandır. Azərbaycanın İlham Əliyevin rəhbərliyi altında qazandığı nailiyyətlər hər üç başlanğıcın qarşılıqlı ahəngdar fəaliyyətinin ölkənin yüksək inkişafına, hərtərəfli tərəqqisinə xidmət edən əzəmətli vasitəyə çevrilmək gücündə olduğunu sübuta yetirir.

Ölkənin və onun əhalisinin təhlükəsiz, əmin-amanlıq şəraitində və rifah halında yaşaması güclü dövlətin ən mühüm şərti kimi sosial-siyasi və milli-əxlaqi mühitin, birgəyaşayış norma və qaydalarının mövcudluğunu özündə ehtiva edir. Ölkədə sabitliyi, əmin-amanlığı, dövlət intizamını təmin etmək, qanunçuluğu və hüququn aliliyini gözləmək sahəsində atdığı addımlar Prezident İlham Əliyevin Azərbaycanı qüdrətli dövlətə çevirmək istəyindən irəli gəlir. İqtisadi sahədə reallaşdırılan islahatlar – azad sahibkarlığın möhkəmləndirilməsi, işgüzar mühitin liberallaşdırılması, investisiyalara dövlət təminatının gücləndirilməsi, qeyri-neft sektorunun, informasiya-kommunikasiya texnologiyalarının inkişafı, vətəndaşların təşəbbüskarlığına geniş meydan verilməsi kimi mühüm tədbirlər Azərbaycanda səmərəli iqtisadiyyatın formalaşdırılmasına xidmət edir. Nəhayət, bütün bu addımlarla paralel şəkildə siyasi və hüquqi azadlıqların dərinləşdirilməsi, vətəndaş cəmiyyəti quruculuğuna yönəlmiş islahatların davam etdirilməsi ölkədə şəxsiyyətin və fərdin azadlığına xidmət edir.

Muxtar respublika prokuroru sonda əminliklə ifadə etdi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin etimad və qayğısı nəticəsində demokratik məzmunda tamamilə yenidən formalaşan Azərbaycan Prokurorluğunun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsində, onun əbədiliyi və daimiliyi üçün bütün təminatlar yaratdığı dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitlik və əmin-amanlığın hər cür cinayətkar qəsdlərdən qorunmasında bu kursun ən layiqli davamçısı dövlət başçısı cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik tədbirlərində həmişə yaxından iştirak edəcəkdir.

Tədbirdə çıxış edənlər ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının tərəqqisi naminə gördüyü möhtəşəm işlərdən danışdılar.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Bakıda ECO-ya üzv dövlətlərin prokurorluq, ixtisaslaşdirilmiş korrupsiyaya qarşı mübarizə qurumları rəhbərləri və ombudsmanlarının 3-cü iclası işə başlayıb

**ECO-ya üzv dövlətlərin prokurorluq, korrupsiyaya qarşı mübarizə qurumları rəhbərləri və ombudsmanlarının 3-cü iclası keçirilib**

İyunun 6-da Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin prokurorluq, ixtisaslaşdirilmiş korrupsiyaya qarşi mübarizə qurumlarının rəhbərlərinin və ombudsmanlarının üçüncü iclası işə başlayıb.



Tədbirdən əvvəl iştirakçılar Fəxri Xiyabana gələrək müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül-çiçək dəstələri düzən qonaqlar daha sonra Şəhidlər Xiyabanını ziyarət edərək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarları üzərinə tər çiçək dəstələri düzmüş, "Əbədi Məşəl" abidəsinin önünə əklil qoymuşlar.



Yüksək səviyyəli tədbirə Türkiyə, İran, Qazaxıstan, Pakistan, Əfqanıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkmənistanın prokurorluq orqanlarının, ixtisaslaşdırılmış antikorrupsiya qurumlarının, ombudsmanlarının və digər dövlət qurumlarının rəhbər vəzifəli şəxsləri, ECO baş katibinin müavini, Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) icraçı katibi və digər beynəlxalq təşkilatların nümayəndələri qatılıblar. Tədbirdə, həmçinin dövlət və hökumət rəsmiləri, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın, mərkəzi icra hakimiyyəti orqanlarının, Baş Prokurorluğun, habelə ölkəmizin digər hüquq mühafizə qurumlarının və QHT-lərin nümayəndələri, Milli Məclisin deputatları iştirak ediblər.

Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov iclasda çıxış edərək Azərbaycan Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasət nəticəsində ölkəmizin dünyada, o cümlədən İslam aləmində qarşılıqlı əməkdaşlığa mühüm töhfə verdiyini diqqətə çatdırıb.





İqtisadi Əməkdaşlıq Təşkilatının mühüm funksiyalar həyata keçirən nüfuzlu qurum olduğunu vurğulayan Baş prokuror bu baxımdan üçüncü iclasın əhəmiyyətini xüsusi qeyd edib. Baş prokuror bildirib ki, Azərbaycanın 1992-ci ildə üzv olduğu ECO 2004-cü ildən korrupsiyaya qarşı mübarizə sahəsində də səmərəli fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov dövlətimizin başçısı cənab İlham Əliyevin iclas iştirakçılarına salamlarını çatdırıb.

Fuad Ələsgərov çıxışında qeyd edib ki, Azərbaycan dünyada tolerantlıq mühitinin inkişafına, multikulturalizmin, mədəniyyətlərarası dialoqun qurulmasına böyük əhəmiyyət verir. Bu il ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi və IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi Azərbaycanın İslam dəyərlərinə və müsəlman aləmində birliyə verdiyi önəmin təzahürüdür.

Ümumi tarixə, mədəniyyətə və dinə malik olan ölkələrin üzv olduğu ECO-nun korrupsiyaya qarşıya mübarizəyə və insan hüquqlarının müdafiəsinə həsr edilən bu tədbirin ölkəmizdə keçirilməsinin müsbət hal olduğunun vurğulayan Fuad Ələsgərov bildirib ki, Azərbaycan ECO-nun fəal üzvü olmaqla onun iki zirvə görüşünə ev sahibliyi edib, o cümlədən 2012-2017-ci illərdə təşkilata sədrliyi həyata keçirib. Azərbaycan ECO-ya sədrliyi dövründə bu təşkilatın inkişafına və əməkdaşlığın dərinləşməsinə mühüm töhfələr verib.

Diqqətə çatdırılıb ki, hazırda dayanıqlı iqtisadi inkişafı təmin edən müasir ölkə olan, müxtəlif sahələrdə mühüm nailiyyətlər qazanan Azərbaycanda şəffaf ictimai münasibətlər sistemi formalaşdırılıb, demokratik institutların fəaliyyəti, insan hüquq və azadlıqları təmin edilib. Beynəlxalq tələblərə uyğun qanunvericilik, ixtisaslaşmış qurumların səmərəli fəaliyyəti və dövlət idarəçiliyində şəffaflığın təmin edilməsi Azərbaycanın antikorrupsiya siyasətinin əsas uğurlarındandır. Dövlət xidmətlərinin göstərilməsində tətbiq edilən model korrupsiyanın qarşısının alınması üzrə beynəlxalq səviyyədə ən yaxşı təcrübə kimi qəbul olunur.

ECO çərçivəsində təşkil edilən bu tədbirin əməkdaşlığın daha da möhkəmləndirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edən Fuad Ələsgərov dövlətimizin başçısının iclasın işinə uğurlar arzuladığını bildirib.

İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibinin müavini Ələvi Səbzivari tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirərək Azərbaycanın ECO-nun ən fəal üzvlərindən biri olduğunu diqqətə çatdırıb. ECO-nun tarixindən və keçdiyi inkişaf yolundan danışan Ələvi Səbzivari deyib ki, təşkilatın üzvləri olan ölkələrin ərazisi 8 milyon kvadratkilometrdən çoxdur. Qlobal cəmiyyətin inkişafına təkan verən ECO növbəti 25 il üçün öz qarşısına bir sıra mühüm məqsədlər qoyub. Təşkilat üzv ölkələr arasında iqtisadi əməkdaşlığın




daha da möhkəmləndirilməsi üçün qarşılıqlı işbirliyinin genişləndirilməsinə çalışır. Antikorrupsiya tədbirləri məhz bu prosesdə mühüm rol oynayır. Buna görə də antikorrupsiya fəaliyyəti ECO-nun işində vacib istiqamətlərdən birini təşkil edir. Üzv dövlətlər arasında bu sahədə sürətli inkişaf müşahidə olunur. Azərbaycan da bu baxımdan xüsusilə seçilir. Bu ölkədə korrupsiyaya qarşı mübarizə istiqamətində vahid və qətiyyətli məram nümayiş etdirilir.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanova korrupsiyaya qarşı mübarizədə müvafiq hüquq mühafizə orqanları ilə Ombudsman arasında sıx əməkdaşlığın önəmini vurğulayaraq, Azərbaycanda həyata keçirilən antikorrupsiya tədbirlərindən danışıb. Bildirib ki, səmərəli idarəetmənin təşklində mühüm fəaliyyət göstərən Ombdusman təsisatları korrupsiyaya qarşı mübarizədə vacib rol oynayırlar. Birgə əməkdaşlıq nəticəsində korrupsiya halları aradan qaldırılır, dövlətin maraqları və zərərçəkmiş vətəndaşların hüquqları təmin olunur. Korrupsiayya qarşı mübarizədə siyasi iradənin önəmini vurğulayan E.Süleymanova deyib ki, ölkəmizdə bu sahədə güclü siyasi iradə var. Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu siyasət hazırda Prezident İlham Əliyevn rəhbərliyi ilə qətiyyətlə davam etdirilir.

Ombudsman deyib ki, Azərbaycanda dövlət siyasəti vətəndaşların, xalqın maraqlarına xidmət edir. Bu prinsip Konstitusiyamızda da əksini tapıb. Bundan başqa, korrupsiyaya qarşı mübarizənin əsas prinsiplərindən olan qanunu aliliyi, hamının qanun qarşısında bərabərliyi ölkəmizdə yüksək səviyyədə təmin edlir.

Ermənistanın təcüvüzü nəticəsində bir milyondan çox vətəndaşımızın əsas hüquq və azadlıqlarının hüquqlarının pozulduğunu diqqətə çatdıran Elmira Süleymanova bildirib ki, ölkəmizdə korrupsiyaya qarşı preventiv tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Bu sahədə "ASAN xidmət" mərkəzlərinin fəaliyyətə başlaması, sahibkarlığa dair mühüm hüquqi aktların qəbul edilməsi, Apellyasiya Şuralarının yaradılması mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda beşinci dəfə olduğunu diqqətə çatdıran Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) dekanı və icraçı katibi Martin Kreutner Bakıda ilk dəfə olduğu 2010-cu ildən sonra ölkəmizin sürətlə inkişaf edərək mühüm uğurlar qazandığını bildirib. Son illlər dünyada münaqişələrin, miqrant və qaçqın problemlərinin, ölkələr arasında ziddiyyətlərin artaraq dünya üçün böyük təhdid təşkil etdiyini vurğulayan Martin Kreutner bu baxımdan beynəlxalq əməkdaşlığın və dialoqun önəmini xüsusi qeyd edib.

Ölkəmizin Beynəlxalq Antikorrupsiya Akademiyasında fəal iştirak etdiyini diqqətə çatdıran icraçı direktor bildirib ki, Azərbaycan bu qurumun rəhbər strukturlarında da təmsil olunur. Antikorrupsiya sahəsində magistr proqramında azərbaycanlı tələbələr yüksək hazırlıqları ilə daim seçilirlər.

İclasın təşkilinə görə Azərbaycana və ECO-ya təşəkkürünü bildirən Martin Kreutner Beynəlxalq Antikorrupsiya Akademiyasının korrupsiyaya qarşı mübarizə şahəsində əməkdaşlığa daim hazır olduğunu diqqətə çatdırıb.

Açılış çıxışlarından sonra təşkilati məsələlərə baxılıb. Azərbaycan Respublikasının Baş prokuroru ECO-ya üzv dövlətlərin prokurorluq, ixtisaslaşdırılmış korrupsiyaya qarşi mübarizə qurumları rəhbərləri və Ombudsmanlarının 3-cü iclasının sədri seçilib. Sonra gündəlik səsə qoyularaq təsdiqlənib.

İclasda geniş məruzə ilə çıxış edən Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar, qazanılan nailiyyətlər barədə iştirakçılara məlumat verərək, bu sahədə zəngin təcrübə qazanıldığını, mühüm qurumların yaradıldığını diqqətə çatdırıb. İslam aləminin üzvü olan Azərbaycanın müsəlman ölkələri ilə əməkdaşlığı uğurla inkişaf etdirdiyini bildirən Baş prokuror deyib ki, ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilən 2017-ci ildə Azərbaycanın uğurla ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunları müsəlman aləmində əməkdaşlığın və həmrəyliyin inkişafına mühüm töhfə verib. Baş prokuror İslamiadanın yüksək səviyyədə təşkilində Azərbaycanın Birinci vitse-prezidenti, Oyunların Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın xidmətlərini yüksək qiymətləndirib.

Azərbaycanın ECO ilə əməkdaşlığa mühüm önəm verdiyini deyən Baş prokuror ölkəmizin bu quruma sədr seçilməsinin Azərbaycanın bu təşkilat ilə səmərəli əməkdaşlığın göstəricisi kimi qiymətləndirib. Mühüm mövzuya-korrupsiyaya qarşı mübarizəyə həsr olunan bu iclasın ölkəmizdə keçirilməsi korrupsiyaya qarşı ən kəsərli vasitələrlə mübarizə apararaq, bu sahədə beynəlxalq əməkdaşlığa mühüm töhfə verən Azərbaycanda görülən işlərə verilən yüksək qiymət kimi dəyərləndirilib.

Ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində görülən işlərdən danışan Baş prokuror müstəqilliyin əvvəllərində Azərbaycanın Ermənistanın hərbi təcüvüzü nəticəsində bir milyondan artıq qaçqın və məcburi köçkün problemi ilə üzləşdiyini, vətəndaş müharibəsi təhlükəsi qarşısında qaldığını, ölkəmizdə bütün sahələrdə dərin tənəzzülün yaşandığını bildirərək belə şəraitdə xalqın tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda sabitliyin təmin olunduğunu, demokratik inkişaf, hüquqi dövlət quruculuğu sahəsində mühüm islahatların reallaşdırıldığını qeyd edib. Bildirib ki, bu siyasəti davam etdirən Prezident cənab İlham Əliyevin qətiyyətli fəaliyyəti nəticəsində bu gün Azərbaycan sürətli inkişafa, beynəlxalq əhəmiyyətə malik enerji layihələri, multikulturalizm prinsiplərinin dərin kök saldığı ölkə kimi tanınır.

Azərbaycanda mənfi hallara, o cümlədən korrupsiyaya qarşı mübarizə tədbirlərinin daim diqqət mərkəzində saxlanıldığını deyən Baş prokuror ölkəmizin bu sahədə bütün beynəlxalq konvensiyalara qoşulduğunu, korrupsiyaya qarşı mübarizəyə dair qanunverciliyin təkmilləşdirildiyini, bu sahədə mühüm təsisatların yaradıldığını bildirib. Qeyd edib ki, Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində üç Milli Fəaliyyət Proqramı başa çatdırılıb, dördüncüsü isə hazırda icra edilməkdədir. Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumlar bu sahədə dövlət siyaaətinin həyata keçirilməsinəm mühüm rol oynayırlar. Dövlətimizin başçısının təşəbbüsü ilə yaradılan "ASAN xidmət" mərkəzləri də bu baxımdan önəmli rol oynayırlar.

Ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində bir sıra mühüm beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq qurduğunu diqqətə çatdıran Baş prokuror bildirib ki, Azərbaycanın bu sahədə qazandığı uğurlar, əldə etdiyi müsbət nəticələr bütün dünyada geniş tanınır və yüksək qiymətləndirilir.

Sonra xatirə şəkli çəkdirildi.

Fasilədən sonra tədbir işini birinci plenar iclasla davam etdirib.

Türkiyə Respublikası Baş prokurorunun müavini Xəlil Adıgözəlin sədrliyi ilə keçən iclasda nümayəndə heyətlərinin rəhbərlərinin hesabat məruzələri dinlənilib.

Tədbirin birinci plenar iclasında Azərbaycan Respublikası Baş prokurorunun müavini-Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş idarəsinin rəisi Kamran Əliyev, İranın Dövlət Baş Müfəttişliyinin sədri Naser Seraci, Pakistanın Milli Hesabatlılıq Bürosunun direktoru Zakir Şah, Tacisiktanın Maliyyə Nəzarəti və Korrupsiyaya Qarşı Mübarizə üzrə Agentliyin rəisi Solayman Soltanzodə, Türkiyənin Baş prokurorunun müavini Xəlil Adıgözəl, Qazaxıstanın Dövlət Qulluğu və Korrupsiyaya Qarşı Mübarizə agentliyinin rəis müavini Dulat Azbergenov, Özbəkistanın Baş prokurorunun müavini İslamcan Eqraşxocayev, Bişkek şəhər prokurorunun müavini Asan Kangeldiyev, Türkmənistan Prokurorluğunun idarə rəisi Mərdan Carıyev və Əfqanıstanın Korrupsiyaya qarşı mübarizə və təhtif qurumunun şöbə rəisi Vahidullah Zahid hesabat məruzələri ilə çıxış ediblər.

Çıxışlarda məruzəçilər öz ölkələrində antikorrupsiya tədbirləri, görülən tədbirlər, bu sahədə beynəlxalq əməkdaşlıq və sair məsələlələr barədə ətraflı məlumat veriblər.

İclasın ilk gününün sonunda tədbir iştirakçıları Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə tanışlıq səfəri ediblər. Baş İdarənin milli memarlıq üslubunda inşa edilmiş və ən müasir avadanlıqla təchiz edilmiş inzibati binasında yaradılmış yüksək şəraitlə tanışlıqdan sonra qonaqlara qurumun fəaliyyət potensialı barədə məlumat verilib.

İki gün davam edəcək tədbir zamanı beynəlxalq və regional qurumlar, eləcə də İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlər tərəfindən həyata keçirilən müsbət təcrübələr, effektiv mexanizm və tədbirlər, bu sahədə qarşıya çıxan problemlər və onların həlli yollarına dair məsələlər müzakirə ediləcəkdir.

# Baş prokuror Zakir Qaralov Özbəkistan Respublikasının Ombudsmanı və Baş prokurorunun müavinini qəbul edib

**Özbəkistan Respublikasının nümayəndə heyəti Baş Prokurorluqda olub**



Bakı şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərlərinin və Ombudsmanlarının 3-cü iclası çərçivəsində ölkəmizdə səfərdə olan Özbəkistan Respublikasının Ombudsmanı Uluqbəy Muxamadiyev və Baş prokurorun müavini İslamcan Erqaşxocayevin rəhbərlik etdikləri nümayəndə heyətini Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov qəbul edib.

Qonaqları səmimi salamlayan Baş prokuror Zakir Qaralov xalqlarımız arasında formalaşmış zəngin tarixə malik və ildən-ilə daha da genişlənməklə dərinləşən ikitərəfli münasibətlərin inkişafında Özbəkistan və Azərbaycan dövlətlərinin sınanmış liderləri İslam Kərimov və Heydər Əliyevin müstəsna xidmətlərini nəzərə çatdırmaqla dövlət başçıları Şövkət Mirziyoyev və İlham Əliyevin müəyyən etdikləri siyasi kursun ikitərəfli münasibətlərin daha da yaxınlaşması, hər iki respublikanın müxtəlif dövlət təsisatları, o cümlədən prokurorluq orqanları arasında faydalı əməkdaşlıq əlaqələrinin inkişafı yolunda böyük stimul olduğunu bildirib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Özbəkistan Respublikasının hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləməsi minnətdarlıqla qeyd edilib.

Baş prokuror son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın yaradılması, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi barədə qonaqlara ətraflı məlumat verib. Mütəşəkkil cinayətkarlığın təhlükəli təzahürlərindən olan korrupsiya və rüşvətxorluq cinayətlərinə qarşı mübarizə məsələlərinin təşkili və həyata keçirilməsində prokurorluq orqanlarının üzərinə mühüm vəzifələr qoyulduğu diqqətə çatdırılmaqla, bu sahədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən görülən işlər, 161 nömrəli "Qaynar xətt" əlaqə mərkəzi barədə məlumat verib. Baş prokuror həm inzibati, həm də vətəndaş-məmur təmaslarının minimuma endirilməsinə yönələn qabaqlayıcı tədbirlər, o cümlədən Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılan “ASAN xidmət” mərkəzlərinin şəbəkəsinin genişləndirilməsi barədə məlumat verərək, şəffaflığın

artırılması və müasir innovasiyaların tətbiqi baxımından qurumun ciddi nailiyyətlər əldə etdiyini bildirib.

Azərbaycanda uğurla həyata keçirilən hüquqi islahatlara böyük maraq göstərdiyini diqqətə çatdıran Özbəkistan Respublikası Baş prokurorunun müavini İslamcan Erqaşxocayev hüquqi sahədə əməkdaşlığın geniş perspektivlərə malik olduğunu vurğulayaraq, ölkələrimizin müxtəlif sahələrdə əlaqələrinin sürətlə inkişaf etdiyini, xüsusilə, iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın genişlənməsinin qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsi işinə xidmət etdiyini bildirib.

Özbəkistan Respublikasının Ombudsmanı Uluqbəy Muxamadiyev də səmimi qəbula görə minnətdarlığını bildirərək ölkəmizin insan hüquqları sahəsində uğurlu fəaliyyətini vurğulayıb. Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılıb, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilib.

Görüşdə Özbəkistan Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Şerzad Fayziyev iştirak edib.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Baş prokuror Zakir Qaralov İran İslam Respublikasının Baş Təftiş Təşkilatının sədri ilə görüşüb

**Azərbaycanla İran İslam Respublikası arasında əməkdaşlığın perspektivləri müzakirə edilib**



Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv olan dövlətlərin Korrupsiyaya qarşı mübarizə təşkilatları rəhbərlərinin və Ombudsmanlarının 3-cü iclası çərçivəsində Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov İran İslam Respublikasının nümayəndə heyətinin rəhbəri, Baş Təftiş Təşkilatının sədri Naser Serac ilə görüşüb.

Görüşdə Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasət nəticəsində ölkəmizin dünyada, o cümlədən İslam aləmində qarşılıqlı əməkdaşlığa mühüm töhfə verdiyini diqqətə çatdıraraq qonaqlara ölkəmizdə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən hərtərəfli islahatlar, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti barədə ətraflı məlumat verib.

İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv olan dövlətlərin Korrupsiyaya qarşı mübarizə təşkilatları rəh-

bərlərinin və Ombudsmanlarının 3-cü iclasının yüksək səviyyədə təşkil edildiyini bildirən cənab Naser Serac ölkələrimiz arasında əməkdaşlığın perspektivlərinin müzakirəsi, müsbət iş təcrübəsi və məlumat mübadiləsinin, qarşılıqlı səfərlərin həyata keçirilməsinin zəruriliyini vurğulayıb. Qonaq rəhbərlik etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini diqqətə çatdırıb.

Görüşdə hüquq-mühafizə və ədliyyə orqanları arasında yaranan işgüzar əlaqələrin daha da genişlənməsi, o cümlədən cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya məsələləri, terrorizmə və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikası və İran İslam Respublikasının hüquq-mühafizə orqanlarının səylərinin məqsədyönlü şəkildə əlaqələndirilməsinin perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə İran İslam Respublikasının ölkəmizdəki səfiri Cavad Cahangirzadə iştirak edib.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Baş prokuror Zakir Qaralov İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Baş katibinin müavini ilə görüşüb

**İqtisadi Əməkdaşlıq Təşkilatı korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirib**



İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv olan dövlətlərin Korrupsiyaya qarşı mübarizə təşkilatları rəhbərlərinin və Ombudsmanlarının 3-cü iclası çərçivəsində Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov həmin təşkilatın Baş katibinin müavini Seyed Calaluddin Ələvinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqların etibarlı müdafiəsi, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər və bu prosesdə beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyəti ilə aparılan işlər, eləcə də ECO-ya üzv olan dövlətlərlə bütün istiqamətlər üzrə səmərəli əməkdaşlığın qurulması və hüquqi sahədə əlaqələrin inkişafı barədə qonaqlara ətraflı məlumat verilib.

ECO ilə Azərbaycan Respublikası arasında əməkdaşlıqdan məmnunluğunu ifadə edən Seyed Calaluddin Ələvi Bakıda keçirilən iclasın əhəmiyyətini vurğulayaraq korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirib. O, təmsil etdiyi qurumun korrupsiyaya qarşı mübarizə sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsində maraqlı olduqlarını diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Baş prokuror Zakir Qaralov Türkiyə Respublikası Baş prokurorunun müavini ilə görüşüb

**Azərbaycanın və Türkiyənin baş prokurorluqları arasında hüquqi əməkdaşlıq uğurla davam etdirilir**



Bakı şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərlərinin və Ombudsmanların 3-cü iclası çərçivəsində Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov Türkiyə Respublikası Baş prokurorunun müavini Halil Adıgözəlin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları səmimi salamlayan Baş prokuror iki qardaş ölkənin dövlət başçılarının siyasi iradələri ilə reallaşan nəhəng enerji və nəqliyyat layihələrinin bölgədə sülhün və əmin-amanlığın bərqərar olmasına, xalqlarımızın rifahına xidmət etdiyini vurğulayıb.

Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsinin fəaliyyəti, həmçinin prokurorluq orqanlarının qarşısında duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.

Səmimi qəbul üçün minnətdarlığını ifadə edən Halil Adıgözəl dövlətlərimiz arasında strateji münasibətlərin mövcudluğu və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə hərtərəfli dəstək verməsini xüsusi qeyd edib.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilib.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Baş prokuror Zakir Qaralov Pakistan İslam Respublikasının Milli Hesabatlılıq Bürosunun rəisi ilə görüşüb

**Azərbaycanla Pakistan arasında korrupsiyaya qarşı mübarizədə qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə edilib**



İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərlərinin və Ombudsmanlarının Bakı şəhərində keçirilən 3-cü iclası çərçivəsində Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov Pakistan İslam Respublikasının Milli Hesabatlılıq Bürosunun rəisi Zahir Şahın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Baş prokuror qonaqlara ölkəmizdə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində Azərbaycan Resublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan mütərəqqi qanunvericilik aktları, prokurorluğun fəaliyyəti üçün zəruri hüquqi bazanın yaradılması və aparılan əsaslı islahatlar, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti barədə ətraflı məlumat verib.

Tədbirin uğurlu açılışı və Azərbaycanın iclasa sədrliyi münasibətilə öz təbriklərini bildirən qonaq Pakistanla Azərbaycanın bütün sahələrdə səmərəli əməkdaşlıq etdiyini, Azərbaycanın haqq səsinin bütün beynəlxalq tədbirlərdə daim Pakistan tərəfindən dəstəkləndiyini qeyd edib.

Görüşdə iki ölkənin hüquq-mühafizə orqanları arasında işgüzar əlaqələrin daha da genişlənməsi, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində qarşılıqlı təcrübənin öyrənilməsi barədə geniş fikir mübadiləsi aparılıb.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# ECO-ya üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatları rəhbərlərinin 3-cü iclası başa çatıb

## ECO-ya üzv dövlətlərin korrupsiyaya qarşı Bakı Bəyannaməsi qəbul edilib

Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin prokurorluq, ixtisaslaşdırılmış korrupsiyaya qarşı mübarizə qurumlarının rəhbərlərinin və ombudsmanlarının üçüncü iclası iyunun 7-də işini “Korrupsiyaya qarşı mübarizədə beynəlxalq və regional əməkdaşlıq mexanizmləri” mövzusunda ikinci plenar iclas ilə davam etdirib.

İclasa sədrlik edən İran İslam Respublikasının Dövlət Baş Müfəttişliyinin sədri Naser Serac yüksək səviyyədə təşkil olunan bu mühüm tədbirin ikinci günündə də səmərəli müzakirələrin aparılacağını qeyd edib.

Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasının katibi Kamal Cəfərov bildirib ki, ölkəmiz korrupsiyaya qarşı mübarizədə beynəlxalq təşəbbüslərdə fəal iştirak edərək, müsbət təcrübənin tətbiqinə daim diqqət yetirir. Son 15 il ərzində ölkəmizdə sistemli antikorrupsiya islahatları həyata keçirilib. Bu dövr dörd mərhələdən ibarətdir.

2004-2007-ci illəri əhatə edən birinci mərhələdə korrupsiyaya qarşı mübarizə sahəsində zəruri qanunvericilik bazası formalaşdırılıb. Bu mərhələdə, Dövlət Proqramı qəbul edilib, həmçinin institusional islahatlar aparılıb, iki ixtisaslaşmış qurum – Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya və Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi yaradılıb. Komissiya korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak edir, dövlət orqanlarının fəaliyyətini əlaqələndirir, dövlət proqramlarının icrasını həyata keçirir.

Bildirilib ki, 2007-2011-ci illəri əhatə edən ikinci mərhələdə şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması prioritet istiqamətlər kimi müəyyən edilib. Bu istiqamətdə “Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya” qəbul edilib, korrupsiyaya qarşı mübarizə aparan ixtisaslaşmış qurumların fəaliyyəti təkmilləşdirilib, vətəndaş cəmiyyətinin üzvləri ilə səmərəli əməkdaşlıq əlaqələri qurulub, geniş maarifləndirmə işi aparılıb.

2012-2015-ci illəri əhatə edən üçüncü mərhələdə dövlət idarəçiliyində İKT-nin uğurlu tətbiqi və korrupsiyaya qarşı mübarizə prioritet olub. Bu dövrdə açıq hökumətin təşviqinə və korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illəri əhatə edən iki Milli Fəaliyyət Planı qəbul edilib və yüksək səviyyədə icra olunub.

2016-2018-ci illəri əhatə edən dördüncü mərhələdə açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizəyə dair tədbirlərin davamlılığı məqsədilə Azərbaycan Prezidentinin 2016-cı il 27 aprel tarixli Sərəncamı ilə açıq hökumətin təşviqinə dair 2016-2020-ci illəri əhatə edən Milli Fəaliyyət Planı qəbul edilib.

Azərbaycanda korrupsiyaya qarşı uğurlu mübarizə üçün bütün zəruri mexanizmlərin mövcudluğunu vurğulayan K.Cəfərov korrupsiyaya qarşı mübarizənin daimi proses olduğunu bildirib.

Azərbaycan Respublikası Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı ölkəmizdə ombudsman təsisatının fəaliyyətindən danışıb. Korrupsiyanın cəmiyyətdə dağıdıcı proses olduğunu deyən A.Səfixanlı bu sahədə digər müvafiq qurumlar kimi, ombudsmanın da geniş fəaliyyət istiqamətlərinin olduğunu bildirib. Korrupsiya hallarının qarşısının alınmasında müvafiq qurumlarla ombudsman arasında səmərəli əməkdaşlığın önəmini qeyd edən aparat rəhbəri bildirib ki, ölkəmizdə artıq 15 ildir fəaliyyət göstərən Ombudsman təsisatının müstəqil fəaliyyəti üçün qanunvericiliklə hər cür şərait yaradılıb. O, ombudsmanın digər dövlət orqanları, eləcə də vətəndaş cəmiyyəti institutları ilə səmərəli əməkdaşlıq əlaqələri qurduğunu, cəmiyyətdə geniş maarifləndirmə işi apardığını, ölkəmizdə antikorrupsiya tədbirlərində fəal iştirak etdiyini, bu sahədə qanunvericilik bazasının formalaşdırılması prosesinə cəlb olunduğunu diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Aparat rəhbəri Azad Cəfərov dövlətimizin başçısının təşəbbüsü ilə yaradılan “ASAN xidmət”in şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində mühüm təsisat olduğunu bildirib. Qeyd olunub ki, indiyədək “ASAN xidmət”ə 15 milyon nəfər müraciət edib, xidmətlərdən məmnunluq səviyyəsi 98 faiz təşkil edir. “ASAN xidmət” korrupsiyanın olmadığı, şəffaf və effektiv dövlət qurumudur”, – deyən Azad Cəfərli diqqətə çatdırıb ki, qurumun “Facebook” səhifəsində yarım milyon nəfər qeydiyyatdadır və onların müraciətləri onlayn qaydada cavablandırılır.

Bakıda 5, bölgələrdə isə 6 “ASAN xidmət” mərkəzinin fəaliyyət göstərdiyini deyən Aparat rəhbəri səyyar “ASAN xidmət”in imkanlarından hazırda 1,2 milyon nəfərin yararlandığını bildirib. Öz xidmətlərini vətəndaşların müraciəti əsasında onların ünvanına çatdıraraq da təmin edən qurum, həmçinin əməkdaşların peşəkarlığının artırılmasına xüsusi diqqət yetirir. Son dörd il ərzində 3 mindən çox dövlət qulluqçusu təlimlərə cəlb olunub. Bu qəbildən olan təlimlər müxtəlif ölkələrdə də təşkil edilir.

Konstitusiya Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev bildirib ki, korrupsiyaya qarşı

mübarizənin ən mühüm şərtlərindən olan siyasi iradənin mövcudluğu ölkəmizdə özünü bu sahədə dörd Milli Fəaliyyət Planının qəbul edilməsində və iki ixtisaslaşmış qurumunn yaradılmasında göstərib. Son illərdə Azərbaycanda korrupsiyaya qarşı mübarizədə vətəndaş cəmiyyəti institutları fəal rol oynayır, geniş maarifləndirmə işinin aparılmasında müvafiq dövlət qurumları ilə səmərəli əməkdaşlıq edirlər. Azərbaycanda korrupsiyaya qarşı mübarizədə digər mühüm amillərdən biri də vətəndaş cəmiyyətinin antikorrupsiya şəbəkəsinin yaradılmasıdır. Hazırda bu şəbəkənin sıralarında 27 qeyri hökumət təşkilatı birləşib.

Azərbaycanda vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizədə fəal iştirak etdiyini, qanunvericiliyin formalaşdırılmasına cəlb olunduğunu vurğulayan Əliməmməd Nuriyev bu baxımdan ötən il yaradılan Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının önəmini xüsusi vurğulayıb.

İclasda çıxış edən Tacikistan ombudsmanın müavini Rəcəbmo Badriddinova, Pakistanın Milli Hesabatlılıq Bürosunun rəisi Zahir Şah, ombudsmanın katibi Amir Sial, Özbəkistan ombudsmanı Uluqbek Muhammediyev, Qırğızıstan ombudsmanı Kubatbek Otorbayev, Qazaxıstan Ombudsman aparatının şöbə müdiri Rişat Raximov və İranın Dövlət Baş Müfəttişliyinin sədri Naser Serac, Əfqanıstanın korrupsiyaya qarşı mübarizə və təftiş qurumunun şöbə rəisi Zahid Vahidullah çıxışlarında ölkələrində korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən qabaqlayıcı tədbirlər, bu prosesdə ombudsmanların rolu, onların antikorrupsiya tədbirlərində iştirakı, korrupsiyaya qarşı mübarizə tədbirlərinin həyata keçirilməsində insan hüquq və azadlıqlarının qorunması məsələləri barədə məlumat veriblər.

Plenar iclasdan sonra Pakistanda ECO-nun antikorrupsiya mərkəzinin açılmasına dair müqavilə imzalanıb.

Tədbirin bağlanış mərasimində çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov iclasda faydalı fikir və təcrübə mübadiləsinin aparıldığını bildirib. Baş prokuror qeyd edib ki, tədbirin ölkəmizdə keçirilməsi Azərbaycan Prezidenti cənab İlham Əliyevin müsəlman ölkələri ilə mehriban və qarşılıqlı münasibətlərin qurulmasına dair müdrik siyasətinin növbəti uğurlu nəticələrindən biridir. Regionda və dünya miqyasında nüfuz qazanan, ortaq mədəni, tarixi köklərimizə söykənən ECO çərçivəsində səylərimizin birləşdirilməsi ölkələrimizin davamlı inkişafı naminə labüd tələblərdən birinə çevrilib. Təsis olunduğu vaxtdan yüksək nailiyyətlər əldə edən ECO çərçivəsində üzv ölkələr bir sıra prioritet istiqamətlər, o cümlədən nəqliyyat, enerji, ticarət və investisiya sahələri ilə yanaşı, son illər korrupsiyaya qarşı mübarizə üzrə də yaxından əməkdaşlıq edirlər.

Baş prokuror Azərbaycan hökumətinin siyasi və maliyyə dəstəyi ilə Azərbaycan Respublikasının Prokurorluğu və İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) tərəfindən təşkil olunan ikigünlük tədbirdə aparılan fikir mübadiləsinin və səsləndirilən təkliflərin təşkilata üzv ölkələrdə korrupsiyaya qarşı mübarizə işinin daha geniş miqyasda həyata keçirilməsinə mühüm töhfə verəcəyinə əminliyini bildirib.

ECO baş katibinin müavini Seyed Calaluddin Ələvi Bakıda yüksək səviyyədə təşkil olunan iclas çərçivəsində səmərəli müzakirələrin aparıldığını bildirib. O, iclasın yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını ifadə edib.

Sonra təşkilati məsələlər müzakirə olunub, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərdə korrupsiyaya qarşı mübarizəyə dair Bakı Bəyannaməsi qəbul edilib.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

***

# Baş prokuror Zakir Qaralov Beynəlxalq Prokurorlar Assosiasiyasının Baş katibini qəbul edib

## Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam edir

Baş Prokurorluğun və Hərbi Prokurorluğun təşkilati üzvü və çoxsaylı prokurorluq əməkdaşlarının fərdi üzvü olduğu, dünya prokurorlarını bir qurumda birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir.

Həmin qurumla əməkdaşlıq çərçivəsində mayın 2-də Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun dəvəti ilə ölkəmizdə səfərdə olan Beynəlxalq Prokurorlar Assosiasiyasının Baş katibi Han Moraal və İcraçı direktoru xanım Yanne Holst Hübner Fəxri Xiyabana gəlib müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül-çiçək dəstələri düzən qonaqlar daha sonra Şəhidlər Xiyabanını ziyarət edərək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olan həmvətənlərimizin məzarı üzərinə tər çiçək dəstələri düzüb, “Əbədi Məşəl” abidəsinin önünə əklil qoyublar.

Sonra nümayəndə heyəti Baş Prokurorluqda olub. Qonaqları salamlayan Baş prokuror Zakir Qaralov





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə uğurla həyata keçirilən məhkəmə-hüquq islahatları, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində görülən qanunverici və institusional tədbirlər, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti barədə ətraflı məlumat verib, Assosiasiya ilə səmərəli əməkdaşlığın verdiyi töhfələrin önəmini vurğulayıb.

Dövlət idarəçilik sisteminin müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları sahəsində həyata keçirilən tədbirlər, penitensiar xidmətin və bütövlükdə cəzaların icrası ilə bağlı fəaliyyətin müasir dövrün tələblərinə uyğun qurulmasını və səmərəli idarəetmənin təşkilinin zəruriliyi ilə əlaqədar Prezident cənab İlham Əliyevin imzaladığı 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam barədə ətraflı məlumat verilib.

Baş prokuror Ermənistan silahlı qüvvələri tərəfindən 25 ildən artıq müddət ərzində beynəlxalq hüququn normalarının pozularaq Azərbaycan ərazilərinin işğal altında saxlanılması, 1 milyondan artıq azərbaycanlının öz torpaqlarından didərgin salınaraq qaçqın və məcburi köçkünə çevrilməsi, BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılması barədə 4 qətnaməsinin bu günədək icra edilməməsini diqqətə çatdırıb.

Qonaqlara həm inzibati, həm də vətəndaş-məmur təmas nöqtələrinin minimuma endirilməsinə yönələn qabaqlayıcı tədbirlərin, o cümlədən "ASAN xidmət" mərkəzlərinin yaradılaraq bu şəbəkənin genişləndirilməsi barədə ətraflı məlumat verərək, şəffaflığın artırılması və müasir innovasiyaların tətbiqi baxımından "ASAN xidmət" mərkəzlərinin fəaliyyətə başlaması ilə səmərəli dövlət idarəçiliyinin təmin edilməsi sahəsində ciddi nailiyyətlərin əldə olunduğunu bildirilib.

Son illərdə Avropa ölkələrində geniş vüsət almış islamafobiya və ksenofobiya mühiti zəminində radikal dini ekstremist qruplaşmalar tərəfindən törədilmiş çoxsaylı terror aktlarının qarşısının alınması istiqamətində birgə səylərin aparılmasının vacibliyi vurğulanıb.

Qonaqlar ölkəmizə səfərdən məmnunluqlarını ifadə edərək Azərbaycanın BPA ilə uğurlu əməkdaşlığını, uzun illər Assosiasiyanın işinə verdiyi yüksək töhfələri, onun fəaliyyətində göstərdiyi təşəbbüskarlığı və mühüm dəstəyini qeyd etməklə bərabər qurulmuş münasibətlərin daha da sıxlaşmaqda olduğunu vurğulayıblar. Nümayəndə heyəti Assosiasiyanın fəaliyyəti və gələcək inkişaf imkanları barədə məlumat verərək ölkəmiz tərəfindən qurumun əsas hədəflərindən olan cinayətkarlığın bir sıra növlərinə qarşı dünya proku-



rorlarını birləşdirən Assosiasiyanın elektron səhifəsinin rus versiyasının aparılması, habelə Assosiasiyanın Korrupsiyaya qarşı Mübarizə aparan Prokurorların Şəbəkəsinin (NACP) alt domeninin fəaliyyətinin tənzimlənməsini təşəbbüsünə görə Azərbaycan tərəfinə dərin minnətdarlığını bildirib. Bununla yanaşı, 2002-ci ilin may ayında Bakı şəhərində Azərbaycan Respublikası və Assosiasiyanın birgə təşkilatçılığı ilə keçirilən Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin iclası qonaqlar tərəfindən təşkil edilən ən uğurlu tədbir kimi qiymətləndirən və Azərbaycanın 2018-ci ildə Bakı şəhərində keçirilməsi nəzərdə tutulan İcraiyyə Komitəsinin 45-ci iclasında da bu sahədə öz müsbət təcrübələrini tətbiq edəcəyindən ümidvar olduqlarını ifadə ediblər.

Görüşdə qarşılıqlı hüquqi yardım sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Daha sonra qonaqlar Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin üzvü, Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran







Əliyevlə görüşüblər. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən ilk dəfə Assosiasiyanın Dünya Prokurorları üzrə Elekton Cinayət Şəbəkəsi (GPEN) vasitəsi ilə müxtəlif ölkələrdən olan prokurorluq və digər hüquq-mühafizə orqanları nümayəndələrinin də iştirak etdiyi "Azərbaycanın korrupsiyaya qarşı mübarizə sahəsində əldə etdiyi təcrübə" mövzusu ətrafında real vaxt rejimində növbəti seminarın keçirilməsi böyük uğur kimi qiymətləndirilib. Əməkdaşlığın müxtəlif aspektləri ətrafında, eləcə də 2017-ci ilin oktyabr ayında Bakı şəhərində keçirilməsi nəzərdə tutulan Şəbəkənin kibercinayətkarlığa qarşı mübarizəyə dair Regional Konfransının təşkilati məsələləri ilə əlaqədar fikir mübadiləsi aparılıb.

Nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında quruma fərdi üzv qəbul edilən gənc prokurorluq əməkdaşları ilə görüşüb və Assosiayanın fəaliyyətinə dair onları maraqlandıran suallara cavab veriblər. Sonda Assosiasiyaya qəbul edilən yeni üzvlərə qurumun üzvlük vəsiqələri təqdim edilib.

Qonaqlar milli memarlıq üslubunda və müasir standartlar səviyyəsində inşa edilən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında normativ-hüquqi aktlarla zəngin və digər dövlət qurumlarının elektron kitabxanalarına çıxışla təmin edilən kitabxana, müasir proqram təminatı ilə təchiz edilən 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi ilə yaxından tanış olublar.

Səfər çərçivəsində qonaqlar ölkəmizin regionlarında hüquq mühafizə, o cümlədən məhkəmə və prokurorluq orqanları üçün yaradılan şəraitlə tanış olublar.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Baş prokuror Zakir Qaralov Bolqarıstan Respublikası Baş prokurorunun müavinlərini qəbul edib

## Azərbaycan və Bolqarıstan baş prokurorluqları arasında əməkdaşlıq uğurla davam edir



Azərbaycanla Bolqarıstan baş prokurorluqları arasında imzalanmış əməkdaşlıq proqramına müvafiq olaraq iki ölkənin prokurorluq orqanlarının hüquqi əməkdaşlığın və işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədilə mayın 23-də Bolqarıstan Respublikası Baş prokurorunun müavinləri Penka Boqdanova və Marya Şişkovanın rəhbərlik etdikləri nümayəndə heyətinin Azərbaycana işgüzar səfərə gəliblər.

Səfər çərçivəsində nümayəndə heyəti ilk olaraq Fəxri xiyabana gələrək, Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də gül dəstələri düzülüb.

Şəhidlər Xiyabanına gələn qonaqlar ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olan həmvətənlərimizin məzarı üzərinə tər çiçək dəstələri düzərək "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Sonra Azərbaycan Respublikasının Baş Prokurorluğunda nümayəndə heyəti ilə görüş keçirilib. Qonaqları salamlayan Baş prokuror Zakir Qaralov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın yaradılması, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, strukturunun daha da təkmilləşdirilməsi istiqamətində aparılan köklü islahatlar, həmçinin qarşıda duran digər vəzifələr barədə ətraflı məlumat verib.

Baş prokuror qonaqlara həm inzibati, həm də vətəndaş-məmur təmas nöqtələrinin minimuma endirilməsinə yönələn qabaqlayıcı tədbirlər, o cümlədən Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılan "ASAN xidmət" mərkəzlərinin şəbəkəsinin genişləndirilməsi barədə məlumat verərək, şəffaflığın artırılması və müasir innovasiyaların tətbiqi baxımından qurumun ciddi nailiyyətlər əldə etdiyini bildirib.

Qonaqlar Azərbaycana səfərdən məmnunluqlarını ifadə edərək ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları

arasında uğurla inkişaf etdiyini qeyd edərək, Azərbaycanın Birinci Vitse-Prezidenti Mehriban xanım Əliyevanın ölkələrimizin bir-birinə daha da yaxınlaşması işinə töhfə vermiş Bolqarıstanın Veliko Tırnovo mədəni layihəsində fəal iştirakını yüksək qiymətləndirməklə bir daha Bolqarıstan hökuməti, eyni zamanda təmsil etdikləri qurumun adından öz minnətdarlıqlarının çatdırılmasını xahiş ediblər.

Səmimi sözlərə görə qonaqlara təşəkkürünü bildirən Baş prokuror ümummilli lider Heydər Əliyevin adını daşıyan Fondun istər ölkədaxili, istərsə də digər ölkələrdə müxtəlif sosial-mədəni təşəbbüslərlə çıxış etdiyini, geniş miqyaslı xeyriyyəçilik fəaliyyəti ilə məşğul olduğunu xüsusi vurğulayıb.

Görüşdə qarşılıqlı hüquqi yardım sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Qonaqlar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasına gələrək burada normativ-hüquqi aktlarla zəngin və digər dövlət qurumlarının elektron kitabxanalarına çıxışla təmin edilən kitabxana, 161 saylı “Qaynar xətt” əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi ilə yaxından tanış olublar.

Daha sonra Bolqarıstan nümayəndə heyətinin üzvləri Ədliyyə Nazirliyində qurumun rəhbər heyəti ilə görüşüblər.

Görüşdə Azərbaycan və Bolqarıstan arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, bu əlaqələrin möhkəmlənməsində dövlət başçılarının xüsusi rolu vurğulanıb, ədliyyə və məhkəmə sistemində aparılan islahatlar barədə faydalı fikir mübadiləsi aparılıb. Qonaqlar Ədliyyə Nazirliyinin inzibati binası və tarix muzeyi ilə tanış olublar.

Nümayəndə heyəti, Ali Məhkəmədə olub, görüşdə qanunun aliliyini təmin etmək məqsədilə məhkəmələrin qarşısında duran vəzifələr, əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Səfər zamanı 5 saylı “ASAN xidmət” mərkəzinin fəaliyyəti ilə tanış olan qonaqlara mərkəzlərin yaradılması, məqsədləri və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib.

Səfər çərçivəsində qonaqlar ölkəmizin regionlarında hüquq-mühafizə, o cümlədən məhkəmə və prokurorluq orqanları üçün yaradılan şəraitlə tanış olublar.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Baş prokuror Zakir Qaralov Bolqarıstan Respublikasının Baş prokurorunu qəbul edib

**Azərbaycan və Bolqarıstan baş prokurorluqları arasında əməkdaşlıq uğurla davam etdirilir**





Azərbaycan Respublikası və Bolqarıstan baş prokurorluqları arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi məqsədi ilə iki ölkənin prokurorluq orqanları arasında imzalanmış əməkdaşlıq proqramına müvafiq olaraq iyunun 12-də Bolqarıstan Respublikasının Baş prokuroru Sotir Tsatsarovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.

Səfər çərçivəsində Fəxri xiyabana gələn Bolqarıstan nümayəndə heyətinin üzvləri müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri düzüblər.



Şəhidlər Xiyabanına gələn qonaqlar ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olan həmvətənlərimizin məzarı üzərinə tər çiçək dəstələri düzərək "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Daha sonra Azərbaycan Respublikasının Baş Prokurorluğunda nümayəndə heyəti ilə görüş keçirilib.



Ölkələrimiz arasında səmərəli dostluq və əməkdaşlıq münasibətlərini vurğulayan Baş prokuror Zakir Qaralov bu əlaqələrin inkişafında dövlət başçılarımızın xüsusi rolunu qeyd edib, hüquqi əlaqələrin dərinləşdirilməsi üçün böyük perspektivlərin olduğunu bildirib.

Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı məhkəmə-hüquq islahatları, o cümlədən prokurorluğun fəaliyyəti üçün beynəlxalq-hüquqi standarlara cavab verən normativ-hüquqi bazanın yaradılması, vətəndaşların hüquq və azadlıqlarının təmin



edilməsi məqsədi ilə digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin qarşıda duran digər vəzifələr barədə ətraflı məlumat verib.

Baş prokuror Bolqarıstan nümayəndə heyətinin üzvlərinə həm inzibati, həm də vətəndaş-məmur münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edən qabaqlayıcı tədbirlər, o cümlədən Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılan Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzlərinin şəbəkəsinin genişləndirilməsi barədə məlumat verərək, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən qurumun şəffaflığın artırılması və müasir innovasiyaların tətbiqi baxımından da ciddi nailiyyətlər əldə etdiyini bildirib.

Sotir Tsatsarov Azərbaycana səfər etməkdən məmnunluğunu ifadə edərək iki ölkə arasında qurulmuş ikitərəfli münasibətlərin yalnız hüquq-mühafizə orqanları arasında deyil, mədəni, iqtisadi və digər sahələrdə də yüksək təşəkkül tapdığını bildirib. Qeyd edilən əməkdaşlığın bariz nümunəsi kimi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkələrimizin bir-birinə daha da yaxınlaşması işinə əhəmiyyətli töhfə vermiş Bolqarıstanın Veliko Tırnovo mədəni layihəsində fəal iştirakını yüksək qiymətləndirən qonaq bu dəyərli təşəbbüsə görə Azərbaycan tərəfinə öz dərin minnətdarlığını ifadə edib.

Xoş sözlərə görə Sotir Tsatsarova təşəkkürünü bildirən Baş prokuror Azərbaycan tarixinə müstəqil dövlət qurucusu kimi daxil olan ümummilli lider Heydər Əliyevin adını daşıyan Fondun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, Azərbaycan xalqının maddi rifahının yaxşılaşması naminə böyük işlər gördüyünü, eləcə də digər ölkələrdə müxtəlif sosial-mədəni təşəbbüslərlə çıxış etdiyini, genişmiqyaslı xeyriyyəçilik fəaliyyəti ilə məşğul olduğunu xüsusi vurğulayıb.

Görüşdə həmçinin iki ölkənin prokurorluq orqanları arasında sıx əməkdaşlığın müxtəlif aspektləri üzrə faydalı fikir mübadiləsi aparılıb, dostluq və əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi məqsədilə Azərbaycan və Bolqarıstan Baş Prokurorluqları arasında imzalanan "Korrupsiyaya qarşı mübarizədə milli təcrübələrin öyrənilməsi" mövzusunda birgə fəaliyyət planı çərçivəsində ölkələrimizin nümayəndə heyətlərinin cari ilin may ayında baş tutan qarşılıqlı işgüzar səfərlərinin əhəmiyyəti qeyd edilib, əməkdaşlıq imkanlarının gələcək perspektivləri müzakirə edilib və birgə səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

## Baş prokuror Cəlilabad şəhərində vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov martın 17-də Cəlilabad rayon prokurorluğunun inzibati binasında Cəlilabad, Biləsuvar, Neftçala və Cəbrayıl rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Cəlilabad rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda 21 vətəndaş qəbul edilib, onların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində həllini tapıb.

## Baş prokuror Beyləqan rayonunda vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov aprelin 21-də Beyləqan rayon prokurorluğunun inzibati binasında Beyləqan, İmişli, Ağcabədi, Tərtər, Ağdam, Füzuli, Laçın və Xocavənd rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Beyləqan rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda 37 vətəndaş qəbul edilib, onların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində həllini tapıb.

## Baş prokuror Göygöl rayonunda vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov mayın 27-də Göygöl rayon prokurorluğunun inzibati binasında Gəncə şəhəri, Göygöl, Goranboy, Samux, Daşkəsən, Xocalı və Kəlbəcər rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Göygöl rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda 36 vətəndaş qəbul edililib, onların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində həllini tapıb.

## Baş prokuror Lənkəran rayonunda vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov iyunun 29-da Lənkəran şəhər prokurorluğunun inzibati binasında Lənkəran şəhəri, Masallı, Astara, Lerik və Yardımlı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Lənkəran rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda 19 vətəndaş qəbul edililib, onların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində həllini tapıb.

***

Qəbullar zamanı müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib. Prokurorluğun səlahiyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərin araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olunub.

Vətəndaşlar bölgə sakinlərinin yerində qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Baş prokuror tabe prokurorların iştirakı ilə keçirilən müşavirələrdə dövlət başçısının məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, qanunsuz tələblərə və digər neqativ hallara son qoyulması, hər bir məmurun təvazökar olması ilə bağlı tələbləri diqqətə çatdırılmaqla vətəndaşlara daha həssaslıq və qayğı ilə yanaşılmasını tapşırıb.

Müşavirələrdə bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar verilib.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Milli cinayət-prosessual qanun norması xarici ölkənin dövlət orqanları üçün prosessual vəzifələr təsbit etmir



Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin 16 dekabr 2016-cı il tarixli məlumatında göstərilirdi ki, ayrı-ayrı dövlətlərin vətəndaşlığını daşıyan Aleksandr Lapşin adlı şəxsin barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi başlanmış və barəsində dövlətlərarası axtarış elan edilmişdir. Həmin xidmətin 09 fevral 2017-ci il tarixli məlumatında bildirilirdi ki, "Aleksandr Lapşin Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə, ərazi bütövlüyünü parçalamağa yönələn açıq çağırışlar etmə əməllərinə görə təqsirləndirilən şəxs qismində cəlb edilib beynəlxalq və dövlətlərarası axtarışa verilməsi ilə əlaqədar 15 dekabr 2016-cı il tarixdə Belarus Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Minsk şəhərində saxlanılaraq, 7 fevral 2017-ci il tarixdə Azərbaycan Respubilkasına ekstradisiya olunmuşdur.".

Dövlətlərin hüquq mühafizə və məhkəmə orqanları arasında hüquqi yardım cinayətkarlıqla mübarizədə təsirli vasitədir. Beynəlxalq hüquqi əməkdaşlığın hüquqi bazasının mükəmməlliyindən birbaşa asılı olan təcrübənin uğuru həm də milli və beynəlxalq normaların, onların tətbiqi praktikasının bir-birinə uyğun olması ilə müəyyən edilir. Bu sahələrdə təkmilləşmə heç zaman dayanmır və dialektik xarakter daşıyır.

Ölkə ərazisində törədilmiş cinayət üzrə təqib həyata keçirilməsi və cinayətə görə təqsirli şəxsin milli cinayət qanunu əsasında mühakimə edilməsi hər bir ölkə üçün suverenlik məsələsidir. Ona görə də cinayət və cinayət-prosessual qanunvericiliyi bu prinsipi ardıcıl şəkildə gözləməli, məhkəmə-istintaq təcrübəsi isə qanun normalarının düzgün mahiyyətinə uyğun formalaşmalıdır.

Lapşin işi barədə məlumatlar beynəlxalq hüquqi yardımla bağlı şəxsi təcrübəmdə rastlaşdığım məsələlər barədə fikirlərimi bölüşməyə vadar etdi. Təəssüflə qeyd edilməlidir ki, bəzi hallarda qanun normalarının məzmunu praktikada vahid təcrübənin, yanaşmanın möhkəmlənməsinə xidmət etmir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 11.1-ci maddəsində (Maddə 11. Cinayət qanununun Azərbaycan Respublikası ərazisində törədilən cinayətlərə görə qüvvəsi) göstərilib ki, "Azərbaycan Respublikasının ərazisində cinayət törətmiş şəxs bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilir".

Cinayət-prosessual qanunvericiliyinin məkana görə qüvvəsi Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 3-cü maddəsində (Maddə 3. Cinayət-prosessual qanunvericiliyin məkana görə qüvvəsi) təsbit edilmişdir. Onun məzmunu çox sadədir: "3.1. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi Azərbaycan Respublikasının ərazisində bu Məcəllənin 3.3 və 3.4-cü maddələrində nəzərdə tutulan istisnalarla , heç bir məhdudiyyət qoyulmadan qüvvədədir".

Qüvvədə olan bəzi qanunvericilik normalarının məzmunu təcrübədə onların proses iştirakçıları tərəfindən həddən artıq sərbəst şəkildə şərh etmələrinə şərait yaradır.

Məsələn, CPM-nin 498-ci maddəsində göstərilib ki, "498.1. Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanının razılığı olmadan verilmiş şəxs onun verilməsindən əvvəl törədilmiş, lakin törədilməsinə görə verilmədiyi cinayətə görə cinayət məsuliyyətinə cəlb edilə və ya cəzalandırıla bilməz. 498.2. Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanının razılığı olmadan şəxs həmçinin üçüncü dövlətə verilə bilməz". Burada "Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanı" dedikdə, xarici dövlətlərin cinayət təqibi orqanları istisna edilir. "Sorğu edilən" Azərbaycan Respublikasının orqanıdırsa, "sorğu edən" onun kontragenti olan xarici dövlətin orqanıdır.

Sadə bir suala cavab axtaraq: CPM-nin qeyd edilən maddələrinin müəyyən etdikləri prosessual vəzifələrin subyektləri kimlərdir – Azərbaycan Respublikasının və ya xarici dövlətin orqanları? Həmin vəzifələr maddələrdə "şəxs...cinayət məsuliyyətinə cəlb edilə və ya cəzalandırıla bilməz", "şəxs həmçinin üçüncü dövlətə verilə bilməz". Bu qadağanedici normaları kim icra etməlidir – Azərbaycanın və ya xarici dövlətin orqanları?

Bu vəzifələrin xarici dövlət orqanlarının səlahiyyətlərinə aid olması normanın məzmunundan aydın görünür. Yəni, Azərbaycan Respublikasının cinayət təqibi orqanının razılığı olmadan xarici dövlətin orqanları göstərilən hərəkətləri etməməlidirlər. Bu, "ci-

nayət-prosessual qanunvericiliyinin məkana görə qüvvəsi" prinsipindən irəli gələn "Azərbaycanın milli cinayət-prosessual qanunvericiliyi xarici dövlətin ərazisində fəaliyyət göstərən xarici dövlət orqanları və vəzifəli şəxsləri üçün prosessual vəzifələr və səlahiyyətlər müəyyən edə bilməz" prezumpsiyaya ziddir.

Təhlil göstərir ki, bunlar, milli qanunvericinin iradəsi ilə əhatə edilənə oxşamır. Daha əsaslı görünən onların texniki qüsur olmaları versiyasıdır. Nəyə görə belə hesab edirik? Əvvəla, müvafiq beynəlxalq müqavilələrdə həmin vəzifələr fərqli subyektlərə, konkret olaraq özünün suveren prosessual ərazisində fəaliyyət göstərən orqanlara aid edilmişlər. Məsələn, ən çox tətbiq edilən Müstəqil Dövlətlər Birliyinin "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 22.01.1993-cü il tarixdə Minsk şəhərində, 13.01.2004-cü ildə Kişinyov şəhərində imzalanmış konvensiyalar məsələni belə həll etmişlər. Minsk Konvensiyasının 66-cı maddəsində (Статья 66. Пределы уголовного преследования выданного лица) yazılıb: "1. Без согласия запрашиваемой Договаривающейся Стороны выданное лицо нельзя привлечь к уголовной ответственности или подвергнуть наказанию за совершенное до его выдачи преступление, за которое оно не было выдано. 2. Без согласия запрашиваемой Договаривающейся Стороны лицо не может быть выдано также третьему государству". Kişinyov Konvensiyasının 80-ci maddəsində (Статья 80 Пределы уголовного преследования выданного лица) də eyni məzmunla norma vardır: "1. Без согласия запрашиваемой Договаривающейся Стороны выданное лицо нельзя привлечь к уголовной ответственности или подвергнуть наказанию за совершенное до его выдачи преступление, за которое оно не было выдано. 2. Без согласия запрашиваемой Договаривающейся Стороны лицо не может быть выдано третьему государству". Tamamilə eyni olan mətnlərdir. Onların Azərbaycan dilinə tərcüməsi təxminən belədir: "1. Sorğu alan Razılığa gələn Tərəfin razılığı olmadan verilmiş şəxsi cinayət məsuliyyətinə cəlb etmək və ya onun verilməsinə qədər törətdiyi həmin cinayətlə əlaqədar verilmədiyi cinayətə görə cəzaya məruz qoymaq olmaz. 2. Sorğu alan Razılığa gələn Tərəfin razılığı olmadan şəxs üçüncü dövlətə verilə bilməz .

Qeyd edilməlidir ki, 1957-ci il dekabrın 13-də imzalanmış "Ekstradisiya haqqında" Avropa Konvensiyası da oxşar mövqe nümayiş etdirir (Maddə 14. Konkretlik qaydası. 1. (...) ekstradisiya edilmiş şəxs, ekstradisiya edildiyi cinayətdən başqa, özünün verilməsinədək törədilmiş hər hansı bir cinayətə görə cinayət təqibinə məruz qala bilməz, hökmün və ya tutma barədə qərarın icrası məqsədi ilə məhkum edilə və ya tutula bilməz və şəxsi azadlığı heç bir səbəbə görə məhdudlaşdırıla bilməz".

Göründüyü kimi, bu konvensiyaların normaları ilə CPM-nin 498.1 və 498.2-ci maddələrinin normaları arasında diametral ziddiyyət vardır. Həmin normalarda müəyyən edilmiş prosessual öhdəliklər birinci halda Azərbaycan Respublikasının, ikinci halda xarici dövlətlərin cinayət təqibi orqanlarının vəzifələrinə aid edilmişdir.

Qeyd edilməlidir ki, bu konvensiyaların iştirakçısı olan dövlətlərin qanunvericiliyi məsələyə konvensiya normalarının məzmununa uyğun münasibət nümayiş etdirir. Məsələn, Rusiya Federasiyası Cinayət-Prosessual Məcəlləsinin 461-ci maddəsinin 1-ci hissəsində (Статья 461. Пределы уголовной ответственности лица, выданного Российской Федерации.) göstərilmişdir: "1. Лицо, выданное иностранным государством, не может быть задержано, привлечено в качестве обвиняемого, осуждено без согласия государства, его выдавшего, а также передано третьему государству за преступление, не указанное в запросе о выдаче.(в ред. Федерального закона от 04.07.2003 N 92-ФЗ)". Açıq-aydın görünür ki, maddənin məzmununda sadalanan vəzifələri Rusiya Federasiyasının dövlət orqanları yerinə yetirməlidirlər".

Vəziyyətdən çıxış yolu var. Praktiki baxımdan çıxış yolu CPM-nin 498.1 və 498.2-ci maddələrinin əvəzinə konvensiyaların normalarını icra etməkdədir. Azərbaycan Respublikasının Konstitusiyasında (Maddə 151. Beynəlxalq aktların hüquqi qüvvəsi) müəyyən edilmişdir ki, "Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir". Bu qaydaya görə, Minsk, Kişinyov və ya Avropa konvensiyalarının müvafiq normalarına üstünlük verilməli, onlar tətbiq edilməlidirlər.

Hüququn formal müəyyənliyi tələbləri baxımından CPM-nin 498.1 və 498.2-ci maddələrinin cinayət-prosessual qanunvericiliyinin prinsiplərinə, beynəlxalq müqavilələrə və praktikaya uyğunlaşdırılmalarına ehtiyac vardır. Onların məzmunu belə redaksiyada təsdiq oluna bilər: "498.1. Verilmiş şəxs onu vermiş xarici dövlətin cinayət təqibi orqanının razılığı olmadan onun verilməsindən əvvəl törədilmiş, lakin törədilməsinə görə verilmədiyi cinayətə görə cinayət məsuliyyətinə cəlb edilə və ya cəzalandırıla bilməz. 498.2. Xarici dövlətin cinayət təqibi orqanının razılığı olmadan şəxs həmçinin üçüncü dövlətə verilə bilməz".

**Cahangir Nəsirov**
*Azərbaycan Respublikası Yazıçılar Birliyinin üzvü,*
*Prokurorluğun fəxri işçisi, baş ədliyyə müşaviri*

# Konstitusiya Məhkəməsi ilə Avropa Məhkəməsinin hüquqi mövqeləri arasında məntiqi ziddiyyət yoxdur

Yeni İnzibati Xətalar Məcəlləsi tətbiq edilməyə başlayandan sonra ən çox mübahisə yaradan məsələlərdən biri prokurorun protest vermək səlahiyyətinin hüdudları ətrafındadır. Məsələ hətta Konstitusiya Məhkəməsinin Plenumunda müzakirə edilib və qərar çıxarılmaqla nəticələnib. Lakin mübahisələr yenə də səngimir. Bunu təbii qəbul etmək lazımdır. Təcrübənin artması onun keyfiyyətinin yüksəlməsinə səbəb olacaq. Ayrı-ayrı çətinliklərin müzakirəyə çıxarılması, onların aradan qaldırılmasının qanuni, əsaslı, ədalətli və ağıllı yolunun tapılması bu dialektik prosesin elementləridir.

Yaranmış situasiyadan optimal çıxış yolu tapmaqda metodik yardım üçün Elm-Tədris Mərkəzinə müraciətə əlavə edilmiş sənədlərdən görünürdü ki, Bakı şəhərinin rayonlarından birinin məhkəməsi 31.03.2017-ci il tarixli qərardadı ilə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 327.1-ci maddəsi ilə N.R.Z. barəsində Bakı şəhər Dövlət Yol Polisi İdarəsinə bilavasitə tabe olan YPXA-nın baş inspektoru V.H. "X" №-li inzibati xəta haqqında iş üzrə 30.03.2016-cı il tarixli qərarının ləğv olunması, yenidən baxılması üçün Bakı şəhər Dövlət Yol Polisi İdarəsinə qaytarılmasına dair prokurorun rayon məhkəməsinə verdiyi protest baxılmadan geri qaytarmışdır. Qərarın əsaslandırıcı hissəsinin sonunda məhkəmə gəldiyi qənaəti protestin *"buna hüququ olmayan şəxs tərəfindən verildiyi"* ilə əsaslandırmışdır. Arqumentlər sadə idi. Prokurorun belə qərarlardan protest vermək səlahiyyətinin olmaması mülahizəsi digər mülahizədən – *"prokuror yalnız iştirak etdiyi inzibati xətalara dair işlər üzrə qəbul edilmiş qərardan protest verə bilər"* məzmunlu mülahizədən hasil edilirdi. İddia edilir ki, bu mülahizənin müəllifi mötəbər instansiya – Konstitusiya Məhkəməsi idi. Yada salaq ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinin şərh edilməsinə dair" 31 yanvar 2017-ci il tarixli qərarının nəticəvi hissəsində göstərilib ki: "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinə uyğun olaraq prokuror inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etdikdə, həmin işlər üzrə məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malikdir".

Rayon məhkəməsinin qərarında intellektual insinuasiyalar "protest vermə hüququ o vaxt yaranır ki, prokuror protest verdiyi inzibati xəta haqqında işin baxılmasında iştirak etmiş olsun. Əks yanaşma Konstitusiya Məhkəməsinin qərarındakı hüquqi mövqe ilə ziddiyyət təşkil edər, bu isə yolverilməzdir" qənaəti ilə nəticələnmişdir. Əslində, Konstitusiya Məhkəməsinin mövqeyi belə deyil, fərqlidir. Lakin əvvəlcə hüquqi qüvvəsi daha yüksək olan mənbələrlə bağlı arqumentlər barədə.

*Konstitusiya Məhkəməsinin hüquqi mövqeyi Avropa Məhkəməsinin hüquqi mövqeyini istisna etmir*

Əslində prokurorun inzibati xətalara dair işlər üzrə icraatda iştirak edib-etməməsindən asılı olmayaraq protest vermək hüququ var. Bu, İnzibati Xətalar Məcəlləsində aydın şəkildə ayrıca yazılmasa da, qanunvericilik sisteminə daxil olan və daha üstün qüvvəyə malik digər hüquq mənbələrindən irəli gəlir, məsələn, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən. Məlum olduğu kimi, Konstitusiyanın 151-ci maddəsində (Maddə 151. Beynəlxalq aktların hüquqi qüvvəsi) dəqiqləşdirilib ki, "Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir".

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası (bundan sonra – Avropa Konvensiyası) 25 dekabr 2001-ci il tarixli Qanunla təsdiq edilib. Bundan sonra, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanunu ilə insan hüquqlarının müdafiəsinə həsr edilmiş normalar milli qanundan daha yüksək səviyyəyə qaldırılıb.

Avropa Konvensiyasının hüquqlar kataloqunda 6-cı maddənin təsbit etdiyi "Ədalətli məhkəmə araşdırması hüququ" xüsusi yer tutur. Bu hüququn substansiyasını "Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir" – məzmunlu norma təşkil edir. *İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – Avropa Məhkəməsi) inzibati xətalara dair məhkəmə icraatının ədalətliliyi standartı barədə hüquqi mövqeyi prosesdə ictimai (publik) hakimiyyətin prokurorla mütləq təmsil olunması tələbini də ehtiva edir.*

Avropa Məhkəməsində baxılmış "Karelin Rusiya Federasiyasına qarşı iş"də ictimai qaydanı pozduğuna görə inzibati məsuliyyətə cəlb edilmiş şəxsin onun barəsindəki məhkəmə prosesində ittiham hakimiyyətinin təmsilçisi kimi prokurorun iştirak etməməsi haqqında şikayətə baxılıb. Ərizəçi Karelin israr edib ki, bu, onun

ədalətli və bitərəf məhkəmə araşdırması hüququnu pozub. Avropa Məhkəməsi 20.09.2016-cı il tarixli qərarında ərizəçinin Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndinin pozulmasını məhz bu səbəbə görə müəyyənləşdirib (84-cü paraqraf). Məhkəmə qərarında qeyd edib ki, işdə prokurorun iştirak etməməsi məhkəmə araşdırmasında təqsirsizlik prezumpsiyasının işləməsinə, onun nəticəsi kimi, məhkəmənin tərəfsizliyi məsələsinə təsir edib və əksinə (72-ci paraqraf); belə şəraitdə birinci instansiya məhkəməsinin ittihamın irəli sürülməsi, ondan daha əhəmiyyətli olan şifahi baxış zamanı *ittihamın müdafiə edilməsi öhdəliyini öz üzərinə götürməkdən* başqa alternativi qalmayıb (73-cü paraqraf).

Göstərilən qərarın praktiki əhəmiyyəti bununla bitmir. Avropa Məhkəməsi razilaşıb ki, birinci instansiya məhkəməsində yol verilmiş pozuntu apellyasiya instansiyası məhkəməsində aradan qaldırıla bilər və qaldırılmalı idi. Prokurorun bu məhkəmə instansiyasında da iştirak etməməsini Məhkəmə "həddən artıq çatışmazlıq" kimi dəyərləndirib; özlüyündə apellyasiya baxışının isə məhkəmənin tərəfsizliyi məsələsini aradan qaldırmadığını vurğulayıb (83-cü paraqraf).

Deməli, Avropa Məhkəməsi baxışda bu və ya digər səbəbdən iştirak etməmiş prokurorun birinci instansiya məhkəmə qərarından protest verməsini nəinki mümkün sayır, hətta onu məhkəmə baxışının ədalətinin bərpasının (məsələn, apellyasiya instansiyası məhkəməsində) yeganə yolu hesab edir. **Ona görə də, prokurorlar iştirak etmədikləri məhkəmə baxış zamanı çıxarılmış məhkəmə qərarından apellyasiya protesti verərkən Avropa Məhkəməsinin presedent mövqeyinə əsaslana bilərlər.**

Məsələnin digər tərəfi də praktiki əhəmiyyət kəsb edir. Prokuror müvafiq situasiyalarda protest vermə səlahiyyətindən istifadə etməlidirmi? Fikrimizcə, mütləq etməlidir. Nəzərə almaq gərəkdir ki, Azərbaycanın inzibati xətalar haqqında qanunvericiliyində barəsində inzibati tənbeh tətbiq edilmiş şəxsin Avropa Konvensiyasının 6-cı maddəsində təsbit olunmuş "ədalətli məhkəmə araşdırması" hüququnu təmin etməyin səmərəli vasitələrindən biri prokurorun prosesə qatılmasıdır. Hüquqi cəhətdən bunu prokuror protest verməklə edə bilər. Bununla o, qeyd edilən *fundamental hüququ təmin etməyə təşəbbüs göstərmiş olar.*

Prokurorun protestlə prosesə qatılması **vəzifəsinin** kafi hüquqi əsası var. Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsində (Maddə 60. Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı) dəqiqləşdirilib ki, *"Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir"; və "Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır".* Konstitusiyanın 71-ci maddəsində (Maddə 71. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminat) müəyyən edilib ki, "Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur".

Avropa Konvensiyanın 13-cü maddəsi təsdiqləyib ki, "Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları pozulan hər kəs, hətta bu pozulma rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir." İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin *Hacıbəyli Azərbaycana qarşı iş* (şikayət № 16528/05) üzrə 10 iyul 2008-ci il tarixli qərarın 37-ci paraqrafında açıqlanıb ki, göstərilən "vasitələr onlardır ki, iddia olunan pozuntulara aid və eyni zamanda əlçatan və səmərəli olsunlar. Belə vasitələrin mövcudluğu yalnız nəzəriyyədə deyil, həm də təcrübədə kifayət qədər aydın olmalıdır, əks halda, əlçatanlıq və səmərəlilik tələbinə nail olmazlar; cavabdeh Dövlətin üzərinə düşür ki, bu müxtəlif şərtlərə cavab verilsin". Bizə təqdim edilən prosessual sənədlərdən görünür ki, konkret işdə prokuror, dövlət orqanının vəzifəli şəxsi kimi üzərinə düşən vəzifəni qanunvericilikdə nəzərdə tutulmuş səlahiyyətlərini həyata keçirərək yerinə yetirmiş, hüququnun pozulması barədə şəxsin prokurorluğa müraciətinə əsasən araşdırma aparmış, pozuntunun təsdiqləndiyini müəyyən etmiş, onun aradan qaldırılması, pozulmuş hüququn bərpa edilməsi üçün təsirli və adekvat tədbir görmüş, işin məhkəmədə baxılmasına təşəbbüs göstərmişdir, bu məqsədlə protest vermişdir. Mübahisələndirilən qərardad isə, özlüyündə qanun pozuntusu olmaqla bərabər həm də şəxsin Avropa Konvensiyasında (6-cı maddə) nəzərdə tutulmuş fundamental hüququnun – "ədalətli məhkəmə araşdırması" hüququnun təmin edilməsinə əngəl yaratmışdır.

Sadalanan arqumentləri təkzib etmək çətindir. Opponentlər ortaya başqa bir şərt atırlar: fərdi hüququ müdafiə etmək prokurorun deyil, şəxsin özünün işidir. Yadıma gəlir ki, Konstitusiya Məhkəməsinin Plenumunda da belə fikir səslənmişdi. Lakin hər kəs Konstitusiyanın 71-ci maddəsində (Maddə 71. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı) "Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və **məhkəmə hakimiyyəti orqanlarının borcudur"** nəzərə almalıdır. Prokuror məhkəmə hakimiyyətinə aiddir və qeyd edilən öhdəlik ona da şamil edilir.

*Sadə mülahizələr və onların alqoritmik bağlılığı barədə*

Konstitusiya Məhkəməsinin hüquqi mövqeyini ifadə edən mətnin mahiyyətini aydınlaşdırmağın ən səmərəli üsullardan biri onun formal məntiq qanun-qaydalarına əsasən təhlili ola bilər. Bu iş üçün formalizminə görə sadə və anlaşıqlı üsul olan "məntiq kvadratı" qaydaları cəlbedici görünür.

Formal məntiq intellektual fəaliyyətlə məşğul olan hər kəsə, xüsusən də hüquq və fakt məsələləri üzrə "çəkişmələr" aparan şəxslərə məntiq qanunlarını bilmək və tətbiq etmək bacarığına yiyələnmək vacibdir. Belə

proseslərə cəlb olunan şəxslər məntiqi fikir yürütmənin, sübut etmənin və s. qaydalarını bilsələr, hüquq mübahisələri xaotik sözləşmədən uzaqlaşar, sivil formaya düşər, çəkişmələrin gedişi və nəticələri düzgün qiymətləndirilər, kimin haqlı, kimin haqsız olması tək peşəkarlar üçün deyil, prosesi müşahidə edən kənar müşahidəçilər üçün də aydın olar, bütövlükdə prosesin səmərəsi artar. Razılaşın ki, şahmat (və ya başqa oyun) oynamaq üçün stol arxasına oturan şəxslərin bu oyunun qaydalarını bilməmələri oyunu qazanan və ya uduzan tərəfi müəyyən etməyi mümkünsüz edər, prosesin özü isə komik səhnəni xatırladar.

Konstitusiya Məhkəməsinin mülahizəsinin təhlilindən əvvəl sadə mülahizələr (təhlil predmetinin məzmunu sadə mülahizələrlə kifayətlənməyə əsas verir) barədə formal məntiqin təsnifata ötəri nəzər salaq. Bütün sadə mülahizələr "müqayisə edilən" və "müqayisə edilməyən" növlərə bölünür. Müqayisə edilən (maddiyyəti eyni olan) mülahizələr eyni *subyektə və predikata* malikdirlər, lakin *kvantor* və *əlaqələrlə* fərqlənirlər. Məsələn, *"Bütün meyvələr şirindir", "Bəzi meyvələr şirindir"* mülahizələri müqayisə ediləndirlər: onların *subyektləri* və *predikatları* üst-üstə düşür, *kvantor* və *əlaqələri* isə fərqlənirlər. Müqayisəedilməyən mülahizələr müxtəlif *subyekt* və *predikata* malikdirlər. Məsələn, *"Bütün meyvələr şirindir"* və *"Bəzi heyvanlar vəhşidir"* mülahizələri müqayisə edilməyəndir: onların subyektləri və predikatları üst-üstə düşmür.

Müqayisəedilən mülahizələr, anlayışlar kimi, "uyuşan" və *"uyuşmayan"* növlərə bölünərək bir-biri ilə müxtəlif münasibətlərdə olurlar. "Eyni zamanda doğru olan" mülahizələr *"uyuşan"* mülahizələr adlanır. Məsələn, *"Bəzi meyvələr şirindir"* və *"Bəzi meyvələr şirin deyil"* mülahizələri eyni zamanda doğrudurlar və "uyuşan" mülahizələrdir.

"Eyni zamanda doğru olmayan" mülahizələr uyuşmayan mülahizələr adlanır: onların birinin doğru olması mütləq qaydada digərinin yalan olması mənasını verir. Məsələn, *"Bütün meyvələr şirindir"* və *"Bəzi meyvələr şirin deyil"* mülahizələri eyni zamanda doğru ola bilməzlər və *uyuşmayan* mülahizələrdir (birinci mülahizənin doğruluğu labüdlüklə ikincinin yalanına gətirib çıxarır).

Uyuşan mülahizələr "eynimənalı", "tabeli" və "qismən üst-üstə düşmə (subkontrar)" münasibətlərdə olur. "Eynimənalı" münasibət – *subyektləri, predikatları, əlaqələri* və *kvantorları* üst-üstə düşən iki mülahizə arasında münasibətdir. Məsələn, *"Bakı qədim şəhərdir"* və *"Azərbaycanın paytaxtı qədim şəhərdir"* mülahizələri bir-biri ilə eynimənalıq münasibətdədir.

"Tabeli" münasibət – *predikatları* və *əlaqələri* üst-üstə düşən, *subyektləri* isə növ və cins (tam-hissə) münasibətində olan iki mülahizə arasında olan münasibətdir. Məsələn, *"Bütün bitkilər canlı orqanizmdirlər"* və *"Bütün çiçəklər (bəzi bitkilər) canlı orqanizmdirlər"* mülahizələri tabeli münasibətdədirlər. Çiçəklər cins olaraq bitkilər növünə aiddir.

"Qismən üst-üstə düşmə" münasibətlərinə "subkontrar" münasibət də deyirlər. Bu, *subyekt* və *predikatları* üst-üstə düşən, *əlaqələri* isə fərqlənən iki mülahizə arasında münasibətdir. Məsələn, *"Bəzi atlar əhliləşdirilib"* və *"Bəzi atlar əhliləşdirilməyib"* mülahizələri qismən üst-üstə düşən münasibətdədirlər. Qeyd edilməlidir ki, belə münasibətdə yalnız *"xüsusi israr"* (I) və *"xüsusi inkar"* (O) mülahizələri olur (Bax: Şəkil "Məntiq kvadratı"nın sxematik təsviri).

Uyuşmayan mülahizələr "tərs" və "zidd" növ münasibətlərdə ola bilərlər. "Tərs" (kontrar) münasibət – *subyekt* və *predikatı* üst-üstə düşən, *əlaqələri* isə fərqlənən iki mülahizə arasında münasibətdir. Məsələn, *"Bütün məhkəmə hökmləri ədalətlidir"* və *"Bütün məhkəmə hökmləri ədalətli deyil"* mülahizələri tərslilik münasibətindədir. Belə münasibətdə yalnız *ümumi mülahizələr (ümumi israr (A)* və *ümumi inkar (E) mülahizələri)* ola bilər (Bax: Şəkil "Məntiq kvadratı"nın sxematik təsviri). Tərs mülahizələr eyni zamanda doğru ola bilməz, lakin yalan ola bilərlər. Məsələn, qeyd edilən tərs mülahizələr *eyni zamanda doğru* ola bilməzlər, lakin *eyni zamanda yalan* ola bilərlər: bütün məhkəmə hökmlərinin ədalətli olması düz deyil, lakin həm də o düz deyil ki, bütün məhkəmə hökmləri ədalətsizdir.

Tərs mülahizələr *eyni zamanda yalan* ola bilərlər, çünki onlar əks istiqamətlərdə axırıncı (artan və ya azalan istiqamətlərdə sonuncu yeri tutan) variantları ifadə etdiklərinə görə həmişə onların ortasında hansısa *üçüncü variant* mövcud olur. Əgər bu "orta variant" doğrudursa, onda həmin "axırıncı variantlar"ın hər ikisi yalan olur. *"Bütün məhkəmə hökmləri ədalətlidir"* və *"Heç bir (bütün) məhkəmə hökmü ədalətli deyil"* "axırıncı" mülahizələr arasında orta, "üçüncü" variant var: *"Bəzi məhkəmə hökmləri ədalətlidir, bəziləri isə ədalətli deyil".* Bu mülahizə doğru olmaqla hər iki "axırıncı" (son hədd) mülahizələrin *yalan* olmalarını müəyyənləşdirir.

Zidd (kontradiktor) münasibət – *predikatları* üst-üstə düşən, *əlaqələri* müxtəlif olan, *subyektləri* həcmlərinə görə fərqlənən (tabeçilik, yəni növ-cins münasibətlərində olan) iki mülahizə arasında münasibətdir. Tərs mülahizələrdən fərqli olaraq zidd mülahizələrin ortasında hansısa üçüncü, "aralıq" mülahizə ola bilməz. Ona görə də, zidd münasibətdə olan mülahizələr *eyni zamanda doğru* ola bilər, *eyni zamanda yalan* isə ola bilməzlər, onların birinin doğruluğu o birisinin yalan olmasını şərtləşdirir.

Göründüyü kimi, **müqayisə edilən mülahizələr arasında münasibətlər alqoritmik asılılıqla xarakterizə edilir və onları *qayda* kimi tətbiq etməyə əsas verir. Mülahizələrdən birinin doğru (və ya yalan) olmasını, onun digər mülahizə ilə münasibətinin xarakterini biləndən sonra asanlıqla (həm də dəqiqliklə) müəyyən etmək olar.** Belə intellektual prosesi sadələşdirmək üçün, yəni sadə müqayisə edilən mülahizələr arasında münasibətləri əyani təsvir etmək, bununla onun yadda qalmasını və tətbiqini asanlaşdırmaq

üçün hələ orta əsrlərdə işlənib hazırlanmış "məntiq kvadratı" sxematik təsvirdən istifadə edilir.




*Şəkil: «Məntiq kvadratı»nın sxematik təsviri*

"Kvadrat"ın küncləri sadə mülahizələrin 4 növünü, onun tərəfləri və diaqonalları isə – onların arasındakı münasibətləri ifadə edir. Belə ki, A və I, eləcə də E və O mülahizələri bir-biri ilə *tabeli* münasibətlərdədir. A və E mülahizələri bir-biri ilə *tərs* münasibətdədir, I və O mülahizələri isə – *qismən üst-üstə düşən* münasibətdədirlər. A və O, eləcə də E və I bir-biri ilə *zidd* münasibətindədirlər. "Məntiq kvadratı" eynimənalı mülahizələr (A və A I və I, E və E, O və O) arasındakı münasibətləri təsvir etmir. İki mülahizə arasındakı münasibəti müəyyən etmək üçün onların hansı növ mülahizəyə aid olmasını dəqiqləşdirmək kifayətdir. Məsələn, *"Bütün hüquqşünaslar prokurordurlar"* və *"Bəzi hüquqşünaslar prokuror deyildirlər"* mülahizələri arasında münasibəti müəyyən etmək üçün birinci mülahizənin *"ümumi israr"* (A), ikinci mülahizənin isə *"xüsusi inkar"* (O) növ mülahizələrə aid olduğunu dəqiqiləşdirir, sonra isə məntiq "kvadratı"nın vasitəsi ilə asanlıqla bu iki mülahizənin arasında *zidd* münasibətlərin olmasını müəyyən edirik. *"Bütün hüquqşünaslər prokurordurlar"* (A) və *"Bəzi hüquqşünaslər prokurordurlar"* (I) mülahizələri *tabeli* münasibətindədirlər. *"Bütün hüquqşünaslər prokurordurlar"* (A) və *"Bütün hüquqşünaslar prokuror deyildirlər"* (E) mülahizələri tərs münasibətdədirlər.

Yuxarıda qeyd edildiyi kimi, müqayisə edilən mülahizələrin hər birinin doğruluq mənası qalan mülahizələrin doğruluq mənaları ilə bu və ya digər qaydada bağlıdır. Belə ki, əgər A mülahizəsi doğru və ya yalandırsa, qalan 3, *subyekt* və *predikatları* onunla eyni olan müqayisəedilən mülahizə (I, E, O) ondan asılı olaraq (yəni, A-nın doğru və ya yalan olmasından) doğru və ya yalan olur. Məsələn, əgər *"Bütün prokurorlar hüquqşünasdırlar"* (A) mülahizəsi doğrudursa, *"Bəzi prokurorlar hüquqşünasdırlar"* (I) mülahizəsi də doğrudur. Yəni, əgər bütün prokurorlar hüquqşünasdırlarsa, onda onların bəziləri (bir hissəsi) də hüquqşünasdırlar. Əgər E növ *"Bütün prokurorlar hüquqşünas deyildirlər"* mülahizəsi yalandırsa, onda O növ *"Bəzi prokurorlar hüquqşünas deyildirlər"* mülahizəsi də yalandır. Beləliklə, bu halda A mülahizəsinin *doğruluğundan* I mülahizəsinin *doğruluğu,* E və O mülahizələrinin *yalanlığı* hasil olur (təbii ki, söhbət, yuxarida qeyd edildiyi kimi, eyni subyekt və predikata malik, *müqayisə edilən* mülahizələrdən gedir). Mülahizələrin bu keyfiyyəti onların münasibətlərini "formallaşdırma"ğa, bununla da istifadəsini asanlaşdırmağa imkan verir.

İstənilən *müqayisəedilən* mülahizənin *doğruluq* mənasını "məntiq kvadratı" üzrə operativ müəyyən etmək üçün tətbiq edilən qaydaların sayı 8-dir. Bu qaydalardan istifadə edərək sadə müqayisəedilən mülahizələrin doğruluğu haqqında nəticələr çıxarmaq olar. Onlar aşağıdakılardır:

1. A (növ mülahizə) doğrudursa, I (növ mülahizə) də doğrudur; E və O (növ mülahizələr) yalandırlar.
2. A yalandırsa, I doğruluq baxımından qeyri-müəyyəndir (yəni, məzmundan asılı olaraq doğru da, yalan da ola bilər), E doğruluq baxımından qeyri-müəyyən, O isə doğrudur.
3. E doğrudursa, A yalandır, I yalandır, O doğrudur.
4. E yalandırsa, A doğruluq baxımından qeyri-müəyyən, I doğrudur, O doğruluq baxımından qeyri-müəyyəndir.
5. I doğrudursa, A doğruluq baxımından qeyri-müəyyən, E yalandır, O doğruluq baxımından qeyri-müəyyəndir.
6. I yalandırsa, A yalandır, E doğrudur, O doğrudur.
7. O doğrudursa, A yalandır, E doğruluq baxımından qeyri-müəyyən, I doğruluq baxımından qeyri-müəyyəndir.
8. O yalandırsa, A doğrudur, E yalandır, I doğrudur.

### *Konstitusiya Məhkəməsinin mövqeyinin "məntiq kvadratı" üzrə qısa təhlili*

Təhlil predmeti iki sadə müqayisəedilən mülahizədir. Birinci mülahizə Konstitusiya Məhkəməsinin 31 yanvar 2017-ci il tarixli qərarının nəticəvi hissəsindəki *"prokuror inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etdikdə, həmin işlər üzrə məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malikdir"* məzmunlu mülahizədir. Subyekti "prokuror", predikatı "məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququ var" olan 4 növ mülahizə quraq:

1) Hər bir prokuror inzibati xətalar haqqında işlərin işlər üzrə qəbul edilən məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malikdir (A).

2) Heç bir prokuror inzibati xətalar haqqında işlərin işlər üzrə qəbul edilən məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malik deyildir (E).

3) Bəzi (inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmiş) prokurorlar məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malikdirlər (I).

4) Bəzi (inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmiş) prokurorlar məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malik deyildirlər (O).

Açıq görünür ki, Konstitusiya Məhkəməsinin mövqeyini ifadə edən mülahizə I növ mülahizəyə, yəni *"xüsusi israr"* növ mülahizəyə aiddir. "Məntiq kvadratı"nın qaydalarına görə I mülahizəsi ilə zidd münasibətdə yalnız bir mülahizə – E mülahizəsi *("Heç bir prokuror inzibati xətalar haqqında işlərin işlər üzrə qəbul edilən məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malik deyildir")* ola bilər. Qalan növ mülahizələr (A və O) I mülahizəsi ilə *"tabe"* və *"qismən üst-üstə düşmə"* münasibətdədirlər. Doğruluq baxımından bu münasibətlər *"qeyri-müəyyənlik"*lə xarakterizə edilir. Yəni, <u>I mülahizəsindən zərurətlə A və O mülahizələrin *doğruluğu* və ya *yalanlığı* barədə birmənalı nəticə hasil etmək olmaz.</u>

"Məntiq kvadratı" qaydalarının sıra üzrə 5-cisində deyilir ki, *"I doğrudursa, A doğruluq baxımından qeyri-müəyyən, E yalandır, O doğruluq baxımından qeyri-müəyyəndir".* Yəni, "Bəzi (inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmiş) prokurorlar məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malikdirlər (I)" – doğrudursa, onda:

1) "Hər bir prokuror inzibati xətalar haqqında işlərin işlər üzrə hər bir qərar və ya qərardaddan protest vermək hüququna malikdir (A)" – doğruluq baxımından qeyri-müəyyən;

2) "Heç bir prokuror inzibati xətalar haqqında işlərin işlər üzrə məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malik deyildir (E) – yalan";

3) "Bəzi (inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmiş) prokurorlar məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malik deyildirlər (O)" – doğruluq baxımından qeyri-müəyyən mülahizədir.

Konstitusiya Məhkəməsinin və birinci instansiya məhkəməsinin mülahizələrindən "doğru" kimi birincinin mülahizəsi əsas götürülür, çünki Konstitusiyanın 130-cu maddəsinin IX bəndi müəyyən edib ki, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı Azərbaycan Respublikası ərazisində məcburi qüvvəyə malikdir". Əgər Konstitusiya Məhkəməsinin iradəsini ifadə edən mülahizə (I növlü "xüsusi israr") doğrudursa, onunla tərs – *subkontrar* ("qismən üst-üstə düşmə") münasibətdə olan birinci instansiya məhkəməsinin qərardadında ifadə edilən mülahizə (O növlü "xüsusi inkar") doğruluğuna görə qeyri-müəyyəndir, yəni <u>ən azı onun doğru olduğunu israr etmək mümkün deyil.</u>

Beləliklə, "məntiq kvadratı" qaydalarına görə, Konstitusiya Məhkəməsinin qərarından birinci instansiya məhkəməsinin birmənalı, "protest vermə hüququ o vaxt yaranır ki, prokuror protest verdiyi inzibati xəta haqqında işin baxılmasında iştirak etmiş olsun. Əks yanaşma Konstitusiya Məhkəməsinin qərarındakı hüquqi mövqe ilə **ziddiyyət** təşkil edər, bu isə yolverilməzdir", – məzmunlu nəticə çıxarılması məntiqi cəhətdən səhvdir, yanlışdır. Konstitusiya Məhkəməsinin mövqeyi ilə "zidd" münasibətində yalnız bir mülahizə – E növlü, *"Heç bir prokuror inzibati xətalar haqqında işlərin işlər üzrə məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malik deyildir"* məzmunlu mülahizə barədə "doğruluq-yalanlıq" baxımından qəti fikir söyləmək olar. Bu mülahizə isə qanun norması ilə təsdiq edilmir.

Konstitusiya Məhkəməsi hansı səbəbdən *"inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etməmiş prokurorun həmin işlər üzrə məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malik deyildir"* məzmunlu qərar çıxarmayıb?

Sözügedən qərarın çıxarılması ilə nəticələnmiş sorğunun müəllifi olan Sumqayıt Apellyasiya Məhkəməsini əslində çox sadə və prozaik bir sual maraqlandırıb: prokuror inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmədikdə məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malikdir və ya malik deyil?![1] Qərarın nəticəvi hissəsində isə yalnız göstərilib ki, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinə uyğun olaraq *prokuror inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etdikdə, həmin işlər üzrə məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malikdir".* Sorğuya konkret və adekvat mənfi (və ya müsbət) cavab verməyən Konstitusiya Məhkəməsi faktiki olaraq prokurorun prosesdə iştirakından asılı olmadan müvafiq qərardan protest vermək səlahiyyətinin olub-olmaması sualına cavabı açıq saxlayıb. Bu belə deyildirsə, Konstitusiya Məhkəməsinin sorğuya birmənalı *"inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etməmiş prokurorun həmin işlər üzrə məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malik deyildir"* məzmunlu qərar çıxarmamasının ağıllı izahı yoxdur.

**Nazir Bayramov**
*Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi*
*III dərəcəli dövlət ədliyyə müşaviri*

1 Sumqayıt Apellyasiya Məhkəməsinin müraciətinə səbəb kimi məhkəmənin qərardadında aşağıdakılar qeyd edilib: "Sumqayıt Apellyasiya Məhkəməsi prokurorluq orqanlarından belə xarakterli protestlərin daxil olması hallarının artmasını və prokurorun İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq belə qərardaddan protest vermək hüququnun olması ilə bağlı qeyri-müəyyənliyi nəzərə alaraq Konstitusiya Məhkəməsinə müraciət etmək qərarına gəlmişdir. Müraciət edənin qənaətinə görə, prokurorun iştirak etdiyi işlərlə yanaşı, daha hansı qərardadlardan protest vermək hüququnun olması qanunvericilikdə aydın müəyyən edilməmişdir.".

# Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsi elektron test üsulu ilə yoxlanılıb

"Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması haqqında" 27.01.2017-ci il tarixli 10/3 nömrəli əmrə əsasən, Baş Prokurorluğun Elm-Tədris Mərkəzində martın 4-dən iyunun 25-dək Azərbaycan Respublikası Baş Prokurorluğunun, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun, Bakı şəhər prokurorluğunun, onlara tabe olan rayon (şəhər) və ərazi hərbi prokurorluqların işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin elektron test üsulu ilə yoxlanması uğurla başa çatmışdır.

Test "İmtahan" informasiya sisteminin verilənlər bankından götürülmüş testlər əsasında həyata keçirilib. Testlərin seçimi zamanı prokurorluq işçilərinin xidmət və fəaliyyət sahələri nəzərə alınıb. Onların məzmunu müxtəlif bilik mənbələrindən, o cümlədən, milli və beynəlxalq qanunvericilik aktlarından, məhkəmə-istintaq təcrübəsindən ibarət olub. Yəni, sistemin test bankından Konstitusiyadan 29-u asan, 80-i orta çətin, 43-ü çətin olmaqla cəmi 152, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunundan 8-i asan, 11-i orta çətin, 1-i çətin olmaqla cəmi 20, "Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Qanundan 12-si asan, 9-u orta çətin, 3-ü çətin olmaqla cəmi 24, "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanundan 15-i asan, 23-ü orta çətin, 8-i çətin olmaqla cəmi 46,"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasından 7-si asan, 25-i orta çətin, 7-si çətin olmaqla cəmi 39, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent təcrübəsindən (37 iş üzrə qərardan) 25-i asan, 83-ü orta çətin, 21-i çətin olmaqla cəmi 129, "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Avropa Konvensiyası, "Ekstradisiya haqqında" Avropa Konvensiyası və Kişinyov Konvensiyasından 14-ü asan, 33-ü orta çətin, 7-si çətin olmaqla cəmi 54, "Prokurorluq haqqında" Qanundan 43-ü asan, 41-i orta çətin, 12-si çətin olmaqla cəmi 96, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanundan 34-ü asan, 17-si orta çətin, 1-i çətin olmaqla cəmi 52, "Konstitusiya Məhkəməsi haqqında" Qanundan 3-ü asan, 4-ü orta çətin, 4-ü çətin olmaqla cəmi 11, "Məhkəmələr və hakimlər haqqında" Qanundan 14-ü asan, 3-ü orta çətin olmaqla cəmi 17, "Məhkəmə-Hüquq Şurası haqqında" Qanundan 1-i asan, 1-i orta çətin olmaqla cəmi 2, "Vətəndaşların müraciətləri haqqında" Qanundan 21-i asan, 38-i orta çətin, 1-i çətin olmaqla cəmi 60, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanundan 5-i asan, 4-ü orta çətin, 1-i çətin olmaqla cəmi 10, "Polis haqqında" Qanundan 4-ü asan, 16-sı orta çətin, 4-ü çətin olmaqla cəmi 24, Cinayət Məcəlləsindən 36-sı asan, 81-i orta çətin, 34-ü çətin olmaqla cəmi 151, Cinayət-Prosessual Məcəlləsindən 527-si asan, 638-i orta çətin, 130-u çətin olmaqla cəmi 1295, İnzibati Xətalar Məcəlləsindən 34-ü asan, 70-i orta çətin, 18-i çətin olmaqla cəmi 122, Mülki Məcəllədən 69-u asan, 132-si orta çətin, 35-i çətin olmaqla cəmi 236, Mülki-Prosessual Məcəllədən 9-u asan, 24-ü orta çətin, 9-u çətin olmaqla cəmi 42, Əmək Məcəlləsindən 11-i asan, 17-si orta çətin, 3-ü çətin olmaqla cəmi 31, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanundan 17-si asan, 12-si orta çətin, 1-i çətin olmaqla cəmi 30, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanundan 15-i asan, 27-si orta çətin, 8-i çətin olmaqla cəmi 50, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanundan 2-si asan, 6-sı orta çətin, 1-i çətin olmaqla cəmi 9, "Dövlət sirri haqqında" Qanundan 2-si asan, 4-ü orta çətin olmaqla cəmi 6, "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Qanundan 4-ü asan, 5-i orta çətin, olmaqla cəmi 9, "Dövlət qulluğu haqqında" Qanundan 5-i asan, 2-si orta çətin olmaqla cəmi 7, "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Qanundan 14-ü asan, 8-i orta çətin, 2-si çətin olmaqla cəmi 24, "Hərbi qulluqçuların statusu haqqında" Qanundan 2-si asan, 5-i orta çətin olmaqla cəmi 7, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanundan 19-u asan, 11-i orta çətin, 2-si çətin olmaqla cəmi 32, "İcra haqqında" Qanundan 2-si asan, 1-i orta çətin olmaqla cəmi 3, "İnformasiya əldə etmək haqqında" Qanundan 1-i asan, 4-ü orta çətin, 1-i çətin olmaqla cəmi 6, "Məlumat azadlığı haqqında" Qanundan 6-sı asan, 2-si orta çətin olmaqla cəmi 8, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanundan 1-i asan, 7-si orta çətin, 7-si çətin olmaqla cəmi 15, "Sərhəd qoşunları haqqında" Qanundan 5-i asan, 5-i orta çətin olmaqla cəmi 10, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Qanundan 5-i asan, 6-sı orta çətin, 1-i çətin olmaqla cəmi 12, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Qanundan cəmi 2 orta çətin, "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanundan 1-i asan, 8-i orta çətin, 1-i çətin olmaqla cəmi 10, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanundan 6-sı asan, 5-i orta çətin olmaqla cəmi 11, "Cinayət işlərinə dair hüquqi yardım haqqında" Qanundan 6-sı asan, 4-ü orta çətin olmaqla cəmi 10, "Bələdiyyələrin statusu haqqında" Qanundan 8-i asan, 4-ü orta çətin, 4-ü çətin olmaqla cəmi 16, "Pasportlar haqqında" Qanundan cəmi 1 asan, "Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haq-

qında" Fərmandan 1-i asan, 2-si orta çətin, 1-i çətin olmaqla cəmi 4, "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Ali Məhkəmə plenumunun 31.03.2005-ci il tarixli, "Qəsdən adam öldürmə işləri üzrə məhkəmə təcrübəsi haqqında" Ali Məhkəmə plenumunun 12.12.2002-ci il tarixli qərarı, "Təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı təqdimatlara baxılarkən məhkəmələr tərəfindən qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" Ali Məhkəmə Plenumunun 03.11.2009-cu il tarixli, "Xuliqanlıq işləri üzrə məhkəmə təcrübəsi haqqında" Ali Məhkəmə Plenumunun 23.03.2004-cü il tarixli, “Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında” Ali Məhkəmə Plenumunun 11.06.15-ci il tarixli, “Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında” Ali Məhkəmə Plenumunun 01.11.2001-ci il tarixli, “Silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz hazırlanmasına, dövriyyəsinə və talanmasına dair işlər üzrə məhkəmə təcrübəsi haqqında” Ali Məhkəmə Plenumunun 27.05.2005-ci il tarixli qərarlarından 18-i asan, 68-i orta çətin, 31-i çətin olmaqla cəmi 117, "Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi"dən 5-i asan, 3-ü orta çətin olmaqla cəmi 8, Kriminalistikadan 29-u asan, 34-ü orta çətin, 17-si çətin olmaqla cəmi 80, beləliklə, cəmi 82 mənbədən 1096-sı asan, 1585-i orta çətin, 419-u çətin olmaqla 3100 test seçilmişdi.

Müvafiq qaydalara uyğun ssenariyə əsasən, hər peşə bilikləri test olunan işçiyə müəyyən edilmiş parametrlər üzrə 50-si asan, 35-i orta çətin, 15-i çətin olmaqla cəmi 100 testi 200 dəqiqə ərzində (hər testə 2 dəqiqə) cavablandırmaq təklif olunmuşdu. Uğur həddi toplanması mümkün olan balların 70%-i qədər müəyyən edilmişdir.

Testlər bir ay əvvəl Elm-Tədris Mərkəzinin internet səhifəsində (www.etmprok.az) yerləşdirilmiş, onlarla tanış olmaq üçün hər bir prokuror işçisinə müvafiq buraxılış (loqin və parol) verilmişdir.

İşçilərin 121-i və ya 18,0%-i əla nəticə, yəni toplanması mümkün olan balların 90%-dən yuxarı nəticə göstərmişdi, 6 nəfər isə belə balların hamısını (100%) toplamışdır.

Qaydalarda müəyyən edilmiş uğur həddini aşmamış işçilər üçün distant (məsafədən) ixtisasartırma kursu (Elm-Tədris Mərkəzinin internet resursu üzərində) təşkil edilmişdir.

**Hörmətli oxucular! Peşə biliyi səviyyəsinin testlərində ən yüksək (165) bal toplamış prokurorluq işçilərini Sizə təqdim edirik.**

**Aslanov Tural Çingiz oğlu**
**Bakı şəhər prokurorunun ictimaiyyətlə əlaqələr üzrə köməkçisi**
**kiçik ədliyyə müşaviri**



1984-cü ildə Bakı şəhərində anadan olub. 2005-ci ildə Bakı Dövlət Universitetinin “Hüquq” fakültəsinin bakalavr, 2007-ci ildə isə magistratura tədris pilləsini fərqlənmə ilə bitirib. 2008-ci ildə müsabiqə yolu ilə Azərbaycan Respublikasının prokurorluq orqanlarına işə qəbul olub.

27 sentyabr 2008-ci il tarixdə Şamaxı rayon prokurorunun köməkçisi vəzifəsi üzrə stajor təyin edilib, stajorluq müddətini başa çatdırdıqdan sonra 2009-cu ilin noyabr ayından 2011-ci ilin iyul ayınadək Şamaxı rayon prokurorluğunun müstəntiqi vəzifəsində işləyib. 28 iyul 2011-ci il tarixdən Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin İstintaq şöbəsinin mühüm işlər üzrə müstəntiqi vəzifəsinin icrası həvalə olunub, 4 dekabr 2012-ci il tarixdə həmin vəzifəyə, 9 yanvar 2015-ci il tarixdə mühüm işlər üzrə müstəntiqi vəzifəsinə təyin edilib. 29 sentyabr 2015-ci il tarixdə Baş İdarənin İstintaq İdarəsinin böyük prokuroru vəzifəsinə təyin edilib. 10 may 2017-ci il tarixdə Bakı şəhər prokurorunun ictimaiyyətlə əlaqələr üzrə köməkçisi vəzifəsinə təyin edilib.

Müsbət iş fəaliyyətinə görə 2014-cü ildə “qiymətli hədiyyə”, 2017-ci ildə “vaxtından əvvəl rütbə” verilməklə həvəsləndirilib.

Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin “İmtahan” informasiya sistemində test üsulu ilə yoxlanılması zamanı toplanılması mümkün olan 100% göstəricidən 2011-ci ildə 96,4%, 2013-cü ildə 95,8%, 2015-ci ildə 95,2% nəticə nümayiş etdirib.

**Budaqov Ceyhun Fərman oğlu**
**Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsi, Apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbənin prokuroru**
**kiçik ədliyyə müşaviri**



1985-ci ildə Gürcüstan Respublikasının Bolnisi rayonunda anadan olub. 2005-ci ildə Bakı Dövlət Universitetinin "Hüquq" fakültəsinin bakalavr pilləsini bitirib. 2007-ci ildə isə magistratura tədris pilləsini fərqlənmə ilə bitirib.

2008-ci ildə müsabiqə yolu ilə Azərbaycan Respublikasının prokurorluq orqanlarına işə qəbul olunaraq Quba rayon prokurorunun köməkçisi vəzifəsi üzrə stajoru, Qusar rayon prokurorunun köməkçisi vəzifələrində işləyib. 18 mart 2011-ci il tarixdə Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru vəzifəsinin icrası həvalə edilib, 29 noyabr 2011-ci il tarixdə həmin vəzifəyə təyin edilib.

Müsbət iş fəaliyyətinə görə 2013-cü ildə "vaxtından əvvəl rütbə" verilməklə həvəsləndirilib.

Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin "İmtahan" informasiya sistemində test üsulu ilə yoxlanılması zamanı toplanılması mümkün olan 100% göstəricidən 2011-ci ildə 98,8%, 2013-cü və 2015-ci il illərdə isə 100% nəticə nümayiş etdirib.

**Əhmədli Vüqar Ədalət oğlu**
**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Təşkilati və informasiya təminatı idarəsinin prokuroru**
**I dərəcəli hüquqşünas**



1987-ci ildə Bakı şəhərində anadan olub. 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquq" fakültəsinin bakalavr pilləsini, 2013-cü ildə isə Azərbaycan Dövlət Neft Akademiyasının ABŞ-nin Atlanta Universiteti ilə birgə təşkil etdiyi MBA proqramı üzrə magistratura tədris pilləsini bitirib.

29 sentyabr 2011-ci il tarixdə Azərbaycan Respublikasının prokurorluq orqanlarına işə qəbul olunaraq Sumqayıt şəhər prokurorunun köməkçisi vəzifəsi üzrə stajor, 8 noyabr 2012-ci il tarixdən Sumqayıt şəhər prokurorunun sınaq müddəti ilə köməkçisi vəzifələrində çalışıb, 3 iyun 2013-cü il tarixdən prokurorluğa daimi qulluğa qəbul olunaraq həmin vəzifəyə təyin edilib. 29 may 2015-ci il tarixdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilat və informasiya təminatı idarəsinin prokuroru vəzifəsinin icrası həvalə edilib, 2 iyun 2016-cı il tarixdə həmin vəzifəyə təyin edilib.

Müsbət iş fəaliyyətinə görə 2016-cı ildə "vaxtından əvvəl rütbə" verilməklə həvəsləndirilib.

2015-ci ildə prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin "İmtahan" informasiya sistemində test üsulu ilə yoxlanılması zamanı da toplanılması mümkün olan 100% göstəricidən 100% nəticə nümayiş etdirib.

**Mansurov Kərəm İsa oğlu**
**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru**
**I dərəcəli hüquqşünas**



1988-ci ildə anadan olub. 2005-ci ildə orta təhsilini fərqlənmə attestatı ilə, 2009-cu ildə Bakı Dövlət Universitetinin "Hüquq" fakültəsini "Hüquqşünaslıq" ixtisası üzrə bakalavr, 2013-cü ildə magistratura tədris pilləsini "Dövlət hüququ" ixtisası üzrə fərqlənmə diplomları ilə bitirib. Ali təhsil aldığı müddətdə Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Tələbə və Gənclər Təşkilatının sədri olub. Təhsil müddətində dəfələrlə fəxri fərman, diplom və müxtəlif təltiflərlə mükafatlandırılıb. 15.07.2009 - 01.07.2010-cu il tarixlərdə cəbhə bölgəsindəki Beyləqan - Horadiz rayonlarında yerləşən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 181 saylı hərbi hissəsinin Kəşfiyyat bölüyündə hərbi xidmətdə olub.

12.02.2011-ci il tarixdən 07.01.2013-cü il tarixədək "Xalq Bank" ASC-nin İdarəetmə orqanlarının icra aparatının Qərarların icrasına nəzarət şöbəsinin hüquq məsləhətçisi, baş hüquq məsləhətçisi vəzifələrində çalışıb.

20 fevral 2013-cü il tarixdə Azərbaycan Respublikasının prokurorluq orqanlarına işə qəbul olunaraq Sumqayıt şəhər prokurorunun köməkçisi vəzifəsi üzrə stajor, 11 aprel 2014-cü il tarixdən Sumqayıt şəhər prokurorunun sınaq müddəti ilə köməkçisi vəzifələrində çalışıb. 1 dekabr 2014-cü il tarixdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru vəzifəsinin icrası həvalə edilib, 4 dekabr 2015-ci il tarixdə həmin vəzifəyə təyin edilib.

**Məmmədov İlqar Gülənməd oğlu**
**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi,**
**Əməliyyat idarəsinin mühüm işlər üzrə böyük əməliyyatçısı**
**I dərəcəli hüquqşünas**



1984-cü ildə Bakı şəhərində anadan olub. 2004-cü ildə Bakı Dövlət Universitetinin "Hüquq" fakültəsinin bakalavr pilləsini "Hüquqşünaslıq" ixtisası üzrə, 2006-cı ildə magistratura tədris pilləsini "Cinayət hüququ, cinayət prosesi və kriminalistika" ixtisası üzrə fərqlənmə diplomları ilə bitirib.

14 oktyabr 2009-cu il tarixdə müsabiqə yolu ilə Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə işə qəbul olunub, 19 avqust 2011-ci il tarixə kimi həmin Departamentdə əməliyyat müvəkkili və müstəntiq vəzifələrində işləyib.

19 avqust 2011-ci il tarixdə köçürmə qaydasında prokurorluq orqanlarına daimi qulluğa qəbul edilərək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin Əməliyyat şöbəsinin mühüm işlər üzrə əməliyyatçısı vəzifəsinə təyin edilib. 20 aprel 2016-cı il tarixdə Baş İdarənin Əməliyyat idarəsinin mühüm işlər üzrə böyük əməliyyatçısı vəzifəsinə təyin edilib.

Müsbət iş fəaliyyətinə görə 2014-cü ildə "Təşəkkür" elan edilib.

Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin "İmtahan" informasiya sistemində test üsulu ilə yoxlanılması zamanı toplanılması mümkün olan 100% göstəricidən 2013-cü ildə 96,4%, 2015-ci ildə 100% nəticə nümayiş etdirib.

**Nağıyev Fərid Bəkir oğlu**
**Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsi,**
**Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi**
**üzrə şöbənin böyük prokuror-metodisti**
**kiçik ədliyyə müşaviri**



1985-ci ildə Tərtər rayonunda anadan olub. 2006-cı ildə Bakı Dövlət Universitetinin "Hüquq" fakültəsinin bakalavr, 2010-cü ildə isə magistratura tədris pilləsini fərqlənmə ilə bitirib. 2008-ci ildə müsabiqə yolu ilə Azərbaycan Respublikasının prokurorluq orqanlarına işə qəbul olub.

27 sentyabr 2008-ci il tarixdə Bakı şəhəri, Sabunçu rayon prokurorunun köməkçisi vəzifəsi üzrə stajor təyin edilib, stajorluq müddətini başa çatdırdıqdan sonra 9 noyabr 2009-cu il tarixdə Bakı şəhəri, Binəqədi rayon prokurorluğunun müstəntiqi vəzifəsinin icrası həvalə edilib, 5 iyun 2010-cu il tarixdə həmin vəzifəyə təyin edilib. 29 aprel 2011-ci il tarixdə Bakı şəhər prokurorluğunun İstintaq idarəsinin böyük müstəntiqi vəzifəsinin, 5 dekabr 2011-ci il tarixdə Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsi, Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru vəzifəsinin icrası həvalə edilib, 24 dekabr 2012-ci il tarixdə həmin vəzifəyə təyin edilib, 5 mart 2013-cü ildən həmin idarənin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin böyük prokuror-metodisti vəzifəsində işləyir.

Müsbət iş fəaliyyətinə görə 2013-cü ildə "Təşəkkür", 2014-cü ildə "vaxtından əvvəl rütbə" verilməklə həvəsləndirilib.

Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin "İmtahan" informasiya sistemində test üsulu ilə yoxlanılması zamanı toplanılması mümkün olan 100% göstəricidən 2011-ci ildə 93,9%, 2013-cü ildə 100%, 2015-ci ildə 98,2% nəticə nümayiş etdirib.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluğun stajorları üçün hazırlıq kursları təşkil edilib

Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycan Respublikası Prokurorluğu və Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarına 2016-cı ildə qulluğa qəbul olunan və stajorluq keçən işçilər üçün fevralın 1-dən mayın 1-dək hazırlıq kursları təşkil edilib.

Kursa çağırılan 110 nəfər stajor 5 qrupa bölünərək hər bir qrup üçün ayrıca tədris-tematik plan müəyyən edilib. Tematik planlarda stajorların gələcək praktiki iş fəaliyyətində onlara fayda olacaq cinayət, cinayət-prosessual, əməliyyat-axtarış fəaliyyəti sahəsində qanunvericiliyin, məhkəmə ekspertizası, kriminalistika sahəsində aktual məsələlər, habelə praktiki əhəmiyyət kəsb edən sahələr üzrə mövzular və praktiki məşğələlər salınıb. Həmin mövzular və praktiki məşğələlər üzrə tədris prosesinin aparılmasına Elm-Tədris Mərkəzinin işçiləri ilə yanaşı digər orqanların – Baş Prokurorluğun, Hərbi Prokurorluğun, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və ərazi prokurorluqlarının, Ədliyyə və Səhiyyə Nazirliklərinin tabe strukturlarının ixtisaslaşmış və təcrübəli olan işçiləri cəlb edilmişlər.





Tədris prosesi mühazirə və praktiki məşğələlər üzərində qurulub. Mövzular üzrə şifahi izah verilməklə əyani praktiki görüntülər də nümayiş etdirilib. Əksər mühazirələr müasir texnologiyalardan (interaktiv lövhə, proyeksiya aparatı, noutbuk, LSD tipli Full HD ekran) və kompüter proqramlarından (Microsoft Power Point, Word, Office Access, Exsel) istifadə etməklə tədris edilib. Tədris üzrə mövzular və praktiki məşğələlər, həm Mərkəzin inzibati binasında yerləşən auditoriyalarda, həm açıq şəraitdə ("Mersedes Bens Sprinter-315" markalı səyyar kriminalistik avtomobillə tanışlıq), həm də digər qurumların (Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi) inzibati binalarında keçirilib.

54 nəfər təlimçinin cəlb edildiyi kursların hər birində mövzular üzrə 72 məşğələ, 60 mühazirə və 12 praktiki məşğələ tədris edilib. Praktiki məşğələlər zamanı stajorlara kriminalistika və prosessual sənədlərin tərtibi üzrə müstəqil işlərin görülməsi tapşırılıb, mühazirələrin əksəriyyətinin elektron mətni, habelə 20 çeşiddə insan hüquqlarının müdafiəsinə aid yeni ədəbiyyatlar paylanılıb.

Kursun yekunu uğurla sona çatdırılıb. Stajorların tədris prosesi zamanı əldə etdikləri bilik səviyyələri fevralın 27-də, aprelin 3-də və mayın 1-də keçirilən elektron test və şifahi müsahibə mərhələlərindən ibarət imtahanlarda yoxlanılıb. İmtahanların nəticələri uğurlu olub.



**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Bolqarıstan prokurorluğunun nümayəndə heyəti Baş Prokurorluğun Elm-Tədris Mərkəzində olub



Mayın 25-də Bolqarıstan Respublikası Baş Prokurorluğunun nümayəndələri – Baş prokurorunun müavinləri – Penka Bogdanova və Marya Shishkova, Analitik idarənin rəisi Nikolay Qeorqiyev, Sofiya Apellyasiya İnstansiyası prokurorunun müavini Krasimira Filipova, iyunun 12-də isə Bolqarıstan Respublikasının Baş prokuroru Sotir Tsatsarovun rəhbərlik etdiyi nümayəndə heyəti Baş Prokurorluğun Elm-Tədris Mərkəzində olub, Mərkəzin fəaliyyəti ilə tanış olublar.



Qonaqlara Mərkəzin ixtisasartırma işi, metodiki və elmi-nəzəri iş, nəşriyyat işi, bütövlükdə prokurorluğun fəaliyyətində, eləcə də tədris-təlim prosesində tətbiq edilən informasiya texnikası və texnologiyası məhsulları barədə ətraflı məlumat verilib. Bolqarıstanlı həmkarların təşəbbüsü ilə onlara canlı iş rejimində "İmtahan", "Xüsusi məlumat", "Attestasiya" informasiya sistemlərinin, "Distant (məsafədən) tədris" platformasının işi, Kitabxana fondunun imkanları nümayiş etdirilib.



Baş prokuror Sotir Tsatsarovun xahişi ilə "İmtahan" informasiya sistemində onun üçün nümunəvi test imtahanı seansı keçirilib, nəticə protokolu qonağın istəyi ilə yadigar kimi özünə təqdim edilib.

Qonaqlara Mərkəzin bəzi çap məhsulları hədiyyə edilib.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## Bolqarıstan prokurorluğunun nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olub

İyunun 13-də Bolqarıstan Respublikasının Baş prokuroru Sotir Tsatsarovun rəhbərlik etdiyi nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olub.

Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev qonaqlara ölkəmizdə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində qəbul olunan normativ hüquqi aktlar, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar, qanunvericilik aktları, eləcə də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti barədə ətraflı məlumat verib.

Nümayəndə heyəti milli memarlıq üslubunda və müasir tələblər səviyyəsində inşa edilən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında normativ-hüquqi aktlarla zəngin və digər dövlət qurumlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana, "161-Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi ilə yaxından tanış olub.

Azərbaycan Respublikası Prokurorluğu orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Bolqarıstanın Baş prokuroru Sotir Tsatsarov korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirib və korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycan təcrübəsinin öyrənilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Baş Prokurorluqda Avropa Komissiyası ilə birgə tədbir keçirilib



Mayın 22-dən 23-dək Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və Avropa Komissiyasının birgə təşkilatçılığı ilə Avropa Komissiyasının TAİEX texniki yardım aləti çərçivəsində "Korrupsiya xarakterli cinayətlərdə istintaq sazişinin tətbiqi" mövzusunda təlim keçirilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun, Hərbi Prokurorluğun, birinci və Apellyasiya instansiyaları məhkəmələrinin nümayəndələrinin iştirak etdiyi tədbirdə




Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Heydər Məmmədov çıxış edərək korrupsiyaya qarşı mübarizənin Azərbaycanda dövlət siyasətinin prioritet istiqaməti olmasını vurğulamış, bu mübarizənin möhkəm siyasi iradəyə əsaslandığını xüsusi qeyd edib, bu sahədə beynəlxalq əməkdaşlığın və təcrübə mübadiləsinin böyük əhəmiyyət kəsb etdiyini bildirmişdir.

Tədbirdə İtaliya, Böyük Britaniya və Rumıniyadan olan ekspertlər istintaq sazişinin müxtəlif hüquq sistemlərində tətbiqi xüsusiyyətləri, saziş çərçivəsində zərərçəkmişlərin hüquqlarının qorunması, eləcə də bu institutun tətbiqi ilə əlaqədar mövcud olan məhdudiyyətlər barədə təqdimatlarla çıxış edərək, iştirakçıları maraqlandıran çoxsaylı sualları cavablandırmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində internet şəbəkəsi üzərindən canlı mühazirə oxunub




Mayın 2-də IAP-ın Dünya Prokurorları üzrə Elekton Cinayət Şəbəkəsi (GPEN) çərçivəsində internet vasitəsi ilə real yayım rejimində mühazirə təşkil edilib. Ölkəmizdə ilk dəfə həyata keçirilən bu tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Səbuhi Alıyev mühazirəçi qismində "Korrupsiyaya qarşı mübarizədə Azərbaycan təcrübəsi" mövzusunda təqdimatla çıxış edərək, son illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən islahatlar, korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş tədbirlər, eləcə də Baş İdarənin fəaliyyəti barədə dinləyicilərə ətraflı məlumat verib.

Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru İsfəndiyar Hacıyev Azərbaycan Prokurorluğu ilə IAP arasında uğurla həyata keçirilən əməkdaşlıq, həmçinin fəaliyyəti Baş İdarə tərəfindən təmin edilən Assosiasiyanın Korrupsiyaya qarşı Prokurorlar Şəbəkəsi (NACP) layihəsi barədə məlumat verib. Dünyanın 20-dən artıq ölkəsinin prokurorluq və digər hüquq-mühafizə orqanlarının əməkdaşlarının qoşulduğu mühazirə böyük marağa səbəb olub. Ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində təcrübəsinə dair çoxsaylı suallar cavablandırılıb.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# «Cinayət prosesində hüquqi şəxslərin iştirakının xüsusiyyətləri» mövzusunda seminar keçirilib

İyunun 8-də Ağstafa rayon prokurorluğunda və iyunun 12-də Cəlilabad rayon prokurorluğunda «Cinayət prosesində hüquqi şəxslərin iştirakının xüsusiyyətləri» mövzusunda seminar keçirilmişdir.



Ağstafa rayon prokurorluğunda keçirilən seminarda Ağstafa, Qazax, Tovuz, Şəmkir, Gədəbəy, Goranboy, Daşkəsən, Göygöl, Samux rayon, Qazax hərbi prokurorluqlarının, Cəlilabad rayon prokurorluğunda keçirilən seminarda isə Astara, Biləsuvar, Yardımlı, Lerik, Lənkəran, Masallı, Neftçala, Salyan, Cəlilabad rayon, Lənkəran hərbi prokurorluqlarının işçiləri iştirak etmişlər.

Seminarlarda Baş Prokurorluğun Hüquqi təminat idarəsinin böyük prokuroru Mahir Tağıyev hüquqi şəxslərin cinayət məsuliyyətinin mövcudluğunu şərtləndirən hallar, hüquqi şəxslərin cinayət məsuliyyətinin nəzərdə tutulmasının beynəlxalq təcrübəsi, hüquqi şəxslərin dünyada mövcud olan qanunvericilik modellərinin xarakterik cəhətləri, hüquqi şəxslərin cinayət məsuliyyətinin müəyyən edilməsinin tərəfdarlarının və əleyhdarlarının mülahizə və dəlilləri, onların əsaslılığı, hüquqi şəxslərin cinayət məsuliyyətinin Azərbaycan Respublikasında nəzərdə tutulmasının əsasları və xüsusiyyətləri, qanunvericiliyin bu sahədə norma və müddəalarının təhlili və izahı ilə bağlı məlumat vermişdir.

Tədbir iştirakçılarının sualları cavablandırılmış, tövsiyələr verilmişdir.

**Baş Prokurorluğun Hüquqi təminat idarəsi**

# Baş Prokurorluğun Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki konfransı keçirilib

İyunun 8-də Baş Prokurorluğun Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki konfransı keçirilib.



Konfransda hesabat məruzəsi ilə çıxış edən Baş Prokurorluğun Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Ruslan Hacıyev həmkarlar üzvlərinin əmək, sosial, iqtisadi hüquq və mənafelərinin qorunması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verdi. Bildirildi ki, həmkarlar ittifaqı üzvlərinin 100 nəfərdən çox artmağının və 2 yeni rayon həmkarlar ittifaqı təşkilatlarının yaradılması ilə BHİK-in tərkibində 76 ilk həmkarlar ittifaqı təşkilatı formalaşıb.

İşğal altında olan rayon prokurorluqlarının əməkdaşlarına maddi yardım göstərilməsi, fəal üzvlərin mükafatlandırılması, teatr və konsertlərə biletlərin paylanması, işçilərə qayğı göstərilməsi, onların istirahəti, sağlamlıqlarının qorunması istiqamətində görülən işlər – sanatoriya və istirahət evlərinə yollayışlarla təmin edilməsi, idman komplekslərində idmanla məşğul ola bilmələri üçün şərait yaradılması barədə məlumat verildi. Təhlükəsiz əmək şəraitinin yaradılması, işçilərin sağlamlığının mühafizəsi, "Əməyin mühafizəsi və iş şəraitinin öyrənilməsi" Komissiyası tərəfindən baxışların aparılması və nəticələri barədə danışıldı. Gender bərabərliyinin təmin edilməsi məsələsinə toxunuldu. Şəhər və rayon prokurorluqlarının həmkarlar üzvlərinin maa-





rifləndirilməsi məqsədilə Azərbaycan Həmkarlar İttifaqlarının "Ülfət"qəzeti ilə mütəmadi olaraq təmin edildiyi qeyd edildi.

Təftiş komissiyasının hesabatı dinlənildikdən sonra məruzələr ətrafında müzakirələr aparıldı, BHİK-nin hesabat dövrünün fəaliyyəti qənaətbəxş hesab edildi. Konfrans iştirakçıları yeni seçiləcək komitə üzvlərinə prokurorluq əməkdaşlarının əmək, sosial, hüquq və mənafelərinin qorunması sahəsində görüləcək işlər barədə müvəffəqiyyətlər arzuladılar.

Konfransda təşkilati məsələlərə baxıldı, Komitənin və Təftiş komissiyasının yeni tərkibləri, Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Respublika Komitəsinin VI Plenumuna nümayəndələr seçildi.

Komitənin üzvləri arasından səsvermə yolu ilə Ruslan Hacıyev yenidən BHİK sədri seçildi. Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Respublika Komitəsinin sədr müavini Aida xanım Əliyeva çıxış etdi, Komitənin işinə uğurlar arzuladı.

Tədbirdə çıxış edən Baş prokurorun birinci müavini Rüstəm Usubov işçilərin hüquqlarının qorunması, onların sosial vəziyyətinin daha da yaxşılaşdırılmasında Komitənin əhəmiyyətini yüksək qiymətləndirildiyini qeyd etdi. Yeni seçilən BHİK-nin sədri Ruslan Hacıyevin kollektivə qayğı göstərdiyini, işgüzarlığını xüsusi vurğulayaraq Komitəyə gələcək işlərində uğurlar arzuladı.

BHİK-nin sədri Komitənin fəaliyyəti üçün bütün zəruri şəraitin yaradılmasına görə Baş Prokurorluğun rəhbərliyinə, eyni zamanda Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyinə və əməkdaşlarına göstərdikləri daimi köməkliklərə görə dərin minnətdarlığını bildirdi.

**Baş Prokurorluğun Birləşmiş Həmkarlar İttifaqı Komitəsi**

## Tələbələr Naxçıvan Muxtar Respublikası prokurorluq orqanlarının fəaliyyəti ilə tanış olublar



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası Naxçıvan Muxtar Respublikası Prokurorluğunun hamiliyinə verilib.

Aprelin 7-də Naxçıvan Dövlət Universitetin Hüquqçünaslıq ixtisası üzrə 3-cü kurs tələbələri Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar. Tələbələr əvvəlcə buradakı kitabxana ilə tanış olub, prokurorluq orqanlarında müraciətlərin baxılması qaydaları haqqında məlumatlar alıblar. Sonra onlara prokurorluğun kriminalistik avtomaşınının iş prinsipi izah olunub, cinayət işinin istintaqı zamanı aparılan istintaq hərəkətləri, o cümlədən cinayət işinin başlanması, təqsirləndirilən şəxs qismində cəlbetmə, ittihamı élan etmə qaydası, dindirmə və üzləşdirmə məsələləri, ittihamın müdafiəsi, is-

tintaq hərəkətlərinin sənədləşdirilməsi haqqında danışılıb, mövzu ilə bağlı slaydlar nümayiş etdirilib.

Tələbələrlə görüşdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev Ali Məclis Sədrinin adıçəkilən sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsinin əhəmiyyətindən danışıb. Prokuror bildirib ki, bu sərəncam tələbələrin dərs məşğələləri zamanı qazandıqları biliklərin təcrübədə tətbiqi, onların gələcək fəaliyyətə hazırlanmaları, yaxşı mütəxəssis kimi yetişmələri baxımından böyük əhəmiyyətə malikdir. Sərəncamda nəzərdə tutulan vəzifələrin uğurlu icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda görüləcək işlərə dair tədbirlər planının təsdiq olunduğunu bildirən prokuror diqqətə çatdırıb ki, planda hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün seminar-məşğələlərin keçirilməsi, onların prokurorluqda istintaq olunan cinayət işləri üzrə ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında iştirakının və kriminalistik texnikanın mövcud imkanlarından səmərəli istifadəsinin, dövlət ittihamçıları ilə birgə dövlət ittihamının müdafiəsi üzrə məhkəmələrdə iştirakının təmin olunması nəzərdə tutulub. Bundan başqa, planda gələcək hüquqşünasların muxtar respublika prokurorluğunun kitabxanasından və qanunvericilik bazası sistemindən istifadə etmələri, istehsalat təcrübələri keçmələri üçün lazımi şəraitin yaradılması da öz əksini tapıb. Prokuror diqqətə çatdırıb ki, ötən dövrdə bu istiqamətdə xeyli iş görülüb və həyata keçirilən tədbirlər hazırda da davam etdirilir.

Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin dekanı, fəlsəfə elmləri doktoru Qərib Allahverdiyev hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda öz ixtisaslarını daha dərindən öyrənmələri üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Sonda suallar cavablandırılıb. Görüşdən sonra tələbələr Naxçıvan şəhər prokurorluğunun iş fəaliyyəti ilə yerində tanış olublar.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun
Hüquqi təminat və informasiya şöbəsi**

# Culfa rayon prokurorluğunda "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti" mövzusunda seminar keçirilib

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin təşkilatçılığı ilə "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti" mövzusunda növbəti seminar mayın 23-də Culfa rayon prokurorluğunda Culfa və Ordubad rayon prokurorluqları əməkdaşlarının iştirakı ilə keçirilib.

Tədbirdə qeyd olunub ki, prokuror inzibati xətalar haqqında işlər üzrə icraat zamanı baş vermiş qanun pozuntusunu aradan qaldırmaq üçün vaxtında tədbirlər görür və inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının tətbiqinə və icrasına prokuror nəzarətini həyata keçirir. 2016-cı il martın 1-dən qüvvəyə minmiş Azərbaycan Respublikasının yeni İnzibati Xətalar Məcəlləsi prokuror nəzarətinin daha səmərəli təşkili üçün zəruri hüquqi vasitələr təsbit etmiş, bir sıra inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərarın yalnız prokuror tərəfindən qəbul edilməsi müəyyənləşdirilib. Müvafiq əsaslar yarandıqda prokuror digər inzibati xətalar haqqında işlər üzrə də icraatın başlanması haqqında qərar qəbul edir. Prokuror, həmçinin inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək, işin baxılması zamanı baş verən məsələlər üzrə rəy və ya vəsatət vermək, inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan və ya qərardaddan protest vermək hüququna malikdir. Yetkinlik yaşına çatmayanlar barəsində inzibati xətalar haqqında, habelə öz təşəbbüsü ilə başlanmış inzibati xətalar haqqında işlərin baxılmasının yeri və vaxtı prokurora bildirilir. Həmin işə prokurorun iştirakı olmadan yalnız o hallarda baxıla bilər ki, işə baxılmasının yeri və müddətinin ona vaxtında bildirilməsi barədə məlumat olsun və ya işə baxılmasını təxirə salmaq haqqında ondan vəsatət daxil olmasın. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin şərh edilməsinə dair" 31 yanvar 2017-ci il tarixli qərarına əsasən, İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinə uyğun olaraq prokuror inzibat xətalar haqqında işlərin baxılmasında iştirak etdikdə, həmin işlər üzrə məhkəmə tərəfindən qəbul edilən qərar və qərardadlardan protest vermək hüququnun olması haqqında məlumat verilib. Həmçinin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 23 dekabr 2016-cı il tarixli Plenum iclasında Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin rəisi Nazir Bayramovun bu barədəki çıxışının mətni də iştirakçıların nəzərinə çatdırılıb.

Bildirilib ki, inzibati xətalara dair icraatda prokuror nəzarəti qarşısında qoyulmuş vəzifələrin səmərəli icrası məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarətinin təşkili barədə" 3 mart 2016-cı il tarixdə müvafiq əmr imzalanıb və bu sahədə prokurorluğun üzərinə düşən vəzifələr əmrdə konkret göstərilib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun
Hüquqi təminat və informasiya şöbəsi**

# Baş Prokurorluğun nümayəndəsi Cənubi Koreya Respublikasında səfərdə olub



Aprelin 3-dən 5-dək Cənubi Koreya Respublikasının Busan şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) İcraiyyə Komitəsinin 43-cü yaz iclası keçirilib.

Tədbirdə ölkəmizi Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev təmsil edib.

İclasda IAP-ın Konstitusiyası və fəaliyyətini tənzimləyən digər normativ sənədlərə əlavə və dəyişikliklər, Assosiyasiyanın beynəlxalq və regional qurumlarla qarşılıqlı münasibətləri, dünya miqyasında prokurorlar arasında qarşılıqlı münasibətlərin səmərəliyinin artırılması məsələləri, prokurorluq orqanlarının qarşısında duran vəzifələr müzakirə olunub.

Tədbirdə Kamran Əliyev çıxış edərək, Azərbaycan Prokurorluğu ilə IAP arasında əməkdaşlıq barədə ətraflı məlumat verib, qarşıda duran vəzifələr və görüləcək işlər, habelə qurumun fəaliyyətinin təkmilləşdirilməsi üzrə təkliflər verib.




Müzakirələr zamanı IAP-ın rəsmiləri Azərbaycan Respublikasının bu qurumla əməkdaşlığını təqdir edərək qurumun internet səhifəsinin rus versiyasının və Korrupsiyaya qarşı Mübarizə aparan Prokurorların Şəbəkəsinin (NACP) alt domeninin fəaliyyətinin Azərbaycan prokurorluğu tərəfindən hazırlanmaqla təmin edilməsini yüksək qiymətləndiriblər.

Assosiyasiyanın İcraiyyə Komitəsinin növbəti iclasının 2018-ci il aprelin 5-6-da Bakı şəhərində keçirilməsi barədə qərarı yekdilliklə qəbul edilib.

Tədbir zamanı Azərbaycan Prokurorluğunun Assosiasiya çərçivəsində fəaliyyəti xüsusi qeyd olunub, bır sıra təşkilati məsələlərə baxılıb, o cümlədən Şimali Amerika və Sakit okean üzrə yeni vitse-prezident vəzifələrinə namizədlər irəli sürülüb, IAP-ın 22-ci İllik Konfrans və Ümumi Yığıncağın cari il sentyabrın 9-15-də Pekin şəhərində keçirilməsi qərara alınıb.

Tədbir iştirakçıları Cənubi Koreya Respublikasının Baş prokuroru Kim Su Nam, habelə həmin ölkənin sabiq Baş prokuroru və IAP-ın vitse-prezidenti Cun Qyu Kim tərəfindən qəbul olunaraq faydalı fikir mübadiləsi aparılıblar.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Baş Prokurorluğun nümayəndə heyəti Bolqarıstan Respublikasında səfərdə olub



Azərbaycan Respublikası və Bolqarıstan Baş Prokurorluqları arasında imzalanmış əməkdaşlıq proqramına müvafiq olaraq iki ölkənin prokurorluq orqanları arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi, təcrübə və işçi mübadiləsinin aparılması məqsədilə Azərbaycan Respublikası Baş prokurorunun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti mayın 10-dan 12-dək Bolqarıstan Respublikasında işgüzar səfərdə olub.

Səfər çərçivəsində nümayəndə heyəti Bolqarıstanın Baş prokuroru Sotir Tsatsarov ilə görüşüb. Baş prokuror ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları arasında uğurla inkişaf etdiyini vurğulayaraq Azərbaycanın Birinci Vitse-Prezidenti Mehriban xanım Əliyevanın Bolqarıstanın Veliko Tırnovo mədəni layihəsində fəal iştirakının ölkələrimizin daha da yaxınlaşmasına töhfə verdiyini bildirib.



Səmimi qəbula görə minnətdarlığını bildirən Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları, korrupsiyaya qarşı institusional və qanunverici tədbirlər, o cümlədən “ASAN” xidmət və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti barədə ətraflı məlumat verib.

Nümayəndə heyəti Bolqarıstanın Milli Təhlükəsizlik üzrə Dövlət Xidmətinin rəhbəri Dimitar Georgiyev ilə görüşüb. Xidmət rəhbəri korrupsiyaya qarşı mübarizə üzrə yaradılmış xüsusi işçi qrupunun işində xidmət əməkdaşlarının əməliyyat-axtarış səlahiyyətlərinin həyata keçirilməsi məqsədilə iştirak etdiklərini bildirib.

Azərbaycan nümayəndə heyəti 2011-ci ildən dövlət başçısının korrupsiyaya qarşı mübarizədə siyasi iradəsinin təcəssümü kimi ixtisaslaşmış

anti-korrupsiya qurumu olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə əməliyyat-axtarış səlahiyyətlərinin verildiyini, bu təcrübənin mötəbər beynəlxalq təşkilatlar tərəfindən müsbət qiymətləndirildiyini, digər ölkələr üçün nümunə ola biləcəyini qeyd edib.

Səfər çərçivəsində Prokurorluq, Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik üzrə Dövlət Xidmətinin əməkdaşlarının cəlb edildiyi "Korrupsiyaya qarşı mübarizə üzrə xüsusi işçi qrup"unda, Bolqarıstanın ağır cinayətlər, terrorçuluğa qarşı mübarizə üzrə ixtisaslaşmış prokurorluğunda, cinayət yolu ilə əldə edilmiş əmlakın qaytarılması üzrə komissiyasında görüşlər keçirilib, cinayətkarlığa, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində qarşılıqlı münasibətlərin təkmilləşdirilməsi yolları barədə fikir mübadiləsi aparılıb.

Səfərin sonunda nümayəndə heyəti Bolqarıstanın Veliko Tırnovo şəhərindəki Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunan "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunu ziyarət edib.

Görüşlərdə ölkəmizin Bolqarıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Nərgiz Qurbanova iştirak edib.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Baş Prokurorluğun nümayəndə heyəti Fransada səfərdə olub



Aprelin 23-dən 27-dək Avropa Kommisiyasının TAİEX aləti çərçivəsində Paris şəhərində korrupsiya hüquqpozmaları ilə bağlı məlumat verən şəxslərin müdafiəsi mövzusunda tədbir keçirilib.

Tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi vəzifəsini icra edən Heydər Məmmədov, həmin idarənin böyük prokuroru Əmir Ocaqverdiyev və Baş İdarənin böyük prokuroru Mövlud Mirzəliyevdən ibarət nümayəndə heyəti təmsil edib.

Səfər çərçivəsində nümayəndə heyəti Fransa Respublikasının Milli Antikorrupsiya Agentliyi, Ədliyyə Nazirliyi, Baş Prokurorluğu, Maliyyə və İqtisadiyyat Nazirliyi və Dövlət Sektorunda Şəffaflıq üzrə Ali Qurumunun nümayəndələri ilə bir sıra görüşlər keçirib.

Görüşlərdə korrupsiya hüquqpozmaları ilə bağlı məlumat verən şəxslərin müdafiəsinə dair Fransa Respublikasının qanunvericiliyi, bu sahədə mövcud olan beynəlxalq standartların tətbiqi, məlumat verən şəxslərin müdafiəsi metodları, habelə dövlət qulluqçularının fəaliyyətində şəffaflığın və dürüstlüyün təmin olunması kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan nümayəndə heyəti Fransa Respublikasının rəsmilərinə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində aparılan məqsədyönlü islahatlar, bu sahədə ixtisaslaşmış qurumların fəaliyyəti və korrupsiya hüquqpozmaları barədə məlumat verən şəxslərin müdafiəsinə dair normativ hüquqi baza və bu istiqamətdə əldə olunmuş nailiyyətlər haqqında ətraflı məlumat verib.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Baş Prokurorluğun nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdə olub

Mayın 9-dan 12-dək Çin Xalq Respublikasının xüsusi statuslu inzibati bölgəsi Honkonqun Korrupsiyaya qarşı Mübarizə Komissiyası (ICAC) tərəfindən maliyyə cinayətlərinin istintaqı mövzusu üzrə beynəlxalq seminar keçirilib.

Tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi Anar Nəsibov və Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru İsfəndiyar Hacıyevdən ibarət nümayəndə heyəti iştirak edib.

Seminarda bir sıra dövlətlərin korrupsiya və maliyyə cinayətlərinin istintaqı sahəsində fəaliyyət göstərən nümayəndələri çıxış edərək bu sahədə əldə edilmiş müsbət iş təcrübələri barədə ətraflı məlumat veriblər.

Azərbaycan nümayəndə heyətinin üzvləri mövzular ətrafında aparılan müzakirələrdə iştirak edərək, son illər ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən hərtərəfli islahatlar, korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş tədbirlər, maliyyə cinayətlərinin istintaqının aparılması və cinayət yolu ilə əldə edilmiş əmlakın bərpası metodikası, o cümlədən Baş İdarə tərəfindən fəaliyyəti təmin edilən Beynəlxalq Prokurorlar Assosiasiyasının Korrupsiyaya qarşı Prokurorlar Şəbəkəsi (NACP) layihəsi barədə məlumat veriblər.

Nümayəndə heyəti ICAC tərəfindən maliyyə cinayətlərinin istintaqının aparılması və cinayət yolu ilə əldə edilmiş əmlakın bərpası üzrə hazırlanmış xüsusi təlim kurslarında iştirak ediblər.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Baş Prokurorluğun nümayəndə heyəti Niderland Krallığında səfərdə olub




Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Daxili təhlükəsizlik şöbəsinin rəisi Vüqar Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti mayın 21-dən 25-dək Haaqada Avropa İttifaqı tərəfindən "Azərbaycanda ədliyyə sisteminin inkişafına və cinayət işləri üzrə məhkəmə qərarlarını icra edən qurumların göstərdiyi xidmətlərin təkmilləşdirilməsinə dəstək" layihəsi çərçivəsində həyata keçirilən tədbirdə iştirak edib.

"Hüquqi şəxslərin cinayət məsuliyyəti" mövzusunda müzakirələr zamanı Azərbaycan nümayəndə heyəti Niderland Krallığının Təhlükəsizlik və Ədliyyə Nazirliyi, Dövlət İstintaq İdarəsi, Apelyasiya məhkəməsinin nümayəndələri ilə görüşlər keçirib, Beynəlxalq Cinayət Məhkəməsi və keçmiş Yuqoslaviya üçün Beynəlxalq Cinayət Tribunalının (İCTY) fəaliyyəti ilə yaxından tanış olub.

Görüşlərdə Niderland Krallığının və həmin ölkədə fəaliyyət göstərən beynəlxalq qurumların rəsmilərinə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində aparılan məqsədyönlü islahatlar, bu sahədə ixtisaslaşmış qurumların fəaliyyəti barədə ətraflı məlumat verilib, iştirakçılara Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətini əks etdirən kitablar təqdim edilib.

Tədbirdə hüquqi şəxslərin cinayət məsuliyyətinə dair Niderland Krallığının qanunvericiliyi, hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasının üsul və vasitələri, habelə bu sahədə mövcud olan beynəlxalq standartlar ətrafında geniş fikir mübadiləsi aparılıb.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Baş Prokurorluğun nümayəndə heyəti Gürcüstanda səfərdə olub



İyunun 26-dan 28-dək Tbilisi şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyası və Gürcüstan Baş Prokurorluğunun birgə təşkilatçılığı iləAssosiasiyanın Şərqi Avropa və Mərkəzi Asiya regionu üzrə 8-ci regional konfransı keçirilib.

Tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. Cinayət yolu ilə əldə edilmiş əmlakların bərpası və kibercinayətkarlıq mövzusunda keçirilən konfransda 30-dan artıq ölkənin hüquq-mühafizə orqanlarının rəsmiləri iştirak edib, elektron valyutada olan əmlakın və digər əmlak növlərinin izlənilməsi, müsadirəsi, bərpası və effektiv idarə edilməsi, elektron valyuta ilə törədilən çirkli pulların yuyulması cinayətlərinin istintaqı zamanı sübutların toplanılması və digər məsələlər müzakirə edilib.

Tədbir çərçivəsində Kamran Əliyev Gürcüstanın Baş prokuroru İrakli Şotadze ilə görüşüb, qarşılıqlı əməkdaşlıq perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Gürcüstan kütləvi informasiya vasitələrinin suallarını cavablandırıb, ölkəmizdə həyata keçirilən uğurlu islahatlar barədə ətraflı məlumat verib.

İştirakçılara Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətini əks etdirən kitab və bukletlər təqdim edilib.

**Baş prokuror yanında Korrupsiyaya**
**qarşı Mübarizə Baş İdarəsi**

## Baş Prokurorluğun nümayəndə heyəti Vyanada səfərdə olub



İyunun 19-dan 23-dək Vyana şəhərində Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasının İmplementasiyasının Təftiş qrupunun sessiyası keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Heydər Məmmədov və həmin idarənin böyük prokuroru Əmir Ocaqverdiyevdən ibarət nümayəndə heyəti iştirak edib.

Konvensiyaya tərəf olan dövlətlərin və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Konvensiyanın implementasiyasının müxtəlif aspektləri, o cümlədən implementasiya mexanizminin təkmilləşdirilməsinə yönələn addımlar müzakirə edilib, korrupsiyaya qarşı mübarizənin güclən-

dirilməsi sahəsində əldə olunmuş nailiyyətlərə dair səmərəli təcrübə mübadiləsi aparılıb.

Azərbaycan nümayəndə heyətinin üzvləri mövzular ətrafında aparılan müzakirələrdə fəal iştirak edərək korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasi iradə, əzm və qətiyyəti sayəsində ölkəmizdə ardıcıl və sistemli mübarizənin aparılması istiqamətində görülən işlər, bu sahədə ixtisaslaşmış qurumların fəaliyyəti, rüşvətxorluğun milli qanunvericilikdə Konvensiyanın müddəalarına uyğun olaraq kriminallaşdırılması aspektləri barədə ətraflı məlumat veriblər.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Azərbaycan Respublikasının nümayəndə heyəti Ukraynada səfərdə olub



Martın 23-24-də Gürcüstan tərəfinin təklifi ilə Ukraynanın Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat – GUAM-ın Cinayətkarlıqla mübarizənin əlaqələndirilməsi məsələləri üzrə işçi qrupunun Hüquqi statistika üzrə işçi alt-qrupunun (İAQ-STAT) növbəti 8-ci iclası keçirilib.

İclasda Gürcüstan, Ukrayna, Moldova və Azərbaycan Respublikasının nümayəndələri, həmçinin GUAM Katibliyinin siyasi-hüquqi məsələlər üzrə proqramlarının koordinatoru cənab Nikolay Melenevskiy iştirak edirdilər. Azərbaycan tərəfini Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin rəis müavini – Hüquqi statistika şöbəsinin rəisi Rövşən Əliyev, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd Xidmətlərinin məsul əməkdaşları təmsil ediblər.

Tədbirdə 2016-cı ildə GUAM ölkələrində cinayətkarlıqla mübarizənin nəticələri barədə məlumat mübadiləsi aparılıb.

GUAM ölkələri tərəfindən cinayətkarlıqla mübarizəyə dair təqdim olunan statistik materiallar əsasında Gürcüstan tərəfinin hazırladığı 2011-2015-ci illəri əhatə edən ümumi informasiya bülleteninə baxılıb və İAQ-STAT tərəfindən təqdirəlayiq hesab edilib.

İştirakçılar tərəfindən alt-qrupların gələcəkdə “POLİKOM” sisteminin imkanı ilə açıq videokonfransların üzv dövlətlərin milli qanunvericiliyinin tələblərinə uyğun keçirilməsinin məqsədəmüvafiq olduğu qeyd edilib və bu sistemin yaradılması, personalın hazırlanması üçün maliyyə-texniki imkanların tapılması GUAM Katibliyinə tapşırılıb. İAQ-STAT-ın üzvlərinin hüquqi statistikanın qabaqcıl təcrübəyə uyğun aparılması, gələcəkdə xidməti fəaliyyətdə tətbiq olunması məqsədilə 2017-ci ilin sonunadək “AVROSTAT”ın Lüksemburqdakı qərargahında görüşün təşkil olunması Katibliyə həvalə edilib. İAQ-STAT cari ildə “GUAM-ın hüquqi statistika üzrə konsepsiya layihəsi”ni, GUAM çərçivəsində cinayətkarlıqla mübarizə sahəsində ümumi məlumat bankının yaradılmasını, hüquqi statistikanın və hesabat formalarının təkmilləşdirilməsi yönümündə “AVROSTAT”da görüşün keçirilməsini, “POLİKOM GUAM” sisteminin hazırlanmasında maliyyə-texniki dəstəyinin müəyyən edilməsini planlaşdırıb.

**Baş Prokurorluğun Təşkilat-analitik idarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

# Hərbi vəziyyət haqqında

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 8-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyətin elan və ləğv edilməsi, hərbi vəziyyətin qüvvədə olma müddətinin uzadılması, hərbi vəziyyət rejiminin təmin edilməsi qaydasını, cəbhəboyu zonada hərbi hissələrin yerləşdiyi ərazilərdə rejimin xüsusiyyətlərini, hərbi vəziyyət dövründə fiziki və hüquqi şəxslərin hüquqlarının təminatını müəyyən edir.

*1-ci fəsil*

## Ümumi müddəalar

### Maddə 1. Əsas anlayışlar

**1.0.** Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**1.0.1.** hərbi vəziyyət – Azərbaycan Respublikasının Konstitusiyasına və bu Qanuna uyğun olaraq, Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində müvəqqəti tətbiq edilən siyasi, iqtisadi, inzibati, hərbi və digər tədbirlər kompleksini nəzərdə tutan, Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin (bundan sonra – vətəndaşlar) konstitusion hüquq və azadlıqlarının, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların hüquqlarının və qanuni mənafelərinin qismən və müvəqqəti məhdudlaşdırılmasına və onların üzərinə əlavə vəzifələr qoyulmasına yol verən xüsusi hüquqi rejim;

**1.0.2.** cəbhəboyu zona – Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təcavüzkar dövlətin və ya dövlətlərin silahlı qüvvələri ilə, habelə qanunsuz silahlı birləşmələrlə təmas xəttinə bitişik ərazilər;

**1.0.3.** hərbi senzura – kütləvi informasiya vasitələrinin məlumat və materiallarının hərbi idarəetmə orqanları, digər dövlət orqanları və onların vəzifəli şəxsləri ilə əvvəlcədən razılaşdırılması, dövlət sirri təşkil edən məlumatların qeyri-qanuni yayılmasının qarşısının alınması məqsədi ilə yazışmaya, televiziya və radio yayımına, telefon və radio danışıqlarına, internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə verilən məlumatlara nəzarətin həyata keçirilməsi;

**1.0.4.** komendant saatı – hərbi vəziyyət dövründə ictimai qayda və ictimai təhlükəsizliyin təmin edilməsi, düşmənin kəşfiyyat, təxribat və digər pozuculuq fəaliyyətinin qarşısının alınması məqsədi ilə xüsusi icazə vərəqələri və şəxsiyyəti təsdiq edən sənədlər olmadan yaşayış yerindən, yaxud iş yerindən kənarda olmanın (hərəkət etmənin) qadağan edildiyi günün müəyyən edilmiş vaxtı;

**1.0.5.** internə edilmə – Azərbaycan Respublikasına qarşı təcavüz aktı törətmiş və ya ölkənin müdafiə maraqlarına, onun təhlükəsizliyinə real təhlükə yaradan dövlətin və ya dövlətlərin vətəndaşlarının hamılıqla qəbul edilmiş beynəlxalq hüququn normalarına və prinsiplərinə uyğun olaraq ölkə daxilində bunun üçün xüsusi ayrılmış yerlərdə nəzarət altında məcburi saxlanılması.

### Maddə 2. Hərbi vəziyyət haqqında qanunvericilik

Hərbi vəziyyət haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və digər normativ hüquqi aktlardan ibarətdir.

### Maddə 3. Hərbi vəziyyətin elan edilməsinin məqsədi

Hərbi vəziyyətin elan edilməsinin əsas məqsədi bu Qanunun 4-cü maddəsində göstərilən əsaslardan biri mövcud olduqda mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların üzərinə düşən vəzifələri yerinə yetirmək üçün zəruri şəraitin yaradılmasıdır.

### Maddə 4. Hərbi vəziyyətin elan edilməsinin əsasları

**4.0.** Azərbaycan Respublikası Konstitusiyasının 111-ci maddəsinə əsasən Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyətin elan edilməsi üçün aşağıdakılar əsas ola bilər:

**4.0.1.** Azərbaycan Respublikası ərazisinin müəyyən hissəsi faktiki işğal edildikdə;

**4.0.2.** xarici dövlət və ya dövlətlər Azərbaycan Respublikasına müharibə elan etdikdə;

**4.0.3.** Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandıqda;

**4.0.4.** Azərbaycan Respublikasının ərazisi blokadaya alındıqda, habelə belə blokada üçün real təhlükə olduqda.

### Maddə 5. Hərbi vəziyyətin elan edilməsi

**5.1.** Hərbi vəziyyət Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 29-cu bəndinə və 111-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə elan edilir.

**5.2.** Hərbi vəziyyətin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanında aşağıdakılar nəzərdə tutulur:

**5.2.1.** hərbi vəziyyətin elan edilməsi üçün əsas (əsaslar);

**5.2.2.** hərbi vəziyyət rejiminin təmin edilməsinə yönəldilmiş tədbirlər, onların həyata keçirilməsi üçün üsul və vasitələr;

**5.2.3.** hərbi vəziyyətin tətbiqinin başlanma tarixi, vaxtı və qüvvədə olma müddəti;

**5.2.4.** hərbi vəziyyət tətbiq olunan ərazinin (ərazilərin) hüdudları;

**5.2.5.** hərbi vəziyyətin tətbiqi ilə əlaqədar digər məsələlər.

**5.3.** Hərbi vəziyyətin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı bu Qanunun 6-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildikdə qüvvəyə minir və bu barədə əhaliyə dərhal məlumat verilir.

**5.4.** Hərbi vəziyyətin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq dərc edilir.

### Maddə 6. Hərbi vəziyyətin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanının təsdiq edilməsi

**6.1.** Hərbi vəziyyətin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı qəbul edildikdən sonra 24 saat müddətində Azərbaycan Respublikasının Milli Məclisinə təsdiq üçün təqdim edilir.

**6.2.** Hərbi vəziyyətin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı Azərbaycan Respublikasının Milli Məclisinə daxil olduqdan sonra 48 saat müddətində növbəti və növbədənkənar sessiyalar dövrünün olub-olmamasından asılı olmayaraq Azərbaycan Respublikası Milli Məclisinin iclası keçirilir, iclasda fərmanın təsdiqi məsələsinə növbədənkənar baxılır və deputatların 63 səs çoxluğu ilə müvafiq qərar qəbul edilir.

### Maddə 7. Hərbi vəziyyət dövrü

Hərbi vəziyyət dövrü onun tətbiqi tarixindən (vaxtından) başlayır və onun qüvvədə olma müddəti bitdikdə, yaxud bu Qanunun 8.2-ci maddəsində nəzərdə tutulan halda başa çatır.

### Maddə 8. Hərbi vəziyyətin qüvvədə olma müddətinin uzadılması və ya ləğv edilməsi

**8.1.** Hərbi vəziyyətin müddəti bitənədək onun elan edilməsi əsasları aradan qalxmadıqda və ya bunun üçün yeni əsaslar yarandıqda hərbi vəziyyətin qüvvədə olma müddəti uzadılır.

**8.2.** Hərbi vəziyyətin elan edilməsi əsasları aradan qalxdıqda və bunun üçün yeni əsaslar yaranmadıqda hərbi vəziyyət ləğv edilir.

**8.3.** Hərbi vəziyyətin qüvvədə olma müddətinin uzadılması və ya ləğv edilməsi bu Qanunun 6-cı maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

### Maddə 9. Hərbi vəziyyətin tətbiqi ilə əlaqədar səfərbərliyin elan edilməsi

Hərbi vəziyyətin tətbiqi ilə əlaqədar səfərbərliyin elan edil-

məsi "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

*2-ci fəsil*

**Hərbi vəziyyət rejiminin təmin edilməsi**

**Maddə 10. Hərbi vəziyyət rejiminin təmin edilməsinə yönəldilmiş tədbirlər**

**10.1.** Hərbi vəziyyət dövründə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutula bilər:

**10.1.1.** təxsislənmiş (bron edilmiş) dövlət maddi ehtiyatlarından istifadə olunması;

**10.1.2.** ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması, hərbi və mühüm dövlət obyektlərinin, əhalinin təhlükəsiz yaşayış şəraitini təmin edən obyektlərin, nəqliyyatın, telekommunikasiya şəbəkə, qurğu və obyektlərinin, poçt obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin, enerji təchizatı müəssisələrinin, baş enerji nəqletmə sistemlərinin, insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan xüsusi obyektlərin mühafizəsinin gücləndirilməsi;

**10.1.3.** mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların xüsusi iş rejiminə keçirilməsi;

**10.1.4.** stasionar və ya müvəqqəti yaşayış yerlərində məskunlaşdırılması şərtilə əhalinin, təsərrüfat və sosial təyinatlı obyektlərin, maddi və mədəni sərvətlərin təhlükəsiz rayonlara təxliyə olunması (köçürülməsi);

**10.1.5.** hərbi vəziyyət rejimini pozmaqda şübhə edilən mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlara məxsus bina və otaqların, nəqliyyat vasitələrinin yoxlanılması;

**10.1.6.** hərbi vəziyyətin elan edilməsinə səbəb olmuş halların aradan qaldırılmasına və müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə mane olan siyasi partiyaların, həmkarlar ittifaqlarının, ictimai birliklərin, fondların və digər qeyri-hökumət təşkilatlarının fəaliyyətinin dayandırılması;

**10.1.7.** rabitədən istifadə üçün xüsusi qaydalara riayət olunması, telekommunikasiya şəbəkə, qurğu və obyektlərinin, poçt obyektlərinin fəaliyyətinin sabitliyinin təmin olunmasına nəzarətin gücləndirilməsi;

**10.1.8.** təhsil müəssisələrinin iş rejiminin dəyişdirilməsi, yaxud fəaliyyətinin dayandırılması;

**10.1.9.** karantinin tətbiq edilməsi, icbari sanitariya-gigiyena, epidemiya əleyhinə və baytarlıq tədbirlərinin keçirilməsi;

**10.1.10.** hərbi vəziyyət dövründə məxfilik rejiminin gücləndirilməsinə yönəldilmiş tədbirlərin həyata keçirilməsi;

**10.1.11.** silah, döyüş sursatı, xüsusi vasitələr, zəhərli və ya partlayıcı maddələrin satışının məhdudlaşdırılması və ya qadağan olunması, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları və ya tərkibində güclü təsirə malik olan maddələr olan dərman preparatlarının, spirtli içkilərin dövriyyəsi üzrə xüsusi rejimin yaradılması, fiziki şəxslərdən odlu və soyuq silahın, döyüş sursatının, zəhərləyici və ya partlayıcı maddələrin, hüquqi şəxslərdən isə həmçinin təlim hərbi texnikasının və radioaktiv maddələrin müvəqqəti götürülməsi;

**10.1.12.** gündəlik tələbat mallarının, o cümlədən ərzaq və sənaye məhsullarının əldə olunmasında (satışında) xüsusi qaydaların tətbiq edilməsi;

**10.1.13.** müvafiq şəxslərin internə edilməsi;

**10.1.14.** yığıncaqlar, mitinqlər, küçə yürüşləri, nümayişlər və piketlərin, habelə digər kütləvi tədbirlərin keçirilməsinin qadağan edilməsi və ya məhdudlaşdırılması;

**10.1.15.** hərbi vəziyyətin elan olunduğu əraziyə (ərazilərə) xüsusi giriş-çıxış rejiminin tətbiqi və təmin edilməsi;

**10.1.16.** Azərbaycan Respublikasına gəlmənin və Azərbaycan Respublikasından getmənin xüsusi qaydalarının tətbiq edilməsi;

**10.1.17.** yaşayış və ya olduğu yeri seçmək hüququnun məhdudlaşdırılması;

**10.1.18.** nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması;

**10.1.19.** komendant saatı tətbiq edilməklə şəxslərin xüsusi icazə vərəqələri və şəxsiyyəti təsdiq edən sənədləri olmadan günün müəyyən edilmiş vaxtlarında küçələrdə və ya digər ictimai yerlərdə olmalarının qadağan edilməsi;

**10.1.20.** şəxslərin xüsusi icazə vərəqələrinin və şəxsiyyətini təsdiq edən sənədlərinin yoxlanılması, qanunda nəzərdə tutulmuş əsaslarla onların şəxsi əşyalarına, mənzillərinə və nəqliyyat vasitələrinə baxış keçirilməsi, şəxslərin və nəqliyyat vasitələrinin tutulub saxlanılması;

**10.1.21.** hərbi vəziyyət rejimini pozan və hərbi vəziyyətin tətbiq edildiyi ərazidə yaşamayan şəxslərin həmin ərazinin hüdudlarından çıxarılması;

**10.1.22.** kütləvi informasiya vasitələrinin məlumat və materiallarının hərbi senzuradan keçirilməsi;

**10.1.23.** hərbi vəziyyət tətbiq edildiyi ərazidə (ərazilərdə) kütləvi informasiya vasitələrinin xüsusi fəaliyyət rejiminin tətbiq edilməsi, qanuni əsaslar olduqda onların fəaliyyətinin məhdudlaşdırılması və ya dayandırılması haqqında aidiyyəti orqanlara təqdimatlar verilməsi;

**10.1.24.** cəbhəboyu zonada kütləvi informasiya vasitələrinin fəaliyyətinin tənzimlənməsi;

**10.1.25.** əməyin mühafizəsi normalarına və qaydalarına tam riayət olunmaqla əhalinin təhlükəsiz yaşayış şəraitini təmin edən obyektlərin bərpası, yanğın, təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılmasına fiziki və hüquqi şəxslərin cəlb edilməsi;

**10.1.26.** mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların fəaliyyətinin tətil və ya digər üsullarla dayandırılmasının qadağan edilməsi;

**10.1.27.** müdafiə ehtiyaclarının yerinə yetirilməsini təmin etmək məqsədi ilə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların güc və əmək ehtiyatlarının (resurslarının) səfərbər olunması, səfərbərlik planlarına (tapşırıqlarına) uyğun olaraq onların istehsalat fəaliyyətinin növünün və ya iş rejiminin dəyişdirilməsi (o cümlədən işçilərin iş vaxtından artıq vaxtda işə cəlb olunması, əmək məzuniyyətindən istifadə edilməməsi və ya məzuniyyətin başqa vaxta keçirilməsi), bağlanılmış müqavilələr əsasında hərbi və mühüm mülki məhsulların istehsalına yönəldilməsi;

**10.1.28.** qanunla müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərin istifadəsində və mülkiyyətində olan daşınar və daşınmaz əmlakın əvəzi ödənilməklə, dövlət mülkiyyətində olan daşınar və daşınmaz əmlakın isə əvəzsiz olaraq müdafiə ehtiyacları üçün alınması və ya istifadə edilməsi.

**10.2.** Hərbi vəziyyət rejiminin təmin edilməsinə yönəldilmiş tədbirlərin müəyyən edilməsi zamanı hərbi vəziyyət tətbiq ediləcək ərazidə mülki müdafiə və ərazi müdafiəsinin təşkili üzrə planlaşdırmanın nəticələri nəzərə alınır.

**10.3.** Bu Qanunla müəyyən edilən hərbi vəziyyət rejiminin təmin edilməsinə yönəldilmiş tədbirlər "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasına və həmin Konvensiyaya dair İkinci Protokola uyğun olaraq həyata keçirilməlidir.

**Maddə 11. Hərbi vəziyyət dövründə tədbirlərin həyata keçirilməsi hədləri**

Hərbi vəziyyət dövründə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların hüquqlarının və qanuni mənafelərinin, vətəndaşların hüquq və azadlıqlarının qismən və müvəqqəti məhdudlaşdırılmasını nəzərdə tutan tədbirlər vəziyyətin kəskinliyindən irəli gələn hüdudlar daxilində tətbiq edilməli və Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, bu Qanun və digər normativ hüquqi aktlardan irəli gələn öhdəliklərə zidd olmamalıdır.

**Maddə 12. Hərbi vəziyyət dövründə mülki müdafiə və ərazi müdafiəsi**

Hərbi vəziyyət dövründə mülki müdafiə və ərazi müdafiəsi tədbirləri Azərbaycan Respublikasının müdafiə qanunvericiliyinin tələblərinə uyğun olaraq həyata keçirilir.

**Maddə 13. Hərbi vəziyyət dövründə referendumun, seçkilərin və ya yerli rəy sorğusunun keçirilməsinin yolverilməzliyi**

**13.1.** Azərbaycan Respublikası ərazisinin 25 faizindən çoxunda hərbi vəziyyət elan edildikdə, hərbi vəziyyət dövründə, həmçinin

hərbi vəziyyət ləğv edildikdən sonra 3 (üç) ay müddətində referendum, seçkilər və ya yerli rəy sorğusu təyin edilə və keçirilə bilməz.

**13.2.** Hərbi vəziyyət dövründə Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikasının Milli Məclisi deputatlarının, bələdiyyə üzvlərinin seçkilərinin keçirilməsi mümkün olmadıqda, onlar öz səlahiyyətlərini hərbi vəziyyət ləğv edildikdən sonra keçirilən seçkilərədək davam etdirirlər.

**13.3.** Hərbi vəziyyət elan olunmazdan əvvəl yerli rəy sorğusuna çıxarılmış məsələnin müzakirəsi dayandırılır və təyin edilmiş yerli rəy sorğusu hərbi vəziyyət ləğv edilənədək təxirə salınır.

**Maddə 14. Hərbi vəziyyət rejiminin təmin olunması ilə əlaqədar silah, hərbi və xüsusi texnika, fiziki güc və xüsusi vasitələrin tətbiqi**

**14.1.** Hərbi idarəetmə orqanlarının hərbi qulluqçuları, habelə aidiyyəti dövlət orqanlarının əməkdaşları xidməti (qulluq) vəzifələrinin icrası zamanı hərbi vəziyyət rejiminin təmin olunması ilə əlaqədar aşağıdakı qanunazidd hərəkətlərin qarşısının alınması üçün silah, hərbi və xüsusi texnika, fiziki güc və xüsusi vasitələri tətbiq edə bilərlər:

**14.1.1.** dövlət və hərbi obyektlərə, fiziki və hüquqi şəxslərə edilən hücumlar;

**14.1.2.** hərbi qulluqçuların, aidiyyəti dövlət orqanlarının əməkdaşlarının həyat və sağlamlığı üçün təhlükə törədən əməllər və ya onlara göstərilən müqavimət;

**14.1.3.** mühafizə olunan obyektlərə və qoşun birləşmələrinin dislokasiya yerlərinə qanunsuz daxilolma cəhdləri;

**14.1.4.** kütləvi iğtişaşlar və ictimai asayişin pozulması.

**14.2.** Silah, hərbi və xüsusi texnika, fiziki güc və xüsusi vasitələr hərbi vəziyyət rejimi qaydalarını pozan şəxslərin tutulub saxlanılması, girovların və zəbt olunmuş obyektlərin azad edilməsi, nəqliyyat vasitəsinin dayandırılması haqqında qanuni tələbləri yerinə yetirməkdən imtina edən sürücünün saxlanılması, həyəcan siqnalının verilməsi, yaxud yardımın çağırılması məqsədi ilə də tətbiq edilə bilər.

**Maddə 15. Hərbi vəziyyət rejiminin təmin olunmasında hərbi idarəetmə orqanlarının vəzifələri**

**15.0.** Hərbi vəziyyət rejiminin təmin olunması ilə əlaqədar hərbi idarəetmə orqanları aşağıdakı vəzifələri yerinə yetirirlər:

**15.0.1.** hərbi vəziyyətin tətbiq edildiyi əraziyə (ərazilərə) giriş-çıxışın xüsusi rejiminin tətbiqi və təmin edilməsi;

**15.0.2.** hərbi və mühüm dövlət obyektlərinin, əhalinin təhlükəsiz yaşayış şəraitini təmin edən obyektlərin, nəqliyyatın, telekommunikasiya şəbəkə, qurğu və obyektlərinin, poçt obyektlərinin, enerji təchizatı müəssisələrinin, su təchizatı və kanalizasiya sistemlərinin, su anbarlarının, insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan xüsusi obyektlərin mühafizəsi;

**15.0.3.** əhalinin təhlükəsiz yaşayış şəraitini təmin edən obyektlərin bərpası, yanğınların, təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılması;

**15.0.4.** ictimai qayda və ictimai təhlükəsizliyin qorunması;

**15.0.5.** zorakı hərəkətlərlə müşayiət olunan münaqişələrdə iştirak edən tərəfləri silah, hərbi və xüsusi texnika, fiziki güc və xüsusi vasitələr tətbiq etməklə münaqişədən çəkindirməsi;

**15.0.6.** qanunsuz silahlı birləşmələrin fəaliyyətinin, terrorçuluq, casusluq, təxribat və Azərbaycan Respublikasına qarşı yönəldilmiş digər qanunazidd fəaliyyətin qarşısının alınması;

**15.0.7.** hərbi vəziyyət rejiminin təmin olunması üçün bu Qanunla müəyyən edilmiş digər tədbirlərin keçirilməsi.

**Maddə 16. Hərbi vəziyyət rejiminin təmin edilməsi və onun nəticələrinin aradan qaldırılması üçün görülən işlərin maliyyələşdirilməsi**

Hərbi vəziyyət rejiminin təmin edilməsi və onun nəticələrinin aradan qaldırılması üçün görülən işlərin maliyyələşdirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada dövlət büdcəsi hesabına həyata keçirilir.

**Maddə 17. Cəbhəboyu zonada və döyüşlərin aparıldığı ərazilərdə hərbi vəziyyət rejiminin tətbiqi üzrə hərbi idarəetmə orqanlarının səlahiyyətləri**

**17.1.** Cəbhəboyu zonada, həmçinin döyüşlərin aparıldığı və hərbi vəziyyət rejimi tətbiq edilən ərazilərdə bu Qanunun 10-cu maddəsində göstərilən tədbirlər müvafiq hərbi idarəetmə orqanları tərəfindən həyata keçirilə bilər.

**17.2.** Cəbhəboyu zonanın (ərazinin) hüdudları və hərbi idarəetmə orqanlarının səlahiyyətləri hərbi vəziyyətin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə müəyyən edilir.

**Maddə 18. Cəbhəboyu zonada təbliğat-izahat işləri**

**18.1.** Cəbhəboyu zonada hərbi vəziyyət rejiminin tətbiqi ilə əlaqədar yerli əhali arasında təbliğat-izahat işləri aparılır.

**18.2.** Müdafiə məsələləri üzrə əlaqələndirmə şuraları hərbi idarəetmə və digər aidiyyəti dövlət orqanları ilə birlikdə yerli əhali arasında sayıqlığın artırılması və dövlət sirrinin yayılmasının qarşısının alınması məqsədi ilə zəruri tədbirləri həyata keçirirlər.

**18.3.** Cəbhəboyu zonada hərbi vəziyyət rejiminin pozulması barədə məlumatların müvafiq icra hakimiyyəti orqanına vaxtında çatdırılması üçün qaynar xətt əlaqəsi yaradılır.

*3-cü fəsil*

**Hərbi vəziyyət dövründə hüquq və azadlıqların təminatı, hərbi vəziyyət dövrünün başa çatmasının hüquqi nəticələri**

**Maddə 19. Hərbi vəziyyət dövründə hüquqi və fiziki şəxslərin hüquq və azadlıqlarının təminatı**

**19.1.** Bu Qanunla nəzərdə tutulan hallarda qismən və müvəqqəti məhdudlaşdırılan hüquq və azadlıqlar istisna olmaqla, hərbi vəziyyət dövründə fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunları ilə müəyyən edilmiş bütün hüquq və azadlıqlardan istifadə edir.

**19.2.** Bu Qanunun 10.1.27-ci maddəsinə əsasən müdafiə ehtiyacları üçün səfərbər olunmuş mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların işçilərinə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq əməkhaqqı və istifadə edilməmiş əmək məzuniyyətinə görə kompensasiya ödənilir.

**19.3.** Hərbi vəziyyət rejiminin təmin edilməsi və onun nəticələrinin aradan qaldırılması üçün görülən işlərlə əlaqədar zərər çəkmiş şəxslərə bu Qanunun 16-cı maddəsində nəzərdə tutulmuş qaydada kompensasiya ödənilir.

**19.4.** Bu Qanunun 10.1.25-ci maddəsinə əsasən əməyi və əmlakı istifadə edilən fiziki və hüquqi şəxslər dəymiş zərərin ödənilməsini tələb etmək hüququna malikdirlər.

**Maddə 20. Hərbi vəziyyət dövrünün başa çatmasının hüquqi nəticələri**

Hərbi vəziyyət rejiminin təmin olunması məqsədi ilə vətəndaşların hüquq və azadlıqlarının, həmçinin mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların hüquqlarının və qanuni mənafelərinin qismən və müvəqqəti məhdudlaşdırılması ilə əlaqədar qəbul olunmuş hüquqi aktlar hərbi vəziyyət dövrünün başa çatması ilə eyni vaxtda bu barədə xüsusi məlumat verilmədən qüvvəsini itirmiş hesab olunur.

*4-cü fəsil*

**Hərbi vəziyyət dövründə qanunvericilik və məhkəmə hakimiyyəti orqanlarının, habelə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəaliyyətinin xüsusiyyətləri**

**Maddə 21. Hərbi vəziyyət dövründə qanunvericilik orqanının fəaliyyəti**

Hərbi vəziyyət dövründə Azərbaycan Respublikasının Milli Məclisi Daxili Nizamnaməsinə uyğun olaraq iclaslarını davam etdirir.

**Maddə 22. Hərbi vəziyyət dövründə ədalət mühakiməsinin həyata keçirilməsi**

**22.1.** Hərbi vəziyyət dövründə və hərbi vəziyyət tətbiq edilən ərazidə ədalət mühakiməsini yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun yaradılan və fəaliyyət göstərən məhkəmələr həyata keçirirlər.

**22.2.** Hər hansı fövqəladə məhkəmə formalarının və növlərinin təsis edilməsi, mühakimə icraatının sürətləndirilmiş və ya

fövqəladə növlərindən və formalarından istifadə olunması qadağandır.

**22.3.** Hərbi vəziyyət tətbiq olunmuş ərazidə fəaliyyət göstərən məhkəmə Məhkəmə-Hüquq Şurasının qərarı ilə müvəqqəti olaraq başqa əraziyə köçürülə bilər.

**Maddə 23. Hərbi vəziyyət dövründə prokurorluq orqanlarının fəaliyyəti**

Hərbi vəziyyətin tətbiq edildiyi dövrdə Azərbaycan Respublikasının prokurorluq orqanları prokurorluq haqqında qanunvericiliklə müəyyən edilmiş qaydada fəaliyyət göstərirlər.

**Maddə 24. Hərbi vəziyyət dövründə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəaliyyəti**

Hərbi vəziyyətin elan edilməsi Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəaliyyətini dayandırmır və məhdudlaşdırmır.

*5-ci fəsil*

**Yekun müddəalar**

**Maddə 25. Hərbi vəziyyətin elan edilməsi haqqında Birləşmiş Millətlər Təşkilatına və Avropa Şurasına məlumat verilməsi**

**25.1.** Hərbi vəziyyət elan edildikdə, müvafiq icra hakimiyyəti orqanı "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"a və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyaya uyğun olaraq, 3 gün müddətində Birləşmiş Millətlər Təşkilatının və Avropa Şurasının baş katiblərini hərbi vəziyyət dövründə insan və vətəndaş hüquqlarının və azadlıqlarının qismən və müvəqqəti məhdudlaşdırılması, bu məhdudiyyətlərin həcmi və belə qərarın səbəbləri haqqında məlumatlandırır.

**25.2.** Müvafiq icra hakimiyyəti orqanı hərbi vəziyyət dövrünün başa çatması barədə Birləşmiş Millətlər Təşkilatının və Avropa Şurasının baş katiblərini məlumatlandırır.

**Maddə 26. Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar.

**Maddə 27. Keçid müddəa**

Bu Qanun qüvvəyə mindiyi gündən "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının 1994-cü il 6 yanvar tarixli 779 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 17, maddə 232; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 7, maddə 444; 2001, № 11, maddə 683; 2002, № 8, maddə 463; 2004, № 1, maddə 10; 2006, № 2, maddə 64) ləğv edilir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 fevral 2017-ci il
№ 530-VQ

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 1, maddə 1; 1995, № 17-18, maddə 282; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 7, maddə 444; 2004, № 2, maddə 57, № 4, maddə 199; 2008, № 10, maddə 886; 2011, № 2, maddə 71; 2013, № 2, maddə 95; 2016, № 1, maddələr 14, 19) 12-ci maddəsinin ikinci və üçüncü hissələri aşağıdakı redaksiyada verilsin:

"Nəqliyyat vasitəsi və ya mal sahibləri, yaxud nəqliyyat vasitələri barəsində səlahiyyətli olan digər şəxslər və ya onların nümayəndələri Azərbaycan Respublikası Gömrük Məcəlləsində nəzərdə tutulmuş hallarda gömrük orqanlarının və ya əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar sərhəd qoşunlarının tələbi əsasında gömrük orqanlarının iştirakı ilə nəqliyyat vasitələrini və yüklərini açmağa borcludurlar. Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində milli maraqlara təhdidlər haqqında əməliyyat məlumatları olduqda, gömrük orqanlarının iştirakını təmin etmək mümkün olmadığı hallarda dövlət təhlükəsizliyi və ya dövlət sərhədinin toxunulmazlığını təmin etmək məqsədi ilə nəqliyyat vasitəsi və ya mal sahibləri, yaxud nəqliyyat vasitəsi barəsində səlahiyyətli olan digər şəxslər və ya onların nümayəndələri sərhəd qoşunlarının tələbi ilə nəqliyyat vasitələrini və yüklərini açmağa borcludurlar.

Şəxslərin Azərbaycan Respublikasının dövlət sərhədindən qanunsuz keçməsinin, habelə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın, odlu silah və döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən materialların və avadanlıqların, mülki dövriyyəsi qadağan olunmuş və ya məhdudlaşdırılmış digər əşyaların dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq məqsədilə sərhəd qoşunları Azərbaycan Respublikasının dövlət sərhədinin buraxılış məntəqələrində ölkəyə gələn və ölkədən gedən nəqliyyat vasitələrinə, yüklərə və başqa əşyalara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada baxış keçirirlər.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 mart 2017-ci il
№ 537-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Sərhəd qoşunları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Sərhəd qoşunları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 16, maddə 209; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 15; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199; 2007, № 6, maddə 560, № 11, maddə 1078; 2013, № 2, maddə 94; 2016, № 1, maddə 10) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4-cü maddənin birinci hissəsi üzrə:

**1.1.** 6-cı bənd aşağıdakı redaksiyada verilsin:

**6)** narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın, odlu silah və döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının, kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən materialların və avadanlıqların, eləcə də digər əşyaların Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən kənardan Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsinin qarşısının alınmasını təmin edir;";

**1.2.** aşağıdakı məzmunda 6-1-ci bənd əlavə edilsin:

**"6-1)** narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın, odlu silah və döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının, kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən materialların və avadanlıqların, mülki dövriyyəsi qadağan olunmuş və ya məhdudlaşdırılmış digər əşyaların Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən qanunsuz keçirilməsinin qarşısını almaq üçün tədbirlər görür;".

**2.** 5-ci maddə üzrə:

**2.1.** 1-ci bənddə "hərəkət etmək," sözlərindən sonra "həmin ərazidə" sözləri əlavə edilsin;

**2.2.** aşağıdakı məzmunda 1-1-ci və 1-2-ci bəndlər əlavə edilsin:

**"1-1)** şəxslərin Azərbaycan Respublikasının dövlət sərhədindən qanunsuz keçməsinin, habelə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın, odlu silah və döyüş sursatının, nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının, kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən materialların və avadanlıqların, mülki dövriyyəsi qadağan olunmuş və ya məhdudlaşdırılmış digər əşyaların dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq məqsədi ilə Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrində ölkəyə gələn və ölkədən gedən nəqliyyat vasitələrinə, yüklərə və başqa əşyalara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada baxış keçirilməsini təmin etmək;

**1-2)** əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar xidməti vəzifələri icra edərkən vaqonların, avtomobillərin, konteynerlərin, gəmi anbarlarının, xaricə gedən və xaricdən gələn dəniz və hava gəmilərinin başqa yerlərinin gömrük orqanları ilə birlikdə (Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində milli maraqlara təhdidlər haqqında əməliyyat məlumatları olduqda, gömrük orqanlarının iştirakını təmin etmək mümkün olmadığı hallarda milli təhlükəsizliyi və yaxud dövlət sərhədinin toxunulmazlığını təmin etmək məqsədi ilə - müstəqil surətdə) açdırılmasını təmin etmək;";

**2.3.** 4-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"4)** bu Qanunla müəyyən edilmiş hallarda baxış keçirilərkən aşkar edilmiş hüquqpozma predmetlərini qanunla müəyyən edilmiş qaydada götürmək;";

**2.4.** 6-cı bənddən "Dövlət sərhədindən keçən xarici nəqliyyat vasitələrini və Azərbaycan Respublikasına məxsus nəqliyyat vasitələrini, bu vasitələrlə daşınan yükləri müəyyən edilmiş qaydada yoxlamaq;" sözləri çıxarılsın.

**3.** 21-ci maddənin birinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Sərhəd nəzarəti hərbi hissəsinin və ya sərhəd dəstəsinin sərhəd nəzarəti bölməsi Dövlət sərhədinin bir və ya bir neçə buraxılış məntəqəsində dövlət sərhədinin keçilməsi qaydalarına və dövlət sərhədinin buraxılış məntəqəsindəki (məntəqələrindəki) rejimə əməl edilməsinə nəzarəti həyata keçirir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 mart 2017-ci il
№ 538-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1.0.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"1.0.8.** fərdi hesabın sığorta hissəsi – əmək pensiyasının sığorta hissəsinin hesablanması üçün nəzərə alınan, sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının 90 faizinin və xüsusi hesabdakı vəsaitin qeydə alındığı subhesabdır;";

**1.2.** 1.0.9-cu maddədən "müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş nisbətlərə uyğun olaraq" sözləri çıxarılsın və həmin maddədə "məcburi dövlət" sözləri "könüllü" sözü ilə əvəz edilsin;

**1.3.** 1.0.11-ci maddə ləğv edilsin;

**1.4.** 1.0.12-ci maddədən "əmək pensiyalarının ikinci pilləsi olmaqla," sözləri çıxarılsın;

**1.5.** 1.0.13-cü maddədən "əmək pensiyalarının üçüncü pilləsi olmaqla," sözləri çıxarılsın;

**1.6.** 1.0.15-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.0.16-cı, 1.0.17-ci və 1.0.18-ci maddələr əlavə edilsin:

**"1.0.16.** idarəetmə xərcləri – məcburi dövlət sosial sığortası, fərdi uçot, əmək pensiyası və digər sosial ödənişlər sisteminin idarə edilməsinə yönəldilən və yuxarı həddi sı-

ğortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının 2,5 faizi məbləğində müəyyənləşdirilən xərclərdir. Bu xərclərin təsdiq edilən məbləğdən artıq olan hissəsi və istifadə edilməmiş qalığı sosial sığorta ehtiyatına aid edilir;

**1.0.17.** sosial sığorta ehtiyatı – sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının fərdi hesabın sığorta hissəsinə və idarəetmə xərclərinə yönəldilən hissəsi çıxıldıqdan sonra yerdə qalan məbləğdə formalaşdırılan, əmək pensiyalarının bu Qanunda müəyyən olunmuş əmək pensiyasının minimum məbləğinə çatdırılması, məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlər və digər ödəmələr üzrə xərclərin maliyyələşdirilməsinə yönəldilən, istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan və ilin sonuna istifadə edilməmiş qalığı növbəti ilə keçən vəsaitdir;

**1.0.18.** xüsusi hesab – əmək pensiyasının minimum məbləğində və ya daha yuxarı məbləğdə pensiya təminatının formalaşdırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydada sığortaolunanlar üzrə ödənilən əlavə vəsaitlərin mədaxil olunduğu hesabdır.";

**1.7.** 4.2.1-ci və 4.3.1-ci maddələr ləğv edilsin;

**1.8.** 4.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"4.4.** Ailə başçısını itirməyə görə əmək pensiyası sığorta hissəsindən ibarətdir.";

**1.9.** 6.1-ci maddə ləğv edilsin;

**1.10.** 6.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"6.2.** Əmək pensiyasının sığorta hissəsinin 1992-ci ilin yanvarın 1-dək qazanılmış pensiya kapitalına əsasən formalaşan məbləği, habelə bu Qanunun 19-cu və 20-ci maddələrində nəzərdə tutulan əlavələr dövlət büdcəsinin, digər bütün məbləğləri isə məcburi dövlət sosial sığortası vəsaitləri və sosial sığorta ehtiyatı hesabına maliyyələşdirilir. Qeyd olunan mənbələrin birində vəsait çatışmazlığı olduqda, müvafiq xərclər digər mənbə hesabına maliyyələşdirilir.";

**1.11.** Aşağıdakı məzmunda 6-1-ci maddə əlavə edilsin:

**"Maddə 6-1. Əmək pensiyasının minimum məbləği**

Bu Qanunun məqsədləri üçün əmək pensiyasının minimum məbləği 2017-ci il 1 iyul tarixindən 110 manat məbləğində müəyyən olunur və sonradan həmin məbləğ bu Qanunun 29.1-ci maddəsinə uyğun olaraq indeksləşdirilir.";

**1.12.** 7-ci maddənin birinci hissəsində "62" rəqəmləri "63" rəqəmləri ilə, "57" rəqəmləri "60" rəqəmləri ilə, "azı 12" sözləri "fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq, bu pensiya təminatına imkan vermədikdə isə azı 25" sözləri ilə, mötərizədə "bu Qanunun qüvvəyə mindiyi günədək" sözləri "2017-ci il iyulun 1-dək" sözləri ilə əvəz edilsin;

**1.13.** 7-ci maddədə "Qeyd" hissəsi aşağıdakı redaksiyada verilsin:

**"Qeyd.** Bu Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır.";

**1.14.** 8.1-ci və 8.2-ci maddələrdən "və azı 10 il sığorta stajı olan" sözləri çıxarılsın və həmin maddələrdə "olaraq müəyyən olunmuş" sözləri "şərtlər daxilində" sözləri ilə əvəz edilsin;

**1.15.** 8.3-cü maddədən "azı 10 il sığorta stajı olduqda" sözləri çıxarılsın və həmin maddədə "olaraq müəyyən olunmuş" sözləri "şərtlər daxilində" sözləri ilə əvəz edilsin;

**1.16.** 9.1-ci maddədə "57" rəqəmləri "60" rəqəmləri ilə, "52" rəqəmləri "55" rəqəmləri ilə əvəz edilsin və həmin maddəyə "çalışmışlarsa" sözündən sonra "və fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə" sözləri əlavə edilsin;

**1.17.** 9.3-cü maddəyə "15 il sığorta stajı olduqda" sözlərindən sonra "və fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə" sözləri əlavə edilsin;

**1.18.** 9.4-cü maddəyə "şəxslərin" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş prokurorluq işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

**1.19.** 9.4.1-ci maddədə "25" rəqəmləri "35" rəqəmləri ilə əvəz edilsin;

**1.20.** 9.4.2-ci maddədə "25" rəqəmləri "35" rəqəmləri ilə, "12 il 6 ayını" sözləri "17 il 6 ayını" sözləri ilə əvəz edilsin;

**1.21.** 9.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

**"9.6.** Hərbi qulluqçulara əmək pensiyası hərbi xidmət dövründə deyil, hərbi xidmətdən buraxıldıqdan sonra təyin olunur. Əmək pensiyası təyin olunduqdan sonra hərbi xidmətini davam etdirən əmək pensiyaçılarının pensiyası sonuncu təminat xərcliyinə görə yenidən hesablanmır. Bu kateqoriyadan olan şəxslərin əmək pensiyası yalnız fərdi hesablarında qeydə alınmış sığorta pensiya kapitalına görə yenidən hesablana bilər.";

**1.22.** 9.7.1-ci maddədə "25" rəqəmləri "35" rəqəmləri ilə əvəz edilsin və həmin maddəyə "işçiləri" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş ədliyyə işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

**1.23.** 9.7.2-ci maddənin ikinci abzasında "55" rəqəmləri "60" rəqəmləri ilə, "25" rəqəmləri "30" rəqəmləri ilə, üçüncü abzasında "50" rəqəmləri "55" rəqəmləri ilə, "20" rəqəmləri "25" rəqəmləri ilə, "10 təqvim ilini" sözləri "12 il 6 ayını" sözləri ilə əvəz edilsin;

**1.24.** 9.7-1-ci maddədə "25" rəqəmləri "35" rəqəmləri ilə əvəz edilsin və həmin maddəyə "işçilərinin" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş miqrasiya işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

**1.25.** 9.7-2-ci maddədə "25" rəqəmləri "35" rəqəmləri ilə əvəz edilsin və həmin maddəyə "işçilərin" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş fövqəladə hallar orqanlarının işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

**1.26.** 10.1-ci maddə ləğv edilsin;

**1.27.** 10.2-ci maddəyə aşağıdakı məzmunda ikinci bənd əlavə edilsin:

"Bu Qanuna uyğun olaraq təyin edilmiş yaşa görə əmək pensiyasının sığorta hissəsinin məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir.";

**1.28.** 10.4-cü maddənin ikinci abzasından "BH+" sözləri çıxarılsın və dördüncü abzası ləğv edilsin;

**1.29.** 12.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"12.1.** Əlilliyə görə əmək pensiyası I qrup əlillərə ümumilikdə sığorta stajı 5 ildən az olmamaq şərtilə, əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir. II və III qrup əlillərə əlilliyə görə əmək pensiyası fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verməsi şərtilə, bu maddədə göstərilən sığorta stajı olduqda təyin edilir.";

**1.30.** 12.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"12.2.** Hərbi qulluqçulara, o cümlədən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından I qrup müharibə əlili olan şəxslərə (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular və digər müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) əlilliyə görə əmək pensiyaları xidmət müddətindən asılı olmayaraq, əlillik hərbi qulluqçuların xidmət etdiyi dövrdə və ya xidmətdən buraxıldıqdan sonra, lakin xidmət dövründə alınmış xəstəlik və yaxud xəsarət (yaralanma, travma, kontuziya) nəticəsində üz verdikdə təyin edilir.";

**1.31.** 13.1-ci maddə ləğv edilsin;

**1.32.** 13.2-ci maddədə "184-ə" sözü "192-yə" sözü ilə əvəz edilsin;

**1.33.** 13.3-cü maddəyə aşağıdakı məzmunda ikinci bənd əlavə edilsin:

"I qrup əlillərə təyin olunmuş əlilliyə görə əmək pensiyasının sığorta hissəsinin məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir.";

**1.34.** Aşağıdakı məzmunda 13.3-1-ci maddə əlavə edilsin:

**"13.3-1.** Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından I qrup müharibə əlili olan şəxslərin fərdi hesabı vardırsa və hesablanan əmək pensiyasının sığorta hissəsinin məbləği əmək pensiyasının minimum məbləğindən azdırsa həmin məbləğə çatdırılmaqla, fərdi hesabı olmadıqda isə əlilliyə görə əmək pensiyasının sığorta hissəsinin məbləği əmək pensiyasının minimum məbləğində ödənilir. Bu kateqoriyadan olan şəxslərin bu Qanunun 12.1-ci və 13.3-cü maddələrindəki şərtlər nəzərə alınmaqla fərdi hesabının sığorta hissəsindəki pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən böyük məbləğdə əmək pensiyasının hesablanmasına əsas verdikdə, pensiyanın sığorta hissəsi həmin məbləğdə müəyyənləşdirilir.";

**1.35.** 13.5-ci maddənin ikinci abzasından "BH+" sözləri çıxarılsın və dördüncü abzası ləğv edilsin;

**1.36.** 17.2-ci maddənin birinci və ikinci cümlələri aşağıdakı redaksiyada verilsin:

"Hərbi qulluqçuların, o cümlədən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından I qrup müharibə əlili olan şəxslərin (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular və digər müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) ailə üzvlərinə ailə başçısını itirməyə görə əmək pensiyaları hərbi qulluqçunun xidmət müddətindən asılı olmayaraq təyin edilir. Bu zaman ailə başçısını itirməyə görə əmək pensiyası ailə başçısı xidmət etdiyi dövrdə və ya xidmətdən buraxıldıqdan sonra, amma xidmət etdiyi dövrdə aldığı xəstəlik və yaxud xəsarət (yaralanma, travma, kontuziya) nəticəsində vəfat edibsə təyin olunur.";

**1.37.** 18.1-ci maddə ləğv edilsin;

**1.38.** 18.2-ci maddədə "13.3-cü maddəsində" sözləri "13.3-cü və 13.3-1-ci maddələrində" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Əmək qabiliyyəti olmayan ailə üzvlərinin ailə başçısını itirməyə görə əmək pensiyalarının ailəyə düşən ümumi məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir.";

**1.39.** 18.4-cü maddə ləğv edilsin;

**1.40.** 19-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 19. Əmək pensiyasının sığorta hissəsinə əlavələr**

**19.1.** Əmək pensiyasının sığorta hissəsinə aşağıdakı əlavələr hesablanır:

**19.1.1.** Azərbaycanın Milli Qəhrəmanlarının ailə üzvlərinə (bu Qanunun 14-16-cı maddələrinə uyğun olaraq) 110 manat, şəhidlərin ailə üzvlərinə (bu Qanunun 14-16-cı maddələrinə uyğun olaraq) 93,5 manat məbləğində;

**19.1.2.** I qrup gözdən əlillərə 110 manat, digər I qrup əlillərə 22 manat məbləğində (2017-ci ilin 1 iyul tarixindən sonra təyin edilən pensiyalara tətbiq olunur);

**19.1.3.** öhdəsində əmək qabiliyyəti olmayan ailə üzvləri olan işləməyən I və II qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə, həmçinin öhdəsində ailə başçısını itirməyə görə pensiya ilə təmin edilməli şəxslərə aid edilən əmək qabiliyyətsiz ailə üzvləri olan işləməyən hərbi qulluqçular sırasından olan əmək pensiyaçılarına ailənin əmək qabiliyyəti olmayan hər üzvü üçün 5,5 manat məbləğində;

**19.1.4.** I qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə qulluq üçün 11 manat məbləğində;

**19.1.5.** siyasi repressiyalara məruz qalaraq sonradan bəraət qazanmış şəxslərə 11 manat məbləğində;

**19.1.6.** döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara 11 manat məbləğində;

**19.1.7.** yaşa görə əmək pensiyası alan müharibə əlillərinə (Böyük Vətən müharibəsi əlilləri istisna olmaqla) və müharibə iştirakçıları sırasından olan əlillərə:

**19.1.7.1.** I qrup əlillərə 110 manat məbləğində;

**19.1.7.2.** II qrup əlillərə 77 manat məbləğində;

**19.1.7.3.** III qrup əlillərə 55 manat məbləğində;

**19.1.8.** Böyük Vətən müharibəsi iştirakçıları və əlillərinə:

**19.1.8.1.** I qrup əlillərə 154 manat məbləğində;

**19.1.8.2.** II qrup əlillərə 121 manat məbləğində;

**19.1.8.3.** III qrup əlillərə və əlil olmayan müharibə iştirakçılarına 99 manat məbləğində.

**19.2.** Əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi-tədqiqat və ya təhsil müəssisələrində azı 25 il çalışmış elmi dərəcəsi olan işləməyən əmək pensiyaçılarının (bu Qanunun 20-ci maddəsinə əsasən qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş əmək pensiyaçıları istisna olmaqla) pensiyalarının sığorta hissəsinə elmlər doktoru elmi dərəcəsinə görə 200 manat, fəlsəfə doktoru elmi dərəcəsinə görə 120 manat məbləğində əlavə hesablanır.

**19.3.** Bu Qanunun 19.1.6-19.1.8-ci maddələrində nəzərdə tutulmuş əlavələrdən əmək pensiyaçısına yalnız biri – daha yüksəyi verilir.";

**1.41.** 20.1.1-ci maddədə "əlil olmuş" sözləri "I qrup əlil olmuş və deputat kimi azı səlahiyyət müddətinin yarısı qədər sığorta stajı olan" sözləri ilə əvəz edilsin;

**1.42.** 20.1.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"20.1.3.** əmək pensiyası yaşına çatmış və ya bu yaşa çatanadək I qrup əlil olmuş Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının və Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü kimi azı səlahiyyət müddətinin yarısı qədər sığorta stajı olan sabiq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının və Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvləri;";

**1.43.** 20.1.3-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"20.1.3-1.** Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü və sabiq üzvü, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasının üzvü və

sabiq üzvü vəfat etdikdə, onun ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ olan ailə üzvləri;";

**1.44.** 20.1.4-cü maddədə "əlil" sözü "I qrup əlil" sözləri ilə əvəz edilsin;

**1.45.** 20.1.5-1-ci maddədə "əlil" sözü "I qrup əlil" sözləri ilə əvəz edilsin və həmin maddəyə "işçiləri" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş prokurorluq işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

**1.46.** 20.1.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

**"20.1.6.** əmək pensiyası yaşına çatmış və ya bu yaşa çatanadək I qrup əlil olmuş Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) kimi azı səlahiyyət müddətinin yarısı qədər sığorta stajı olan sabiq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman);";

**1.47.** Aşağıdakı məzmunda 20.1.6-1-ci maddə əlavə edilsin:

**"20.1.6-1.** Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və sabiq müvəkkili, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və sabiq müvəkkili (ombudsman) vəfat etdikdə, onun ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ olan ailə üzvləri;";

**1.48.** 20.1.7-ci maddənin əvvəlinə "əmək pensiyası yaşına çatmış və ya bu yaşa çatanadək I qrup əlil olmuş" sözləri əlavə edilsin;

**1.49.** 20.1.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"20.1.9.** əmək pensiyası yaşına çatmış və ya bu yaşa çatanadək I qrup əlil olmuş sabiq Azərbaycan Respublikasının Baş naziri və Baş nazirinin müavinləri, Naxçıvan Muxtar Respublikasının Baş naziri və Baş nazirinin müavinləri, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və rəhbərinin müavinləri, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və rəhbərinin müavinləri, yerli icra hakimiyyəti orqanının rəhbəri (başçısı), Milli Televiziya və Radio Şurasının, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvləri;";

**1.50.** 20.1.12-ci maddəyə "qulluqçular" sözündən sonra "(müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla)" sözləri əlavə edilsin;

**1.51.** 20.1.13-cü maddəyə "şəxslər" sözündən sonra "(müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla)" sözləri əlavə edilsin;

**1.52.** 20.1.14-cü maddədə "əlil" sözü "I qrup əlil" sözləri ilə əvəz edilsin və həmin maddəyə "işçiləri" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş ədliyyə işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

**1.53.** 20.1.16-cı maddədə "əlil olmuş" sözləri "I qrup əlil olmuş və Azərbaycan Respublikası Hesablama Palatasının üzvü kimi azı səlahiyyət müddətinin yarısı qədər sığorta stajı olan Azərbaycan Respublikası" sözləri ilə əvəz edilsin;

**1.54.** 20.1.18-ci maddədə "əlil" sözü "I qrup əlil" sözləri ilə əvəz edilsin və həmin maddəyə "işçiləri" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş miqrasiya orqanları işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

**1.55.** 20.1.20-ci maddədə "əlil" sözü "I qrup əlil" sözləri ilə əvəz edilsin və həmin maddəyə "işçiləri" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş fövqəladə hallar orqanlarının işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

**1.56.** 20.2-ci maddəyə "əmək pensiyasına" sözlərindən sonra "səlahiyyət müddətində tam fəaliyyət dövrünə görə (fəaliyyət dövrü tam olmadıqda isə natamam fəaliyyət dövründəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla)" sözləri əlavə edilsin;

**1.57.** 20.3-cü maddədə "əlil" sözü "I qrup əlil" sözləri ilə əvəz edilsin;

**1.58.** 20.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"20.4.** Bu Qanunun 20.1.2-ci maddəsində nəzərdə tutulmuş şəxslərə vəfat etmiş deputatın almalı olduğu və ya pensiyaçı kimi aldığı əmək pensiyası və əmək pensiyasına əlavənin 80 faizi miqdarının ailə üzvlərinin sayına olan nisbəti şəklində müəyyən edilmiş məbləğlə bu Qanunla təyin edilən ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği arasındakı fərq qədər əmək pensiyasına əlavə ödənilir.";

**1.59.** 20.5-ci maddə ləğv edilsin;

**1.60.** 20.6-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"20.6-1.** Bu Qanunun 20.1.3-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə vəfat etmiş Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının və Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvünün almalı olduğu və ya pensiyaçı kimi aldığı əmək pensiyası və əmək pensiyasına əlavənin 80 faizi miqdarının ailə üzvlərinin sayına olan nisbəti şəklində müəyyən edilmiş məbləğlə bu Qanunla təyin edilən ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği arasındakı fərq qədər əmək pensiyasına əlavə ödənilir.";

**1.61.** 20.7-ci maddədə "əməkhaqqındakı sonrakı artımlar da nəzərə alınmaqla" sözləri "əlavələr hakim vəzifəsindəki fəaliyyətin son 24 ayı və ya istənilən ardıcıl gələn 60 ayı ərzindəki əməkhaqqının orta aylıq məbləğindən, əməkhaqqındakı sonrakı artımlar da nəzərə alınmaqla, aşağıdakı qaydada müəyyən edilir" sözləri ilə əvəz edilsin;

**1.62.** 20.7.1-ci və 20.7.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"20.7.1.** 15 il hakim işləmiş sabiq hakimlərə – hakim vəzifəsində aldıqları orta aylıq əməkhaqqının 50 faizi miqdarında;

**20.7.2.** 15 ildən yuxarı hakim işləmiş sabiq hakimlərə – hakim vəzifəsində aldıqları orta aylıq əməkhaqqının 50 faizi miqdarında və 15 ildən yuxarı hakimlik stajının hər ili (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) üçün həmin orta aylıq əməkhaqqının 3 faizi miqdarında əlavə olunmaqla, lakin həmin orta aylıq əməkhaqqının 80 faizi miqdarından çox olmamaq şərti ilə müəyyən olunan məbləğlə bu Qanunla təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər əlavə ödənilir.";

**1.63.** 20.7.3-cü maddə ləğv edilsin;

**1.64.** 20.8.1-ci və 20.8.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"20.8.1.** prokurorluq orqanlarında 15 il qulluq etmiş prokurorluq işçilərinə – orta aylıq əməkhaqqının 50 faizi miqdarında;

**20.8.2.** prokurorluq orqanlarında 15 ildən yuxarı qulluq etmiş prokurorluq işçilərinə – orta aylıq əməkhaqqının 50 faizi miqdarında və 15 ildən yuxarı prokurorluq işçisi stajının hər ili (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) üçün həmin orta aylıq əməkhaqqının 3 faizi miqdarında əlavə olunmaqla, lakin həmin orta aylıq əməkhaqqının 80 faizi miqdarından çox olmamaq şərti ilə müəyyən olunan məbləğlə bu Qanunla təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər əlavə ödənilir.";

**1.65.** 20.8.3-cü maddə ləğv edilsin;

**1.66.** 20.9-cu maddədə "vəzifə maaşının" sözləri "əməkhaqqının" sözləri ilə əvəz edilsin;

**1.67.** Aşağıdakı məzmunda 20.9-1-ci maddə əlavə edilsin:

**"20.9-1.** Bu Qanunun 20.1.6-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə vəfat etmiş Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın), Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) almalı olduğu və ya pensiyaçı kimi aldığı əmək pensiyası və əmək pensiyasına əlavənin 80 faizi miqdarının ailə üzvlərinin sayına olan nisbəti şəklində müəyyən edilmiş məbləğlə bu Qanunla təyin edilən ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği arasındakı fərq qədər əmək pensiyasına əlavə ödənilir.";

**1.68.** 20.10-cu maddədə "20.1.1-20.1.2-ci maddələrində" sözləri "20.1.1-ci maddəsində" sözləri ilə əvəz edilsin;

**1.69.** 20.11.1-ci və 20.11.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"20.11.1.** dövlət qulluğu vəzifəsində 15 il qulluq stajı olan şəxsə – dövlət məvacibinin orta aylıq məbləğinin 50 faizi miqdarında;

**20.11.2.** dövlət qulluğu vəzifəsində 15 ildən yuxarı qulluq stajı olan şəxsə – dövlət məvacibinin orta aylıq məbləğinin 50 faizi miqdarında və 15 ildən yuxarı qulluq stajının hər ili (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) üçün dövlət məvacibinin orta aylıq məbləğinin 3 faizi miqdarında əlavə olunmaqla, lakin dövlət məvacibinin orta aylıq məbləğinin 80 faizi miqdarından çox olmamaq şərti ilə müəyyən olunan məbləğlə bu Qanunla təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər əlavə ödənilir.";

**1.70.** 20.11.3-cü maddə ləğv edilsin;

**1.71.** 20.14.1-ci maddədə "hər ili" sözlərindən sonra "(il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla)" sözləri əlavə edilsin və "3 faizi" sözləri "2 faizi (müvafiq icra hakimiyyəti orqanı sistemində xidmət edən şəxslər üzrə isə – 3 faizi)" sözləri ilə əvəz edilsin;

**1.72.** 20.14.2-ci maddəyə "hər ili" sözlərindən sonra "(il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla)" sözləri əlavə edilsin;

**1.73.** 20.14.3-cü maddəyə "hər ili" sözlərindən sonra "(il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla)" sözləri əlavə edilsin;

**1.74.** 20.14.4-cü maddədə "hər ili" sözlərindən sonra "(il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla)" sözləri əlavə edilsin və "3 faizi" sözləri "2 faizi (müvafiq icra hakimiyyəti orqanı sistemində xidmət edən şəxslər üzrə isə - 3 faizi)" sözləri ilə əvəz edilsin;

**1.75.** 20.17.1-ci maddəyə "məbləğində" sözündən sonra "(ailəyə düşən ümumi məbləğ ailə başçısının təminat xərcliyinin 80 faizindən az olduqda həmin məbləğə çatdırılmaqla)" sözləri əlavə edilsin;

**1.76.** 20.17.2-ci maddəyə "miqdarı ilə" sözlərindən sonra "(ailəyə düşən ümumi məbləğ ailə başçısının təminat xərcliyinin 80 faizindən az olduqda həmin məbləğə çatdırılmaqla)" sözləri əlavə edilsin;

**1.77.** 20.19.1-ci və 20.19.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"20.19.1.** ədliyyə orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə 15 il qulluq etmiş ədliyyə işçilərinə - orta aylıq əməkhaqqının 50 faizi miqdarında;

**20.19.2.** ədliyyə orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə 15 ildən yuxarı qulluq etmiş ədliyyə işçilərinə – orta aylıq əməkhaqqının 50 faizi miqdarında və 15 ildən yuxarı qulluq stajının hər ili (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) üçün həmin orta aylıq əməkhaqqının 3 faizi miqdarında əlavə olunmaqla, lakin həmin orta aylıq əməkhaqqının 80 faizi miqdarından çox olmamaq şərti ilə müəyyən olunan məbləğlə bu Qanunla təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər əlavə ödənilir.";

**1.78.** 20.19.3-cü maddə ləğv edilsin;

**1.79.** 20.21-ci maddəyə "əmək pensiyasına" sözlərindən sonra "səlahiyyət müddətində tam fəaliyyət dövrünə görə (fəaliyyət dövrü tam olmadıqda isə natamam fəaliyyət dövründəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla)" sözləri əlavə edilsin;

**1.80.** 20.22-ci maddədə "əlil" sözü "I qrup əlil" sözləri ilə əvəz edilsin;

**1.81.** 20.23-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"20.23.** Bu Qanunun 20.1.17-ci maddəsində nəzərdə tutulmuş şəxslərə vəfat etmiş Azərbaycan Respublikası Hesablama Palatasının üzvünün almalı olduğu və ya pensiyaçı kimi aldığı əmək pensiyası və əmək pensiyasına əlavənin 80 faizi miqdarının ailə üzvlərinin sayına olan nisbəti şəklində müəyyən edilmiş məbləğlə bu Qanunla təyin edilən ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği arasındakı fərq qədər əmək pensiyasına əlavə ödənilir.";

**1.82.** 20.24-cü maddə ləğv edilsin;

**1.83.** 20.25-ci maddədə "20.1.16 və 20.1.17-ci maddələrində" sözləri "20.1.16-cı maddəsində" sözləri ilə əvəz edilsin;

**1.84.** 20.26.1-ci və 20.26.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"20.26.1.** miqrasiya orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə 15 il qulluq etmiş miqrasiya orqanları işçilərinə – orta aylıq əməkhaqqının 50 faizi miqdarında;

**20.26.2.** miqrasiya orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə 15 ildən yuxarı qulluq etmiş miqrasiya orqanları işçilərinə – orta aylıq əməkhaqqının 50 faizi miqdarında və 15 ildən yuxarı qulluq stajının hər ili (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) üçün həmin orta aylıq əməkhaqqının 3 faizi miqdarında əlavə olunmaqla, lakin həmin orta aylıq əməkhaqqının 80 faizi miqdarından çox olmamaq şərti ilə müəyyən olunan məbləğlə bu Qanunla təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər əlavə ödənilir.";

**1.85.** 20.26.3-cü maddə ləğv edilsin;

**1.86.** 20.28.1-ci və 20.28.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"20.28.1.** fövqəladə hallar orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə 15 il xidmət keçmiş fövqəladə hallar orqanları işçilərinə – orta aylıq əməkhaqqının 50 faizi miqdarında;

**20.28.2.** fövqəladə hallar orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə 15 ildən yuxarı xidmət keçmiş fövqəladə hallar orqanları işçilərinə – orta aylıq əməkhaqqının 50 faizi miqdarında və 15 ildən yuxarı xidmət stajının hər ili (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının

sayına mütənasib olaraq hesablanmaqla) üçün həmin orta aylıq əməkhaqqının 3 faizi miqdarında əlavə olunmaqla, lakin həmin orta aylıq əməkhaqqının 80 faizi miqdarından çox olmamaq şərti ilə müəyyən olunan məbləğlə bu Qanunla təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər əlavə ödənilir.";

**1.87.** 20.28.3-cü maddə ləğv edilsin;

**1.88.** 26-cı maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 26. 2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyasının yenidən hesablanması**

**26.1.** 2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyasının baza və sığorta hissəsinin cəmi məbləği dəyişdirilmədən əmək pensiyasının sığorta hissəsinə şərti çevrilməsi aparılır.

**26.2.** 2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyasının baza hissəsinə əlavələr dəyişdirilmədən bu Qanunun 19-cu maddəsinə uyğun əmək pensiyasının sığorta hissəsinə əlavələr kimi nəzərə alınır.

**26.3.** 2017-ci il iyulun 1-dək bu Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş şəxslərə təyin edilmiş əmək pensiyasının ümumi məbləği 2017-ci il iyulun 1-i tarixinə azaldılmamaqla ödənilir. Həmin şəxslərin əmək pensiyasına qulluq stajına görə əlavələrin bu Qanunun 29.1-ci maddəsinə uyğun olaraq indeksləşdirilmə və sonrakı artımlar nəzərə alınmaqla yenidən hesablanması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.";

**1.89.** 27-ci maddənin adında "Qanunun qüvvəyə mindiyi günədək qazanılmış" sözləri "Qazanılmış" sözü ilə əvəz edilsin;

**1.90.** 27.1-ci maddənin birinci cümləsində "Bu Qanunun qüvvəyə mindiyi günədək sığortaolunanların" sözləri "Sığortaolunanların (əmək pensiyası təyin olunmuş şəxslər istisna olmaqla) 2006-cı il yanvarın 1-dək" sözləri ilə, ikinci cümləsində "170" rəqəmi "306" rəqəmi ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Sığortaolunanların, o cümlədən işləyən əmək pensiyaçılarının 2006-cı il 1 yanvar tarixindən 2017-ci il 1 iyul tarixinədək olan dövr üzrə fərdi hesabının sığorta hissəsində toplanan və istifadə olunmamış (əmək pensiyasının sığorta hissəsinin hesablanmasında nəzərə alınmamış) pensiya kapitalı 80% artırılmaqla, 2017-ci il 1 iyul tarixinə fərdi hesabın sığorta hissəsində qeydə alınır.";

**1.91.** 27.2-ci və 27.3-cü maddələr ləğv edilsin.

**1.92.** 29-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 29. Əmək pensiyalarının indeksləşdirilməsi**

**29.1.** Əmək pensiyasının sığorta hissəsi və fərdi hesabın sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə ölkə üzrə orta aylıq nominal əməkhaqqının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən illik artım tempinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən indeksləşdirilir.

**29.2.** 2017-ci il iyulun 1-dən əmək pensiyasına çıxmış bu Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş şəxslərin əmək pensiyasının sığorta hissəsi bu Qanunun 29.1-ci maddəsinə uyğun olaraq artırıldıqda və ya yenidən hesablandıqda, qulluq stajına görə əmək pensiyasına əlavələrin məbləği həmin artımlar qədər azaldılmaqla yenidən hesablanır. Həmin şəxslərin tutmuş olduqları vəzifələr üzrə aylıq əməkhaqqı (əməkhaqqı, dövlət məvacibi, təminat xərcliyi) sonradan artırıldıqda, bu artımlar nəzərə alınmaqla, qulluq stajına görə əmək pensiyasına əlavələr yenidən hesablanır.

**29.3.** Əmək pensiyasının indeksləşdirilməsi bu Qanunun 6-cı maddəsi ilə müəyyən edilmiş əmək pensiyasının ödənişinin maliyyə mənbələrinə uyğun olaraq müvafiq qaydada nəzərdə tutulmuş vəsaitlər dairəsində müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.";

**1.93.** 31.1-ci maddədən "heç bir müddət məhdudiyyəti olmadan" sözləri çıxarılsın;

**1.94.** 32.1-ci maddədən "əmək pensiyası hüququnun yarandığı gündən, lakin bu Qanunun qüvvəyə mindiyi gündən tez olmamaqla" sözləri çıxarılsın;

**1.95.** Aşağıdakı məzmunda 32.1-1-ci maddə əlavə edilsin:

**"32.1-1.** Əmək pensiyaları onu almaq hüququ yarandığı gündən, lakin bu Qanunun qüvvəyə mindiyi gündən tez olmamaqla və müraciət edilən tarixdən əvvəlki ən çoxu üç il üçün ödənilməklə, bu maddədə müəyyən edilmiş müddətlərə təyin edilir.";

**1.96.** 32.2-ci maddədən "əlilliyin və ya 18 yaşınadək sağlamlıq imkanları məhdudluğunun müəyyən olunduğu gündən" və "bütün" və "və ya sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın;

**1.97.** 32.3-cü maddədən "ailə başçısını itirməyə görə əmək pensiyası hüququnun yarandığı gündən" sözləri çıxarılsın;

**1.98.** 37.3.1-ci maddənin birinci cümləsindən "baza və" sözləri çıxarılsın, ikinci cümləsinə "keçdikdə" sözündən sonra ", yaxud pensiya təyin olunduğu gündən sonra 6 il və daha çox işlədikdə" sözləri və həmin maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

". Sonrakı belə hesablamalar bu maddədə göstərilən şərt nəzərə alınmaqla hər növbəti 6 ildən bir həyata keçirilir";

**1.99.** 37.3.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"37.3.2.** əlilliyə görə əmək pensiyasının pensiya təyin olunan günədək qazanılmış məbləği tam ödənilir. Əlilliyə görə pensiya təyin edilmiş şəxs işləməkdə davam edərsə, onun pensiya təyin olunduqdan işləməyən əmək pensiyaçısı kateqoriyasına keçdiyi tarixədək olan dövr üzrə toplanan pensiya kapitalına və həmin kateqoriyaya keçdiyi tarixdəki yaşına müvafiq tələb olunan sığorta stajına əsasən bu Qanunun 13-cü maddəsinə uyğun olaraq əmək pensiyasının sığorta hissəsi yenidən hesablanır;";

**1.100.** 37.3.4-cü maddənin birinci cümləsində "20.1.1-20.1.10-cu və 20.1.14-cü-20.1.21-ci" sözləri "20.1.1-20.1.21-ci" sözləri ilə əvəz edilsin və həmin cümlədən ", digər hallarda isə tam məbləğdə" sözləri çıxarılsın, ikinci cümləsində birinci mötərizədə "25" rəqəmləri "35" rəqəmləri ilə əvəz edilsin, ikinci mötərizədən "20.1.3-1-ci maddəsində göstərilən şəxslər həmin maddədə sadalanan vəzifələrdə," sözləri çıxarılsın və həmin mötərizəyə "20.1.9-cu maddəsində göstərilən şəxslər həmin maddədə sadalanan vəzifələrdə," sözlərindən sonra "20.1.11-ci maddəsində göstərilən şəxslər həmin maddədə sadalanan vəzifələrdə, 20.1.12-ci maddəsində göstərilən şəxslər həmin maddədə sadalanan vəzifələrdə," sözləri əlavə edilsin;

**1.101.** 37.3.5-ci maddə ləğv edilsin;

**1.102.** 37.3-cü maddənin sonuna aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd.** 2017-ci il iyulun 1-dək "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş bu Qanunun 20.1.11-20.1.13-cü maddələrində nəzərdə tutulmuş şəxslərə həmin tarixədək qüvvədə olmuş "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 37.3.5-ci maddəsinin müddəaları tətbiq olunur.";

**1.103.** 37.7-ci maddədə "müddətindən asılı olmayaraq" sözləri "bu Qanunun 32.1-1-ci maddəsində göstərilən şərt nəzərə alınmaqla" sözləri ilə əvəz edilsin;

**1.104.** 42.2-ci maddədə "yaşa görə əmək pensiyasının baza hissəsinin" sözləri "əmək pensiyasının minimum məbləğinin" sözləri ilə əvəz edilsin.

**1.105.** 43.2-ci maddə ləğv edilsin;

**1.106.** 44-cü maddə ləğv edilsin;

**1.107.** 45-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Qanunun 9-cu maddəsinə əsasən yaşa görə əmək pensiyası təyin olunan şəxslərin əmək pensiyasının sığorta və yığım hissələrinin hesablanmasında gözlənilən pensiya ödənişi müddəti aylarının sayı güzəştli şərtlə pensiyaya çıxma yaşı ilə bu Qanunun 7-ci maddəsi ilə müəyyən edilmiş pensiya yaşı arasındakı ayların sayı qədər artırılır.".

**Maddə 2.** Bu Qanun 2017-ci il iyulun 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 mart 2017-ci il
№ 543-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 315-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4 maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298; № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 508-VQD və 523-VQD nömrəli qanunları) 271-ci maddəsinin "Qeyd" hissəsinin 3-cü bəndinə "fondları" sözündən sonra "və bu fondların idarəçiləri" sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 aprel 2017-ci il
№ 563-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 315-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 58; 2010, № 3, maddə 178, № 4, maddə 276; 2011, № 12, maddə 1104; 2013, № 11, maddə 1274; 2014, № 2, maddə 81, № 10, maddə 1159, № 11, maddə 1361; 2015, № 11, maddə 1294; 2016, № 3, maddə 413) 4.0.7-ci və 6.1.1-ci maddələrinə “fondları” sözündən sonra “və bu fondların idarəçiləri” sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 aprel 2017-ci il
№ 565-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161; Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 508-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 308-2-ci maddə əlavə edilsin:

**“Maddə 308-2. Satınalma prosedurları keçirilmədən dövlət vəsaitlərini xərcləmə və ya dövlət satınalmalarını qanunsuz keçirmə**

**308-2.1.** Satınalan təşkilat tərəfindən satınalma prosedurları keçirilmədən bağlanılmış müqavilələr əsasında dövlət vəsaitlərini xərcləmə və ya malların (işlərin) satın alınmasını “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender üsulu ilə həyata keçirilməli olduğu halda, digər satınalma metodlarından qanunsuz istifadə etmə, bu əməllər xeyli miqdarda ziyan vurduqda –

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**308-2.2.** Satınalan təşkilat tərəfindən hər hansı digər satınalma metodlarından istifadə etmək üçün məbləğ məhdudiyyətini aradan qaldırmaq məqsədi ilə bir büdcə ili ərzində müvafiq xərc maddəsində nəzərdə tutulmuş vəsait hesabına malların (işlərin və xidmətlərin) satın alınmasını ayrı-ayrı müqavilələrə bölmə, bu əməllər xeyli miqdarda ziyan vurduqda –

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**308-2.3.** Satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan malgöndərənlərin (podratçıların) həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol vermə, bu əməllər xeyli miqdarda ziyan vurduqda –

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**308-2.4.** Bu Məcəllənin 308-2.1-ci, 308-2.2-ci və 308-2.3-cü maddələrində nəzərdə tutulmuş əməllər külli miqdarda ziyan vurduqda –

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən dörd mislinədək miqdarda cərimə edilməklə üç ilədək

müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:**

**1.** Bu Məcəllənin 308-2.1-ci, 308-2.2-ci və 308-2.3-cü maddələrində "xeyli miqdar" dedikdə, əlli min manatdan iki yüz əlli min manatadək olan məbləğ, 308-2.4-cü maddəsində "külli miqdar" dedikdə isə iki yüz əlli min manatdan yuxarı olan məbləğ başa düşülür.

**2.** Bu Məcəllənin 308-2.1-ci, 308-2.2-ci və 308-2.3-cü maddələrində "satınalan təşkilat" dedikdə, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan müəssisə və təşkilatlar başa düşülür.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 aprel 2017-ci il
№566-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 9, maddə 1559, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162; Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 509-VQD nömrəli və 14 fevral tarixli 529-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 43.1-ci maddəyə "443.1," rəqəmlərindən sonra "445-1," rəqəmləri əlavə edilsin.

**2.** 54.2-ci maddəyə "410.3," rəqəmlərindən sonra "445-1," rəqəmləri əlavə edilsin.

**3.** Aşağıdakı məzmunda 445-1-ci maddə əlavə edilsin:

**"Maddə 445-1. Dövlət satınalmaları haqqında qanunvericiliyin pozulması**

**445-1.1** Satınalma metodlarının tətbiqi şərtlərinin pozulmasına, yəni:

**445-1.1.1.** satınalan təşkilat tərəfindən satınalma prosedurları keçirilmədən bağlanılmış müqavilələr əsasında dövlət vəsaitlərinin xərclənməsinə;

**445-1.1.2.** satınalan təşkilat tərəfindən malların (işlərin və xidmətlərin) satın alınmasının "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender üsulu ilə həyata keçirilməli olduğu halda, digər satınalma metodlarından qanunsuz istifadə etmə ilə həyata keçirilməsinə;

**445-1.1.3.** satınalan təşkilat tərəfindən hər hansı digər satınalma metodlarından istifadə etmək üçün məbləğ məhdudiyyətini aradan qaldırmaq məqsədi ilə bir büdcə ili ərzində müvafiq xərc maddəsində nəzərdə tutulmuş vəsait hesabına malların (işlərin və xidmətlərin) satın alınmasının ayrı-ayrı müqavilələrə bölünməsinə;

**445-1.1.4.** satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan malgöndərənlərin (podratçıların) həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol verilməsinə;

**445-1.1.5.** satınalma prosedurları zamanı satınalan təşkilatın təmsilçisi, məsləhətçisi və satınalmalarla əlaqədar digər vəzifələrin icraçısı barədə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə -

vəzifəli şəxslər üç min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

**445-1.2.** "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş əsaslar olmadan satınalan təşkilat tərəfindən tender təklifinin kənarlaşdırılmasına və ya həmin Qanunun tələblərinin pozulması ilə tender təklifinin qalib elan edilməsinə görə -

vəzifəli şəxslər üç min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

**445-1.3.** Malgöndərənlərin (podratçıların) ixtisası ilə bağlı müəyyən edilmiş tələblərin pozulmasına, yəni:

**445-1.3.1.** satınalan təşkilat tərəfindən malgöndərənin (podratçının) ixtisasına dair "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmayan tələblərin irəli sürülməsinə;

**445-1.3.2.** ixtisas göstəriciləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş meyarlara uyğun gəlməyən malgöndərənə (podratçıya) satınalan təşkilat tərəfindən dəvətlərin göndərilməsi və ya bu təşkilatlarla müqavilələrin bağlanılmasına görə –

vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimə edilir.

**445-1.4.** Satınalmaların təşkili və tender prosedurları ilə bağlı qaydaların pozulmasına, yəni:

**445-1.4.1.** satınalan təşkilat tərəfindən tender elanının (dəvətin) məzmununun və tenderin əsas şərtlər toplusunun "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun tərtib edilməməsinə;

**445-1.4.2.** dövlət satınalmaları üzrə tenderlər, təkliflər sorğusu və kotirovka sorğusu barədə elanlar və onların nəticələri, habelə tender nəticəsində bağlanılmış satınalma müqaviləsi barədə məlumatların "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətlərdə dövlət satınalmalarının rəsmi internet saytında yerləşdirilməməsinə və ya yanlış məlumatların yerləşdirilməsinə;

**445-1.4.3.** satınalmalarda iddiaçı kimi çıxış edən malgöndərəndən (podratçıdan) "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş

qaydada maliyyə vəziyyəti barədə sənədlərin və tender təklifinin təminatının satınalan təşkilat tərəfindən alınmamasına;

**445-1.4.4.** satınalan təşkilat tərəfindən tender və xidmət təkliflərinin qiymətləndirilməsi və müqayisəsi zamanı tenderin əsas şərtlər toplusunda və xidmət təklifləri sorğusunda nəzərdə tutulmuş tələblərə cavab verən yerli mallar (işlər və ya xidmətlər) üzrə tender və ya xidmət təkliflərinin xeyrinə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun güzəştli düzəlişin edilməməsinə;

**445-1.4.5.** satın alınacaq malların (işlərin və xidmətlərin) ehtimal olunan qiymətinin tender zərflərinin açıldığı günədək satınalan təşkilat tərəfindən məxfi saxlanılmamasına görə –

vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

**445-1.5.** Malgöndərən (podratçı) tərəfindən dövlət satınalma prosedurlarında iştirak üçün satınalan təşkilata maliyyə vəziyyəti barədə yanlış məlumatın təqdim edilməsinə görə –

vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

**Qeyd:**

**1.** Bu Məcəllənin 445-1-ci maddəsi həmin maddədə göstərilən əməllər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.

**2.** Bu Məcəllənin 445-1-ci maddəsində "satınalan təşkilat" dedikdə, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan müəssisə və təşkilatlar başa düşülür.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 aprel 2017-ci il
№567-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762, № 12, maddə 973; 2010, № 7, maddə 587; 2011, № 6, maddə 485, № 7, maddə 593; 2012, № 5, maddə 410; 2013, № 1, maddə 16, № 11, maddə 1267; 2016, № 1, maddə 12) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.2.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.2.9-cu maddə əlavə edilsin:

**"2.2.9.** "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq bankın sağlamlaşdırılması, rezolyusiyası çərçivəsində verdiyi, bankın məcburi ləğvi və ləğvedicinin təyin edilməsi, bankın iflas proseduruna başlanması, bankın kapitalında mühüm iştirak payı olan şəxsin payının özgəninkiləşdirilməsi və ya bank tərəfindən geri alınması və digər nəzarət tədbirləri ilə bağlı maliyyə bazarlarına nəzarət orqanının ərizələrinə.".

**2.** 3.2-ci maddənin hər iki cümləsində "XVIII" rəqəmlərindən sonra ", XIX" rəqəmləri, "mübahisələrə" sözündən sonra isə "(ərizələrə)" sözü əlavə edilsin.

**3.** 27.0.1-ci maddəyə "iddiaçı" sözündən sonra "(və ya bu Məcəllənin 132-ci maddəsinə uyğun olaraq ərizəçi)" sözləri əlavə edilsin.

**4.** 40.1-ci maddəyə və 41.2-ci maddənin birinci cümləsinə "aktın" sözündən sonra "(bu Məcəllənin 131.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş inzibati akt istisna olmaqla)" sözləri əlavə edilsin.

**5.** 94.1-ci maddəyə "10" rəqəmlərindən əvvəl ", həmçinin bu Məcəllənin 131.3-cü və 132.3-cü maddələrində nəzərdə tutulmuş hallarda" sözləri əlavə edilsin.

**6.** aşağıdakı məzmunda XIX fəsil əlavə edilsin:

*"XIX fəsil*

**Maliyyə bazarlarına nəzarət orqanına qarşı müvafiq iddialar və maliyyə bazarlarına nəzarət orqanının müvafiq ərizələri üzrə icraat**

**Maddə 131. Maliyyə bazarlarına nəzarət orqanına qarşı müvafiq iddialar üzrə icraat**

**131.1.** "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq bankın sağlamlaşdırılması, rezolyusiyası çərçivəsində, lisenziyasının ləğvi, məcburi ləğvi və ləğvedicinin təyin edilməsi, bankın iflas proseduruna başlanması, bankın kapitalında mühüm iştirak payı olan şəxsin payının özgəninkiləşdirilməsi və ya bank tərəfindən geri alınması və digər nəzarət tədbirləri ilə bağlı maliyyə bazarlarına nəzarət orqanının qəbul etdiyi inzibati aktlar üzrə mübahisələrə apellyasiya instansiyası məhkəmələri tərəfindən baxılır.

**131.2.** Məhkəmə iddia ərizəsinə onun daxil olduğu vaxtdan 15 gün müddətində baxıb qərar qəbul etməlidir. Maliyyə bazarlarına nəzarət orqanının bankın sağlamlaşdırılması, rezolyusiyası çərçivəsində, eləcə də bankın lisenziyasının ləğvi ilə bağlı qəbul etdiyi inzibati aktın qanunsuz sayıldığı hallarda məhkəmə kompensasiyanın ödənilməsi barədə qərar qəbul edir.

**131.3.** Mübahisə ilə bağlı iş üzrə məhkəmə qərarından həmin qərarın tam formada təqdim olunduğu gündən 10 gün müddətində Ali Məhkəməyə şikayət verilə bilər.

**131.4.** Ali Məhkəmə şikayətə onun daxil olduğu vaxtdan 15 gün müddətində baxıb qərar qəbul etməlidir.

**Maddə 132. Maliyyə bazarlarına nəzarət orqanının müvafiq ərizələri üzrə icraat**

**132.1.** "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq bankın sağlamlaşdırılması, rezolyusiyası çərçivəsində verdiyi, bankın məcburi ləğvi və ləğvedicinin təyin edilməsi, bankın iflas proseduruna başlanması, bankın kapitalında mühüm iştirak payı olan

şəxsin payının özgəninkiləşdirilməsi və ya bank tərəfindən geri alınması və digər nəzarət tədbirləri ilə bağlı maliyyə bazarlarına nəzarət orqanının ərizələrinə apelyasiya instansiyası məhkəmələri tərəfindən baxılır.

**132.2.** Məhkəmə maliyyə bazarlarına nəzarət orqanının ərizəsinə, ərizənin daxil olduğu vaxtdan aşağıdakı müddətlərdə baxıb qərar qəbul etməlidir:

**132.2.1.** bankın öhdəlikləri üzrə ödənişlərə moratorium tətbiq edilməsi ilə bağlı ərizələrə – 2 gün müddətində;

**132.2.2.** lisenziyası ləğv edilmiş bankın məcburi ləğvi və ləğvedicinin (ləğvedicilərin) təyin edilməsi ilə bağlı ərizələrə – 7 gün müddətində;

**132.2.3.** bankın iflas proseduruna başlanmasına və bu proses çərçivəsində digər məsələlərin həllinə dair ərizələrə – 7 gün müddətində;

**132.2.4.** bankın sağlamlaşdırılması və rezolyusiyası çərçivəsində verilmiş ərizələrə – 7 gün müddətində;

**132.2.5.** bankın kapitalında mühüm iştirak payı olan şəxsin payının özgəninkiləşdirilməsi və ya bank tərəfindən geri alınması ilə bağlı ərizələrə – 30 gün müddətində;

**132.2.6.** digər nəzarət tədbirləri ilə bağlı "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda verilən ərizələrə – 10 gün müddətində.

**132.3.** Mübahisə ilə bağlı iş üzrə məhkəmə qərarından həmin qərarın tam formada təqdim olunduğu gündən 10 gün müddətində Ali Məhkəməyə şikayət verilə bilər. Belə şikayətin verilməsi məhkəmə qərarının icrasını dayandırmır.

**132.4.** Ali Məhkəmə şikayətə 15 gün müddətində baxıb qərar qəbul etməlidir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 aprel 2017-ci il
№ 570-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 496-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 157.1-ci maddənin birinci cümləsinə "iddianı" sözündən sonra "(bankın öhdəliklərinin könüllü restrukturizasiyası zamanı bank və (və ya) onun aktivləri ilə bağlı verilmiş iddia istisna olmaqla)" sözləri əlavə edilsin.

**2.** 162.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Məcəllənin 355-17.3-cü maddəsində nəzərdə tutulmuş qətnamə qəbul edildikdə bank və (və ya) onun aktivləri ilə bağlı əvvəllər qəbul edilmiş iddianı təmin etmə tədbirləri ləğv edilməlidir.".

**3.** 233.1-ci maddədə "və 355-13.4-cü" sözləri ", 355-13.4-cü, 355-17.3-cü, 355-18.4-cü və 355-19.3-cü" sözləri ilə əvəz edilsin.

**4.** 305.1.14-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 305.1.15-ci maddə əlavə edilsin:

**"305.1.15.** bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında.".

**5.** 306.1-ci maddədə "40-4-cü" sözləri "40-5-ci" sözləri əvəz edilsin.

**6.** aşağıdakı məzmunda 40-5-ci fəsil əlavə edilsin:

*"Fəsil 40-5*
**Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında işlər üzrə icraat**

**Maddə 355-15. Ərizənin verilməsi**

**355-15.1.** "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada bank onun öhdəliklərinin könüllü restrukturizasiyası ilə əlaqədar məhkəməyə müraciət edir.

**355-15.2.** Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında ərizə bankın yerləşdiyi yer üzrə məhkəməyə verilir.

**Maddə 355-16. Ərizənin məzmunu**

Bankın öhdəliklərinin könüllü restrukturizasiyası ilə əlaqədar ərizəyə bankın öhdəliklərinin könüllü restrukturizasiyasına əsas olan hallarla bağlı sənədlər, maliyyə bazarlarına nəzarət orqanının yazılı bildirişi alınmış restrukturizasiya planı və bununla əlaqədar toplanmış digər sənədlər əlavə edilməli və ərizəçinin xahişi göstərilməlidir.

**Maddə 355-17. Ərizəyə baxılması və qətnamənin qəbul edilməsi**

**355-17.1.** Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında ərizəyə məhkəməyə verildikdən sonra məhkəmə tərəfindən 10 gün ərzində baxılır və qərar qəbul edilir.

**355-17.2.** Məhkəmə ərizəyə öhdəlikləri restrukturizasiya edilən bankın və maliyyə bazarlarına nəzarət orqanının mütləq iştirakı ilə baxır. İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir.

**355-17.3.** Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında qətnamə qəbul edildikdən dərhal sonra

qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

**355-17.4.** Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında qətnamədə, o cümlədən aşağıdakılar göstərilməlidir:

**355-17.4.1.** bankın adı;

**355-17.4.2.** restrukturizasiya müddəti və bankın öhdəliklərinin könüllü restrukturizasiyasının həyata keçirilməsi üzrə məsul şəxslər göstərilməklə bankın öhdəliklərinin könüllü restrukturizasiyasının həyata keçirilməsi barədə göstəriş.

**355-17.5.** Qətnamənin surəti bu Məcəllənin 227-ci maddəsinə uyğun olaraq məhkəməyə müraciət etmiş banka onun hüquqi ünvanı üzrə və maliyyə bazarlarına nəzarət orqanına göndərilir.

**Maddə 355-18. Restrukturizasiya planının təsdiq edilməsi**

**355-18.1.** "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada bank öhdəliklərinin könüllü restrukturizasiyası planının təsdiqi üçün bankın yerləşdiyi yer üzrə məhkəməyə ərizə ilə müraciət edir. Bank onun öhdəliklərinin könüllü restrukturizasiyası planı ilə birlikdə, həmin planın təsdiq edilməsi haqqında bankın müvafiq kreditorlarının yığıncağının protokolunu və əlaqəli sənədləri də məhkəməyə təqdim edir.

**355-18.2.** Bankın öhdəliklərinin könüllü restrukturizasiyası planının təsdiq edilməsi haqqında ərizəyə məhkəməyə verildikdən sonra 30 gün ərzində baxılıb qərar qəbul edilir.

**355-18.3.** Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verməlidir. Məhkəmə iclasının vaxtı və yeri, habelə ayrı-ayrı prosessual hərəkətlərin yerinə yetirilməsi haqqında məhkəmə bildirişi kreditorlar tərəfindən təsdiq edilmiş restrukturizasiya planında göstərilmiş üsulla maraqlı şəxslərə göndərilir. İşdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur.

**355-18.4.** Qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

**Maddə 355-19. Bankın öhdəliklərinin könüllü restrukturizasiyasına xitam verilməsi haqqında qətnamənin qəbul edilməsi**

**355-19.1.** "Banklar haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş hallarda bankın öhdəliklərinin könüllü restrukturizasiyasına xitam verilməsi haqqında maliyyə bazarlarına nəzarət orqanının ərizəsinə bankın yerləşdiyi yer üzrə məhkəməyə verildikdən sonra 10 gün ərzində baxılıb qərar qəbul edilir.

**355-19.2.** Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verməlidir. İşdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur.

**355-19.3.** Qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 aprel 2017-ci il
№ 571-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2, I kitab, maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 492-VQD və 494-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 194.2-ci maddənin birinci cümləsinə "keçirilir" sözündən sonra "və belə hallarda ilk sahibin yerini üçüncü şəxs tutur" sözləri əlavə edilsin və ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu halda "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tələbin sahibi ilə borclu arasında bağlanmış müqaviləyə dəyişiklik edilməsi tələb olunmur.".

**2.** 431.1-ci maddənin ikinci cümləsinə "bilər" sözündən sonra "və buna borclunun razılığı tələb edilmir" sözləri əlavə edilsin və üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu halda "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq kreditorla bağlanmış müqaviləyə dəyişiklik edilməsi tələb olunmur.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 aprel 2017-ci il
№ 572-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161; Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 508-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 314-1.1-ci maddənin sanksiyasında "iki" sözü "üç" sözü ilə əvəz edilsin.

**2.** 314-2.1-ci maddə üzrə:

**2.1.** dispozisiyada "vəzifəli şəxs tərəfindən" sözlərindən sonra "torpaq sahələrini tikinti üçün ayırma," sözləri əlavə edilsin;

**2.2.** sanksiyada "bir" sözü "iki" sözü ilə əvəz edilsin.

**3.** 314-2.2-ci maddənin sanksiyasında "iki ilədək müddətə islah işləri və ya" sözləri çıxarılsın və "iki ildən dörd" sözləri "üç ildən beş" sözləri ilə əvəz edilsin.

**4.** 314-2.3-cü maddənin sanksiyasında "dörd" sözü "beş" sözü ilə əvəz edilsin.

**5.** 314-3.1-ci maddənin sanksiyasında "bir" sözü "iki" sözü ilə əvəz edilsin.

**6.** 314-3.2-ci maddənin sanksiyasında "iki ildən dörd" sözləri "üç ildən beş" sözləri ilə əvəz edilsin.

**7.** 314-3.3-cü maddənin sanksiyasında "dörd ildən altı" sözləri "beş ildən yeddi" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 aprel 2017-ci il
№ 573-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 9, maddə 1559, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162; Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 509-VQD nömrəli və 14 fevral tarixli 529-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 43.1-ci və 54.2-ci maddələrdən "249," rəqəmləri çıxarılsın.

**2.** 249-cu maddə ləğv edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 aprel 2017-ci il
№ 574-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 319-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 508-VQD və 523-VQD nömrəli qanunları) 271-ci maddəsinin "Qeyd" hissəsinin 3-cü bəndinə "sığorta şirkətləri," sözlərindən sonra "qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər," sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 aprel 2017-ci il
№575-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü və 27-ci bəndlərini rəhbər tutaraq, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 140-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2, I kitab, maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr

1998, 2018; Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 492-VQD və 494-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 43.5-ci maddədə "və ictimai" sözləri "və (və ya) ictimai" sözləri ilə əvəz edilsin.

**2.** 967.2-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bank sirrini təşkil edən məlumatlar yalnız müştərilərin özlərinə və onların nümayəndələrinə, həmçinin kənar auditorlara və maliyyə bazarlarına nəzarət orqanına verilir.".

**3.** 1076-9.7-ci maddədə "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri "Maliyyə bazarlarına nəzarət orqanı" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 aprel 2017-ci il
№ 576-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 496-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 233.1-ci maddədə "və 355-19.3-cü" sözləri ", 355-19.3-cü və 355-22.4-cü" sözləri ilə əvəz edilsin.

**2.** 305.1.15-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 305.1.16-cı maddə əlavə edilsin:

**"305.1.16.** internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması haqqında.".

**3.** 306.1-ci maddədə "40-5-ci" sözləri "40-6-cı" sözləri ilə əvəz edilsin.

**4.** Aşağıdakı məzmunda 40-6-cı fəsil əlavə edilsin:

**"Fəsil 40-6. İnternet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması haqqında işlər üzrə icraat**

**Maddə 355-20. Ərizənin verilməsi**

**355-20.1.** Müvafiq icra hakimiyyəti orqanı internet informasiya ehtiyatında "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi hallarını müəyyən etdikdə, internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması üçün məhkəməyə müraciət edir.

**355-20.2.** İnternet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə ərizə müvafiq icra hakimiyyəti orqanının yerləşdiyi yer üzrə verilir.

**Maddə 355-21. Ərizənin məzmunu**

Ərizədə internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması üçün qanunda nəzərdə tutulmuş əsaslar, internet informasiya ehtiyatı barədə məlumatlar, məhkəməyə qədər görülmüş tədbirlər qeyd olunmalı və ərizəçinin xahişi göstərilməlidir.

**Maddə 355-22.** Ərizəyə baxılması və qətnamənin qəbul edilməsi

**355-22.1.** İnternet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə ərizəyə məhkəməyə təqdim olunduqdan sonra 5 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.

**355-22.2.** Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verir. İşdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur.

**355-22.3.** İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir.

**355-22.4.** İnternet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması haqqında qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

**355-22.5.** Qətnamənin surəti bu Məcəllənin 227.2-ci maddəsinə uyğun olaraq tərəflərə verilir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 aprel 2017-ci il
№ 580-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 960-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları"nda dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11 və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 960-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 696; 2009, № 12, maddə 965; 2016, № 6, maddə 995) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların siyahıları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** "I siyahı. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən narkotik vasitələr və psixotrop maddələr" bölməsi üzrə:

**1.1** "I. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən narkotik vasitələr" fəslinə aşağıdakı məzmunda 114-115-ci maddələr əlavə edilsin:

**"114.** MT-45 (İC-6)

**115.** Asetilfentanil.".

**1.2.** "II. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən psixotrop maddələr" fəslinə aşağıdakı məzmunda 53-56-cı maddələr əlavə edilsin:

**"53.** alfa-pirrolidinovalerofenon (a-PVP)

**54.** Metoksetamin (MXE)

**55.** para-metoksimetilamfetamin (PMMA)

**56.** para-metil-4-metilaminoreks (4,4-DMAR).".

**2.** "III. siyahı. Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr" bölməsinə aşağıdakı məzmunda 64-cü maddə əlavə edilsin:

**"64.** Fenazepam.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 aprel 2017-ci il
№ 630-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161; Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 508-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 190-cı maddənin "Qeyd" hissəsinə "200-2.1," rəqəmlərindən sonra "201-1.1," rəqəmləri, "200-2.3," rəqəmlərindən sonra isə "201-1.2," rəqəmləri əlavə edilsin.

**2.** Aşağıdakı redaksiyada 201-1-ci maddə əlavə edilsin:

**“Maddə 201-1. Hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulması, yaxud belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsi**

**201-1.1.** Hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulması, yaxud belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsi xeyli miqdarda ziyan vurmaqla və ya xeyli miqdarda gəlir əldə etməklə törədildikdə –

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**201-1.2.** Eyni əməllər külli miqdarda ziyan vurmaqla və ya külli miqdarda gəlir əldə etməklə törədildikdə –

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən beş mislinədək miqdarda cərimə və ya bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 aprel 2017-ci il
№633-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276; 2016, № 11, maddələr 1758, 1784, 1795, № 12, maddə 1993; 2017, № 2, maddələr 138, 150) 23-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** II hissə aşağıdakı redaksiyada verilsin:

**“II.** Yol hərəkəti təhlükəsizliyini təmin etmək və müvafiq icra hakimiyyəti orqanlarının işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə yol hərəkəti qaydaları və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydalarının pozulmasına görə müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən, nəqliyyat vasitələrinin müşayiət olunması və haqqı ödənilən digər əlavə xidmətlərdən daxil olan vəsaitlər müvafiq icra hakimiyyəti orqanlarının hesablarına köçürülür. Bu vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.”;

**1.2.** III hissədən “Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və” sözləri çıxarılsın.

**Maddə 2.** Bu Qanun 2017-ci il mayın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 aprel 2017-ci il
№ 643-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 360-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 9, maddə 1559, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162; Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 509-VQD nömrəli, 14 fevral tarixli 529-VQD nömrəli qanunları) 221-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Maddənin adı aşağıdakı redaksiyada verilsin:

"Dərman vasitələri haqqında qanunvericiliyin pozulması".

**2.** Aşağıdakı məzmunda 221.8-ci və 221.9-cu maddələr əlavə edilsin:

**"221.8.** Üzərində və onların istifadəsi təlimatlarında (içlik vərəqələrində) "dərman vasitəsi deyildir" sözləri yazılmayan bioloji fəallığa malik qida əlavələrinin istehsalına, idxalına və ya satışına görə –

vəzifəli şəxslər beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

**221.9.** Bioloji fəallığa malik qida əlavələrinin həkim reseptinə yazılmasına görə –

vəzifəli şəxslər əlli manatdan yüz manatadək məbləğdə, hüquqi şəxslər yüz əlli manatdan iki yüz manatadək məbləğdə cərimə edilir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 may 2017-ci il
№ 663-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155; Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 571-VQD və 580-VQD nömrəli qanunları) 82.4-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

**"82.4.** Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı mülki işə və iqtisadi mübahisəyə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində məcburidir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 may 2017-ci il
№664-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2, (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039) 65.4-cü maddəsində "yalnız hadisənin və təqsirləndirilən şəxsin ona aidiyyəti olub-olmaması" sözləri "hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 may 2017-ci il
№665-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762, № 12, maddə 973; 2010, № 7, maddə 587; 2011, № 6, maddə 485, № 7, maddə 593; 2012, № 5, maddə 410; 2013, № 1, maddə 16, № 11, maddə 1267; 2016, № 1, maddə 12; Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 570-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 58.8-ci maddə əlavə edilsin:

**"58.8.** Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı inzibati mübahisəyə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində məcburidir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 may 2017-ci il.
№666-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 9, maddə 1559, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 307-ci maddə üzrə:

**1.1.** 307.1-ci maddədə "liman sularında" sözləri "habelə Azərbaycan Respublikasının ərazi sularında və liman akvatoriyasında" sözləri ilə əvəz edilsin;

**1.2.** aşağıdakı məzmunda 307.4-cü maddə əlavə edilsin:

**"307.4.** Dəniz nəqliyyatı sahəsində beynəlxalq konvensiyaların tələblərinə, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə zidd olaraq gəmilərin dəniz üzgüçülüyünün təhlükəsizliyinə, insan həyatına və ya ətraf mühitə real təhlükə yaradan uyğunsuzluqlarla istismar və idarə edilməsinə görə –

fiziki şəxslər üç yüz manat məbləğində, vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir.".

**2.** 315-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 315. Dəniz nəqliyyatı sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyaların tələblərinin pozulması**

**315.1.** Dəniz limanının "Gəmi və liman vasitələrinin mühafizəsi haqqında Beynəlxalq Məcəllə"də nəzərdə tutulmuş sənədlər olmadan fəaliyyət göstərməsinə görə –

vəzifəli şəxslər üç yüz manat məbləğində, hüquqi şəxslər min manat məbləğində cərimə edilir.

**315.2.** "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair Beynəlxalq Konvensiya"nın tələblərinə uyğun müvafiq sertifikata (diploma) malik olmayan şəxsin gəmidə həmin sertifikat (diplom) tələb olunan işlərə buraxılmasına görə –

fiziki şəxslər iki yüz manat məbləğində, vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər iki min manat məbləğində cərimə edilir.

**315.3.** Alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə heyət üzvünün gəmidə növbə çəkməsinə görə –

üç yüz manat məbləğində cərimə edilir."

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 may 2017-ci il
№ 669-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Məhkəmə-Hüquq Şurası haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, «Məhkəmə-Hüquq Şurası haqqında» Azərbaycan Respublikasının Qanununu «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 377-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

«Məhkəmə-Hüquq Şurası haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8, № 8, maddə 686; 2006, № 1, maddə 4; 2007, № 4, maddə 321; 2010, № 7, maddə 596; 2011, № 2, maddə 71, № 6, maddə 484; 2012, № 12, maddə 1228; 2013, № 12, maddə 1467; 2014, № 7, maddə 783; 2015, № 2, maddə 99, № 4, maddə 347, № 11, maddə 1287; 2016, № 12, maddə 2032) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 11.0.1-ci maddədən «, ərazi yurisdiksiyası» sözləri çıxarılsın.

**2.** Aşağıdakı məzmunda 11.0.1-1-ci maddə əlavə edilsin:

**«11.0.1-1.** məhkəmələrin ərazi yurisdiksiyasını müəyyən edir;».

**3.** 12.0.26-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**«12.0.26-1.** birinci instansiya və apelyasiya məhkəmələrinin maliyyə təminatı üçün nəzərdə tutulan xərclər barədə təkliflərə onlar müvafiq icra hakimiyyəti orqanına təqdim edilməzdən əvvəl rəy vermək;».

**4.** Aşağıdakı məzmunda 22.4-cü maddə əlavə edilsin:

**«22.4.** İntizam məsuliyyəti məsələsinə baxılan hakimin öz arzusu ilə vəzifəsindən çıxmaq barədə yazılı ərizəsinə «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun 112-1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılır.».

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 may 2017-ci il
№ 670-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 45-ci maddənin 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

**"1.** Əmək müqaviləsi müddətsiz və ya müddətli bağlanılır. Müddətli əmək müqaviləsi tərəflərin razılaşdığı müddətə bağlanılır."

**1.2.** 73-cü maddənin 1-ci hissəsinin ikinci cümləsində "Müddətli" sözü "Bu Məcəllənin 45-ci maddəsinin beşinci hissəsi nəzərə alınmaqla, müddətli" sözləri ilə əvəz edilsin.

**1.3.** 77-ci maddə üzrə:

**1.3.1.** 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

**"1.** İşçilərin sayı azaldıqda və ya ştatları ixtisar olunduqda bu Məcəllənin 70-ci maddəsinin "b" bəndi ilə işəgötürən tərəfindən əmək müqaviləsi ləğv edilməzdən əvvəl işçi işəgötürən tərəfindən həmin işəgötürənlə bağlanmış əmək müqaviləsinə (əmək müqavilələrinə) uyğun olaraq müəyyən olunan əmək stajından asılı olaraq aşağıdakı müddətlərdə rəsmi xəbərdar edilməlidir:

bir ilədək əmək stajı olduqda – azı iki təqvim həftəsi;

bir ildən beş ilədək əmək stajı olduqda – azı dörd təqvim həftəsi;

beş ildən on ilədək əmək stajı olduqda – azı altı təqvim həftəsi;

on ildən çox əmək stajı olduqda – azı doqquz təqvim həftəsi.";

**1.3.2.** 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

**"3.** Əmək müqaviləsi bu Məcəllənin 70-ci maddəsinin "a" və "b" bəndləri ilə ləğv edilərkən işçiyə işəgötürən tərəfindən həmin işəgötürənlə bağlanmış əmək müqaviləsinə

(əmək müqavilələrinə) uyğun olaraq müəyyən olunan əmək stajından asılı olaraq aşağıdakı məbləğlərdə işdənçıxarma müavinəti ödənilir:

bir ilədək əmək stajı olduqda – orta aylıq əməkhaqqı miqdarında;

bir ildən beş ilədək əmək stajı olduqda – orta aylıq əməkhaqqının azı 1,4 misli miqdarında;

beş ildən on ilədək əmək stajı olduqda – orta aylıq əməkhaqqının azı 1,7 misli miqdarında;

on ildən çox əmək stajı olduqda – orta aylıq əməkhaqqının azı iki misli miqdarında."

**1.3.3.** 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

**"4.** İşəgötürən işçinin razılığı ilə bu maddənin birinci hissəsi ilə müəyyən edilmiş azı iki təqvim həftəsi xəbərdarlıq müddəti əvəzinə orta aylıq əməkhaqqının 0,5 misli, azı dörd təqvim həftəsi xəbərdarlıq müddəti əvəzinə orta aylıq əməkhaqqının 0,9 misli, azı altı təqvim həftəsi xəbərdarlıq müddəti əvəzinə orta aylıq əməkhaqqının 1,4 misli, azı doqquz təqvim həftəsi xəbərdarlıq müddəti əvəzinə orta aylıq əməkhaqqının 2 misli və bu Məcəllənin 56-cı maddəsinin ikinci hissəsi ilə müəyyən edilmiş xəbərdarlıq müddəti əvəzinə orta aylıq əməkhaqqından az olmamaqla əməkhaqqını bir dəfəyə ödəməklə müvafiq əsasla əmək müqaviləsinə xitam verə bilər. Bu halda xəbərdarlıq müddəti ərzində əmək müqaviləsinə xitam verilmiş işçilərə bu hissənin birinci cümləsində nəzərdə tutulmuş xəbərdarlıq müddəti əvəzinə verilən ödəniş xəbərdarlıq müddətinin ötmüş hissəsinə mütənasib olaraq azaldılır.";

**1.3.4.** 5-ci hissə ləğv edilsin;

**1.3.5.** 6-cı hissədə "işçilərin işə düzəldiyi dövr ərzində daha uzun müddətə orta əməkhaqqının saxlanılması, habelə" sözləri çıxarılsın, "üçüncü" sözündən sonra ", dördüncü" sözü əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 may 2017-ci il
№ 675-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, "Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 474-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12, I kitab, maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2, I kitab, maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146; Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 564-VQD nömrəli, 14 aprel tarixli 618-VQD nömrəli, 25 aprel tarixli 640-VQD və 645-VQD nömrəli qanunları) 77.4.2-ci maddəsinə "hallarda" sözündən sonra ", habelə qanun əsasında vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borclar silindikdə" sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 may 2017-ci il
№701-VQD

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ

nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanını "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 366-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 dekabr tarixli 1152 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 1232 nömrəli, 23 fevral tarixli 1258 nömrəli və 2 mart tarixli 1273 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 4.11-1-ci bənd əlavə edilsin:

**"4.11-1.** həmin Məcəllənin 88.1.5-1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti nəzərdə tutulur;".

**2.** 4.47-1-ci bənddə "4.47-1. həmin Məcəlləsinin" sözləri "4.47-2. həmin Məcəllənin" sözləri ilə əvəz edilsin.

**3.** Aşağıdakı məzmunda 4.47-1-ci bənd əlavə edilsin:

**"4.47-1.** həmin Məcəllənin 592-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası (Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəyləri nəzərə alınmaqla) həyata keçirir;".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 aprel 2017-ci il
№ 1316

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Məhkəmə quruluşunda bəzi dəyişikliklər, hakimlərin ümumi sayı və məhkəmələrin ərazi yurisdiksiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 9 avqust tarixli 310 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Məhkəmə quruluşunda bəzi dəyişikliklər, hakimlərin ümumi sayı və məhkəmələrin ərazi yurisdiksiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 9 avqust tarixli 310 nömrəli Fərmanını "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 377-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Məhkəmə quruluşunda bəzi dəyişikliklər, hakimlərin ümumi sayı və məhkəmələrin ərazi yurisdiksiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 9 avqust tarixli 310 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 8, maddə 715; 2013, № 10, maddə 1145) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında ", hakimlərin ümumi sayı və məhkəmələrin ərazi yurisdiksiyası" sözləri "və hakimlərin ümumi sayı" sözləri ilə əvəz edilsin.

**2.** 5-ci hissə və həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin, ağır cinayətlər məhkəmələrinin, inzibati-iqtisadi məhkəmələrinin və hərbi məhkəmələrinin ərazi yurisdiksiyası" ləğv edilsin.

**3.** 8-ci hissədən ", 5-ci" sözləri çıxarılsın.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 aprel 2017-ci il
№ 1324

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 633-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 633-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Müəyyən edilsin ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 201-1-ci maddəsində nəzərdə tutulmuş cinayətə dair işlər üzrə ibtidai istintaq Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən aparılır.

**4.** "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353) aşağıdakı dəyişikliklər edilsin:

**4.1.** 3-cü hissənin beşinci abzasında "193," rəqəmlərindən sonra "201-1," rəqəmləri əlavə edilsin;

**4.2.** 4-cü hissədə "193-cü (Yalançı sahibkarlıq)," sözlərindən sonra "201-1-ci (Hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulması, yaxud belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsi)," sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 may 2017-ci il
№1410

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**

№ 10/14

Bakı şəhəri 13 mart 2017

**"Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın təsdiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə bəzi əmr, qaydalar və təlimatlara dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 23.06.2016-cı il tarixli Fərmanları ilə "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası" və "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi Qaydası" təsdiq edilərək dövlət orqanlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlıq sahəsində yeni prosedur və qaydalar müəyyənləşdirilmişdir.

Bununla əlaqədar Baş Prokurorluq üzrə 01 mart 2017-ci il tarixli 10/13 nömrəli əmr ilə "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat" təsdiq edilmişdir.

Qeyd olunanlarla bağlı, göstərilən sahədə prokurorluq orqanlarının fəaliyyətini tənzimləyən digər əmr, qaydalar və təlimatlara müvafiq dəyişikliklərin edilməsi zərurətini nəzərə alaraq, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında" 01.11.2010-cu il tarixli 10/100 nömrəli əmrdə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** Əmrin 7-ci bəndində "Baş prokurorun 04.12.2001-ci il tarixli 08/160 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının prokurorluq orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat"la" sözləri "Baş prokurorun 01 mart 2017-ci il tarixli 10/13 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat"la" sözləri ilə əvəz edilsin.

**1.2.** Əmrin 13-7-ci bəndində "hər rübdə bir dəfə, növbəti rübün" sözləri "hər altı ayda bir dəfə, növbəti hesabat dövrünün" sözləri ilə əvəz edilsin.

**1.3.** Əmrin 40.1-ci bəndinə "habelə" sözündən sonra "Azərbaycan Respublikasının vitse-prezidentlərindən," sözləri əlavə edilsin.

**1.4.** Əmrin 72-ci bəndində "Hüquqi təminat və informasiya" sözləri "Hüquqi təminat, İnformasiya-kommunikasiya texnologiyaları" sözləri ilə əvəz edilsin.

**1.5.** Əmrin 74-cü bəndi ləğv edilsin.

**2.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 19.01.2010-cu il tarixli 10/11 nömrəli əmrlə təsdiq edilmiş "Rayon (şəhər) prokurorluqlarında işçilər arasında vəzifə bölgüsünün yeni Nümunəvi Forması"nda aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** Formanın "Rayon (şəhər) prokuroru" hissəsinin 22-ci abzasında "(Azərbaycan Respublikası Baş prokurorunun 04.12.2001-ci il tarixli 08/160 N-li əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının prokurorluq orqanlarında kargüzarlığın aparılması qaydaları haqqında" Təlimat)" sözləri "(Azərbaycan Respublikası Baş prokurorunun 01 mart 2017-ci il tarixli 10/13 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat")" sözləri ilə əvəz edilsin.

**2.2.** Formanın "Rayon (şəhər) prokurorunun böyük köməkçisi və köməkçisi" hissəsinin 18-ci abzasında "368, 430-438-ci" rəqəmləri "54, 104.4-104.7 və 128-137-ci" rəqəmləri ilə, "İnzibati xətalar haqqında işlər üzrə icraata prokuror nəzarətinin gücləndirilməsi tədbirləri haqqında" 27.06.2001-ci il tarixli 02/100 N-li əmri" sözləri "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarətinin təşkili barədə" 03.03.2016-cı il tarixli 10/14 nömrəli əmri" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 06.05.2015-ci il tarixli 10/40 nömrəli əmrlə təsdiq edilmiş "Rayon (şəhər) və ərazi hərbi prokurorlarının fəaliyyətinin yoxlanılması Qaydaları"nın 7.23-cü bəndində "368-ci" rəqəmi "54-cü" rəqəmi ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 13.09.2001-ci il tarixli 08/128 nömrəli əmrlə təsdiq edilmiş "Prokurorluğa qulluğa qəbul olunmaq üçün müraciət etmiş şəxslərin sənədlərinin toplanması və yoxlanılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**4.1.** Qaydaların 7.4-cü bəndindən "Ruhani" sözü çıxarılsın.

**4.2.** Qaydaların 13-cü bəndində "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" sözləri "Vətəndaşların müraciətləri haqqında" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 21.12.2001-ci il tarixli 08/173 nömrəli əmrlə təsdiq edilmiş "Azərbaycan Respublikasının prokurorluq orqanlarında təhvil-təslim aparılmasına dair Qaydalar"a aşağıdakı dəyişikliklər edilsin:

**5.1.** Qaydaların 2.6.1 və 2.6.3.1-ci yarımbəndlərində "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası" sözləri "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası"sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 26.06.2002-ci il tarixli 08/61 nömrəli əmrlə icraya yönəldilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında sənədlərin saxlanılmasına dair Siyahı"da aşağıdakı dəyişikliklər edilsin:

**6.1.** Siyahının 1.1-ci bəndində "Azərbaycan Respublikası prokurorluq orqanlarında kargüzarlığın aparılması qaydaları haqqında Təlimata" sözləri, Siyahının 3.4 və 3.11-ci bəndlərində "Prokurorluq orqanlarında kargüzarlığın aparılması qaydaları haqqında" Təlimat" sözləri və Siyahının ikinci bölməsinin 133-cü maddəsində "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılması qaydaları haqqında Təlimat" sözləri ismin müvafiq hallarında "Azərbaycan Respublikası Baş prokurorunun 01 mart 2017-ci il tarixli 10/13 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat" sözləri ilə əvəz edilsin.

**6.2.** Siyahının 3.2, 3.3, 3.5 və 3.6-cı bəndləri aşağıdakı redaksiyada verilsin:

**"3.2.** Sənədlərin dəyərliliyinin ekspertizasının təşkili, metodiki və təcrübi işin keçirilməsi, habelə onların dövlət mühafizəsinə hazırlanması üçün Baş Prokurorluqda Mərkəzi Ekspert Komissiyası (MEK), tabe prokurorluqlarda isə daimi fəaliyyət göstərən ekspert komissiyaları (EK) yaradılır. Struktur qurumlu prokurorluqların struktur qurumlarında ekspert komissiyaları yaradılmır.

**3.3.** Mərkəzi Ekspert Komissiyası Baş prokurorun, tabe prokurorluqların ekspert komissiyaları isə tabe prokurorların əmrlərinə əsasən rəhbər işçilərdən birinin sədrliyi ilə yaradılır. Mərkəzi Ekspert Komissiyasının tərkibinə azı beş nəfər, ekspert komissiyalarının tərkibinə isə azı üç nəfər struktur qurumların, kargüzarlıq xidmətinin və prokurorluğun arxivinin təcrübəli işçiləri daxil edilir.

**3.5.** Mərkəzi Ekspert Komissiyası:

– sənədlərin dəyərləndirilməsinə dair ekspertiza məsələləri üzrə tövsiyələrə baxır və zəruri hallarda həmin tövsiyələri arxiv müəssisələrinin ekspert – yoxlayıcı komissiyalarına təqdim edir;

– işlərin yekun nomenklaturuna baxır və onu təsdiq edir;

– qüvvədə olan siyahıya düşməyən sənədlərin saxlanılması müddətinin müəyyən edilməsi və ayrı-ayrı qəbildən olan sənədlərin saxlanılması müddətinin dəyişdirilməsi haqqında təkliflərə baxır və qərar qəbul edir;

– müvafiq dövlət arxivinə təhvil verilməsi üçün daimi saxlanılan sənədlərin siyahısının illik bölməsinə baxır;

– arxivlə birlikdə prokurorluq işçilərinin peşə ixtisasının yüksəldilməsi üçün müvafiq tədbirlərin hazırlanması və həyata keçirilməsində iştirak edir;

– tabe prokurorluqların ekspert komissiyalarının işlərinə metodiki rəhbərliyi və nəzarəti həyata keçirir, onların fəaliyyətini yoxlayır və mütəmadi olaraq hesabatlarını dinləyir;

– şəxsi heyət üzrə sənədlərin siyahısına baxır və onların razılaşdırılması haqqında qərar qəbul edir;

– itirilmiş və ya bərpası mümkün olmayan zədələnmiş sənədlər barədə aktlara baxır və onların razılaşdırılması haqqında qərar qəbul edir;

– saxlanma müddəti bitmiş sənədlərin məhv edilməsi üçün ayrılmasına dair aktlara baxır və müəyyən edilmiş qaydada həmin sənədlərin məhv edilməsinə razılıq verir;

– Baş Prokurorluğun mərkəzi arxivində saxlanılan sənədlərin saxlanma müddəti bitdikdə onların məhv edilməsi üçün ayrılması məsələsinə baxır.

**3.6.** Tabe prokurorluqların ekspert komissiyaları:

– prokurorluğun arxivində olan sənədlərin dəyərləndirilməsinə dair ekspertiza keçirir;

– hər il saxlanılması və məhv edilməsi üçün sənədlərin seçilməsini təşkil edir və bu barədə aktları mərkəzi ekspert komissiyasına təqdim edir;

– işlərin nomenklaturunun layihələrinə baxır və onları mərkəzi ekspert komissiyasına, zəruri hallarda isə ekspert-yoxlama komissiyasına baxılmağa çıxarır;

– arxivə təhvil verilməsi üçün daimi və uzunmüddətli saxlanılan sənədlərin siyahısının illik bölməsinə və saxlanılmalı olmayan sənədlərin məhv edilməsi aktlarına baxır;

– sənədlərin siyahısının, işlərin nümunəvi nomenklaturunun, kargüzarlığa dair vəsaitlərin hazırlanmasında və baxılmasında iştirak edir;

– itirilmiş və ya bərpası mümkün olmayan zədələnmiş sənədlər barədə aktlara baxır;

– prokurorluq işçilərinin ixtisasının artırılması üçün müvafiq tədbirlərin keçirilməsində iştirak edirlər."

**6.3.** Siyahıya aşağıdakı məzmunda 3.6-1-ci bənd əlavə edilsin:

**"3.6-1.** Ərazi hərbi prokurorluqlarında, habelə Naxçıvan Muxtar Respublikasının və Bakı şəhərinin rayon prokurorluqlarında fəaliyyət göstərən ekspert komissiyaları tərəfindən tərtib edilən sənədlərin məhv edilməsi üçün ayrılmasına dair aktlar Mərkəzi Ekspert Komissiyasına təqdim edilməzdən əvvəl müvafiq yuxarı prokurorluqların (Azərbaycan Respublikası Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının) Müraciətlərə baxılması və Təşkilat-analitik şöbələrində öyrənilir və həmin prokurorluqların rəhbərliyi ilə razılaşdırılır. Həmin aktlar Baş Prokurorluğa müvafiq yuxarı prokurorluqlar tərəfindən təqdim olunur."

**6.4.** Siyahının ikinci bölməsinin 3.1-ci altbölməsində "Gömrük" sözündən əvvəl "Fövqəladə Hallar, Dövlət Sərhəd Xidməti," sözləri əlavə edilsin, "Milli Təhlükəsizlik" sözləri "Dövlət Təhlükəsizliyi" sözləri ilə əvəz edilsin.

**6.5.** Siyahının ikinci bölməsinin 49-cu maddəsinin "a" hissəsində, hər üç sütunda "3 il" sözləri "5 il" sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 18.11.2003-cü il tarixli 08/67 nömrəli əmrlə təsdiq edilmiş "Törədilmiş və ya hazırlanan cinayətlər barədə prokurorluq

orqanlarına daxil olmuş məlumatların qeydiyyatı, baxılması və uçotu qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

**7.1.** Təlimatın 1.4 və 2.5-ci bəndlərində, 3.1-ci bəndin birinci hissəsinin dördüncü cümləsində, həmin Təlimata 1 nömrəli əlavədə "Cinayətlər haqqında prokurorluğa verilən məlumatların qeydiyyatı kitabı" sözləri və Təlimatın 1.10-cu bəndində "Cinayətlər haqqında prokurorluğa verilən məlumatların qeydi kitabı" sözləri "Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların qeydiyyatı kitabı" sözləri ilə əvəz edilsin.

**7.2.** Təlimatın 1.9-cu bəndində "ştamp (əlavə №2)" sözləri "daxil olan sənədlərin qeydiyyatı ştampı" sözləri ilə əvəz edilsin.

**7.3.** Təlimatın 2 №-li əlavəsi çıxarılsın.

**8.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə "Prokurorluq orqanlarında istifadə olunan blank formalarının nümunələrinin təsdiq edilməsi barədə" 23.08.2001-ci il tarixli 08/119 nömrəli əmr ləğv edilsin.

**9.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə "Rayon (şəhər) və ərazi hərbi prokurorluqlarında işin təşkilinin daha da yaxşılaşdırılması tədbirləri haqqında" 18.05.2001-ci il tarixli 02/80 nömrəli əmrin 5.1-ci bəndində nəzərdə tutulmuş "Rayon (şəhər) və ərazi hərbi prokurorluqları tərəfindən görülmüş işlərə dair yarımillik və illik yazılı hesabatlarda əks etdirilən məsələlərin Siyahısı"nın 21-ci bəndində "qəbulu" sözündən sonra ", habelə vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması" sözləri əlavə edilsin.

**10.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin və "Azərbaycan prokurorluğu" jurnalında dərc olunsun.

**Zakir Qaralov**
Azərbaycan Respublikasının Baş prokuroru
I dərəcəli dövlət ədliyyə müşaviri

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**

№ 10/22

Bakı şəhəri 7 aprel 2017

## "Azərbaycan Respublikasının prokurorluq orqanlarında vəzifəli şəxslərin və vətəndaşların xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlarla işləməyə buraxılması ilə bağlı yoxlama tədbirlərinin həcmi və keçirilməsi Qaydası" nın təsdiq edilməsi barədə

"Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 162 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası"na uyğun olaraq Azərbaycan Respublikasının prokurorluq orqanlarında qulluq keçən, dövlət qulluğuna aid vəzifələr tutan və ya əmək müqaviləsi ilə işləyən, habelə prokurorluq orqanlarına qulluğa (işə) qəbul edilən şəxslərin xüsusi əhəmiyyətli, tam məxfi və məxfı məlumatlarla işləməyə buraxılması ilə bağlı yoxlama tədbirlərinin həcminin və keçirilməsi qaydasının müəyyən edilməsi məqsədilə, «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**Ə M R E D İ R Ə M:**

**1.** «Azərbaycan Respublikasının prokurorluq orqanlarında vəzifəli şəxslərin və vətəndaşların xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlarla işləməyə buraxılması ilə bağlı yoxlama tədbirlərinin həcmi və keçirilməsi Qaydası» təsdiq edilsin.

**2.** Azərbaycan Respublikası Baş Prokurorluğunun Kadrlar idarəsi (Azərbaycan Respublikasının Hərbi və Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında həmin prokurorluqların kadrlar şöbələri) tərəfindən bu əmr və Qaydanın icrasının təmin edilməsi üçün zəruri tədbirlər görülsün.

**3.** Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

**4.** Əmr elan olunması üçün Baş Prokurorluğun bütün struktur qurumlarına və tabe prokurorluqlara göndərilməklə «Azərbaycan Prokurorluğu» jurnalında dərc edilsin.

**Zakir Qaralov**
Azərbaycan Respublikasının Baş prokuroru
I dərəcəli dövlət ədliyyə müşaviri

*Azərbaycan Respublikası Baş prokurorunun 07 aprel 2017-ci il tarixli 10/22 nömrəli əmri ilə təsdiqlənmişdir.*

# Azərbaycan Respublikasının prokurorluq orqanlarında vəzifəli şəxslərin və vətəndaşların xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlarla işləməyə buraxılması ilə bağlı yoxlama tədbirlərinin həcmi və keçirilməsi

# QAYDASI

### 1. Ümumi müddəalar

**1.1.** "Azərbaycan Respublikasının prokurorluq orqanlarında vəzifəli şəxslərin və vətəndaşların xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlarla işləməyə buraxılması ilə bağlı yoxlama tədbirlərinin həcmi və keçirilməsi Qaydası" (bundan sonra – Qayda) "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 21.5-1-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 162 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası"nın (bundan sonra – "Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası") 4-cü bəndinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasının prokurorluq orqanlarında qulluq keçən, dövlət qulluğuna aid vəzifələr tutan və ya əmək müqaviləsi ilə işləyən, habelə prokurorluq orqanlarına qulluğa (işə) qəbul edilən şəxslərin (bundan sonra – yoxlanılan şəxs) xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlarla işləməyə buraxılması ilə bağlı yoxlama tədbirlərinin həcmini və keçirilməsi qaydasını müəyyən edir.

**1.2.** Azərbaycan Respublikasının prokurorluq orqanlarında yoxlanılan şəxsin xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlarla işləməyə buraxılması ilə bağlı yoxlama tədbirləri Azərbaycan Respublikası Baş Prokurorluğunun Kadrlar idarəsi (Azərbaycan Respublikasının hərbi və Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında həmin prokurorluqların kadrlar şöbələri) tərəfindən həyata keçirilir.

### 2. Yoxlama tədbirlərinin həcmi

**2.1.** Dövlət sirri ilə işləməyə buraxılan yoxlanılan şəxs barəsində keçirilən yoxlama tədbirlərinin həcmi "Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası"nın 13-cü bəndinə uyğun olaraq hazırlanan vəzifələr nomenklaturuna əsasən təyin edilir.

**2.2.** "Xüsusi əhəmiyyətli" və "tam məxfi" məlumatlarla işləməyə buraxılan yoxlanılan şəxs barəsində yoxlama tədbirləri Qanunun 23.1-ci maddəsində nəzərdə tutulmuş əsasların olub-olmamasını müəyyən etmək məqsədilə keçirilir.

**2.3.** "Xüsusi əhəmiyyətli" məlumatlarla işləməyə buraxılan yoxlanılan şəxs barəsində keçirilən yoxlama tədbirləri əlavə olaraq aşağıdakı məsələləri əhatə etməlidir:

**2.3.1.** bu Qaydanın 2.2-ci bəndi ilə nəzərdə tutulmuş əsasların müəyyənləşdirilməsini;

**2.3.2.** yoxlanılan şəxsin anket məlumatlarını təsdiq edən sənədlərin (şəxsiyyət vəsiqəsi, attestat, diplom və s.) həqiqiliyinin onu vermiş dövlət orqanından əldə edilmiş informasiya əsasında və (və ya) texniki-kriminalistik metodlarla müəyyənləşdirilməsini;

**2.3.3.** yoxlanılan şəxs barədə yoxlamanın məqsədləri üçün əhəmiyyətli hesab edilən digər məlumatların (xaricə səfərlər, hərbi xidmət, xaricdə daimi yaşayan qohumların olması, yaxın qohumları və s. haqqında) doğruluğunun müvafiq dövlət orqanlarından əldə edilmiş informasiya əsasında müəyyənləşdirilməsini.

**2.4.** "Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası"nın 26-cı bəndinə müvafiq olaraq yoxlanılan şəxsin təqdim etdiyi məlumatların doğruluğuna əsaslı şübhələr olduğu halda "məxfi" məlumatlarla işləməyə buraxılan həmin yoxlanılan şəxs barəsində yoxlama tədbirləri bu Qaydanın 2.2-ci bəndi ilə müəyyən edilmiş həcmdə keçirilir.

### 3. Yoxlama tədbirlərinin keçirilməsi qaydası

**3.1.** Yoxlama tədbirləri dövlət sirri ilə işləməyə buraxılacaq yoxlanılan şəxsin yazılı razılığı ilə keçirilir.

Yoxlanılan şəxsin barəsində yoxlama tədbirlərinin keçirilməsinə dair razılığı onun tərəfindən təqdim edilən anketlə rəsmiləşdirilir.

**3.2.** Yoxlanılan şəxsin prokurorluq orqanlarına qulluğa (işə) qəbulu ilə bağlı keçirilən yoxlama tədbirləri Qanunun 23.1-ci maddəsi ilə müəyyən edilmiş əsasların aşkar edilməsini əhatə edirsə, tədbirlərin həcmi isə şəxsin işləməyə buraxılacağı məlumatın məxfilik dərəcəsinə uyğundursa onun dövlət sirri ilə işləməyə buraxılması haqqında qərar bu yoxlamanın nəticələri əsasında qəbul edilir və əlavə yoxlama tədbirləri keçirilmir.

**3.3.** Yoxlanılan şəxsin prokurorluq orqanlarına qulluğa (işə) qəbulu ilə bağlı keçirilən yoxlama tədbirləri Qanunun 23.1-ci maddəsi ilə müəyyən edilmiş əsasların aşkar edilməsini əhatə etmədikdə həmin şəxs barəsində əlavə yoxlama tədbirlərinin keçirilməsi Baş Prokurorluğun Kadrlar idarəsi (Azərbaycan Respublikasının hərbi və Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında həmin prokurorluqların kadrlar şöbələri) tərəfindən təmin edilir və yalnız bundan sonra onun dövlət sirri ilə işləməyə buraxılıb-buraxılmaması haqqında qərar qəbul edilir.

**3.4.** "Xüsusi əhəmiyyətli" və "tam məxfi" məlumatlarla işləməyə buraxılışla bağlı yoxlama tədbirləri "Vəzifəli

şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası"nın 19-cu bəndinə uyğun olaraq təqdim edilmiş sənədlər əsasında, məxfi məlumatlarla işləməyə buraxılışla bağlı yoxlama tədbirləri isə adıçəkilən Qaydanın 24-cü bəndinə uyğun olaraq təqdim edilmiş sənədlər əsasında keçirilir.

**3.5.** Yoxlanılan şəxs barəsində informasiya dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi üçün əsas verən məlumatların aid olduğu hər hansı vəzifəli şəxs və ya vətəndaşların mərkəzləşdirilmiş uçotunu aparan dövlət hakimiyyəti orqanlarına və digər aidiyyəti dövlət orqanlarına, idarə, müəssisə və təşkilatlara göndərilən müvafiq yazılı sorğular əsasında əldə edilir.

**3.6.** Dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi üçün əsas verən məlumatların aid olduğu hər hansı vəzifəli şəxs və ya vətəndaşların mərkəzləşdirilmiş uçotunu aparan və məlumat bazasını yaradan dövlət hakimiyyəti orqanları "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikasi Prezidentinin 2004-cü il 05 noyabr tarixli 139 nömrəli Fərmanının 3.9-cu bəndi ilə müəyyən olunur.

**3.7.** Yazılı sorğuda yoxlanılan şəxsin soyadı, adı, atasının adı, doğulduğu il, ay, gün, doğulduğu yer, yaşadığı ünvan, sorğunun əsası və məqsədi, sorğulanan informasiyanın təqdimedilmə forması, habelə sorğuçunun əlaqə məlumatları (poçt və ya elektron poçt ünvanı, telefon və ya telefaks nömrəsi) göstərilir.

**3.8.** Qanunun 23.1-ci maddəsi ilə müəyyən edilmiş əsasların olub-olmamasının müəyyənləşdirilməsi ilə bağlı yazılı sorğular "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 05 noyabr tarixli 139 nömrəli Fərmanının 3.9-cu bəndi ilə müəyyən edilmiş aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına, təqdim edilmiş məlumatların doğruluğunun müəyyənləşdirilməsi ilə bağlı yazılı sorğular isə aidiyyəti digər dövlət orqanlarına, idarə, müəssisə və təşkilatlara göndərilir. Sorğuların göndərilməli olduğu digər dövlət orqanları, idarə, müəssisə və təşkilatların dairəsi Baş Prokurorluğun Kadrlar idarəsinin rəisi (Azərbaycan Respublikasının hərbi və Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında həmin prokurorluqların kadrlar şöbələrinin rəisi) tərəfindən müəyyən edilir.

Qanunun 23.1.7-ci maddəsi ilə nəzərdə tutulmuş əsasın olub-olmamasının müəyyənləşdirilməsi "Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası"nın 1-ci bəndinin 3-cü abzası nəzərə alınmaqla və bu Qaydanın 3.11-ci bəndi ilə müəyyən edilmiş müddətdə həyata keçirilir.

**3.9.** Yoxlamanın məqsədləri üçün informasiya texnologiyalarının imkanlarından, fərdi məlumatların toplandığı informasiya sistemlərindən və ehtiyatlarından müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada istifadə edilə bilər.

**3.10.** Yoxlama tədbirlərinin keçirilməsi ilə bağlı yazılı sorğu vermək və belə sorğuları cavablandırmaq səlahiyyəti verilmiş vəzifəli şəxslər Baş Prokurorluğun Kadrlar idarəsinin rəisi (Azərbaycan Respublikasının hərbi və Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında həmin prokurorluqların kadrlar şöbələrinin rəisi) tərəfindən müəyyən edilir.

**3.11.** Yoxlama tədbirlərinin keçirilməsi ilə bağlı informasiya əldə edilməsinə dair yazılı sorğu ən qısa müddətdə, lakin 7 iş günündən gec olmayaraq icra edilir.

**3.12.** Yoxlama tədbirlərinin nəticələri barədə yekun rəy Azərbaycan Respublikasının Baş prokuroru və ya onun səlahiyyət verdiyi vəzifəli şəxs tərəfindən imzalanır.

**3.13.** Yoxlama tədbirləri nəticəsində yoxlanılan şəxs barəsində Qanunun 23.1-ci maddəsində göstərilən əsaslar aşkar edildikdə bu barədə əsaslar göstərilməməklə, yoxlama tədbirlərinin keçirilməsi üçün sənədləri təqdim etmiş tərəfə məlumat (rəy) verilməlidir.

Yoxlanılan şəxsin dövlət sirri ilə işləməyə buraxılmaqdan imtina edilməsi və ya buraxılışına xitam verilməsi barədə qərar bu rəy əsasında qəbul edilməlidir.

**3.14.** Yoxlama tədbirləri nəticəsində yoxlanılan şəxs barəsində Qanunun 23.1-ci maddəsində göstərilən əsaslar aşkar edilmədikdə yoxlamanın nəticəsinə dair qeyd və yoxlanılan şəxsin müvafiq məxfilik dərəcəli məlumatlarla işləməyə buraxılması barədə qərar "Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası"nın 20-22-ci və 24-cü bəndlərinə uyğun rəsmiləşdirilir.

**3.15.** Dövlət sirri ilə işləməyə buraxılmaqdan imtina edilməsi barədə qərardan yoxlanılan şəxsin şikayət etmək hüququ vardır.

**3.16.** Yoxlanılan şəxs barəsində keçirilən yoxlama tədbirləri prosesində əldə edilmiş (hazırlanmış) sənədlər dəst şəkildə, ayrıca qovluqda, kənar şəxslər tərəfindən əldə edilməsini istisna edən yerdə saxlanılmalıdır.

**3.17.** Qovluqların uçot forması bu Qayda ilə müəyyən edilmiş jurnal (əlavə 1) üzrə, qovluğa daxil edilmiş sənədlərin uçotu isə həmin qovluğun daxili siyahısı üzrə aparılır.

**3.18.** Yoxlama prosesi başa çatdıqdan sonra qovluq yoxlamanı həyata keçirmiş şəxs tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 179 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası"nın tələblərinə uyğun olaraq bağlanır.

Dövlət sirri ilə işləməkdən imtina edilməsinə əsasların aşkar edilmədiyi yoxlanılan şəxsin qovluğunun nömrəsi onun dövlət sirri ilə işləməyə buraxılışının nömrəsi, qovluğun bağlanma tarixi isə buraxılışın tarixi sayılır. Buraxılışın nömrəsi və tarixi "Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası" ilə müəyyən edilmiş buraxılış vərəqəsinin (forma 3) 7-ci sütununda qeyd edilir və Baş Prokurorluğun Kadrlar İdarəsinin rəisinin (Azərbaycan Respublikasının hərbi və Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında həmin prokurorluqların kadrlar şöbələrinin rəisinin) imzası və idarənin (şöbənin) möhürü ilə təsdiq edilir.

Belə sənədlərin məxfilik (məhdudiyyət) qrifləri və müddətləri, habelə saxlanma müddətləri dövlət sirri və arxiv işi haqqında qanunvericiliklərə uyğun olaraq müəyyən edilir.

*Azərbaycan Respublikası Baş prokurorunun*
*07 aprel 2017-ci il tarixli 10/22 nömrəli*
*əmri ilə təsdiq edilmiş Qaydaya əlavə № 1*

**Yoxlama tədbirlərinə dair qovluqların uçotu**
**JURNALI**

| Qeydə alınma №-si | Qeydə alınma tarixi | Qovluq kimin barəsindədir | Qovluğun bağlama tarixi | Qovluğun aparılmasına və saxlanılmasına məsul şəxsin | | Qeyd |
|---|---|---|---|---|---|---|
| | | | | adı və soyadı | imzası | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Qeyd: 1.** Qovluğa ilk sənədin tikildiyi tarix onun açılma tarixidir.
**2.** Qovluq açıldığı andan uçota götürülür.
**3.** Qovluğun açılmasına və saxlanılmasına məsul şəxs Kadrlar idarəsinin (şöbəsinin) rəisi tərəfindən təyin edilir.
**4.** Qovluğun hərəkəti və ya məhv edilməsi barədə qeydlər 7-ci sütunda aparılır və məsul şəxsin imzası ilə təsdiqlənir.

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**

№ 10/41

Bakı şəhəri 31 may 2017

**"Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamının icrası ilə əlaqədar Baş Prokurorluq üzrə bəzi əmrlərə dəyişikliklər edilməsi haqqında**

Ölkədə ictimai həyatın bütün sahələrini əhatə edən sistemli islahatlar, dövlət idarəçiliyinin müasirləşdirilməsi üzrə ardıcıl tədbirlər hüquq sisteminin ən yüksək beynəlxalq standartlara uyğun formalaşdırılmasına və müasir dövrün tələbləri səviyyəsində təkmilləşdirilməsinə zəmin yaradaraq bu istiqamətlərdə görülən işlərin səmərəliliyinin artırılmasını zəruri etmişdir.

İbtidai istintaq və məhkəmə icraatı zamanı böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə həbs qətimkan tədbirinin geniş tətbiq edilməsi, habelə həmin cinayətlərə görə azadlıqdan məhrum etmə növündə cəzanın dinamikasının artması məhkumların sayının çoxalmasına və penitensiar müəssisələrin yüklənməsinə səbəb olmuşdur. Bununla əlaqədar olaraq, cəzanı icra edən orqan və müəssisələrdə mövcud olan nöqsanların aradan qaldırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin tam təmin olunması, bu sahədə müasir texnoloji vasitələrin tətbiq edilməsi və cəza siyasətinin humanistləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən imzalanmış "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli proqram xarakterli Sərəncam cinayət təqibi və cəzaların icrası ilə əlaqədar aparılan hüquqi islahatların yeni mərhələsinin əsaslarını müəyyən etmişdir.

Sərəncamdan irəli gələn, prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin tam və dəqiq yerinə yetirilməsi, cəza siyasətinin liberallaşdırılması, cinayət təqibi ilə əlaqədar fəaliyyətin səmərəli təşkil edilməsi məqsədilə Azərbaycan Respublikası Baş Prokurorluğu üzrə müəyyən əmrlərə müvafiq dəyişikliklərin edilməsi zərurəti vardır.

Cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən

təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi ilə əlaqədar prokurorluq orqanlarının fəaliyyətinin düzgün və səmərəli həyata keçirilməsi məqsədilə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** "Prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyinin səmərəliliyinin artırılması, istintaq və təhqiqat üzərində nəzarətinin gücləndirilməsi və bu sahədə işin daha da təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Baş prokurorunun 28.07.2010-cu il tarixli 10/70 nömrəli əmrinə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** Əmrə aşağıdakı məzmunda 2.1-1, 2.1-2, 2.1-3, 2.1-4 və 2.1-5-ci bəndlər əlavə edilsin:

**"2.1-1.** Cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi, böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə həbslə bağlı olmayan qətimkan tədbirlərinin seçilməsi ilə əlaqədar cinayət-prosessual qanunvericiliyinin imkanlarından daha səmərəli istifadə edilməsi, bu sahədə təcrübənin təkmilləşdirilməsi məqsədilə ibtidai araşdırma mərhələsində həbs qətimkan tədbirinin seçilməsi üçün təqdimatların xüsusi qaydada razılaşdırılması tələb olunan böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə məsuliyyət nəzərdə tutan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin maddələrinin siyahısı (bundan sonra – Siyahı) təsdiq edilsin *(Əlavə №1 – əmrə əlavə olunur).*

**2.1-2.** Siyahıda qeyd olunan cinayətlər üzrə təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxslər haqqında ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar tərəfindən həbs qətimkan tədbirinin seçilməsi barədə təqdimatların məhkəmələrə verilməsinə müstəsna hallarda yol verilsin.

**2.1-3.** Siyahıda qeyd olunan cinayətlər üzrə təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxslər haqqında Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 155-157-ci maddələrində nəzərdə tutulmuş əsaslar və hallar mövcud olduqda ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar tərəfindən həbs qətimkan tədbirinin seçilməsi barədə təqdimatların yalnız zərurət yarandığı müstəsna hallarda onun səbəbləri və əsaslılığı müstəntiqin, istintaq orqanının rəisi, idarə və ya şöbə prokurorunun, prosessual rəhbərliyi həyata keçirən prokurorun, idarə və ya şöbə rəisinin (Baş Prokurorluqda – Baş prokurorun müvafiq köməkçisinin) iştirakı ilə Azərbaycan Respublikası Baş prokurorunun birinci müavininin (Azərbaycan Respulikasının Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikasının Hərbi və Bakı şəhər prokurorluqlarında isə müvafiq yuxarı prokurorların) yanında müzakirə olunduqdan, müzakirənin nəticələrinə əsasən müvafiq rəy (forma №3) Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini (Azərbaycan Respublikası Hərbi prokurorunun müavini, Naxçıvan Muxtar Respublikası prokurorunun müavini, Naxçıvan Muxtar Respublikasının Hərbi prokuroru və Bakı şəhər prokuroru) tərəfindən təsdiq edildikdən sonra məhkəmələrə verilməsi, istintaqın qısa müddətdə yekunlaşdırılması üçün lazımi prosessual, təşkilati və digər tədbirlərin müəyyənləşdirilməsi və bu müzakirələrin gedişinin protokollaşdırılması təmin edilsin. Bu qəbildən olan cinayətlər üzrə zərurət yarandığı müstəsna hallarda həbs qətimkan tədbirinin müddətinin uzadılması barədə ibtidai araşdırmaya prosessual rəhbərlik edən prokurorlar tərəfindən təqdimatların səbəbləri və əsaslılığının müzakirəsi bu bənddə müəyyən olunmuş qaydada həyata keçirilsin.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən ibtidai istintaqı aparılan cinayət işləri üzrə bu qəbildən olan müzakirələrin həmin işlər üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror yanında keçirilməsi təmin olunsun.

**2.1-4.** Siyahıda qeyd olunmayan böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə qətimkan tədbiri seçilməsinə zərurət olarsa, bir qayda olaraq həbslə bağlı olmayan qətimkan tədbirlərinin seçilməsi təmin edilsin. Bu qəbildən olan cinayətlərə görə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 155-157-ci maddələrində nəzərdə tutulmuş əsaslar və hallar mövcud olduğu, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan prosessual məcburiyyət tədbirləri lazımi nəticə verməyəcəyinə dair əsasların olduğu müstəsna hallarda həbs qətimkan tədbirinin seçilməsi barədə təqdimatların məhkəmələrə verilməsi məsələsinə baxılsın.

**2.1-5.** Yuxarı prokurorluqlara daxil olan böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə həbs qətimkan tədbirinin seçilməsi və ya lüzumsuz uzadılması barədə şikayətlərə həmin prokurorluqların aidiyyəti struktur qurumlarında baxılması zamanı müvafiq cinayət işlərinin yuxarı prokurorluqların rəhbərliyi yanında müzakirə olunması təmin edilsin."

**1.2.** Əmrə aşağıdakı məzmunda 12.11-1-ci bənd əlavə edilsin:

**"12.11-1.** İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar tərəfindən həbs qətimkan tədbirinin uzadılması barədə vəsatətlərə baxılarkən, həbsin qüvvədə saxlanılması əsaslarının öz əhəmiyyətini itirib-itirməməsi, bu müddətin uzadılmasının zəruriliyi və bundan ötrü kifayət qədər əsasların olub-olmamasının ciddi araşdırılmasını, həbs müddətinin zərurət olmadan lüzumsuz uzadılması, təqsirləndirilən şəxslərin davamlı olaraq həbsdə saxlanılması üçün yeni əsasların göstərilmədiyi və ya bu müddətin uzadılmasına əsasların kifayət qədər olmaması müəyyən edildikdə, qanunvericiliklə müəyyən olunmuş qaydada onun dəyişdirilib başqa qətimkan tədbiri ilə əvəz olunmasını, cinayət işləri üzrə ibtidai istintaqın qısa müddətdə başa çatdırılması üçün zəruri tədbirlərin görülməsini;".

**1.3.** Əmrin 12.12-ci bəndi aşağıdakı resaksiyada verilsin:

"təqsirləndirilən şəxsin barəsində həbs qətimkan tədbirinin seçilməsi məsələsinə baxılarkən onun ittiham edilən cinayət əməlinin törədilməsinə aidiyyətinin olub-olmamasının yoxlanılmasını, Azərbaycan Respublikası CPM-nin 155-ci maddəsində göstərilən prosessual əsasların konkret təqsirləndirilən şəxsə münasibətdə mövcudluğunun nədən ibarət olmasını və cinayət işinin materialları ilə

təsdiq edilib-edilməməsini araşdırmaqla, törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi təqsirləndirilən şəxsə istinad edilən cinayət əməlinin maddi ziyanla əlaqədar olub-olmamasını, onun tərəfindən həmin maddi ziyanın ödənilib-ödənilməməsinin aydınlaşdırılmasını, maddi ziyan tamamilə ödənildiyi halda (Əlavə №1-də əks olunmayan və zorakı cinayətlər hesab edilməyən maddi ziyanla əlaqədar digər cinayətlər üzrə), eləcə də, onun şəxsiyyətini səciyyələndirən məlumatlar, o cümlədən yaşı, ailə vəziyyəti, məşğulluq növü, sağlamlığı və bu kimi digər hallar nəzərə alınmaqla ilk növbədə digər qətimkan tədbirlərinin seçilməsi mümkünlüyünün araşdırılmasını, həmçinin digər qətimkan tədbirlərinin seçilməsinin qeyri-mümkün olduğuna dair dəlillərin yoxlanılmasını;"

**1.4.** Əmrə aşağıdakı məzmunda 12.12-1-ci bənd əlavə edilsin:

**"12.12-1.** Əvvəllər Azərbaycan Respublikası CPM-nin 155-ci maddəsində nəzərdə tutulan əsaslar mövcud olduğuna görə barəsində həbs qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxsə istinad edilən cinayət əməli maddi ziyanla bağlı olduqda (Əlavə №1-də əks olunmayan və zorakı cinayətlər hesab edilməyən maddi ziyanla əlaqədar digər cinayətlər üzrə) və həbsdə olduğu müddətdə həmin ziyan ödənildikdə onun barəsində həbs qətimkan tədbiri seçilərkən müəyyən edilmiş əsaslar aradan qalxdığı halda, şəxsin barəsində seçilmiş həbs qətimkan tədbirinin ləğv edilməsi barədə təqdimatla məhkəməyə müraciət edilməsi və qərar ləğv edildiyi təqdirdə həbslə bağlı olmayan digər qətimkan tədbirinin seçilməsi üçün müvafiq tədbirlər görülməsi məsələsinə baxılması;"

**1.5.** Əmrin 19-cu bəndində "Böyük ictimai təhlükə törətməyən cinayətlərə dair işlər üzrə təqsirləndirilən şəxslərin barəsində həbs qətimkan tədbirinin seçilməsinə müstəsna hallarda yol verilsin," sözləri çıxarılsın, "az ağır," sözləri "Az ağır, (Əlavə №1-də əks olunmayan),"sözləri ilə əvəz edilsin.

**1.6.** Əmrə aşağıdakı məzmunda 24-1-ci bənd əlavə edilsin:

**"24-1.** Baş Prokurorluğun (Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikasının Hərbi prokurorluqlarının) ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən bütün struktur qurumlarının rəhbərləri və bütün tabe prokurorlar ayrı-ayrı cinayətlər üzrə, habelə ümumilikdə həbs qətimkan tədbirinin seçilməsi vəziyyətinin yarımillik və illik ümumiləşdirilməsini, bu sahədə dinamikanın müfəssəl təhlilini aparmaqla, müvafiq arayışları növbəti hesabat dövrünün ilk 15 günündən gec olmayaraq Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinə təqdim olunmasını təmin etsinlər."

**2.** "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında" 01.11.2010-cu il tarixli 10/100 nömrəli əmrə aşağıdakı məzmunda 24-1-ci bənd əlavə edilsin:

**"24-1.** Böyük ictimai təhlükə törətməyən və az ağır, habelə iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə əsassız həbs qətimkan tədbirinin seçilməsi və ya həbs qətimkan tədbirinin lüzumsuz uzadılması ilə nəticələnən süründürməçilik və istintaqın hərəkətsizliyi hallarına yol verilməsi barədə müraciətlərin ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar tərəfindən təxirəsalınmadan araşdırılmaqla zəruri tədbirlərin görülməsi, bu növ müraciətlər yuxarı prokurorluqlara daxil olduqda onların dərhal həmin prokurorluqların rəhbərliyinə təqdim edilməklə xüsusi nəzarətə götürülməsi təmin edilsin."

**3.** "Cinayət mühakimə icraatında ictimai və ictimai-xüsusi ittihamın müdafiəsi üzrə prokurorluğun fəaliyyətinin təşkilinin təkmilləşdirilməsi tədbirləri barədə" 27 yanvar 2005-ci il tarixli, 08/8-09/2s nömrəli əmrə aşağıdakı məzmunda dəyişikliklər edilsin:

**3.1.** Əmrə aşağıdakı məzmunda 15-2-ci bənd əlavə edilsin:

**"15-2.** Təqsirləndirilən şəxslər barəsində seçilmiş həbs qətimkan tədbirinin cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş əsaslarının mövcud olub-olmaması dövlət ittihamçıları tərəfindən birinci və apellyasiya instansiyası məhkəmələrinin müvafiq olaraq hazırlıq və ilkin baxış iclaslarında müəyyən edilsin, zəruri hallarda, həbs qətimkan tədbirinin dəyişdirilməsi və ya ləğv edilməsi barədə məhkəmələrə əsaslandırılmış vəsatətlə müraciət edilsin."

**3.2.** Əmrə aşağıdakı məzmunda 18-2-ci bənd əlavə edilsin:

**"18-2.** Məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittiham öz təsdiqini tapdığı hallarda dövlət ittihamçısı tərəfindən məhkəməyə cəzanın növü və həddi ilə əlaqədar təklif irəli sürülərkən həmin cəzanın məhkumun islah olunması və yeni cinayətlərin törədilməsinin qarşısının alınması məqsədinə xidmət etməsi əsas götürülsün, həmçinin cəzanın təyin edilməsi əsaslarına dair Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 58.1-ci maddəsinin tələblərinə riayət olunmasına xüsusi diqqət yetirilsin.

Törədilən əməlin ictimai təhlükəliliyi maddi ziyanla bağlı olan hallarda vurulmuş ziyan tamamilə və ya ən azı yarısı ödənildikdə, həbs qətimkan tədbirinin dəyişdirilməsi və şəxsi cəmiyyətdən təcrid etmədən cəzanın məqsədlərinə nail olmaq üçün azadlıqdan məhrum etməyə alternativ cəzaların təyin olunmasına, eləcə də qanuni əsaslar olduqda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 62 və ya 70-ci maddələrinin tətbiqinə dair məhkəməyə təkliflərin edilməsinə üstünlük verilsin."

**3.3.** Əmrə aşağıdakı məzmunda 19-1-ci bənd əlavə edilsin:

**"19-1.** Dövlət ittihamçıları tərəfindən məhkəmənin hökm və qərarından yuxarı instansiya məhkəməsinə protestin cinayət, cinayət-prosessual və digər qanunvericilik normalarına əməl edilməklə, konkret dəlillərlə əsaslandırılmaqla və qanunla nəzərdə tutulmuş müddətlərdə və yalnız Baş prokurorun müavininə (Azərbaycan Respulikası Hərbi prokuroruna, Naxçıvan Muxtar Respublikası prokuroruna və Naxçıvan Muxtar Respublikası Hərbi prokuroruna) məruzə edildikdən sonra verilməsi təmin edilsin.

Böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə dair işlər üzrə cəzanın yüngüllüyündən protestlərin verilməsinin zəruriliyi və əsaslılığına xüsusi diqqət yetirilsin."

**3.4.** Əmrin 1a nömrəli əlavəsinə aşağıdakı məzmunda 13-1-ci bənd əlavə edilsin:

**"13-1.** Cinayət işi üzrə qətimkan tədbirinin dəyişdirilməsi, ləğv edilməsi və ya seçilməsi üçün əsasların olub-olmaması

(böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə dair işlər üzrə seçilmiş həbs qətimkan tədbirinin əsaslılığına xüsusi diqqət yetirilməsi).”

**3.5.** Əmrin 1b nömrəli əlavəsinin 9-cu bəndində “azadlıqdan” sözündən əvvəl “böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə dair işlər üzrə seçilmiş həbs qətimkan tədbirinin əsaslılığına, habelə” sözləri əlavə edilsin.

**4.** “Məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında prokurorluğun iştirakının səmərəliliyinin artırılması barədə” 7 fevral 2005-ci il tarixli 08/16 nömrəli əmrin 9-cu bəndinə aşağıdakı məzmunda sonuncu cümlə əlavə edilsin:

“Cəzaçəkmə müəssisəsinin müsbət mülahizəsi məhkumun şəxsi işi, proses iştirakçılarının izahatları və digər sənədlərlə təsdiq olunduqda, habelə törədilən əməlin ictimai təhlükəliliyi maddi ziyanla bağlı olan hallarda və zərər vurulmuş ziyan tamamilə ödənildikdə və ya zərərçəkmiş şəxsin barışıq ərizəsi olduqda yekun çıxış zamanı prokuror tərəfindən müraciətin təmin olunması barədə məhkəməyə təklif irəli sürülməsinə üstünlük verilsin.”

**5.** Əmr elan və icra olunması üçün Azərbaycan Respublikası Prokurorluğunun bütün struktur qurumlarına göndərilsin.

**Zakir Qaralov**
Azərbaycan Respublikasının Baş prokuroru
I dərəcəli dövlət ədliyyə müşaviri

Forma № 3
*Azərbaycan Respublikası Baş prokurorunun 31.05.2017-ci il tarixli 10/41 №-li əmri ilə təsdiq edilmişdir.*

**Təsdiq edirəm:**

**Azərbaycan Respublikasının Baş prokuroru**
**(Azərbaycan Respulikasının Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikasının Hərbi prokurorları)**

**R Ə Y**

**(həbs qətimkan tədbirinin seçilməsi barədə təqdimatın əsaslılığına dair)**

____________________________________________________________

İstintaq orqanının adı müstəntiq

____________________________________________________________

Cinayət işinin №-si CM-nin maddəsi

____________________________________________________________

**İşin qısa fabulası**

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

**Həbs qətimkan tədbirinin seçilməsinə zərurət yaradan müstəsna halların, habelə həbslə bağlı olmayan qətimkan tədbirlərinin seçilməsini istisna edən səbəblərin əsaslandırılması**

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

**Süründürməçilik, kobud qanun pozuntuları hallarının olub-olmaması**

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

**Rayon (şəhər, ərazi hərbi) prokuroru** ____________________________

**İdarə (şöbə) prokuroru** ________________________________________

**İdarə (şöbə) rəisi** ____________________________________________

**Yuxarı prokuror** ______________________________________________

*Əlavə №1*
*Azərbaycan Respublikası Baş prokurorunun*
*31.05.2017-ci il tarixli 10/41 №-li əmri ilə təsdiq edilmişdir.*

**İbtidai araşdırma mərhələsində həbs qətimkan tədbirinin seçilməsi üçün təqdimatların xüsusi qaydada razılaşdırılması tələb olunan böyük ictimai təhlükə törətməyən və az ağır cinayətləri nəzərdə tutan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin maddələrinin**
**s i y a h ı s ı**

123.1, 127.1, 128, 129, 130, 131, 134, 138.1, 139.1, 140.1, 142.1, 142.2, 143, 154.2, 156.2, 157.2, 158.2, 162.1, 162-1, 165.2, 165-1.2, 165-2.2, 165-3.2, 166.2, 169-1, 170.1, 174, 175, 176-1.1, 177.1, 177.2.3-1, 178.1, 178.2.1, 178.2.2, 178.2.3, 178.2.4, 178.3.2[1], 179.1, 179.2.1, 179.2.3, 179.2.4, 184.1, 184.2, 184.3.2, 185.1, 186.1, 187, 188.1, 188.2, 189-1.2, 189-1.3, 192.1, 192-1.1, 192-1.2, 193.1, 194.1-1, 195.1, 195-1.1, 195-1.2, 196, 197, 198, 200.2, 200.3, 200-1.1, 200-1.2, 200-2.1, 200-2.2, 201.1, 202, 202-1.2, 202-2.1, 203, 205-2, 206.1, 209, 210, 211.1, 212.1, 213.1, 213-1.1, 213-1.3, 213-1.4, 213-2, 213-3.1, 221.1, 221.2, 221.3 (bilavasitə silah və ya fiziki xassələri insan həyatı və sağlamlığı üçün real təhlükə yaradan əşyalar tətbiq edilməsi halları istisna edilməklə), 222.1, 222.2, 222-1.1, 222-1.2, 222-2.1, 223.1, 224-2, 225.1, 228.4, 229.4, 230, 233-2, 233-3, 234.1[2], 234.3, 234.5, 237.1, 239, 240.4, 242, 243.1, 244.1, 246, 248.1, 249, 250.1, 250.2, 251.1, 251.2, 252.2, 253.1, 254.2, 256.2, 258.2, 259.1, 259.2.4, 260.1, 261, 262.1, 262.1-1, 263.1, 263.1-1 (yol nəqliyyat hadisəsi yerindən qaçma ilə müşayiət olunmadıqda), 263-1.1, 265.1, 265-1.1, 266.1, 267.1, 268.1, 269, 270, 271.1, 272.1, 273.1, 273.2, 273-1.1, 273-1.2, 273-1.3, 273-2, 286.1, 286.2, 289, 293.1, 294.1, 296.1, 297.1, 298, 299.1, 300, 301.1, 302.1, 303.1, 306.1, 307.1, 308.1, 309.1, 310, 312.1, 312-1.1, 313, 314.1, 314-1.1, 314-2.1, 314-3.1, 314-3.2, 316.1, 316-1.2, 317-1.1, 319.1, 320, 321.1, 322, 325, 326, 328.1, 330.1, 332.1, 333.3, 337, 339.1, 342.1.

**Qeyd:** [1] CM-nin 178.3.2-ci maddəsi ilə nəzərədə tutulmuş cinayətlərə görə ziyanın ən azı yarısı ödənildikdə və ya aradan qaldırıldıqda;
[2] Əvvəllər narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə və ya oğurluq, dələduzluq, soyğunçuluq, quldurluq və hədə-qorxu ilə tələb etmə cinayətlərinə görə məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər, habelə narkoloji dispanserdə, narkoloji kabinetdə qeydiyyatda olan və ya müvafiq rəyə əsasən narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslər istisna edilir.

**Azərbaycan Respublikasının Baş Prokurorluğu**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**

№ 10/48

Bakı şəhəri 30 iyun 2017

**Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 16 dekabr 2005-ci il tarixli 01/654 nömrəli əmrin ləğv edilməsi barədə**

"Azərbaycan Respublikasında cinayətlərin vahid uçotunun aparılması qaydaları haqqında" və "Azərbaycan Respublikası daxili işlər orqanlarında uçot-qeydiyyat və statistika işləri üzrə əməkdaşların fəaliyyətinin təşkilinə dair" Təlimatlar Azərbaycan Respublikası Baş prokurorunun 01/654 və Azərbaycan Respublikası Daxili İşlər nazirinin 575 nömrəli 16 dekabr 2005-ci il tarixli birgə əmri ilə təsdiq olunmuşdur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kollegiyasının 16 fevral 2017-ci il tarixli Q8-001-17 nömrəli qərarı ilə "Azərbaycan Respublikasında cinayətlərin vahid uçotunun aparılması qaydaları haqqında" yeni Təlimat təsdiq edilmiş və Daxili İşlər Nazirliyinin 16 dekabr 2005-ci il tarixli 575 nömrəli əmri ləğv edilmişdir.

Göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 16 dekabr 2005-ci il tarixli 01/654 nömrəli əmrin ləğv edilməsinə zərurət yaranmışdır.

Azərbaycan Respublikasında cinayətlərin mərkəzləşdirilmiş vahid uçotunun aparılmasının təmin edilməsi məqsədilə, «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**Ə M R   E D İ R Ə M :**

1. Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 16 dekabr 2005-ci il tarixli 01/654 nömrəli əmr ləğv edilsin.
2. Azərbaycan Respublikası Prokurorluğunun müvafiq struktur qurumlarında statistik kartoçkaların tərtibi Daxili İşlər Nazirliyinin Kollegiyasının 16 fevral 2017-ci il tarixli Q8-001-17 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında cinayətlərin vahid uçotunun aparılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq həyata keçirilsin.
3. Əmr elan və icra olunması üçün Azərbaycan Respublikası Prokurorluğunun müvafiq struktur qurumlarına göndərilsin.
4. Əmr "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin.

**Zakir Qaralov**
Azərbaycan Respublikasının Baş prokuroru
I dərəcəli dövlət ədliyyə müşaviri